# Türk dünyası gənc tədqiqatçılar dərnəyinin Araşdırmaları

№ 2(10)
2024

BAKI DÖVLƏT UNİVERSİTETİ
TARİX FAKÜLTƏSİ

№2(10) 2024

ISSN: 2708-3934 (Print)
ISSN: 2708-3942 (Online)

# Türk dünyası
## gənc tədqiqatçılar dərnəyinin
# Araşdırmaları

**Studies of the Turkic World**
**Young Researchers Association**

***Əli bəy Hüseynzadə - 160***
***Əhmməd bəy Ağaoğlu - 155***

# 2(10)

**Bakı - 2024**

*Baş redaktor:* Sevinc Ruintən / Sevinj Ruintan
*Bakı Dövlət Universiteti / Baku State University, Azerbaijan*

*Redaktor müavini:* Səidə Quliyeva / Saida Quliyeva
*Bakı Dövlət Universiteti / Baku State University, Azerbaijan*

*Məsul katib*: Ülfər Məmmədli / Ulfar Mammadli
*Bakı Dövlət Universiteti / Baku State University, Azerbaijan*

*Redaksiya heyəti:*

Arzu Məmmədova /Arzu Mammadova
*Bakı Dövlət Universiteti / Baku State University, Azerbaijan*
Aytən Abbasova-Quliyeva / Aytan Abbasova-Guliyeva
*Bakı Dövlət Universiteti / Baku State University, Azerbaijan*
Aytən Nəsibova / Aytan Nasibova
*Saratov Dövlət Hüquq Akademiyası, Rusiya / Saratov Sate Law Academy, Russia*
Cavid Əlisgəndərli / Javid Alisgandarli
*Türk Dünyası gənc tədqiqatçılar dərnəyi / Turkic World Young Researchers Association Azerbaijan*
Elvira Lətifova / Elvira Latifova
*Bakı Dövlət Universiteti / Baku State University, Azerbaijan*
İqbal Ağayev / Igbal Agayev
*Bakı Dövlət Universiteti / Baku State University, Azerbaijan*
Kader Özlem / Kader Ozlem
*Uludağ Universiteti, Bursa, Türkiyə / Uludag University, Bursa, Turkey*
Kəmalə Nəcəfova / Kamala Najafova
*Bakı Dövlət Universiteti / Baku State University, Azerbaijan*
Kəmalə Ruintən / Kamala Ruintan
*Bakı Slavyan Universiteti / Baku Svavic University*
Qismət Davudov / Qismat Davudov
*Bakı Dövlət Universiteti / Baku State University, Azerbaijan*
Lalə Əliyeva / Lala Aliyeva
*Bakı Dövlət Universiteti / Baku State University, Azerbaijan*
Murat Jane / Murat Jane
*İstanbul Aydın Universiteti, Türkiyə / İstanbul Aydın University, Turkey*
Rövşən Hətəmov / Rovshan Hatamov
*Bakı Dövlət Universiteti / Baku State University, Azerbaijan*
Sevinc Qasımova / Sevinj Qasımova
*Bakı Dövlət Universiteti / Baku State University, Azerbaijan*
Talqat Moldabay / Talqat Moldabay
*L.N.Qumilyov adına Avrasiya Milli Universiteti, Qazaxıstan /*
*L.N. Gumilyov Eurasian National University, Kazakhstan*
Vladimir Redçenko / Vladimir Redchenko
*N.Q.Çernışevski adına Saratov Dövlət Universiteti, Rusiya /*
*Saratov State University, Russia*
Zərifə Nəzirli / Zarifa Nazirli
*Bakı Dövlət Universiteti / Baku State University, Azerbaijan*

Türk Dünyası Gənc Tədqiqatçılar Dərnəyinin Araşdırmaları, 2017
*Redaksiya ilə əlaqə:* txt_kaf@bsu.edu.az
*Jurnalın web-səhifəsi:* https://history.bdu.info.az/turk-dunyasi-genc-tedqiqatcilar-derneyi-nin-arasdirmalari

**MÜNDƏRİCAT / CONTENTS**


| | | |
|---|---|---|
| Aysun Abdurrahmanova | *Günəş kultu ilə bağlı bəzək əşyaları* | 5-8 |
| Aytən Həsənli | *Azərbaycan milli burjuaziya nümayəndələrinin mədəni inkişafa töhfələri* | 9-13 |
| Əhməd Qafarov | *Əlimərdan bəy Topçubaşovun 1918-1920-ci illərdə ictimai-siyasi fəaliyyəti* | 14-17 |
| Fatimə Qurbanova | *Əhməd bəy Ağaoğlu islamşünas alim kimi* | 18-22 |
| Fuad Xəlilov | *1936-1938-ci illər repressiyalarında Azərbaycan SSR Xalq Daxili İşlər Komissarlığının (XDİK) funksiyaları* | 23-35 |
| Gülçin Həsənova | *Nadir şah Əfşarın dövlət idarəçiliyində həyata keçirdiyi islahatlar* | 36-39 |
| Həlilə Sadıqova | *Osmanlıda "qardaş qətli" məsələsinə baxış* | 40-46 |
| Həsən Cəfərov | *"Daşnaksütyun" partiyası və erməni kilsəsinin terrorçu fəaliyyətləri* | 47-53 |
| Hüseyn Məmmədov | *Azərbaycan tarixində 20 Yanvar faciəsi* | 54-56 |
| Qara Karimov | *The issue of studying the crimes committed by Armenians against Azerbaijanis in 1905-1907 in teaching the history of Azerbaijan* | 57-60 |
| Leyla Heydərova | *Səlcuqların Azərbaycanda dövlət idarəçiliyi, sosial-iqtisadi vəziyyət* | 61-65 |
| Məryəm Rəhimova | *I Şah Abbasın islahatları* | 66-69 |
| Nuridə Əliyeva | *Dağlıq Qarabağ Muxtar Vilayəti necə yarandı?* | 70-75 |
| Səbinə Ələkbərova | *Osmanlıda qadınlar səltənəti* | 76-81 |
| Şəfəq Əzimova | *1578-1590-cı illər İkinci Səfəvi-Osmanlı müharibəsində Krım türklərinin iştirakı* | 82-85 |
| Şəhla Əhmədova | *Türk ictimai-siyasi fikrinin öndərləri: Əli bəy Hüseynzadə, Əhməd bəy Ağaoğlu, İsmayıl bəy Qaspıralı, Ziya Gökalp* | 86-94 |
| Ümid Mikayılov | *Böyük Fransa inqilabının Osmanlıya təsirləri* | 95-98 |
| Zenfira Manafova | *Səlcuqlar dövründə Azərbaycan ərazisindən toplanan vergilər* | 99-102 |
| Zəka Əliyev | *Azərbaycan-Çin siyasi əlaqələrində iqtisadi amilin rolu (XX əsrin sonu-XXI əsr)* | 103-109 |
| Эльвин Руинтан | *Влияние совокупного спроса и совокупного предложения на экономику* | 110-115 |




***Türk dünyasının 2024-cü il mədəniyyət paytaxtı***
***– Anev şəhəri (Türkmənistan)***

UOT 902; UOT 39

**AYSUN ABDURRAHMANOVA**
*Bakı Dövlət Universitetinin II kurs magistrantı*
**aysunabdurahman@gmail.com**

# GÜNƏŞ KULTU İLƏ BAĞLI BƏZƏK ƏŞYALARI

*Elmi rəhbər:*
tarix üzrə fəlsəfə doktoru Bəhlul İbrahimli

*Qədim yaşayış yerləri və qəbir abidələrinin arxeoloji tədqiqi zamanı əldə olunmuş unikal artefaktlar, qədim ibadət yerləri kosmoqonik köklərə bağlı astral inancların Azərbaycanda ən qədim zamanlardan yayıldığını və minilliklərlə davam etdiyini, yeni dini dünyagörüşü formalaşdıqdan sonra belə öz təsirini tam itirmədiyini göstərir. Astral inanclardan ən qədimi, geniş yayılanı və uzun müddət davam edəni Günəş kultudur. İnsan cəmiyyətinin varlığı və inkişafı ilə birbaşa bağlı olan günəş onların şüurunda bir yaradıcı, hər şeyin başlanğıcı kimi həkk olunmuşdur. İnsan odu əldə etdikdən sonra bunu yaradıcı Günəşin bir lütfü kimi qəbul etmiş, ocaqlarını simvolik olaraq günəşə oxşatmış onu müqəddəs saymışlar. Yaradıcı Günəşin simvolları insan həyatının hər sahəsində - yaşayış evlərinin, kurqanların quruluşunda, üstündə gəzdirdiyi bəzək əşyalarında öz əksini tapmşdır. Bu məqalədə, Günəş simvolu olan döş və baş bəzəklərindən, onların quruluşundan və istifadəsindən bəhs olunur.*

*Açar sözlər:* Azərbaycan, qədim inanc sistemləri, Günəş kultu, kurqan, döş bəzəkləri, baş bəzəkləri.

***Giriş.*** Şüurlu insan (Homo sapiens) yarandığı gündən özünün, təbiətin və səma cisimlərinin haradan, necə yarandığı haqda daim düşünmüş, təbiəti və insan həyatını mütəmadi izləyərək nəticə çıxarmağa cəhd etmişdir. Bu səbəbdən ən qədim, kosmoqonik ideyalara bağlı inanc sistemlərindən biri və ən başlıcası - görünən, təsir edən, lakin əlçatmaz və sirli səma cisimləri ilə bağlı olan astral inanclar yaranmışdır. Astral inanclar içərisində ən mühümü və əhəmiyyətlisi Günəş kultudur. Günəş sisteminə daxil olan Yer kürəsi üzərində yaşadığı üçün insanın varlığı, inkişafı Günəşdən asılıdır. Yalnız, Günəş işığında fəaliyyət göstərən, öz həyatının və bütün canlı təbiətin Günəş şüalarının işığı və istisindən asılı olduğunu tədricən dərk edən insan onu hər şeyin yaradıcısı hesab etmişdir. Günəşin (o cümlədən Ayın) nizamlı hərəkəti, fəsillərin dəyişməsi, insanın doğulması, ölməsi və s təbiət hadisələri şüurlu insanın beynində bütün bunların heç də kortəbii yaranmadığı fikrini, hansısa bir fövqəltəbii qüvvənin mövcud olduğu haqda düşüncələr yaratmışdır. İlk məşğuliyyəti yığıcılıq və ovçuluq olan insan uğur qazanmaq üçün müəyyən mərasimlər keçirmiş, uğur gətirən, bəd qüvvələrdən xilas edən tilsimli amuletlər, talismanlar yaratmışdır. İnsanların yaratdığı ilk belə uğur əşyaları da astral inanclarla bağlı olmuşdur. Neolit dövründə əkinçiliyin və maldarlığın, o cümlədən daimi yaşayış yerlərinin yaranması astral inanclar sistemində bir çox yeniliklər yaratmışdır.

İstehsal vasitələrinin inkişafına təkan verən metaldan geniş istifadə olunması insan cəmiyyətinin keyfiyyətcə yeni bir mərhələyə qədəm qoymasına səbəb olmuşdur. Bu dövrdə də insanların dini dünyagörüşünün əsasında əvvəlki dövrlərə nisbətən təkmilləşmiş, inkişaf etmiş və nisbətən "sivil" astral inanclar durmuş, Kainat, Günəş, Ay və ulduzlar astral inancların əsasını təşkil etmişdir. Günəş çoxallahlılıq dövründə həmişə baş allah olmudur. İdarəçilik təkmilləşdikcə qəbilə başçısı (çar, padişah, xaqan və s) allahın oğlu, və ya yerdəki nümayəndəsi sayılmışdır.

Azərbaycan ərazisində, xüsusən müstəqillik dövründə aparılan arxeoloji qazıntılarda astral inanclarla bağlı külli miqdarda artefaktlar aşkar olunmuşdur. Astral inanclar sistemini özündə əks etdirən bu arxeoloji materialların tədqiqi xalqımızın qədim mənəvi mədəniyyətinin öyrənilməsində mühüm əhəmiyyətə malikdir.

Astral inanclar Yaxın Şərq və Avrasiyada yaşayan türk xalqları içərisində ibtidai icma quqruluşu dövründən orta əsrlərə qədər davam etmişdir. Günəş və ay kultu ilə bağlı inanclar daha çox kult

təyinatlı tikililərin quruluşunda, baş və döş bəzəklərində, keramika və metal əşyalar üzərindəki ornamentlərdə əks olunmuşdur. Ulduz formasında hazırlanmış asma bəzəklərə də rast gəlinir [4, s.234]. Müxtəlif formalı və ornamentli asma bəzəklər Tunc və Erkən Dəmir dövrünə aid qəbir abidələrində daha çox aşkar olunur.

Günəş kultuna aid baş və döş bəzəklərinin bölgələr və dövrlər üzrə müxtəlif variantları olsa da onların formasında ümumiləşdirici element disk formasında hazırlanmalarıdır. Diskin içərisi ya hamar, ya cızma, ya relyefik naxışlı, ya da şəbəkəli olur (Şəkil1, 1-3). Şəbəkə bəzəkli asmalar daha çox Erkən Dəmir dövründə yayılmışdı. Şəbəkəli asmalar bəzən təkər formasını xatırladır. Qeyd edək ki, təkər forması qədim insanlar arasında günəşin, onun şüalarının simvolu kimi qəbul edilirdi. Başqa sözlə təkərin kənar dairəsi kainatı, ortadakı dairə günəşi, onları birləşdirən xətlər isə günəşin şüalarını təmsil edirdi.



*Şəkil 1.*



*Şəkil 2.*



*Şəkil 3.*

Baş və döş bəzəklərində əsas fərq onların təsbit olunduğu yerdən asılı olmuşdur. Günəş simvolu olan baş bəzəklərinin həlqəsi yoxdur. Belə bir baş bəzəyi II Plovdağ nekropolunun 6 saylı kurqanının daş qutu qəbrində aşkar olunmuşdur. Müxtəlif həcmli daşlarla tökülmüş alcaq kurqan təpəciyinin altında diametri 6 m olan (6,1x5,85m) olan kromlex və onun ortasında ölçüləri 1,3x0,8 m olan daş qutu qəbir aşkar olunmuşdu. Qəbirin üzəri 400 kq-lıq daş pilitələrlə örtülmüşdü. Şərq-qərb istiqamətində olan kameranın şərq divarından başqa qalan üç divarı müxtəlif həcmli sal daşlarla işlənmişdir. Kameranın şərq divarı dikinə qoyulmuş bir ədəd 66x54sm ölçülərində sal daşdan ibarətdir, Bu daş kameranın girişinə elə qoyulmuşdur ki, üst tərəfi örtük daşlarının səviyyəsindən 12 sm yuxarıdadır. Qəbirdə ana və 3-5 yaşlarında uşaq dəfn edilişdir. Təmiz gil qatında olan qəbir avadanlığı yaxşı saxlanmışdır. Disk formasında, ortasında konsentrik dairələrlə relyefik bəzəyi olan əşya qadınla uşağın kəllə sümükləri arasında aşkar edildi və qadının baş geyiminə aiddir [1, s.127-128]. Bu tip asma bəzəklərin çoxunun mərkəzi hissəsində ya kişik dairəvi relyefik naxış, ya da dairəvi qabartma olur [2, s.53-55, 61].

Baş geyimi bəzəkləri içərisində muncuqlardan toxunmuş günəş rəmzləri geyimin alına düşən hissəsində yerləşir. Müxtəlif rəngli, lakin eyni ölçülü muncuqlardan hazırlanan bu bəzəklər müxtəlif ölçülərdə toxunurdu. Baş geyiminin qabaq tərəfində, alında toxunan, günəş simvolu olan bu baş bəzəyi, metaldan hazırlanan bəzəklərdən, təqribən iki dəfə böyük olurdu. Günəş simvolu olan belə bir toxunma bəzək I Plovdağ nekropolunun 42 saylı kurqanında qadın skeletinin baş geyiminin alşna düşən hissəsində aşkar edilmişdir [2, s.19-26]. Kurqan I Plovdağ nekropolunun mərkəzi hissəsində yerləşir. Kurqan örtüyünün yalnız şimal yarısı və daş qutu qəbir salamat qalmışdı. Daş qutu qəbirin örtük daşlarının üzərinə bir cərgə 12-15 sm qalınlığı olan yastı sal dağ daşları döşənmişdir. Qəbirin örtük daşlarının eni 1, 5 m yaxındır və kromlex daşlarının səviyyəsindən 18-20 sm hündürdə yerləşir. Kameranın uzunluğu 120 sm, eni 60 sm-dir. Qəbirdə üst-üstə, müxtəlif zamanlarda dəfn olunmuş üç ölü aşkar edildi. Bizi maraqlandıran bəzək əşyası ən altdakı üçüncü ölünün baş geyimində aşkar edilmişdi. Ölünün kəllə sümüyünün alın hissəsində müxtəlif kiçik muncuqlardan dairəvi formada (diametri 6 sm)

günəş simvolu toxunmuşdur. Bəzəyin muncuqları əvvəlcə sapa düzülmüş sonra konsentrik dairələr şəklində baş geyiminin alın hissəsinə bərkidilmişdir [2, s.25-26].

Baş bəzəkləri içərisində formasına və məzmununa görə diqqəti cəlb edən qadın baş geyimlərinin yan tərəfindən, qulaqların qabaq tərəfindən, kicgahın üstündən asılan bəzəklərdir. Kicgah asmaları həlqəvari, ortası ilan fiqurlu həlqəvari və disk formasında olurlar. Disk formasında olan kicgah bəzəkləri günəşi simvolizə edir. Bu tip maraqlı bir asma çoxdəfnli Xaçbulaq kurqanında aşkar edilmişdi. Bu asma bəzəklərin relyefik haşiyəsi vardır və üzərindəki naxışlar əsasən həndəsi məzmunda olub içərisində svastikaya - "öz" işarəsinə də rast gəlinir [9, s.59].

Bəzək əşyalarının bir qrupunu da döş bəzəkləri təşkil edir ki, onların içərisində günəş rəmzi olan asmalar xüsusi yer tutur. Günəş simvolu olan döş bəzəkləri əsasən tuncdan hazırlanmışdır və müxtəlif tipləri vardır. Onların içərisində şəbəkə üsulu ilə hazırlanan asmalar çoxluq təşkil edir. Şəbəkə üsulu ilə hazırlanan günəş rəmzi asma bəzəklər son tunc-erkən dəmir dövründə geniş yayılmışdı [3, s.104; 5, s.177]. Bu asma bəzəklərin şəbəkələri konsentrik dairələrlə, ancaq nizamsız şəkildə salınmışdır. Amma elə şəbəkəli asma bəzəklər də var ki, onların üzərindəki üçbucaq formalı şəbəkələr həm nisbətən simmetrik, həm də müəyyən olunmuş sayda salınmışdır. Daha çox 6 şəbəkəli asmalara rast gəlinir. Mingəçevirdə 63 saylı qəbirdə aşkar olunmuş belə asma bəzəyin diametri 3 sm qalınlığı 1,5 sm-dir [11, s.69, şəkil 1]. Naxışlarına və formasına görə oxşar, bir qədər fərqli asma bəzək Cufla rayonu ərazisində tədqiq olunmuş Dəlmə qalasında aşkar olunmuşdur. Tökmə üsulu ilə hazırlanmış bu asma bəzəyin 6 piramida formalı şəbəkəsinin ortasında dairə içərisində romb formalı şəbəkə yeləşir. Diametri 4,8 sm-dir [7, s.34-41]. Günəş simvolu olan bu bəzəklər formasına görə araba təkərini xatırlatdığına görə bəzi tədqiqatçılar onu təkərə oxşadırlar.

Dəlmə qalasında aşkar edilmiş asma bəzəklərin oxşarlarına Şimali Qafqaz abidələrində də rast gəlinir, fərq yalnız kəsmə şəbəkələrn sayındadır [7, s.139]. Dəlmə qalasından tapılmış asma bəzəyə oxşar bir neçə amulet Zandak nekropolunda aşkar edilmişdir. Bu amuletin kəsmə şəbəkələri genişdir, ortasında günəşi simvolizə edən dairəvi relyefik naxışı vardır [6, s.89].

Günəş rəmzi asma bəzəklərin müxtəlif variantları vardır ki, onların içərisində ən geniş yayılanı şəbəkə naxışlı amuletlərdir. Nadir hallarda bu asma bəzəklərin üzəri nibətən fərqli bəzədilir. II Plovdağ nekropolunun 12 saylı daş qutu qəbirli kurqanından tapılmış asma bəzəyin üzəri sıra ilə üçbucaq formalı şəbəkə və dairəvi döymələrlə bəzədilmişdir. Diametri 6 sm-ə yaxındır [1, s.129]. Maraqlıdır ki, asma bəzəklər özlüyündə günəş rəmzi olsalar da onların üzərindəki hər bir naxışın da simvolik mənası vardır. Belə ki, bir çox asma bəzəklərin ortasında rast gəlinən dairəvi relyefik bəzək, müəyyən intervalla yerləşmiş nöqtəvari bəzəklər və ətrafındakı üçbucaq kəsmələr günəşin, ulduzların və dağların rəmzi kimi çıxış edir.

Günəş rəmzi olan asma bəzəklərin bir qrupu da döş bəzəyi kimi istifadə olunan döş nişanları, düymələr və pilələrdir. Formasına, üzərindəki ornamentlərin zənginliyinə görə döş nişanları diqqəti daha çox cəlb edir. Qabarıq disk formasında hazırlanan pilələrin üzərində naxış olmur və adətən asma bəzəyin, döş nişanının fonu kimi paltarın üzərinə müəyyən intervalla və ya sıralama ilə bərkidilir.

Disk formasında hazırlanan döş nişanlarının ortasında ornament az olsa da kənar haşiyəsi həndəsi xarakterli sıralama naxışlarla zəngin olur. Bu ornamentlər içərisində svastika, xaç, spiral, üçbucaq və parallel xətlərdən ibarət naxışlara daha çox rast gəlinir [6, s.41-46]. Plovdağ ətrafındakı erkən dəmir dövrünə aid nekropolların daş qutu qəbirlərində həm üzəri naxışlı, həm də naxışsız – hamar döş nişanlarına rast gəlinir.

***Nəticə.*** Azərbaycanın zəngin arxeoloji irsi, qədim ibadət yerləri, kult əşyaları və digər unikal artefaktlar xalqımızın qədim köklərə malik mənəvi mədəniyyətinin tədqiqində mühüm mənbələrdir. Mənəvi mədəniyyətin qədim köklərə malik sahələrindən biri də qədim dini baxışlar, kultlar, inanc sistemləridir. Müxtəlif kultların, inanclar sisteminin tədqiqi, mahiyyətinin açılması üçün ən etibarlı mənbə arxeoloji tapıntılardır. Bu maddi tapıntılar ulu əcdadlarımızın mənəvi dünyasını dərk etməyə imkan verir.

## ƏDƏBİYYAT

1. İbrahimli Bəhlul. Naxçıvanda aşkar edilmiş döyüşçü qadın qəbirləri haqqında // Azərbaycan arxeologiyası, 2010, cild 13, №1, s.127-136.

2. İbrahimli Bəhlul. Əliyev Elvin. I Plovdağ yaşayış yeri və nekropolunda arxeoloji tədqiqatlar-2020. Bakı, "Xan" nəşriyyatı, 2021, 108 s.
3. İsmayılzadə Qüdrət, İbrahimli Bəhlul. Qızılburun nekropolu. Bakı, Elm və Təhsil, 2013, 120 s.
4. Seyidov A.Q., Həsənova Ə.M. Naxçıvanın qədim metalı. Bakı, Elm, 2005, 315s.
5. Абибуллаев О. Энеолит и бронза на территории Нахичеванской АССР. Баку, Элм, 1982, 314 с.
6. Асланов Г. Ибрагимов Б. Кашкай С. Древние некрополи Хараба-Гилана. Баку, Нурлан, 2002, 65 с.
7. Багаев М.Х. Культура Горной Чечни и Дагестана в древности и средневековье. VI в. до н.э. Москва, Найка, 2008, 455 с.
8. Ибрагимли Б. Тайна крепости Далма // "YOL" – научно-популярный журнал. 2015, №2(50), с.34-41.
9. Кесаманлы Г.П. Хачбулагский курган с массовым захоронением // Материальная культура Азербайджана, том VIII, Баку, Элм, 1976, с. 46-75.
10. Марковин В.И. Зандакский могильник – эпохи раннего железа на реке Ярык-су (Северо-восточный Кавказ). Москва, Найка, 2002, 154 с.
11. Фоменко В.П. Грунтовое погребение №63 в Мингечауре. Материальная культура Азербайджана, Москва, Найка, 1953, том 3, с.67-80.
12. Ibrahimli Behlul, Aliyev Elvin. Tombs of women warriors of the late Bronze Age / International Symposium Alp Woman in the Turkish World. Turkiye, March 8-10, 2022, p.53-61.

**AYSUN ABDURRAHMANOVA**
*2nd year master's student of Baku State University*

## DEKORATIONS RELATED TO THE CULT OF THE SUN

Unique artifakts obtained during archaeological studies of ancient settlements and grave monuments, ancient religious buildings show that astral beliefs have spread in Azerbaijan since ancient times and continued for thousands of years, and did not completely lose their influence even after the formatoin of new religious worldviews. The oldest, most widespread and lasting of the astral beliefs is the cult of the Sun. The sun, whics is directly related to the existence and development of human society, is imprinted in their consciousness as the creator, the beginning of everything. Having received fire, a person accepted it as a blessing from the Creator Sun, symbolically made their hearths similar to the sun and considered it sacred. The symbols of the creator of the Sun are reflected in the structure of houses, mounds and the ornaments applied to them in all spheres of human life. This article will discuss the manufacture, design and use of chest and head ornaments, which are symbols of the Sun.

*Keywords:* Azerbaijan, ancient belief systems, cult of the Sun, mound, breast decorations, head decorations.

*Daxil olma tarixi*: 18.03.2024-cü il.
*Çapa imzalanma tarixi*: 10.05.2024-cü il.

UOT 94(479.24)

**AYTƏN HƏSƏNLİ**
*Azərbaycan Universiteti İctimai elmlər kafedrası*
*Tarix ixtisası üzrə I kurs magistrant*
**Aytenhesenli7777@gmail.com**

# AZƏRBAYCAN MİLLİ BURJUAZİYA NÜMAYƏNDƏLƏRİNİN MƏDƏNİ İNKİŞAFA TÖHFƏLƏRİ

*Elmi rəhbər:*
tarix elmləri doktoru Kərim Şükürov

*XIX əsr Azərbaycan tarixində çox mühüm hadisələrlə yadda qalmışdır. 1828-ci il Türkmənçay müqaviləsindən sonra torpaqlarımızın cənubu Qacarların, şimalı isə Rusların hakimiyyəti altına keçmişdir. Bu dövr ölkə daxilində kapitalizimin və iqtisadi əlaqələrin inkişafı, burjuaziya və fəhlə sinfinin formalaşması kimi mühüm hadisələrlə yadda qalmışdı. Azərbaycan burjuaziyasının* XIX *əsrin sonlarında başlamış təşəkkül prosesi XX əsrin əvvəllərinə kimi davam etmişdi. Milli burjuaziya nümayəndələri mədəni inkişafa böyük töhfələr vermişdilər. Milli burjuaziya nümayəndələrinin ən görkəmli nümayəndələri Hacı Zeynalabdin Tağıyev, Şəmsi Əsədullayev, Murtuza Muxtarov, Musa Nağıyevdir.*

*Açar sözlər*: Azərbaycan milli burjuaziyası, Hacı Zeynalabdin Tağıyev, Musa Nağıyev, Murtuza Muxtarov, Şəmsi Əsədullayev, Qızlar məktəbi, Xeyriyyə cəmiyyəti, Səadət sarayı.

***Giriş.*** Rusiya imperiyasında baş verən dəyişikliklər zərurətindən irəli gələn kapitalist cəmiyyəti quruculuğunun yaranması sənayenin və ticarətin inkişafı üçün əlverişli şərait yaratdı. Bu, Azərbaycan sahibkarlarının nümayəndələrinə imkan verdi ki, çarizmin siyasəti ilə bağlı göstərilən məhdudiyyətlərə, rus və əcnəbi kapitalistlərinin kəskin rəqabətinə baxmayaraq sənaye, ticarət və nəqliyyat sahələrində Azərbaycan iqtisadiyyatının inkişafı, mədəniyyət ocaqlarının yaradılması, Azərbaycan cəmiyyətinin intellektual potensialının yüksəlişi, cəmiyyətin milli mənlik şüurunun inkişafı üçün obyektiv surətdə ümummilli əhəmiyyəti olan bir sıra iri müəssisələr yaratsınlar. Milli kapitalın istehsal sahəsinə təsiri nəticəsində XIX yüzilliyin ikinci yarısı Azərbaycanda sosial-iqtisadi həyatda inkişaf baş verdi. Az vaxt ərzində milli kapital iqtisadiyyatın bir sıra mühüm sahələrində və xüsusən də neft sənayesində kifayət qədər möhkəm mövqe tutdu [1, s.195]. Milli kapitalımız daha çox neft sənayesində möhkəm mövqe tutmuşdur. Bakıda fəaliyyət göstərən zavodların 50 faizdən çoxu azərbaycanlılara məxsus idi. XX əsr ictimai-siyasi və mədəni həyatında silinməz izləri görünən, ömrünün sonunadək təmənnasız xidmət göstərən, millətin inkişafı yolunda var-dövlətini əsirgəməyən burjuaziya nümayəndələri xalqımızın mədəni inkişafına böyük töhfələr vermişdilər. Burjuaziya nümayəndələri xalqın inkişafında təhsilin əsas olduğunu çox yaxşı başa düşdükləri üçün təhsilin inkişafı, yeni məktəblərin tikilməsi üçün əllərindən gələni əsirgəməmişdilər. Məqalədə milli burjuaziya nümayəndələrinin xalqın mədəni inkişafına töhfələri təhlil edilir.

***Hacı Zeynalabdin Tağıyev.*** "*Bütün işlərimlə yanaşı, fikrim-zikrim xalqımı xoşbəxtliyə, işıqlı gələcəyə, tərəqqiyə çatdırmaqdır. Buna görə də gecə-gündüz əlləşirəm. Məqsədə çatmaq üçün çoxlu məktəb açmaq lazımdır. Çoxlu kitab, məcmuə və qəzet çap etdirilib, hər yerə uzaq şəhər və kəndlərimizə göndərilməlidir. Anası savadsız olan xalq kordur"* [10, s.41]. Hacı Zeynalabdin Tağıyevin bu sözlərindən onun maarif və mədəniyyətə nə qədər önəm verdiyini anlamaq olur.

Azərbaycan milli sahibkarları içərisində ən nüfuzlusu Hacı Zeynalabdin Tağıyev idi. O xalqımızın ictimai-siyasi, mədəni həyatında böyük rol oynamışdı. Onun çar Rusiyasının hökumət dairələrində və məmurlar arasında böyük nüfuzu var idi. 1878-ci ildə Tağıyevin neft mədənində neft quyusunun fontan vurması onu Azərbaycanın ən varlı adamlarından birinə çevirdi. O, Azərbaycan neft sənayesinin inkişafının bir çox mühüm məsələlərinin həllində iştirak edirdi: Bakı neft sənayeçilərinin bir sıra birliklərinin yaradılmasının, "Bakı standartı", "Bakı kerosin zavodları sahiblərinin ittifaqı", "Xəzər gəmi sahiblərinin

ittifaqı" kimi iri sazişlərin təşəbbüsçüsü idi. Bu qrupların məqsədi ölkənin daxili bazarında iri şirkətlərə müqavimət göstərmək və Vətənin neft məhsullarını dünya bazarına çıxarmaq idi [1, s.198].

H.Z.Tağıyev qazandığı pulların çox hissəsini xalqının güzəranına, onun övladlarının maariflənməsinə sərf etmişdir, savab işlər görmüşdür. Su kəməri, Toxuculuq fabriki, Teatr binası, müsəlman Şərqində ilk Qızlar məktəbi və çətinliklə başa gələn bir çox xeyir əməlləri onun adını tarixin yaddaşına həkk etmişdir. Açdığı məktəbdə təhsil alan imkansız uşaqların bütün ehtiyaclarını qarşılamışdır. Naxçıvanda, Gəncədə, Şamaxıda, Tiflisdə və başqa yerlərdə olan məktəblərə yardımlar etmişdir. Onun Bakı Dövlət Universitetinin yaradılmasında da xidmətləri böyükdür. O vaxt dövlətin xarici ölkələrdə oxutdurduğu tələbələri də unutmamışdır.

H.Z.Tağıyev iqtisadiyyatın inkişafı ilə yanaşı, maarif və mədəniyyətin tərəqqisi üçün də misilsiz səy və xidmətlər göstərmişdir. Onun vəsaiti hesabına şeyxülislam Əbdüssəlam Axundzadənin "Tarixi-müqəddəs", Sultanməcid Qənizadənin kitabları, "Əşari-Seyid Əzim Şirvani" kitabı, Nəriman Nərimanovun "Nadir şah" dramı (Tağıyevin xahişi ilə, fars dilinə tərcümə olunaraq) və bir çox başqa kitablar çap olunmuşdur. O, Azərbaycandan kənarda da xeyriyyəçilik fəaliyyəti ilə məşğul olmuşdur: İranda, İstanbulda, Hindistanda, Misirdə və başqa Şərq ölkələrində xəstəxanalara, məktəblərə, xeyriyyə cəmiyyətlərinə, məscid və mədrəsələrin inşasına böyük ianələr ayırmış, təkcə Azərbaycanın deyil, Rusiyanın çoxmilyonlu müsəlman əhalisinə köməyini əsirgəməmişdir [4, s.87]. O, Mahaçqala, Tiflis, Krım, Sibir, Moskva, Odessa, Vladiqafqaz, Həştərxan, Kutaisi, Peterburq, Volqaboyu, Xarkov və s. yerlərdə ana dilində məktəblərin açılmasına xeyli vəsait sərf etmişdi. Tağıyevin vəsaiti hesabına Petrovsk-Portda tikiş fabriki, Dərbənddə qızlar üçün məktəb, Peterburqda məscid, ticarət müəssisələri tikilmişdir.

1879-ci ildən Bakı şəhər Dumasının üzvü olan Tağıyevin Bakıya su kəmərinin çəkilməsində xüsusi xidməti var. Onun təşəbbüsü ilə ingilis mühəndisi V.V.Lindley 1904-ci ildə Şollar – Bakı su kəmərinin çəkilməsinə başlamışdı. Qəzet və jurnalların nəşrinə ("Kaspi", "Həyat", "Füyuzat" və s.), mədəni-maarif cəmiyyətlərinə, milli kadrların hazırlanmasına xeyli vəsait sərf etmişdir. Tağıyev 1895-ci ildə 57 min rubla "Kaspi" qəzetini almış və onun sahibi olmuşdu. Quran Azərbaycan dilində "Kaspi" qəzetinin nəşriyyatında nəşr edilmişdir. Tağıyevin maarif sahəsindəki xidmətlərinin coğrafiyası daha böyük və genişdir. Onun himayə etdiyi, təqaüd verdiyi şəxslər sonralar öz ölkələrinin, xalqlarının görkəmli nümayəndələri olmuşlar. Nəriman Nərimanov, Məşədi Əzizbəyov, Əlimərdan bəy Topçubaşov, Qara bəy Qarabəyli, Behbud Ağa Cavanşir, Lütfəli bəy Behbudov, Mirzə Davud Hüseynov, Nəsib bəy Yusifbəyli, Maxaç Daxadayev, Mir Həsən Vəzirov, Xudadat bəy Məlik-Aslanov, Şövkət Məmmədova və onlarca başqaları H.Z.Tağıyevin köməyi sayəsində təhsil almışdır.

Tağıyev yeni tipli təhsil ocaqlarını ərəb, fars, türk dillərində kitablarla, tədris vəsaiti və məktəb avadanlığı ilə təmin etmiş, onlara nağd pulla yardım göstərmişdir. "Nəşri-maarif", "Nicat" və b. Xeyriyyə cəmiyyətlərinin təsis edilib fəaliyyət göstərməsində Tağıyevin böyük əməyi olmuşdur. O, "Nəşri-maarif" cəmiyyətinin idarə heyətinin sədri seçilmişdi. Yaşlılar üçün rus dili kursları təşkil etmişdir. 12 yoxsul müsəlman texnik-tələbənin xərcini öz üzərinə götürmüşdür.

Gizli fəaliyyətdə olan "Müsavat" partiyasına da maddi yardım göstərmiş, İsmayıl bəy Qaspıralının "Tərcüman" qəzetinə Qafqazdan abunələr təşkil etmiş, abunəçilərin pulunu özü ödəmişdir [6, s.81]. 1917-ci ilin aprelində Bakıda keçirilmiş Qafqaz müsəlmanları qurultayında fəxri qonaq kimi çıxış edən H.Z.Tağıyev qurultayın yaratdığı milli fonda 50 min rubl məbləğində pul bağışlamışdır.

Hacı Zeynalabdin Tağıyevin xalqımızın maariflənməsində əsas işlərindən biri də azərbaycanlı qızlar üçün məktəb açdırması idi. O uzunmüddətli müzakirələrə, çətinliklərə baxmayaraq məktəbin açılmasına nail olmuşdur. Qızlar məktəbi Azərbaycanda dünyəvi qadın təhsilinin əsasını qoydu. Dünyanın bir çox yerlərindən məktəbin açılması ilə bağlı təbrik teleqramları gəlmişdir. Peterburqdan senator Yankovski Tağıyevə yazırdı: *"Sizin xərciniz və sizin səyiniz sayəsində açılan məktəbə müvəffəqiyyət arzulayırıq"* [4, s.45]. Bu məktəbi bitirən onlarla azərbaycanlı qız sonradan millətimizin tərəqqisində yaxından iştirak edib. Məhz bu məktəbin yetirmələrindən olan Rəhilə Hacıbababəyova, Şəhrəbanu Şabanova, Şəfiqə Əfəndizadə, Səkinə Axundzadə, Məryəm Qembitskaya, Qadın Xeyriyyə Cəmiyyətini yaradan Liza Muxtarova, həmçinin Naxçıvanda qızlar məktəbi açan Nazlı Tahirova və onlarla başqaları cümhuriyyətin fəallarından idilər.

***Musa Nağıyev.*** Milli burjuaziya nümayəndələrindən biri də Musa Nağıyev olmuşdur. Onun əsas

məqsədi müsəlman gəncləri təhsilə cəlb etmək idi. Musa Nağıyev uzun illər azərbaycanlı tələbələrin müxtəlif təhsil ocaqlarında təhsil almaları üçün ildə 8 min rubl ayırmışdır [2, s.43]. Musa Nağıyev XIX əsrdən Azərbaycanda fəaliyyət göstərən, şikəst uşaqlara yardım edən "Uşaq Bağçası" Xeyriyyə Cəmiyyətinin də həqiqi üzvü olmuşdur. O, uşaq ölümü ilə mübarizə aparan Bakı Cəmiyyətinə küllü miqdarda pul köçürmüşdür. Musa Nağıyev "Vərəmlə mübarizə aparan Qafqaz Cəmiyyəti"nin də fəal üzvlərindən olmuşdur. Deyilənlərə görə bu cəmiyyətin hər toplantısından sonra Ağa Musa vərəm xəstəliyi nəticəsində dünyasını dəyişmiş oğlu İsmayılı xatırlayaraq acı iztirablar keçirirmiş. 1898-ci ilin yanvar ayında Bakıda "Körpələr evi"nin inşasına başlamışdır. Vəsaitin çatışmaması üzündən yarımçıq qalan tikintiyə Musa Nağıyev və Şəmsi Əsədullayev küllü miqdarda pul ayırmışdılar [2, s.98].

Milyonçular arasında yarışa girərdilər ki, il ərzində kim tədbirlərə daha çox aktyor və ya müğənni dəvət edib, tamaşalar təşkil edər? Bu sırada Ağa Musa Nağıyev birinci olurmuş. Bütün bunların əsasını, əlbəttə ki, onun maliyyə imkanları təşkil edirdi. El arasında belə savab işləri ilə hörmət qazanmış insanlar içərisində Ağa Musa Nağıyevin adı həmişə hörmətlə çəkilib [2, s.102]. 1896-cı ildə "Tağıyev" teatrında Musa Nağıyevin təşəbbüsü ilə "Dilin bəlası" və "Qırt-qırt" (əsərin 1-ci hissəsi) tamaşaları səhnəyə qoyulmuşdur [2, s.113]. 1200 rubl isə "Tərcüman" qiraətinin xeyrinə vermişdir. Azərbaycan xalqının gələcəyi ilə bağlı bir çox məsələlər Musa Nağıyevi düşündürürdü: Azərbaycanlı balalarının təhsil alması, Bakının susuzluğu, insanların küçə həyatı və s.

Onun ən ağrılı yerlərindən biri səhiyyə sistemindəki problemlər olmuşdur. Məhz səhiyyənin çox zəif olması səbəbindən oğlu İsmayılı itirdiyindən və bu itkinin ağrısını daim qəlbində gəzdirən milyonçu, çarəsizlikdən ölümün qarşısını almaq məqsədilə xəstəxanalar tikdirməyi qarşısına məqsəd qoymuşdur. Öz vəsaiti hesabına Bakıda tikdirdiyi və o dövr üçün müqayisə olunmaz dərəcədə yüksək səviyyədə təchiz olunmuş dörd nəhəng xəstəxanada bu gün də insanlar şəfa tapır.

O zaman maarifçilik və xeyriyyə işləri ilə məşğul olan cəmiyyətlərin fəaliyyəti günü-gündən genişlənirdi. Bütün bu işləri özündə birləşdirəcək vahid müsəlman xeyriyyəçi mədəniyyət mərkəzinin yaradılması bir zərurətə çevrilmişdi. Yeni inşa olunmuş "İsmailiyyə" sarayını Musa Nağıyev məhz belə bir mərkəz elan etdi. Bu İlk Müsəlman Xeyriyyə Cəmiyyəti hesab olunurdu. Binanın üzərində Həzrət Əlinin müdrik, dərin mənalı sözləri yazılmışdı: *"İnsan yalnız zəhmətlə ucalar, istədiyinə nail ola bilər"* [10, s.52]. Burada "Nəşri Maarif" cəmiyyəti tərəfindən müxtəlif xeyriyyə tədbirləri də keçirilmişdir. Ermənilərin 1918-ci ilin mart ayında Bakıda törətdikləri qırğınlar zamanı yandırılıb, qarət və yerlə yeksan edilən bu möhtəşəm bina, həmin ilin sentyabr ayında Bakı düşmənlərindən azad edildikdən sonra Milli Hökumətin qərarı ilə yenidən bərpa olunmuşdur. Bərpa işlərinə Musa Nağıyev də pul vəsaiti ayırmışdır.

***Murtuza Muxtarov.*** Məşhur Azərbaycan milyonçusu, xeyriyyəçisi, Azərbaycan neft sənayesinin görkəmli nümayəndələrindən biri də Murtuza Muxtarov idi. O, neft sənayesində podratla qazma işinin xeyli hissəsini öz əlində cəmləşdirmiş sahibkar kimi tanınırdı. Muxtarov geniş xeyriyyəçilik fəaliyyəti göstərmiş, ictimai binaların, məktəblərin inşasına heç zaman vəsaitini əsirgəməmişdir. Murtuza Muxtarov Bakı real məktəbinin, Temirxan-Şura qadın gimnaziyasının təsisçisi, "Şimali Qafqaz xalqları arasında savadın və texniki biliklərin yayılması" cəmiyyətinin fəxri üzvü kimi də fəaliyyət göstərirdi. O xalqın gələcəyini yalnız və yalnız maariflənmədə görən uzaqgörən şəxsiyyət olmuşdur. Murtuza Muxtarov Qərbi Avropa mədəniyyətinin pərəstişkarı olaraq, cəmiyyətdə xurafata qarşı mübarizə aparırdı. Bu məqsədlə Bakıda "Tərəqqi" qəzeti nəşr etdirmiş və məktəblər tikdirmişdir [1, s.50]. O, xeyirxah və mehriban bir insan, ciddi sahibkar kimi tanınırdı. 1908-ci ildə Vladiqafqazda öz vəsaiti ilə bir çox parametrlərinə görə nadir memarlıq nümunəsi olan məscid inşa etdirir. Bu məscid indi də Şimali Qafqazın ən nəhəng məscidlərindən sayılır. 1910-cu ildə Əmircan kəndində tikdirdiyi məscid binası da öz memarlıq quruluşu və əzəməti ilə göz oxşayırdı. Muxtarov, demək olar ki, Bakının bütün xeyriyyə cəmiyyətlərinin fəaliyyətində yaxından iştirak etmiş, idarə heyətlərinin üzvü olmuş, mətbuata, maarif və mədəniyyətə, incəsənət xadimlərinə qayğı ilə yanaşmış, maddi və mənəvi yardım göstərmişdir.

Bakıda və şəhər kənarında, Rusiya və Avropa şəhərlərində M.Muxtarovun vəsaiti hesabına tikilən bir çox binalar bu gün də Muxtarovun adını yaşadır. Abşerondakı mayak, Kislovodsk və Florensiya şəhərlərində bir sıra binalar da Muxtarovun vəsaiti hesabına tikilib. Muxtarov xeyriyyə cəmiyyətlərinin

işində fəal iştirak edir, yoxsullara maddi yardım göstərməyə xəsislik etməmişdir. Həyat yoldaşı da Murtuza Muxtarovun xeyirxah əməllərində ərinə kömək etmişdir. 1914-cü ildə yaradılan Bakı Qadın Xeyriyyə Cəmiyyətinə Liza xanım Muxtarova başçılıq etmişdir. O, eyni zamanda vərəmlə mübarizə üzrə Qafqaz cəmiyyəti Bakı şöbəsinin idarə heyətinin üzvü idi. 1913-cü ildə təşkil edilmiş "Uşaq xəstəxanası" xeyriyyə cəmiyyətinin ən fəal üzvlərindən olan Liza xanım Bakıda məxsusi uşaq müalicəxanasının yaradılmasına da yardım göstərmişdi. Onun maarifçilik və tərbiyəçilik fəaliyyəti daha geniş idi. Öz övladı olmayan Liza xanım dəbdəbəli sarayında pansion yaratmışdı, yetim və yoxsul ailələrdə böyüyən qızlar burada təlim-tərbiyə alırdılar. "Murtuza Muxtarov" Səhmdar Cəmiyyəti idarə heyətinin üzvü olan Liza xanım "Nicat" Bakı Müsəlman Xeyriyyə Cəmiyyətinə də dəstək verirdi. Murtuza Muxtarov Peterburq müsəlman xeyriyyə cəmiyyətinin fəxri üzvü və ali və orta ixtisas məktəblərinin tələbələri üçün 40 təqaüdün təsisçisi olmuşdur.

***Şəmsi Əsədullayev.*** Şəmsi Əsədullayev XX əsrin əvvəllərində Azərbaycanın neft maqnatlarından biri olmuşdur. Onun adı həmişə Nobel qardaşlarının adı ilə yanaşı çəkilmişdir. Ş.Əsədullayev Rusiyaya neft daşımaq üçün buxarlı gəmidən istifadə edən ilk neft sahibkarıdır. Bakıdakı mülkləri ilə yanaşı Peterburqda Neva çayının sahilində, Qış Sarayının yanında möhtəşəm bina inşa etmişdir. Öz malikanələrindən birini Müsəlman mədəni mərkəzinə (Tatar evinə) bağışlayır. Şəmsi Əsədullayev elmə, mədəniyyətə xüsusi qayğı göstərmiş, onlarla azərbaycanlı gəncin Almaniyada, Fransada, Varşavada, Kazanda, Kiyevdə, Moskvada, Odessada, Peterburqda və Xarkovda təhsil almasına himayədarlıq etmişdir. Tiflisdə olan Aleksandr müəllimlər institutu onun şəxsi vəsaiti hesabına fəaliyyət göstərmişdir [5, s.260]. O, Moskvaya köçdükdən sonra da maarifçilik və xeyriyyə işlərini genişləndirmiş, yoxsul uşaqlar üçün məktəblər açdırmışdı. Ümumrusiya müsəlmanlarının qurultayı da Ş.Əsədullayevin müsəlmanlara bağışladığı binada keçirilmişdi. O, 1905-ci ilin avqust ayında Ümumrusiya müsəlmanlarının Nijni-Novqorodda keçirilmiş birinci qurultayının da iştirakçısı olmuşdur. Şəmsi Əsədullayev 1913-cü ildə Romanovlar xanədanının 300 illiyi ilə əlaqədar Tiflis Müəllimlər İnstitutunda öz adına iki təqaüd təyin etdirir. Həmçinin "Nəşri-maarif" cəmiyyətinin üzvü kimi fəaliyyət göstərmişdir [6, s.32].

***Nəticə.*** XIX əsrin sonu XX əsrin əvvəlləri Azərbaycan xalqının milli oyanışı, müstəqillik uğrunda azadlıq mübarizəsinin mühüm mərhələlərindən biridir. Rusiyadakı burjua islahatlarından sonra baş verən əsaslı ictimai-siyasi və iqtisadi dəyişikliklər nəticəsində Azərbaycanda formalaşmış iri burjuaziyanın nüfuzlu nümayəndələri, onların idealoqları və ziyalılar bütün imkanlardan istifadə edərək xalqın milli mənlik şüurunun oyanması, maariflənməsi, siyasi mədəniyyət səviyyəsinin yüksəlməsi, vətəndaşlıq hüquqlarından tam həcmdə istifadə etməsi üçün mübarizəyə rəhbərlik etdilər. Milli burjuaziya nümayəndələrinin əsas gəlir mənbəyi neft idi və əsasən Bakıda fəaliyyət göstərirdilər. Azadlıq mübarizəsinin yüksəlməsində milli sahibkarların böyük rolu oldu. Onların hər biri bütün çətinliklərə baxmayaraq xalqın maariflənməsi üçün mədəniyyət ocaqları açıb, müxtəlif qəzet mətbəələrini maliyyələşdirməyə başladılar.

## ƏDƏBİYYAT

1. Dilarə Seyidzadə. Azərbaycan XX əsrin əvvəllərində müstəqilliyə aparan yollar. Bakı, Elm, 1998, 348 s.
2. Dilarə Nağıyeva. Musa Nağıyevin xeyriyyəçilik və ictimai fəaliyyəti. Bakı, Elm, 2012, 140 s.
3. Dilarə Nağıyeva. Zamanın sorağında. Bakı, Elm, 2011, 264 s.
4. Əşir Bəşiroğlu. Hamının sevimlisi( H.Z. Tağıyev haqqında). Bakı, Təknur, 2012, 111 s.
5. Manaf Süleymanov. Eşitiklərim, oxuduqlarım, gördüklərim. Bakı, Azərnəşr,1987, 320s.
6. Manaf Süleymanov. Azərbaycan milyonçuları. Bakı, Gənclik, 1996, 96 s.
7. Məhəmməd Əsəd Bəy. Şərqdə Neft və Qan. Bakı, Nurlan, 2005 313 s.
8. Azərbaycan tarixi VII cilldə V cild. Bakı, Elm, 2008, 696 s.
9. Mir Babayev. Azərbaycan neftinin qısa tarixi. Bakı, Şərq-Qərb, 2008, 300 s.
10. Nərgiz Məcidova. Böyük xeyriyyəçilik, öz dövrünün maarifçisi Hacı Zeynalabdin Tağıyev, Bakı, Elm, 2012, 55 s.
11. Qılman İlkin. Bakı və Bakılılar. Bakı, Nurlar, 2006, 384 s.

**AYTAN HASANLI**
*Azerbaijan University Department of Social Sciences*
*History graduate student*

## CONTRIBUTIONS OF AZERBAIJAN NATIONAL BOURGEOISE REPRESENTATIVES TO CULTURAL DEVELOPMENT

The 19th century was characterized by significant events in the history of Azerbaijan. After the Treaty of Turkmenchay in 1828, the south part of our land came under the rule of the Qajars, and the north part under the rule of the Russians. This period was marked by important events such as the development of capitalism in the country, the development of economic relations, the formation of the bourgeoisie and the working class. The formation process of the Azerbaijani bourgeoisie, which began at the end of the 19th century, continued until the beginning of the 20th century. Representatives of the national bourgeoisie made great contributions to cultural development.

Representatives of the national bourgeoisie include Haji Zeynalabdin Taghiyev, Shamsi Asadullayev, Murtuza Mukhtarov, Musa Naghiyev, etc. This article provides information about the representatives of the bourgeoisie and their activities for the development of the people.

*Keywords:* Azerbaijan national bourgeoisie, Haji Zeynalabdin Taghiyev, Musa Naghiyev, Murtuza Mukhtarov, Shamsi Asadullayev, Girls' school, Charity society, Palace of Happiness.

*Daxil olma tarixi*: 29.04.2024-cü il.
*Çapa imzalanma tarixi*: 10.05.2024-cü il.

*Türk dünyası gənc tədqiqatçılar dərnəyinin Araşdırmaları*
*Studies of the Turkic World Young Researchers Association*

*№2(10) 2024, 14-17*

**UOT 94(479.24)**

**ƏHMƏD QAFAROV**
*Azərbaycan Universitetinin magistrantı*
**Qafarovehmed1@gmail.com**

# ƏLİMƏRDAN BƏY TOPÇUBAŞOVUN 1918-1920-Cİ İLLƏRDƏ İCTİMAİ-SİYASİ FƏALİYYƏTİ

*Elmi rəhbər:*
tarix elmləri doktoru Anar İsgəndərov

*Birinci dünya müharibəsi bitdikdən sonra dünyada yeni dəyişikliklər baş verdi. Sosialist inqilabı nəticəsində Rusiya imperiyasının dağılması Azərbaycanda müstəqil bir dövlətin yaradılmasına şərait yaratdı. 1918-ci il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyətinin yaradıldığının elan edilməsi Azərbaycan xalqının həyatında yeni bir mərhələ başlatdı. Təbii ki, bu Azərbaycan xalqının həyatında mühüm bir hadisə idi. Artıq XX əsrin əvvələrində Azərbaycanda milli-azadlığ hərəkatı geniş vüsət aldı. Azərbaycanın demokratik qüvvələri, siyasi xadimləri xalqımızın azadlığı naminə mübarizəyə qoşuldular. Cümhuriyyəti yaradan insanlardan Məhəmməd Əmin Rəsulzadə, Fətəli xan Xoyski, Nəsib bəy Yusifbəyli, Əlimərdan bəy Topçubaşov bu atdıqları addımla Azərbaycanın milli dövlətçiliyini xilas etdilər. Bu addım atılmış olmasaydı əgər Azərbaycan qonşuluğunda yerləşən böyük dövlətlər tərəfində bölüşdürüləcəkdi. Müstəqil dövlət yaradan bu dahi şəxsiyyətlər sadəcə yeni bir dövlətin əsasını qoymadılar, eyni zamanda şərqdə ilk demokratik respublikanın əsasını qoydular. Siyasi xadimlərimizin fəaliyyətləri danılmaz həqiqətdir,lakin Azərbaycan xalqının milli oyanışında, mənəvi ruh yüksəkliyində, çarizmin müstəmləkəçilik siyasətinə qarşı mübarizəsində və ən əsası Azərbaycan Xalq Cümhuriyyətinin təşəkkül tapmasında Əlimərdan bəy Topçubaşovun müstəsna rolu olubdur.*

*Açar sözlər:* Əlimərdan bəy Topçubaşov, Parlament, Paris sülh konfransı, AXC, Çarizm.

***Giriş.*** XX əsrin əvvəllərində artıq imperiya daxilində siyasi vəziyyət dəyişməyə başladı. Rusiyada baş verən “Qanlı Bazar Günü” hadisəsi imperiyada baş verəcək olan inqilabın xəbərçisi idi. Bundan ehtiyat edən çarizm hökuməti artıq imperiyaya daxil olan ölkələrdən Dumalara nümayəndələrin seçilməsinə icazə verdi. Təbii ki, bu zaman artıq Azərbaycanda olan ziyalılarımız, siyasi xadimlərimiz bu fürsətdən dərhal istifadə etdilər. Nəticədə Rusiya Dövlət Dumalarına Azərbaycandan Əlimərdan bəy Topçubaşov, Məhəmməd Əmin Rəsulzadə, Xəlil bəy Xasməmmədov, Fətəli xan Xoyski kimi irəli düşüncəli xadimlərimiz üzv seçildilər. Dumada Əlimərdan bəy Topçubaşovun fəaliyyətini xüsusilə qeyd etmək lazımdır. Lakin çağırılan Dumaların fəaliyyəti imperator tərəfindən dayandırılırdı. Buna baxmayaraq I dünya müharibəsinin gedişində Rusiyada baş verən 1917-ci il fevral inqilabı siyasi arenada yeni bir mərhələ başlatdı. Artıq imperiyanın tərkibində olan ölkələr üçün müstəqil dövlət yaratmaq şəraiti meydana gəldi. Bu zaman Məhəmməd Əmin Rəsulzadə, Əlimərdan bəy Topçubaşovun nəzdində digər siyasi xadimlərimiz bu yaranmış fürsətdən istifadə etdilər. Məhz onların səylərinin nəticəsində 1918-ci il mayın 28-də Azərbaycan müstəqilliyini elan etdi və Azərbaycan Xalq Cümhuriyyətinin əsasını qoydular. Bununlada Azərbaycanın milli dövlətçiliyini xilas etdilər.

***Əlimərdan bəy Topçubaşovun İstanbul danışıqları.*** Əlimərdan bəy Topçubaşov 1918-ci il avqustun 23-də Gəncədən Tiflisə yola düşdü. O Tiflisdə Gürcüstan hökümətinin rəhbərləri və Osmanlı nümayəndəsi olan Əbdül Kərim paşayla görüş keçirdi. Daha sonra sentyabr ayında İstanbula çatdı [2, s.215]. Əlimərdan bəy Topçubaşov İstanbulda olan zaman Osmanlı sultanı VI Mehmetlə görüş keçirdi. Sədr-Əzəm Tələt Paşayla görüşən zaman türk əsgərlərinin Bakının azad etməsində Azərbaycana göstərdiyi yardıma görə Azərbaycan höküməti adından təşəkkürünü bildirdi. Topçubaşov görüş zamanı iki dövlət arasında məzhəbçiliyin qızışdırılmasının Rusiyanın ənənəvi siyasəti olduğunu bildirdi. Bu siyasətin sübutunu isə Bakı hadisələri ilə göstərdi. Əlimərdan bəy İstanbulda olan zaman hərbi nazir Ənvər Paşayla da görüş keçirdi [2, s.220]. Bu görüşdə Azərbaycan ordusu üçün hər-

bi kadrların hazırlanması, silah və sursat təchizatı ilə bağlı məsələlər müzakirə edildi. Eyni zamanda Şeyxülislamla görüşündə rus müstəmləkəçiliyinin Azərbaycan mənəviyyatına nə qədər zərbə vurduğunu bildirdi. Əlimərdan bəyin oktyabr ayında İstanbulda keçirdiyi görüşlər o cümlədən, apardığı danışıqlar Azərbaycan Xalq Cümhuriyyətinin beynəlxalq vəziyyətinə olduqca müsbət təsir göstərdi. Lakin Osmanlı dövlətinin də olduğu Dördlər İttifaqının birinci dünya dünya müharibəsində məğlub olması danışıqları iflasa uğratdı. Səbəbi o idi ki, Osmanlı oktyabrın 30-da ağır şərtlərlə Mudros müqaviləsini imzaladı. Müqavilənin 11-ci görə türk ordusu Azərbaycandan ümumiyyətlə, Cənubi Qafqazdan çıxmalı idi [6, s.133]. 15-ci maddəyə görə isə, Bakıda yerləşən türk qoşunları 1 həftə ərzində Bakıdan çıxmalı və müttəfiq qoşunları Bakını tutmalı idilər [6, s.134]. Lakin Əlimərdan bəy bu şərti qəbul etmədi. O, öz notasını Osmanlı hökümətinin xarici işlər nazirinin müavininə bildirdi. Topçubaşov bu müqavilədə Bakı ilə bağlı maddənin yerləşməsinin beynəlxalq hüquqa zidd olduğunu bildirdi. Lakin Osmanlı höküməti bu notanı qəbul etmədi. Nəticə olaraq noyabrın 17-də Tomsonun başçılığı ilə ingilis qoşunları Bakıya daxil oldu. Bu zaman İstanbulda Topçubaşov Antanta nümayəndələrinə özünün hazırladığı memorandumunu təqdim etdi [10, s.212]. Bu memorandumda Topçubaşov Azərbaycan hökümətinin gürcü və ermənilərlə birgə konfederasiyada birləşməsinin mümkün olduğunu bildirdi. Əlimərdan bəy Topçubaşov İstanbulda olduğu vaxtlarda Osmanlı nümayəndələri ilə yanaşı, Ukranya, İran, İngiltərə, Rusiya və ABŞ-ın diplomatik nümayəndələri ilə də görüş keçirdi [7, s.75]. Bu görüşlərdə Azərbaycanın müharibədən sonrakı beynəlxalq vəziyyətini müzakirə etdi.

***Parlamentin sədri Əlimərdan bəy.*** Əlimərdan bəy Topçubaşovun uzaqgörən siyasətinin nəticəsi idi ki, beş aylıq fasilədən sonra Azərbaycan Milli Şurası fəaliyyətə başladı. Milli Şuranın ikinci iclasında Azərbaycan Xalq Cümhuriyyəti parlamentinin yaradılması haqqında qanun qəbul olundu. Nəticədə, 1918-ci il dekabrın 7-də parlamentin açılışı oldu. Bu açılışda 120 deputatdan 96-sı iştirak edirdi [3, s.235]. Parlamentin sədrinin kim olması haqqında ciddi müzakirələr gedirdi. Bu müzakirələr sonunda Türkiyədəki nümayəndə heyəti Əlimərdan bəy Topçubaşovu parlamentin sədri seçdi. Həsən bəy Ağayev sədrin birinci müavini və Rəhim bəy Vəkilov isə katib təyin olundu [3, s.242]. Türkiyədə olmasına baxmayaraq bu cür vacib bir vəzifənin Əlimərdan bəyə həvalə edilməsi onun Azərbaycan üçün necə vacib biri olduğunun, o cümlədən uzaqgörən siyasətçi və dahi olduğunun sübutudur. Parlament yarandıqdan sonra görəcəyi ilk işlərdən biri Parisdəki keçiriləcək olan sülh konfransına nümayəndə heyəti seçmək idi. Nəhayət, dekabrın 28-də nümayəndə heyətinin tərkibi bəlli oldu. Nümayəndə heyətinə Ə.Topçubaşov, M.H.Hacınski, Ə.Şeyxülislamov, Ə.Ağayev, M.Məhərrəmov, C.Hacıbəyov və M.Mehdiyev daxil oldu [3, s.240]. Əlimərdan bəy bu nümayəndə heyətinin sədri oldu. 1919-cu ilin yanvarın 20-də nümayəndə heyəti İstanbula gəlib çatdılar. Nümayəndə heyəti gələnə qədər Topçubaşov boş durmamış, bir sıra mühüm işlər görmüşdür. Belə ki, İstanbulda olan müttəfiq və neytral dövlətlərin nümayəndələri ilə görüşdü. Topçubaşov Mudros müqaviləsi ilə bağlı olaraq Azərbaycanın etiraz notasını bildirdiyini və Azərbaycanı da ABŞ-ın prezidenti Vudro Vilsonun hazırladığı "14 sülh prinsip"ə aid etməyi xahiş etdi [1, s.117]. Digər tərəfdən. ağqvardiyaçı Kolçak və Denikin hökümətinin nümayəndəsi olan, tanınmış rus diplomatı S.Sazonovla da görüş keçirdi [5, s.78]. Topçubaşov görüşdə Azərbaycanın Rusiya əsarətindən çıxdığını və müstəqil dövlət yaratdığını qətiyyətlə bildirdi. Eyni zamanda İranın xarici işlər naziri olan Əliqulu xan Ənsari ilə də görüş keçirdi. Bu görüşdə aparılan diplomatik danışıqlar nəticəsində İran tərəfinin Azərbaycana olan düşmənçilik münasibəti nisbətən yumşaldı.

***Topçubaşovun Paris sülh konfransındakı fəaliyyəti.*** İstanbuldakı gərgin 3 aylıq mübarizədən sonra Azərbaycan nümayəndə heyəti Əlimərdan bəy Topçubaşovun rəhbərliyi ilə 1919-cu il aprelin 22-də Parisə yola düşdü. Mayın əvvələrində nümayəndə heyəti Parisə çatdı. Azərbaycan nümayəndə heyəti bir ay ərzində ABŞ, İngiltərə, Polşa, İran və digər ölkələrin nümayəndə heyətləri ilə ictimai-siyasətlə bağlı danışıqlar apardıl [4, s.132]. Parisdə olan Azərbaycan nümayəndə heyətinin ən böyük uğurlarından biri ABŞ-ın prezidenti Vudro Vilsonla görüşü oldu. Vilson bildirdi ki, Azərbaycan nümayəndə heyəti Paris sülh konfransına qəbul edilsin. Eyni zamanda Topçubaşov da sülh nümayəndə heyətinin başçısı kimi tanındı. Buradakı heyətin ən əhəmiyyətli tədbirlərindən biri 14 bölmədən ibarət olan "Qafqaz Azərbaycanı Respublikası nümayəndələrinin Paris sülh memorandumu"nu təqdim etmələri oldu [4, s.144]. Memorandum Ə.Topçubaşov, Ə.Ağayev və C.Hacıbəyli tərəfindən yazıl-

mışdı. Bu sənədin mahiyyəti ondan ibarət idi ki, sənəd həm ingilis, həm də fransız dillərində yazılmış, məsələ ilə bağlı əlaqədar şəxslər arasında yayılmışdı. Sənəddə milyonlarla azərbaycanlının heç kim tərəfindən tanınmadığını, onların tarixi, ədəbiyyatı və həyat tərzlərinin tədqiq edilmədiyi qeyd olunurdu. 1919-cu il mayın 28-də İstiqlal günü Vilson Azərbaycan nümayəndə heyətini qəbul etdi [9, s.113]. Topçubaşov ABŞ prezidentinə Azərbaycanın, o cümlədən Qafqazın siyasi-iqtisadi vəziyyəti, azərbaycanlılar haqqında ətraflı məlumat, həmçinin Paris sülh konfransına təqdim ediləcək 3 maddədən ibarət memorandumu verdi [9, s.109]. Təqdim olunmuş memorandumda AXC-nin yaranma tarixi, onun bir illik inkişaf yolu, istiqlal savaşında verdiyi qurbanlardan danışılır və göstərilirdi ki, bu yolda Azərbaycanın iki şəhəri və beş yüz kəndi dağılmış, Azərbaycan xalqı yüz mindən yüz əlli minə qədər qurban vermişdir. Nəhayət, uzun mübarizədən sonra 1920-ci ilin yanvarın 11-də Konfransın Ali Şurası Azərbaycanın müstəqilliyini de-yure tanıdı [9, s.111]. Daha sonra Topçubaşovun rəhbərliyi ilə nümayəndə heyəti Xarici İşlər Nazirliyinə dəvət olundu. Onlara burada Azərbaycanın müstəqilliyinin de-fakto tanındığı bildirildi. Topçubaşov onlara öz təşəkkürünü bildirdi. Müstəqilliyinin elan olunması Azərbaycana beynəlxalq aləmdə marağı artırdı. Artıq Azərbaycanda 20-dən çox ölkənin diplomatik missiyaları fəaliyyət göstərməyə başladı. Nəticə etibarı ilə demək olar ki, Paris sülh konfransı Topçubaşovun rəhbəliyi ilə Azərbaycanın qələbəsi ilə başa çatdı.

***Nəticə.*** Cümhuriyyətin az yaşamasına baxmayaraq Azərbaycan xalqında müstəqillik, azadlıq fikirlərinin genişlənməsində Azərbaycan Xalq Cümhuriyyətinin banilərindən biri olan Əlimərdan bəy Topçubaşovun misilsiz xidmətləri olmuşdur. 1918-1920-ci illərdə Azərbaycan Cümhuriyyətinin topladığı tarixi təcrübə, əsasını qoyduğu demokratiya, demokratik dövlət quruculuğu bu gün onun hüquqi və mənəvi varisi olan Azərbaycan Respublikasında dönmədən həyata keçirilir və uğurla inkişaf etdirilir. Bu xidmətlər danılmaz bir həqiqətdir. Azərbaycan Xalq Cümhuriyyəti Sovet Rusiyası tərəfindən işğal edildikdən sonra Əlimərdan bəy Topçubaşov Fransada yaşamağa məcbur oldu. O Fransada yaşadığı müddətdə belə ictimai-siyasi fəaliyyətini davam etdirdi. Bu dahi şəxsiyyət Azərbaycanın tarixi, coğrafiyası o cümlədən, Azərbaycan Xalq Cümhuriyyətinin təşəkkülü ilə bağlı çoxlu qəzet və məqalələr nəşr etdirmişdi. Məhz Topçubaşov və onun kimi ziyalılarımızın, siyasi xadimlərimizin hesabınadır ki, Sovet höküməti dağılandan sonra digər Sovet respublikalarından fərqli olaraq, Azərbaycan yeni bir müstəqil dövlət yaratdı yox, Azərbaycan Respublikası özünün müstəqilliyini yenidən bərpa etdi deyə bilirik.

## ƏDƏBİYYAT

1. Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası. I cild. Bakı, "Lider nəşriyyat", 2004, 440 s.
2. Azərbaycan Xalq Cumhuriyyəti Ensiklopediyası. İki cilddə. I cild. Bakı, Lider nəşriyyatı, 2004, 440 s.
3. Azərbaycan Xalq Cümhuriyyəti (1918–1920), Parlament (Stenoqrafik hesabatlar). I kitab. Bakı, "Azərbaycan" nəşriyyatı, 1998, 976 s.
4. Cəmil Həsənli. Azərbaycan beynəlxalq münasibətlər sistemində (1918-1920-ci illər). Bakı, Azərnəşr, 1993, 362 s.
5. Cəmil Həsənli. Tarixi şəxsiyyətin tarixi: Əlimərdan bəy Topçubaşov (PDF). Bakı, ADA, 2013, 588 s.
6. Əlimərdan bəy Topçubaşov // Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası. II. Bakı: "Lider", 2005, s.285-286.
7. Topçubaşov Əlimərdan bəy Ələkbər oğlu. Azərbaycanın yol göstərəni - Маяк Азербайджана / Ə.Ə.Topçubaşov; tərt., tərc. V.M.Quliyev, elmi red. K.M.Abdullayev; Bakı Slavyan Universiteti. Bakı: Kitab aləmi NPM, 2010, 96 s.
8. Əlimərdan bəy Topçubaşov. Paris məktubları. Bakı: Azərnəşr, 1998, 120 s.
9. Nəsiman Yaqublu. Cümhuriyyət qurucuları (PDF). Bakı: Nurlar NPM, 2018, 504 s.
10. Topçubaşov Əlimərdan bəy Ələkbər oğlu. ... Xalqımızın müstəqil yaşayacağına inanırdıq: [məqalələr, səfər qeydləri, nitqlər, diplomatik məktublar, publisistika] / Ə.Ə.Topçubaşov; tərt., tərc. V.M. Quliyev; red. A.Məsud; Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Tərcümə Mərkəzi. Bakı: Azərbaycan Tərcümə Mərkəzi, 2018, 688 s.

**AHMED GAFAROV**
*Graduate student of Azerbaijan University*

## ALIMARDAN BEY TOPCUBASHOV IN 1918-1920 SOCIO-POLITICAL ACTIVITY

After the end of the First World War, new changes took place in the world. The collapse of the Russian Empire as a result of the socialist revolution created conditions for the creation of an independent state in Azerbaijan. The announcement of the creation of the Azerbaijan People's Republic on May 28, 1918 started a new stage in the life of the Azerbaijani people. Of course, this was an important event in the life of the Azerbaijani people. Already at the beginning of the 20th century, the national liberation movement in Azerbaijan received a wide opportunity. Democratic forces and political figures of Azerbaijan joined the struggle for the freedom of our people. Muhammad Amin Rasulzadeh, Fatali Khan Khoyski, Nasib Bey Yusifbeyli, Alimardan Bey Topchubashov, among the people who created the republic, saved Azerbaijan's national statehood with this step. If this step had not been taken, Azerbaijan would have been divided among the big states located in its neighborhood. These geniuses, who created an independent state, not only founded a new state, but also founded the first democratic republic in the east. The activities of our political figures are an undeniable fact, but Alimardan Bey Topchubashov had an exceptional role in the national awakening of the Azerbaijani people, in the spiritual upliftment, in the struggle against the colonial policy of tsarism and, most importantly, in the establishment of the Azerbaijan People's Republic.

*Keywords:* Alimardan bey Topchubashov, Parliament, Paris peace conference, APC, Tsarism.

*Daxil olma tarixi*: 30.04.2024-cü il.
*Çapa imzalanma tarixi*: 10.05.2024-cü il.

**Türk dünyası gənc tədqiqatçılar dərnəyinin Araşdırmaları**
**Studies of the Turkic World Young Researchers Association**

**№2(10) 2024, 18-22**

**UOT 94(479.24)**

**FATİMƏ QURBANOVA**
*Azərbaycan Universiteti İctimai elmlər kafedrasının*
*Tarix I kurs magistr tələbəsi*
**Fatimequrbanova94@gmail.com**

# ƏHMƏD BƏY AĞAOĞLU İSLAMŞÜNAS ALİM KİMİ

*Elmi rəhbər:*
tarix elmləri doktoru Kərim Şükürov

*Məqalədə Əhməd bəy Ağaoğlunun dini baxışları, İslam aləminə olan mövqeyi əks olunmuşdur. Həmçinin İslam dini ilə bağlı yazdığı əsərlərinə, məqalələrinə nəzər salınmış, aktual məsələlər ön plana çəkilmişdir. Ağaoğlunun əsərlərində qeyd etdiyi dini promlemlərin günümüzdə də mövcud olduğunu görürük. Müəllif müsəlman dünyasının tənəzzülünün səbəblərini göstərərək, geriliyin qarşısının alınmasının yollarını da qeyd etmişdi. Ağaoğlu dinin mahiyyətinin düzgün dərk edilmədiyini vurğulamış, bunun səbəbini də ancaq öz mənafeyini düşünən ruhanilərin, axundların fəaliyyətində görürdü.*

*Açar sözlər:* Əhməd bəy Ağaoğlu, İslam, Qurani-Kərim, “İslam, Axund və Hatifülqeyb”, “İslama görə və İslamiyyətdə qadın” “Müsəlman xalqlarının vəziyyəti”.

***Giriş.*** XIX əsrin sonu XX əsrin əvvəlləri Azərbaycan tarixində dini və milli dirçəliş dövrüdür. Bildiyimiz kimi, çar Rusiyası Azərbaycanı işğal etdikdən sonra burada dini ayrı-seçkilik siyasəti həyata keçirir və məzhəb ayrılıqlarını daha da dərinləşdirərək xalqın geriləməsinə səbəb olurdu. Belə bir tarixi şəraitdə dövrün ictimai-siyasi xadimlərinin xalq üçün əvəzolunmaz xidmətləri olmuşdur. Həmin tarixi şəxsiyyətlərdən biri də Əhməd bəy Ağaoğlu idi. Ağaoğlunun fəaliyyəti bütün türk-müsəlman dünyasının ictimai-fikir tarixində önəmli rol oynamışdır. Əhməd bəyin əsərlərində qoyulan mövzular dövrün tarixi şəraitini əks etdirməklə bərabər öz aktuallığı ilə də seçilmişdir.

***Əhməd bəy Ağaoğlunun İslam dini ilə bağlı tədqiqatları.*** Böyük mütəfəkkir Əhməd bəy Ağaoğlu yazdığı ilk məqalələrində İslam dininə xüsusi diqqət yetirmiş, Şərqdə olan mövhumat, cahillik, dini problem və digər məsələlər əsərlərinin əsas tədqiqat obyekti olmuşdur.

Ağaoğlunun mənəvi dünyagörüşünün formalaşmasında Fransada təhsil aldığı dövr böyük rol oynamışdır. Burada “Avesta”nın məşhur tədqiqatçısı C.Darmstaterinin mühazirələrini dinləmiş, Şərq və İslam tarixi ilə məşğul olmuşdur. Həmçinin məşhur şərqşünas alim Ernest Renan ilə tanış olmuşdur. Onların vasitəçiliyi ilə “La Nouvelle Revue” jurnalında ilk məqaləsini çap etdirmişdir [5, s.6].

Həmin dövrdə Əhməd bəy böyük mütəfəkkir Şeyx Cəmaləddin Əfqani ilə də tanış olmuşdur. C.Əfqaninin Ağaoğlunun islamşünas alim kimi formalaşmasında böyük rolu rolu var idi [7, s.1].

1892-ci ildə Londonda keçirilən Beynəlxalq şərqşünaslıq konqresində “Şiə məzhəbinin mənbələri” mövzusunu məruzə etmiş və məruzə Kembric Universitetinin vəsaiti ilə bir neçə Qərb dillərində dərc olunmuşdur [ 4, s114].

Ağaoğlu Fransada olduğu müddətdə “İslama görə və İslamiyyətdə qadın”, “İslam, Axund və Hatifülqeyb”, “Panislamizm, onun səciyyəsi və istiqamətləri”, “Ricəti-islam” və s. kimi əsərlərində İslam dini ilə bağlı əsas məqamları qeyd etmiş, Şərq ölkələrində olan geriyilin səbəblərini göstərməyə çalışmışdır.

“İslama görə və İslamiyyətdə qadın” əsərində islamda qadın hüququ və qadının cəmiyyətdəki rolu təhlil edilmişdir. Müəllif əsərdə Qərb dünyası ilə Şərq aləmindəki qadınların mövqeyini müqayisə etmiş və Avropada qadınlara verilən hüquqların genişləndiyi halda müsəlman aləmində qadınların sanki bir kölə olduğunu vurğulayır.

Əsərdə Ağaoğlunun toxunduğu mövzulardan biri də Avropada Məhəmməd peyğəmbərə qarşı olan qərəzli münasibət idi. Ağaoğlu əsərində bu qərəzli mövqeyə qarşı Quranda xristianlıq dini haqqında olan hissələrdən nümunələr gətirir. Həmçinin Xristosun təlimindən peyğəmbəri ilk xəbərdar edən

sabaistlər haqqında nə qədər minnətdarlıqla danışıdığını qeyd edir. Hz.İsanın təvəllüdü, onun əzabları və Məryəm haqqında olan məlumatların Quranda qeyd olunduğunu yazaraq nümunələr gətirmişdir [6, s.58].

Bu haqda yazan Əziz Mirəhmədov göstərir: *"Ağaoğlu inamla deyirdi ki, bizim zəmanədə dinin əsasları artıq "ehtiras obyektindən daha çox əqli maraq hədəfi olduğu, onlara insan mənəviyyatının orijinal təzahürü kimi maraq göstərildiyi üçün daha dinlərə münasibətdə qəsd, qərəz, təhrif, istehza, barəsində söhbət belə ola bilməz. Bu gün artıq şərqşünaslıq öz inkişafının elə mərhələsinə gəlib çatmışdır ki, insanın qüdrətinə və yaradıcı qüvvəsinə heyran ola bilər. Şərqin başqa din və təlimləri kimi, Məhəmməd və onun təliminə dair köhnə görüşlər də alt-üst olmuşdur"* [6, s.57].

Həmçinin Əhməd bəy İslam dini ilə xristianlıq arasında varisliyin olduğunu qeyd edirdi və fikrini əsaslandırmaq üçün də Marks Müllerin sözlərindən nümunə gətirir: *"İllər keçəcək və xristianlar heyrətlə Məhəmmədin İsanın tərəfdarlarından biri, islamın isə xristianlığın təriqətlərindən biri olduğunu görəcəklər və onda müsəlmanlar da, xristianlar da öz tarixlərinin dini mübarizə və düşmənçiliklə keçməsinə eyni dərəcədə heyrət edəcəklər..."* [6, s.58].

Ağaoğlu düşünürdü ki, ictimai inkişafla bağlı olaraq dinlərdə də müəyyən dəyişiklik özünü göstərə bilir. Bunun ən bariz nümunəsini xristianlıqda görürük. Belə ki xristianlığın orta əsrlər, Reformasiya və XX əsrdəki vəziyyəti haqqında müqayisə aparsaq bizə daha aydın olar. Müəllif həmçinin qeyd edir ki, bir də belə müqayisəni islamın ümumi təkamülü ilə bərabər onun ayrı-ayrı dövrlərdə qadına münasibətinin necə dəyişdiyini başa düşməyə kömək edə bilər [6, s.59].

Əhməd bəy yazır ki, orta əsrlərdə katolik din adamlarının bütün səhvlərini xristian dinində gördükləri kimi, indiki dövrümüzdə də çoxları *"müsəlmanların nöqsan və qüsurlarını İslam dini ilə bağlayırlar"*. Halbuki, səbəbi *"dində deyil, başqa, çox vaxt dinin özünə də düşmən olan mənbələrdə axtarmaq lazımdır.* Ömər Xəyyamın dediyi kimi, *"İslamın öz özlüyündə nöqsanı yoxdur, bütün nöqsanlar bizim müsəlmanlığımızdadır"* [ 6, s.59]

"İslam, Axund və Hatifülqeyb" əsərində isə dövrün dini baxımdan tarixi şəraiti, cahil din xadimlərinin, axundların vəziyyəti əks olunmuşdur. Müəllif o dövrdəki mövhumatın, xurafatın səbəbini ruhanilərdə görürdü. Əziz Mirəhmədov əsərdən nümunə gətirərək yazır: *"..Məlumdur ki, müsəlman aləmində ən müqtədir, nüfuzlu sinif və təbəqə ruhanilərdir. Onlar cəmaəti hər yerə çəksələr, cəmaət də oraya gedir. Bir ərəb yazıçısı öz- özündən soruşur: "Hardan gəldi bu millətin fəsadı?" və öz-özünə cavab verir: "Üləmasından". Tarix də göstərir ki, hər bir vaxt İslamın qüvvət və zəifliyi , tərəqqi və tənəzzülü, cəlal və ölgünlüyü ruhanilərdən asılı olub"* [6, s.43].

Geriliyin əsas səbəbi olan ruhanilər dinin nüfuzdan düşməsinə səbəb olurdu. Həmçinin təriqət və məzhəb ayrılıqlarını müsəlmanların ən böyük fəlakəti adlandıran müəllif bunun səbəbini də ruhanilərdə görür. Yeganə çıxış yolunun İslamı və Quranı cəmiyyətdəki ilkin mövqeyinə qaytarmaq olduğunu vurğulayır [6, s.45].

Əhməd bəy Ağaoğlu əsassız və mənasız məzhəb ayrılığının zərərlərini, xarici ölkələrin bundan nə dərəcədə faydalandığını üzə çıxararaq, Qafqaz türklərində birlik yaratmaq üçün çalışan xadimlərdən idi.

Əsərdə diqqət yetirilən mövzulardan biri də Quranın sadə dildə yazılması məsələsi idi. Əsərdə yazılır: *"... Odur ki belə axundlar Quranı rövnəqdən salıb camaatı cürbəcür vasitələr ilə ondan uzaq edirlər. O cümlədən deyirlər ki, guya Quranı qeyri dilə tərcümə etmək olmaz, onu oxuyan gərək qiraət bilsin və guya Quranın sözlərini və mətalibini anlamaq mümkün deyil və qeyr qeyr əcib və qərib şərtlər və sözlər* [5, s.37].

Əsərin davamında göstərilir ki, İslamın ilkin zamanlarından başlayaraq Quranı fars, çin, tatar və özbək dillərinə tərcümə edirdilər. Lakin indi qeyd olunur ki, Quranı tərcümə etmək olmaz. Belə davranmaqda ruhanilərin yalnız bir məqsədi ola bilər ki xalqı "cəhalətdə saxlayıb" onlara ağalıq etmək [6, s.45].

Əsərdə qeyd olunan nüanslardan biri də yalançı din xadimlərinin Quranda yazılan surələrin, hədislərin anlamını başa düşmədikləri, həmçinin həyatda onlara əməl etmədikləri məsələsi idi:

*İslam: "... İş sizə qalsaydı, yəqin ki, mən çoxdan məhv və puç olmuşdum və mənim həqiqətim Qurandır.*

*Axund: Məgər biz Quran oxumuruq, ona əməl etmirik?*

*İslam: Oxuyursunuz, lakin əməl etməyirsiniz. Qurana layiqincə əməl etmək fikir istəyir və çün təfəkkür əmri-müşküldür, siz ondan qaçıb hədis və rəvayət dalına düşürsünüz"* [5, s.40].

Ümumilikdə əsərdə müəllif İslam aləmində mövcud olan problemlərin çoxunun səbəbini din xadimlərində görərək, onları tənqid etmişdir. Cəmiyyətdə dinin əsl mahiyyətini xalqa onların çatdırmalı olduqları halda, əhalini cürbəcür cəfəngiyyata inandırırdılar.

Həmçinin Şərqdə olan geriliyin səbəbini İslam dinində görənləri kəskin tənqid atəşinə tutmuş, əsas səbəbin dində deyil də, din adından istifadə edən, yalnız öz mənafeyini düşünən ruhanilərin fəaliyyətində görmüşdür.

"Müsəlman xalqlarının vəziyyəti" adlı məqaləsində müsəlmanlığın tarixi haqqında ümumi məlumat verən Ağaoğlu İslam dininin istinadgahı olaraq 3 xalqın adını (ərəblər, farslar, türk-tatarlar) qeyd edir. Daha sonra göstərir ki, əgər türk-tatarlar olmasaydı, İslam dini mövcudluğuna qoruya bilməyəcək və bəlkə də unudulmuş olacaqdı. Səlib yürüşlərinə qarşı mübarizə apara bilmişdisə, bu türk-tatarların səyi nəticəsində olmuşdur [5, s.328].

İslamın tarixindən danışan müəllif tənəzzülə doğru gedən yolu, onun səbəblərini aydın şəkildə ifadə etmişdir. Tənəzzülün qarşısının alınmasındakı vacibliyi vurğulayan Ağaoğlu İslam tarixinə bu fəlakəti gətirən əsas amillərdən birinin İslamın daxilində pozucu qüvvələrin olmasında görürdü.

Bu məqaləsində də təriqətlər məsələsinə toxunan ədib onların mənasız yerə İslamı parçaladığını qeyd edir. Uzunmüddət davam edən məzhəb ayrılıqları, müxtəlif təlimlər dinin geriləməsinə səbəb olurdu. Həmçinin məzhəb ayrılıqlarını cəmiyyətin dayağını sarsıtmağa qadir olduğunu qeyd edən müəllif yazır: *"... Gah bir, gah da başqa yerdə şöhrətpərəstlər kütlələri arxalarınca apararaq, mənasız təlimlər vasitəsilə onlar arasında qardaş qırğını salır, nifrət və ədavət toxumu səpirdilər"* [5, s.331].

Ağaoğlu məqalədə XIX əsrdə müsəlman aləmində bir-birindən fərqlənən 3 cərəyanın mövcud olduğunu qeyd edir: 1) tərəqqipərvərlər və ya gənc türklər, 2) mühafizəkar müsəlmanlar, 3) panislamist cərəyan. Ağaoğlu " Tərəqqiçilər, yaxud gənc türklər" adlı məqaləsində isə yuxarıda qeyd etdiyimiz üç cərəyan haqqında ətraflı məlumat vermişdir.

İlk cərəyanın nümayəndələri düşünürlər ki, müsəlman aləmində baş verən fəlakətlərin problemi dinin həyat uğrunda mübarizəyə yararsız olmasıdır [5, s.333]. Çıxış yolunu isə Avropa tipli sistem yaratmaqda görürlər.

Mühafizəkar müsəlmanların fikrincə, müsəlman dünyasındakı geriliyin əsas səbəbi keçmiş adət-ənənələrə əməl etmədikləri üçün olmuşdu. Xilas yolunun Avropada olmadığını vurğulayan bu cərəyanın nümayəndələri keçmiş qaydaların qaytarılması ilə problemi həll edəcəklərini düşünürdülər.

Bu iki cərəyan arasında ciddi fərqlər olduğunu görürük. Ağaoğlu qeyd edirdi ki, əslində bu iki cərəyanın ümumi bir nöqtəsi var idi: Avropa. Hər iki cərəyanın necə yaranmasını ətraflı izah edən müəllif göstərir ki, daha çox şərqli gənclərin Avropaya getməsi XIX əsrə təsadüf edir. Avropaya gedən gənclər nə qədər ki, yüksək təbəqənin nümayəndələri idilər, oranın həyat tərzi ilə tanış olduqda öz keçmişlərinə, vətənlərinə qarşı nifrət hissi yaranırdı. Ağaoğlu onların vəziyyətini belə açıqlayır: "... *bu ilk "yeni müsəlmanlar" vətənə nə verirdilər? Ağılsız hərəkətlərinə görə onlarda öz vətənlərinə qarşı əmələ gələn nifrətdən başqa heç bir şey!"* [5, s.334-335].

Lakin nə vaxt ki nisbətən orta təbəqə ailələrinin uşaqları Avropaya getməyə başladılar, o zaman vəziyyət dəyişməyə başladı. Xalq arasından çıxmış bu gənclərin əsas məqsədi Şərqdə Avropa elmini yaymaq idi [5, s.336]. Lakin Ağaoğlu bəzi "yeni müsəlmanlar"ın son nəticəni çıxarmaqda tələsdiyini və Şərq xalqlarına əzab-əziyyət gətirdiyini qeyd edir.

Ağaoğlunun fikrincə, din adından istifadə edən təbəqə cəmiyyətin inkişafına hər zaman mane olmuş, öz mənafelərini düşünərək xalqın geriliyinə səbəb olmuşlar.

Din və təhsil məsələsinə toxunan Əhməd bəy dinin təhsildən ayrılmalı olduğunu vurğulayaraq qeyd edirdi ki, din xadimləri dindən başqa digər sahələrdən kənarlaşdırılmalıdır.

Müəllifin fikrincə, din yalnız ibadət və inancdan ibarətdir. Fikrini əsaslandırmaq üçün də Hz.Məhəmmədin *"Dünya işlərini siz məndən daha yaxşı bilirsiniz"* və dünya işləri üçün də "*Bir əmrdə şübhə varsa, ağılla həll edin"* fikirlərini nümunə olaraq göstərir [2, s.41].

Din və əxlaq mövzusu haqqında yazan Əhməd bəy qeyd edir ki, din millətin əxlaq anlayışını

təşkil edən bir ünsürdür. Bu mövzuya toxunan G.Akalın yazır ki, Ə.Ağaoğlu din və əxlaqın bir-birindən ayrılmasını İslam filosoflarının əxlaqı müstəqil elm sahəsi kimi qəbul etməmələrində görür. Ona görə də yaxşılıq və pisliyi müəyyənləşdirmək daima şəriət adamlarının səlahiyyətləri daxilindədir. Bu səbəbdən şəriətə əsasən müəyyən olunmuş əxlaq prinsipləri əbədidir. Din və əxlaqı bir-birinə qarışdıran sufilər isə dinin əxlaqdan ibarət olduğuna inanırlar. Dini toplumun sosial həyatını nizamlayan, əxlaqı təşkil edən bir vasitə kimi qiymətləndirir [2, s.44].

Dini cəmiyyətin əsas dayaq nöqtələrindən biri hesab edən Ağaoğlu qeyd edirdi ki, İslam dini Məhəmməd peyğəmbərin zamanındakı prinsiplərdən uzaqlaşmış, tamamilə başqa yol almışdır. Əgər bu problemlər zamanında həll edilməsə İslam dünyası məhvə doğru gedir. Bunun çıxış yolunu isə Quranın əsas mahiyyətini dərk etməkdə, cəfəngiyyatdan xilas olmaqda görür.

***Nəticə.*** Nəticə etibarı ilə Ağaoğlu əsərlərində İslam dininin mahiyyətini açıqlamış, dinin üstünlüklərindən bəhs etmişdir. Bununla yanaşı müəllif dində olan xurafatı, cəhaləti Şərq aləmində əsas problem olaraq qeyd etmişdir.

Cəhalətin əsas səbəbini din xadimlərində görən Əhməd bəy, ruhanilərin öz işlərini layiqincə yerinə yetirmədiyini, xalqı cəhalətdə saxladığını vurğulayır.

Müsəlman dünyasının əsas problemlərindən birinin də məzhəb ayrılıqları olduğunu göstərən Ağaoğlu bu problemin sözün əsl mənasında “dini fəlakət” olaraq qeyd etmişdir.

Avropada İslam dininə qarşı olan qərəzli münasibətlərdən bəhs edən ədib bunun qarşısını almağa çalışmış, Məhəmməd peyğəmbər haqqında məlumatlar verərək, onun Xristian dininə qarşı münasibətini göstərmişdir. İslam dininə qarşı bu münasibətin əsassız olduğunu vurğulayan Ağaoğlu dinlər arasında olan düşmənçiliyi mənasız hesab etmişdir.

## ƏDƏBİYYAT

1. Ağayev Müstəqil. Əhməd bəy Ağaoğlu İslam dini haqqında. // Dövlət və Din jurnalı, №5 (46), sentyabr-oktyabr 2016, s.72-78.
2. Akalın Gülsərən. Türk düşüncə və siyasi həyatında Əhməd Ağaoğlu. Bakı, AzAtaM, 2004, 138 s.
3. Akçura Yusuf. Yeni türk devletinin öncüleri (1928 yılı yazıları). Ankara, Kültür Bakanlığı Yayınları, 2001, 260 s.
4. Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası. I cild, Bakı, Lider Nəşriyyat, 2004, 471 s.
5. Əhməd bəy Ağaoğlu. Seçilmiş əsərləri. Bakı, Şərq-Qərb, 2007, 392 s.
6. Mirəhmədov Əziz. Əhməd bəy Ağaoğlu. Bakı, Ərgünəş, 2014, 264 s.
7. Səidə Əli qızı. Şərqin İslam mütəfəkkirləri - Əhməd bəy Ağaoğlu və Şeyx Cəmaləddin Əfqani // Tarix və onun problemləri. №2 2010, s.39-45.
8. Süleymanlı Mübariz. Əhməd bəy Ağaoğlunun ilk elmi əsəri: Şiə dinində məzdəki inancları. Bakı, Letterpress, 2007, 127 s.
9. Süleymanlı Mübariz. Əhməd Ağaoğlunun “İslama görə və İslamiyyətdə qadın” əsərinə elmi-tənqidi yanaşmalar. Bakı, Letterpress, 2008, 148 s.
10. Süleymanlı Mübariz. İslamın elm və mədəniyyət dini kimi şərhində Əhməd bəy Ağaoğlunun mövqeyi // Türk dünyası incemeleri dergisi. Cilt:VII, Sayı 1, İzmir, s.137-141.
11. Göküş Şeref. Ahmet Ağaoğlu: Hayatı, eserleri ve din eğitim-öğretim görüşleri // Toplumu bilgileri dergisi, № 7(13), Ocak-Haziran, 2013, s.193-210.

**FATIMA GURBANOVA**
*Azerbaijan University Department of Social Sciences*
*History graduate student*

## AHMED BEY AGAOGLU AS AN ISLAMIC SCIENTIST

The religious views of Ahmet Bey Agaoglu and his position on the Islamic world are reflected in the article. Also, his works and articles related to the Islamic religion were reviewed, and current

issues were brought to the fore. We see that the religious problems mentioned in Agaoglu's works still exist today.

The author pointed out the reasons for the decline of the Muslim world and mentioned the ways to prevent the backwardness. Agaoglu emphasized that the essence of religion is not properly understood, and he saw the reason for this in the activities of clergymen and akhunds who only think about their own interests.

*Keywords:* Ahmed Bey Agaoglu, Islam, The Holy Quran, “Islam, Akhund and Hatifulghaib”, “Women according to Islam and in Islam”, “The situation of Muslim nation”.

*Daxil olma tarixi*: 30.04.2024-cü il.
*Çapa imzalanma tarixi*: 10.05.2024-cü il.

№2(10) 2024, 23-35

UOT 94(479.24)

**FUAD XƏLİLOV**
*Bakı Dövlət Universiteti,*
*Tarix fakültəsi IV kurs bakalavr tələbəsi*
**fuadxelilovtarix@gmail.com**

# 1936-1938-Cİ İLLƏR REPRESSİYALARINDA AZƏRBAYCAN SSR XALQ DAXİLİ İŞLƏR KOMİSSARLIĞININ (XDİK) FUNKSİYALARI

*Elmi rəhbər:*
tarix üzrə fəlsəfə doktoru Boran Əziz

*Azərbaycanın 1920-ci ildə rus-sovet qoşunları vasitəsilə işğalının ardınca ölkədə milli fikir adamlarına qarşı kütləvi repressiyalar dalğası başladı. Kommunizm, beynəlmiləlçilik, "sosialistcəsinə yenidəqurma"ya qarşı bildikləri hər kəsi həbs edir, sürgünə göndərir və ən pis halda isə ağır işgəncələrin ardınca ölümə məhkum edilirdi. 1920-ci illərin ortalarından başlayaraq bu repressiya dalğası müəyyən dərəcədə səngidi. Lakin, bu yeni repressiyaların olacağı zəmanətini vermirdi, bir növ gözdən pərdə asmaq funksiyası daşıyırdı. SSRİ-nin rəhbəri olan İosif Stalin bütün hakimiyyəti təkbaşına ələ keçirənə qədər fürsət gözləyirdi. Lev Trotski, Sergey Mironoviç Kirov, Lev Kamenev, Qriqori Zinovyev kimi ciddi rəqiblərini aradan götürdükdən sonra bu dəfə diqqəti "daha az təhlükəli" gördüyü siyasətçilərə, partiya və ictimai xadimlərə, incəsənət adamlarına, hətta siyasətin nə olduğunu anlamayan sadə kənd adamlarına yönəltdi. Bununla da, tarixə "Böyük terror" dönəmi kimi düşmüş və SSRİ-də milyonlarla insanın həyatına bu və ya digər şəkildə təsir göstərmiş acı 1936-1938-ci illər repressiyaları başlamış oldu. Bütün SSRİ-də olduğu kimi Azərbaycan da bu repressiyalardan yan keçmədi və hətta təyin edilmiş planı "canla-başla" yerinə yetirmiş oldu. Bu repressiyaların bilavasitə icraçısı isə ölkədə bütün daxili və xüsusi xidmət orqanlarını əlində cəmləşdirmiş fövqəladə səlahiyyətli rusca "NKVD" (Народный комиссариат внутренних дел) adlandırılan Xalq Daxili İşlər Komissarlığı (XDİK) idi. Bu məqalədə dövrün arxiv mənbələri, qəzetləri, repressiyaların icraçısı və şahidi olmuş şəxslərin dedikləri və bu dövr haqqında yazılmış müxtəlif elmi əsərlər əsasında Azərbaycandakı "Böyük terror" dönəminə obyektiv şəkildə işıq salınacaqdır.*

*Açar sözlər:* Böyük Terror, XDİK, əksinqilabi təşkilat, totalitarizm, Mir Cəfər Bağırov.

***Giriş.*** SSRİ-də İ.Stalinin rəhbərliyi başlandığı dövrdən etibarən bir avtoritar rejim qurulmağa başlanıldı. Lakin, Stalin bunu çox sakit və yavaş şəkildə aparırdı. İlk növbədə ona qarşı rəqib ola biləcək qüvvələri müəyyənləşdirir, ardınca onların bir hissəsini dərhal partiyadan uzaqlaşdırır (misal, L.Trotski), bir hissəsindən öz məqsədləri üçün istifadə edib vaxtı çatdıqda ölümə məhkum edir (misal, Q.Zinovyev, L.Kamenev), bəzilərini isə öldürtdürüb öz rəqiblərinə qarşı əks arqument kimi istifadə edir (misal, S.M.Kirov, V.Kuybişev). Kollektivləşdirmə siyasəti ilə bərabər Stalin artıq öz çirkin niyyətlərini ortaya atır, sinfi düşmən kimi böyük torpaq sahibləri – qolçomaqları aradan götürməyi tapşıtdırır. Bunun ardınca nəinki, qolçomaqlar hətta bir miqdar torpaq sahəsi olan sadə kəndlilər də "xalq düşməni" adı ilə güllələnir, sürgünə göndərilirdi. Bu dəyişiklikləri anlayan insanlar narazı olduqlarından ölkəni tərk etsələr də, böyük bir hissəsi bu rejimdə qalıb yeni sovet sisteminə uyğunlaşmağa başladılar. Yeni "Sovet intellegiyası" isə bu siyasətə dəstək verməyə başlayır, 1931-ci ildə SSRİ Yazıçılar İttifaqına Averbax adlı şəxs gələrək yeni bir şüar irəli sürdü: *"Müttəfiq ya düşmən!", "Bizimlə deyilsənsə, bizə düşmənsən!"* [24, s.3]. Elə buna görə də, dövrün faciəsi onda deyildi ki, hər kəs Stalinin dediklərinə inanırdı, bəla onda idi ki, inamlar da qarşılıqlı deyildi. Məhz bundan Stalin məharətlə istifadə edib, ona inanan kütləni rahat şəkildə aradan götürürdü. Həmçinin, Stalinin diktaturasının yaranmasında onun rəhbər kadrların seçilməsində və yerləşdirilməsində oynadığı mühüm rol da təsirsiz ötüşmədi. Sonralar isə ürəyincə olmayanları aradan götürə, ləğv edə bildi. 1934-cü ildə Leninqrad Vilayət Partiya Komitəsinin I katibi Sergey Mironoviç Kirovun öldürülməsi ilə İ.Stalin gələcək repressiyaların ilkin təməlini atdı: *"S.M.Kirov üç qat mənfur trotskiçi-zinovyevçi banditlərin, alçaq terrorçu-*

*ların.... əli ilə mübariz vəzifə başında öldürülmüşdür”* [“Kommunist” qəzeti, 3 dekabr 1936-cı il, № 278]. Ölkədə artıq yerli vətəndaşlar içərisindən şübhələndiklərini əvvəlcə “Trotskiçi”, sonra “Trotskiçi-Zinovyevçi” adı ilə ittiham etməyə başladılar, əcnəbilər isə potensial kəşfiyyatçı sayılırdılar. 1936-cı ilin sonlarında SSRİ Xalq Daxili İşlər Komisarlığının başına gətirilən Nikolay Yejov artıq kəşfiyyat orqanlarında da əks-inqilabçı ovuna çıxır, hətta bu məqsədlə sələfi H.Yaqodanı da ittiham edirdi.

Azərbaycan Sovet Sosialist Respublikasına yarandığı ilkin dönəmlərdə formal şəkildə yerli kommunislər rəhbərliyə gətirilsə də, 1920-ci illərin ortalarından başlayaraq onların bir çoxu ölkədən uzaqlaşdırıldı və digər sovet respublikalarında rəhbər vəzifəyə gətirildilər. Bununla da, əslində respublikada siyasi dəyişikliklərə nail olunmaq istənildi, ancaq göndərilən xarici kadrlar bu ümidləri puça çıxartdı. Xüsusən də, 1929-cu ildən başlayan kollektivləşdirmə siyasətinə qarşı Azərbaycanın hər yerində kütləvi etirazlar baş qaldırdı, qeyri-azərbaycanlılardan ibarət rəhbər kadrlar isə bu etirazların qarşısını almaqda aciz idilər. Elə buna görə hələ 1932-ci ildə M.P.Frinovski Moskvaya göndərdiyi məruzəsində qeyd edirdi ki, Qafqazda ən çox təqiblərə məruz qalan azərbaycanlılar idi [25, S.180]. Mirzə Cəlil isə 1930-cu ildə obrazlı şəkildə yazırdı: *“İndi elə bir zaman gəlmişdir ki, qəpikləri sayanda da ehtiyatlı olmaq lazımdır”* [25, s.260]. Bütün bunlardan çıxış edərək, 1933-cü ildə yerli kadr kimi Mir Cəfər Bağırov ölkə rəhbərliyinə gətirildi. O, isə elə ilk dövrdən etibarən Bakı və Moskva arasında əlaqələri əlinə aldı və AK(b)P MK və XDİK üzvlərinin Moskvayla birbaşa əlaqə qurmasını qadağan etdi. 1930-1940-cı illərdə Zaqafqaziyada “fikir və düşüncələrə hakim kəsilən” Lavrenti Beriyanın 1935-ci ildə etdiyi “Zaqafqaziya bolşevik təşkilatları tarixinin məsələsinə dair” məruzəsi 1939-cu ilə kimi Azərbaycan dili də daxil 15 dildə 40 dəfə nəşr edilmişdi və burada konkret sinfi və xalq düşmənləri ilə necə mübarizə aparmağın yolları göstərilmişdi. Azərbaycan rəhbər kadrları da bu cür çıxışlardan “ruhlanaraq” partiya daxilində yoxlamalara başlamış və 1933-cu ildən partiya üzvü olan 12 718 nəfər, yəni yoxlanılma aparılmış şəxslərin 22%-i partiyadan qovulmuşdu [9, s.554]. Bütün bunlar respublika daxilində də gələcək repressiyalara bir növ hazırlıq mərhələsi idi. Sadə xalq nümayəndələri isə dövri mətbuatda “Ulu Stalin”ə vədlər verir, Bəhlul Behcət adlı şəxs yazırdı: *“Bütün qüvvət və biliyimi, ölkəmizə və onun milyonlarla əməkçilərinə daha böyük səadətlər gətirən layihənin dahi yaradıcısı böyük Stalinin rəhbərliyi ilə bizi qələbədən qələbəyə aparan bolşeviklər firqəsinə verməyi öhdəmə alıram”* [“Kommunist” qəzeti, 3 iyul 1936, № 152].

Hələ 1924-cü ildə “Kommunist” qəzetinin 20 noyabr 1924-cü il tarixli 259-cu sayında E.Yusifov yazırdı: *“Əvvəla, kimi və ya nəyi mühakimə etməliyik? Mənim nəzərimcə, təşkil edəcək olduğumuz ictimai mühakimələrdə hal-hazırda davam edən Şura quruluşunun möhkəmlənməsinə və irəli getməsinə cürbəcür yollar və hərəkətlər ilə mane olmaq istəyən şəxsləri mühakimə etməliyik”.* Bundan 12 il sonra isə L.Beriya “Pravda” qəzetinin 19 avqust 1936-cı il sayının “Sosializm düşmənlərinin külünü göyə sovurmalı” adlı məqaləsində fəxrlə yazacaqdı: *“Bakıda Baqdasarov, Krılov, Kazmin, Konevski, O.Bayramov, Babayev və başqalarının trotskiçi-zinovyevçi, əksinqilabi terrorçu qrupları ifşa edilmişdir”.* Bütün bunlar onu göstərirdi ki, Sovet rejimi bütün bu həbs və ölümləri əvvəlcədən planlı şəkildə edirdi, sadəcə əlverişli məqamın gəlməsini gözləyirdi. Ölkədə olan bütün narazılıqlar sinfi düşmənlərin buraxdığı şayiə kimi dəyərləndirilir, SSRİ-yə xarici dövlətlərin edəcəyi müharibədən danışılırdı. Son nəticədə isə əgər kollektivləşdirmə əleyhdarları məhz elə bu siyasətin tətbiq edildiyi illərdə aradan götürülmüşdülərsə, bu siyasətə neytral və tərəddüd edənləri mühakimə 1937-də gözləyəcəkdi. Elə, 1936-cı ildə bu repressiyaların birbaşa təşəbbüskarlarından və icraçılarından olan SSRİ “NKVD”nin başına “Qanlı Cırtdan” ləqəbli Nikolay Yejov gətirildi. Bununla da, repressiyalar üçün əməli addımlar atılmasına işıq yandırıldı.

***Repressiyaların başlanğıcı: ilk qurbanlar.*** Vaxtilə J.Danton Böyük Fransa inqilabından sonra demişdi: *“Qalib gəlmiş inqilabın birinci vəzifəsi bu inqilab yolunda canını əsirgəməyənlərin başını kəsməkdir”.* SSRİ-də yerə-göyə sığdırılmayan “Böyük Oktyabr İnqilabı”nın da əsas rəhbərləri zaman-zaman aradan götürülmüşdür. Oktyabr inqilabının “yavru”su adlandırılan “Aprel inqilabı”nın rəhbərləri olan azərbaycan kommunistləri bu siyasətdən kənarda qala bilməzdi, elə XDİK-nın ilk rəhbəri Həmid Sultanov kimi... Xalq Daxili İşlər Komissarlığının yaradılması tarixi belədir: ilkin adı Fövqəladə Komissiya olan AzFK 29.04.1920-ci ildə XI Ordunun Xüsusi İdarəsi ilə birlikdə yaradılmışdır. AzFK-nın formalaşmış aparatı yox idi. Həmin ilin mayın 20-də isə AzFK XI Ordunun Xüsusi İdarəsindən

ayrılaraq müstəqil bir orqana çevrilmişdir [2]. Rəsmi olaraq isə Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin (MİK) 1920-ci il 9 iyun tarixli dekretiylə fəaliyyətə başlamış oldu. 1930-cu illərdən etibarən isə XDİK rəhbərləri bu şəxslər olmuşdur: Mixail Petroviç Frinovski (1930-1933), Aleksey Sergeyeviç Aqrba (1933-1934), Yuvelian Davidoviç Sumbatov-Topuridze (1934-1938), Mixail Qriqoryeviç Rayev-Kamenski (1938), 1938-ci ildən etibarən isə uzun müddət Stepan Fyodoroviç Yemelyanov olmuşdur [26, s.144]. Hələ 1934-cü ildə Azərbaycanda XDİK rəhbərliyinə L.Beriya əvvəldən yaxşı tanıdığı atası gürcü, anası erməni olan Y.Sumbatovu gətizdirdi. Hətta öz tərcümeyi-halını yazmaqda belə çətinlik çəkən bu savadsız şəxsin xüsusi xidməti yalnız məhbusları döymək və işgəncə verməklə onlardan ifadə almaqdan ibarət idi. O, hətta XDİK orqanlarındakı azərbaycanlı müstəntiqlərə etibar etmir, əsas işləri Şer, Tsinman, Markaryan, Ohanesyan, Qriqoryan, Avanesyan, Masatov, Borşov və s. kimi qəddar şəxslərə tapşıtdırırdı. Ona görə də, tam əminliklə deyə bilərik ki, Azərbaycanda repressiyaların bu qədər sərt keçməsininin əsas təşəbbüskarları XDİK-də təmsil olunan bu qeyri-azərbaycanlılar olmuşdur. 1934-cü ildə S.M.Kirovun öldürülməsindən sonra çox adamı məsuliyyətə cəlb etmirdilər, lakin tezliklə “sosial cəhətdən təhlükəli” elementlərə qarşı həbs dalğası başlayır və ilk növbədə yuxarı partiya orqanlarında təmsil olunanlar məsuliyyətə cəlb edilir. Tarixşünaslıqda 1936-1938-ci illəri əhatə edən repressiya dalğasına “Böyük terror” dönəmi deyilir və bu ifadəni ilk dəfə tarixçi Robert Konkvist gətirmişdir [32, s.8]. Elə, “Böyük terror” SSRİ-də 1936-cı ilin yayında Moskvada keçirilən “Trotsikiçi-Zinovyevçi” müxalifət qrupunun rəhbərlərinin mühakiməsi ilə başladı. Dövlət təhlükəsizlik orqanlarının Leninqradın Zinovyevçilərdən “təmizlənməsi” əməliyyatı SSRİ-nin müxtəlif bölgələrində keçmiş müxalifətçilərin inkişafı üçün də bir növ siqnal olmuş oldu. Stalin isə özünün əsas vəzifəsi kimi sovet dövlətinin inkişafının müəyyən mərhələlərində yeni cəmiyyət qurmaq üçün seçdikləri vasitələrə tənqidi münasibət göstərən, daxili siyasətin sərtliyindən narazılıq göstərənlərin hamısının məhv olunmasını müəyyən etdi. Azərbaycan da bu prosesdə kənarda qalmadı və 1936-cı ilin aprelində O.Bayramov, A.Babayev, P.Kanevski, T.Krılov kimi şəxslərin təsisçisi olduğu əksinqilabi trotskiçi təşkilat “üzə çıxardıldı”. Ardınca isə XDİK-nın özündə casus şəbəkəsi ifşa edildi [30, s.338-339]. Bütün bunları ölkəmizdə başlayacaq repressiya dalğasının ilk işartıları adlandıra bilərik.

1936-cı ilin payızından SSRİ-də və Azərbaycanda yeni düşmən axtarışı başlayır. Belə ki, NKVD rəhbərliyinə H.Yaqodanın yerinə N.İ.Yejov gəlmiş, Azərbaycanda isə Əli Bayramlı rayonunda 120 nəfərin həbs olunmasıyla nəticələnən “əksinqilabi təşkilat” tapılmışdır. Hələ 1936-cı ilin yazında isə alban əsilli publisist, “Azərnəşr”in rəhbəri Əhməd Triniç həbs edilmişdi. Onunla düşmən münasibətdə olduğu deyilən M.C.Bağırov isə Triniçin AXC ilə əlaqələrini üzə çıxardan məktubunu AK(b)P MK Büro iclasında səsləndirdi. Artıq bütün bunlar o demək idi ki, Respublika daxilində əksinqilabi şəbəkələr var və Triniçin işgəncə altında verdiyi yalan ifadələr əsasında həbslər başladı. 1936-cı ilin dekabrında tanınmış partiya və ictimai xadimi Ruhulla Axundov həbs olundu və onun ilk dindirilməsi zamanı Azərbaycan hakimiyyətinə qarşı müxalifətdə olan 54 nəfərin adını çəkdi ki, həmin şəxslər partiya, dövlət, elm, ədəbiyyat və incəsənət xadimləri idi. R.Axundovun istintaq materiallarına görə “aydın oldu ki”, 1929-cu ildə Azərbaycan Milli Partiyası yaradılmış, R.Axundov isə onun rəhbəri olaraq guya Azərbaycanda milli dövlət qurmağa çalışırmışlar.

Repressiyalar 1936-cı ilin dekabrında əyalətlərə qədər gedib çıxdı, nəticədə XDİK Naxçıvanda bütün partiya rəhbərliyini məsuliyyətə cəlb etdi. I katib Mehdiyev əksinqilabçı kimi məhkəməyə verildi və “düşmən və cinayətkar ünsürlərlə əlaqəyə görə edam edildi” [10, S.628]. Repressiyalar xanımlarımızdan da yan keçmir və 1936-cı ilin dekabrın 7-də Azərbaycan SSR XDİK-nın müvəkkili Platonov arayış tərtib edir: *“Dövlət Təhlükəsizliyi İdarəsində olan materiallardan görünür ki, vətəndaş Qiyasbəyli Mədinə xanım Mehdi qızı 1897-ci ildə anadan olmuş, qeyri-leqal əksinqilabi müsavatçı təşkilatın üzvüdür”* [11, s.60-61]. 1937-ci ilin sentyabrın 28-da isə XDİK üçlüyünün qərarı ilə gecə 01:25 dəqiqədə 45 yaşlı Mədinə xanım güllələnir. Bu artıq qaniçən çekistlərin gözünün heç nə görməməsi demək idi. M.C.Bağırov isə ilin sonunda Stalinə yazırdı: *“1936-cı ildə tərəfimizdən 752 nəfərin üzv olduğu 78 əksinqilabi təşkilat ifşa olunmuşdur. Bu yaxınlarda XDİK tərəfindən Voroşilov, Kalinin, Beriyanın Bakıya səfəri zamanı onlara qarşı terror aktı planlaşdıran yeni terrorçu təşkilat ifşa edilmişdir”* [19, s.100]. 1937-ci ilin yanvarından etibarən ölkənin keçmişdə və indidə siyasi elitanı təşkil edən şəxslər əsas hücum hədəfinə çevrildi. Məhəmməd Əmin Rəsulzadə bu barədə yazırdı: *“1937-ci ildə Moskvada*

*qurulan inqilabi məhkəmədə Trotski tərəfdarlarını təmizləmək üzrə məhkəmələr başladı. Bu məhkəmələr əsnasında Qafqaz kommunistlərindən Budu Mdivani Qafqaz millətçiliyində, xüsusilə "Müsavat"la münasibətdə olmaqda ittiham edilirdi. Bu, Azərbaycanda da başlanacaq geniş miqyaslı "təmizləmə"yə işarə idi"* [26, s.22]. Qanunun keşiyində durmalı olan SSRİ-nin baş prokuroru A.Y.Vişinski isə "cəmiyyətin və bizim həyatımızın elə anları vardır ki, həmin anlarda köhnəlmiş qanunlar ona uyğun gəlmir və o qanunları sadəcə olaraq kənar atmaq" lazım olduğundan danışırdı...

***"Ağ terrora qarşı Qırmızı terror".*** Müstəqillik dönəmində Azərbaycan Kommunist partiyasının sədri olmuş Ramiz Əhmədov yazırdı: "Bolşeviklər "Ağ terrora qarşı Qırmızı Terror!" şüarını irəli sürməklə zora zorla, qana qanla, sui-qəsdlərə və dağıntılara qarşı barışmaz mübarizə ilə cavab verdilər" [12, s.9]. Əslində, R.Əhmədov kimi kommunistlər bu fikirlərlə özlərinə haqq qazandırmaq istəsələr də, özləri özlərininin terrorist mahiyyətini ifşa etmiş olurlar. Bütün dünyada imperializmə, zülmə qarşı olduqlarını, insan haqları və demokratiyanı müdafiə etdiklərini deyən Sovet rejimi bu fikirlərin tam əksində idi.

Ölkənin hər yerində deyilirdi ki, 1933-cü ildə Trotskinin göstərişi ilə SSRİ-də "Mərkəz" yaradılmışdı. Bu "Mərkəz"in əsas vəzifəsi isə inanılmış adamlardan kiçik kollektiv yaradıb ilk növbədə Stalin olmaqla rəhbər kadrları aradan götürmək idi. Elə bütün bunları kökündən həll etmək üçün Ümumittifaq miqyasında "təmizlik" lazım gəldi. Ölkədə suni şəkildə şübhə mühiti yaradılmağa başladı. Xarici ölkə nümayəndəlikləri ziyarət edən hər bir sovet vətəndaşı təhlükəsizlik orqanları üçün potensial casus hesab edilirdi. Ölkədə zor gücünə keçirilən mitinqlərdə isə deyilirdi: *"Yejov yoldaşı yüksək ad alması münasibətilə təbrik edərək, vətən xainlərinin əclaf trotskiçi bandasını aşkara çıxardıqlarına görə ona və şanlı çekistlərə - Xalq Daxili İşlər Komissarlığı işçilərinə hərarətli təşəkkür izhar edirik"* ["Kommunist" qəzeti, 1 fevral 1937-ci il, № 25]. 1937-ci ilin fevral-mart aylarında keçirilən ÜİK(b)P MK-nin plenumunun martın 3-dəki yekun iclasında İ.Stalin hər yerdə kütləvi düşmən axtarışının xarakter daşımalı olduğunu vurğulayır. Bu plenumun ardınca AK(b)P MK plenumu keçirilir, bununla da kütləvi repressiyalara start verilir. Ölkənin hər yerində və mətbuatda düşmən ovuna çıxırlar. Məsələn, Ağdamın Mərzili kəndində əksəriyyəti yaxın qohum olan 40 nəfər həbs edilir və onların günahlarını "sübut etmək" üçün qohum-əqrəba üz-üzə qoyulur [15], günahsız yerə kolxozda öz zəhmətləri ilə çalışan Köçəri və Murad Gülməmmədoğlu qardaşları güllələnirlər [14]. Və yaxud İsmayıllı rayonunun Kürdmaşı kəndində 1937-ci ilin noyabrında 18-70 yaş arasında kişi əhalinin hamısı – 76 nəfər XDİK tərəfindən həbs edilir [18, s.136].

Professor Bəkir Çobanzadə işgəncə altında verdiyi ifadələrdən sonra Azərbaycanda qaldırılacaq uydurma üsyanla bağlı 3 variant demişdi:

1) Üsyanı dağ rayonlarından (Dəstəfurda, Gədəbəydə, Kəlbəcərdə və s.) başlamaq;
2) Üsyana İran və Türkiyə ilə sərhədyanı rayonlarda başlamaq (çünki, oradan həm silah alınmalı, həm də quldur dəstələri şəklində adamlar köməyə gəlməli idilər);
3) Üsyana Bakının özündə başlamaq (çünki, təşkilat belə hesab edirmiş ki, Bakını ələ keçirmək elə bütün Azərbaycanı ələ keçirməkdir) [11, s.92].

Bu cür kortəbii həbslər və işgəncə altında verilən ifadələr bir daha sübut edir ki, XDİK-də əyləşən şəxslər savadsız insanlardır. Müttəhimlər haqqında tərtib olunan sənədlərdə kobud səhvlər buraxılır, müttəhimin həyatı necə gəldi yazılır və ən əsası istintaqı qane edəcək şəkildə yazılırdı. XDİK işçiləri üçün isə bir şəxs statusundan asılı olmayaraq partiyadan kənarlaşdırılıbsa, demək dərhal onun həbs edilməsi üçün müxtəlif bəhanələr axtarılmalı idi. Bu isə yalan ifadə almağa alışmış müstəntiqlər üçün elə də çətin deyildi. Hətta bəzən işlərinə hərbi tribunalda baxılmalı olan müttəhimlərə veriləcək cəza əvvəlcədən sənədə yazılırdı. XDİK əməkdaşları, xüsusən bölgələrdə fəaliyyət göstərən prokuror, milis və digərləri özlərinə verilən səlahiyyətlərdən istifadə edərək kəndliləri şantaj edir, mal-mülklərini əllərindən alırdılar. Bu isə onların öz vicdanları qarşısında hesabat vermədiyi demək idi...

SSRİ XDİK rəhbərliyi repressiyaları daha da sistemləşdirmək üçün yeni bir qərar verdi:

"SSRİ Xalq Daxili İşlər Komissarının operativ əmri" № 00447

Keçmiş qolçomaq, cinayətkar və digər antisovet elementlərə qarşı repressiv əməliyyatların aparılması haqqında

30 iyul 1937

Moskva şəhəri

| | Birinci kateqoriya | İkinci kateqoriya | Cəmi |
|---|---|---|---|
| Azərbaycan SSR | 1500 nəf. | 3750 nəf. | 5250 nəf. |
| Gürcüstan SSR | 2000 nəf. | 3000 nəf. | 5000 nəf. |
| Ermənistan SSR | 500 nəf. | 1000 nəf. | 1500 nəf. |

SSRİ Xalq Daxili İşlər Komissarı Nikola Yejov [33].

Yuxarıdakı əmrdə I kateqoriya güllələnməli, II kateqoriya isə sürgünə göndərilməli şəxslərin sayları idi. Arxiv sənədindən də aydın olur ki, Azərbaycan Cənubi Qafqaz respublikaları içərisində repressiyanı ən ağır keçirdən ölkələrdən olmuşdur. I kateqoriya üzrə hökm Xalq Daxili İşlər Komissarının, XDİK İdarə rəisinin və vilayət şöbəsi rəisinin göstərişi ilə müəyyən edilmiş yerdə və qaydada icra olunur. Bu zaman hökmün icra vaxtı və icra edildiyi yer tam gizli saxlanılır, hökmün icra edildiyinə dair sənəd istintaq işinə əlavə edilirdi. Əməliyyatın keçirilməsinə ümumi rəhbərlik N.Yejovun müavini – Dövlət Təhlükəsizliyi Baş İdarəsinin rəisi Mixail Fronskiyə həvalə olunur [26, s.337]. 00447№-li əmrlə inzibati orqan kimi NKVD üçlükləri fəaliyyətə başladı. "Üçlük"lər müttəfiq və muxtar respublikalarda, vilayət və diyarlarda təşkil edilir, əsasən yerli XDİK-nın rəhbəri, prokuror və ya məhkəmə hakimi və yerli partiya rəhbəri daxil idi. İttiham edilən şəxslər o qədər çox idi ki, məhkəmələr qərar verməkdə çətinlik çəkirdi. Məhz bu vaxtı "Üçlük"lər köməyə çatır, onlara güllələnəcək, sürgün ediləcək və uzun müddətli həbs ediləcək şəxslərin siyahısı təqdim edilirdi. "Üçlük"lərlə yanaşı XDİK nəzdində Xüsusi müşavirə, SSRİ Ali Məhkəməsi Hərbi Kollegiyasının Səyyar Sessiyaları fəaliyyət göstərirdi [19, s.155]. M.C.Bağırovun təklifinə əsasən Azərbaycanda XDİK "Üçlük"nə Yuvelian Sumbatov, Teymur Quliyev və Cahangir Axundzadə daxil edildi. Əslində, Kirovun ölümündən sonra keçirilən repressiyaların ilkin dalğası onu göstərdi ki, ölkədə, eləcə də partiyada eyni fikrə və siyasi düşüncəyə malik olmaq haqqında söylənilən fikirlər tamamilə əsassızdır.

***"Şamaxı işi".*** İ.Stalin çıxışlarından birində demişdi: *"Məgər təəccüblü deyilmi ki, trotskiçilərin və buxarinçilərin yuxarı təbəqəsinin şpionluq və qəsd fəaliyyətindən biz yalnız son zamanlarda, 1937-1938-ci illərdə xəbər tutduq, halbuki, materiallardan göründüyü kimi, bu cənablar hələ oktyabr revolyusiyasının ilk günlərində xarici razvedkaların şpionları olmuş və qəsd işləri görmüşlər. Necə olmuşdur ki, biz bu ciddi işi nəzərdən qaçırmışıq?!"* [26, s.72]. Bu çıxış əslində bir xəbərdarlıq idi, yəni inqilabda rol oynamış kommunistlər belə repressiyalardan kənarda qala bilməzdilər. Hər bir kəs yeni yaradılan sistem haqqında düşünməli və bu sistemə qarşı heç bir tərəddüdü ola bilməzdi. Bunun Azərbaycanda bariz nümunəsi dövrünə damğa vurmuş "Şamaxı işi" olmuşdur. Əslində, Stalin və A.Jdanova görə Azərbaycanda "xalq düşmən"lərinə qarşı mübarizə zəif gedirdi və bunu M.C.Bağırova göndərdikləri teleqramda da açıq şəkildə dilə gətirmişdilər. Bununla da, "Trotskiçi-Zinovyevçi" məhkəmə prosesinə oxşar Şamaxı prosesi yaradılmağa başladı [18, s.146]. Bu cür fitnəkarlığı törətmək üçün XDİK-də A.Markaryanın rəhbərliyi ilə xüsusi qərargah yaradıldı. İlk olaraq, 1937-ci ilin iyununda Şamaxı rayonunun Təklə kəndindəki Molotov adına kolxozun sədrinə tapşırılır ki, respublika toplanışında iştirak etmək üçün 70 nəfər qabaqcılın siyahısını tərtib etsin, siyahı tutulandan sonra adı keçmiş 70 nəfərin hamısı XDİK tərəfindən həbs edilir. Bakıya aparılıb 60 nəfəri güllələndikdən sonra elan edilir ki, bununla Şamaxıda Həmid Sultanovun rəhbərliyi ilə antisovet, terrrorçu təşkilat üzə çıxarılmışdır [40, s.288]. Əslində reallığa baxdıqda Həmid Sultanovun Şamaxıyla bağlı heç bir əlaqəsi yox idi. Lakin, Xalq Kommunal Təsərrüfat Komissarı kimi Bakı-Şamaxı şosse yolunun çəkilişinə rəhbərlik etdiyi üçün bu proses onun adıyla bağlandı.

Bəzən bütöv bir yüksək statuslu qrupu mühakimə etmək üçün açıq məhkəmələr təşkil edilirdi ki, "günahkar" törətdiyi cinayəti açıq surətdə "etiraf etsin". Ona görə də, SSRİ prokuroru A.Vişinski deyirdi: "Mən tək ittiham etmirəm! Ancaq güllələnməyə, ölümə layiq olan bu cinayətkarları xalqla birlikdə ittiham edirəm" [38, s.163]. Şamaxı şəhərində "kontrrevolusyon, üsyançı, şpion-terrorçu, diversiyaçı-ziyançı, burjua nasionalist təşkilat"la bağlı istintaq prosesi 1937-ci ilin may ayında başlayaraq oktyabra qədər davam etmişdir. "Şamaxı işi"nə dair sənəddə deyilirdi: "Məhkəmə prosesi göstərdi ki, bu kontrrevolusyon banda Azərbaycanda sovet hökumətini yıxmaq, SSRİ xalqları arasındakı Lenin-Stalin dost-

luğunu pozmaq, Azərbaycanı böyük SSRİ-dən ayırmaq üçün əllərindən gələni əsirgəməmişlər. Bu vətən xainləri Ruhulla Axundov, Sultan Məcid Əfəndiyev, Hüseyn Rəhmanov, Qəzənfər Musabəyov, Heydər Vəzirov, Dadaş Bünyadzadə, Həsən Səfərov, Eyyub Xanbudaqov və Həmid Sultanovun göstərişi ilə işləmişlər" [20, s.51]. Həmid Sultanovla yanaşı 13 nəfər də bu prosesə daxil idi ki, bunlar arasında Şamaxı rayon partiya komitəsinin I katibi Xəlfə Hüseynov, Şamaxı rayon icraiyyə komitəsinin sədri İsrafil İbrahimov, rayon partiya komitəsinin II katibi Aram Avalov, rayonun prokuroru Əhməd Əmirov və digərləri daxil idi. Məhkəmə prosesi 27 oktyabr-2 noyabr 1937-ci ildə keçirildi və mətbuatda da açıq şəkildə dərc edildi. Prosesi aparmaq üçün Azərbaycan SSR Ali Məhkəməsinin sədri Teymur Quliyevin sədrliyi ilə xüsusi heyət yaradıldı ki, buraya Hacı Rəhimov, Ağaəli Babazadə, ehtiyat üzv kimi Gervant Mailyan daxil idi. Bu prosesə dəstək vermək üçün Şamaxıda keçirilən mitinqdə deyilirdi: "Şamaxı əməkçiləri Yejov yoldaşa öz razılıqlarını bildirir və söz verirdilər ki, ziyançı əclafların törtöküntülərini amansız surətdə ifşa edəcəklər" ["Kommunist" qəzeti, 27 oktyabr 1937, № 249]. Sonda məhkəmənin qərarı ilə H.Sultanov daxil 9 nəfər güllələnməyə məhkum edildi, digərləri isə həbsə göndərildi.

***Acı talelər, kütləvi həbslər, deportasiyalar.*** 1937-ci ilin iyununda Azərbaycan KP-nın XIII qurultayında M.C.Bağırov daxili işlər komissarı Sumbatovu müdafiə edərək deyir: *"Siz bilirsiniz ki, hazırda XDİK tərəfindən aparılan işlərə görə biz çekistlərimizə, XDİK-na böyük bolşevik təşəkkürümüzü bildiririk"* [19, s.139]. 1956-cı ildə isə bu dəfə məhkəmədə müttəhim kürsüsündən çıxış edən M.C.Bağırov deyir: "O illərdə Azərbaycan XDİK orqanları tərəfindən həbs olunmuş partiya-sovet fəallarının sayının bu qədər çox olması mənə indi aydın olur" [31, s.114].

XDİK işçilərinin savadsız olması hər birimizə bəlli olduğu kimi, bu savadsızlığın müttəhimlərə gülünc ittihamlara gətirib çıxarması da bəllidir. Məsələn, araba təkərinin ziyanvericiliklə qırılması, kağız istehsalına qarşı ziyanvericilik, Azərbaycan Dövlət Universitetinin dövlətdən ayrılması və s. Bu isə ittiham olunan şəxslərinin sayının çox olduğunu göstərirdi ki, onlara qarşı artıq uydurma ifadələr də tapmaqda çətinlik çəkirdilər. Hətta o qədər çox kağız istifadə olunurdu ki, 1937-ci ilin blankları bitdikdə məcburən 1938-ci ilin blanklarından istifadə edirdilər. Bu zaman isə sadəcə 1938 rəqəmində 8-in üzərini silib 7 yazmaq kifayət edirdi. Bu cür qaniçənlik müttəhim olunan şəxslərin ailə və qohumlarına da tətbiq edilirdi. Məsələn, 1937-ci ildə həbs olunub güllələnmiş Azərbaycan SSR Laçın rayon Partiya komitəsinin I katibi Teymur Salahovun oğlu – məşhur rəssam Tahir Salahov məktəbi "əla" qiymətlərlə bitirməsinə baxmayaraq, "xalq düşməni"nin oğlu olduğu üçün İ.Repin adına Peterburq Universitetinə daxil ola bilməmişdi. Hətta 1938-ci ilin mayın 20-də verilmiş "Repressiya olunmuş valideynlərin uşaqları haqqında" SSRİ XDİK-nın 106 №-li direktivində yazılırdı:

*"...5-ci bənd. Antisovet və terrorçu əhval-ruhiyyədə olan sosial təhlükəli uşaqlar, ümumi qaydalarla məhkəməyə verilməli və XDİK-ın Düşərgələr üzrə Baş İdarəsinin fərdi naryadı üzrə düşərgələrə göndərilməlidir.*

*...8-ci bənd. Repressiya olunmuş valideynlərin uşaqlarının yaşını ötməsi və təhsilini başa vurması səbəbindən SSRİ XDİK-nın İnzibati-təsərrüfat İdarəsinin xüsusi göstərişi olmadan uşaq evlərindən buraxmaq olmaz"* [40, s.289-290].

Xalq Daxili İşlər Komisarının müavini Borşev öz oğlunu müailəcə edən həkimi belə güllələtdirir və Gəncə şəhərinə Kovrişenkonu göndərərək ondan şəhər əhalisindən repressiya ediləcək əhalinin siyahısını hazırlamağı tapşıtdırır. Borşev 22 dekabr 1937-ci ildə "tam məxfi" şriftlə M.C.Bağırova yazırdı: *"Bildirirəm ki, AK(b)P MK-dən göndərilən materiallar əsasında bizim Bakının bəzi kəndlərində apardığımız əməliyyatlar nəticəsində Lenin, Molotov, Orconikidze, Şaumyan və Kirov rayonlarında 130 nəfər götürülmüşdür"* [5]. Lənkəranda isə XDİK-ə ehtiyac duymadan rayon partiya komitəsi, partiyanın üzvü Münəvvər Əliyevanın ifşa olunaraq həbs edilmiş əriylə əlaqə saxladığı üçün partiyadan qovurlar [30, s.82].

SSRİ-də dinlərə, eləcə də İslam dininə qarşı mübarizə 1920-ci illərdən başlamışdı. Hələ 1929-cu ilin ÜİK(b)P MK katibi L.Kaqanoviç SSRİ-nin bütün müttəfiq respublikalarına "Din əleyhinə işin gücləndirilməsi tədbirləri" haqqında məktub göndərmiş və bununla repressiyaları sanksiyalaşdırmışdı. Artıq bu siyasətin nəticəsi idi ki, 1933-cü ildə Azərbaycanda 17 məscid qalmışdı. Düzdür, bu mübarizə bir müddət səngisə də, "Böyük terror" dönəmində yenidən alovlandı. Artıq rəsmi mənbələrdən aydın

olur ki, 1930-cu illərin sonunda Azərbaycanda Bəhailik, Nəqşbəndiyə və Əli-İlahi kimi çox sayda təriqətlər praktiki olaraq ləğv edilmişdi [39, s.141]. *"Bakıda 320 özəkdə birləşmiş 15500 allahsızın aktiv propaqandası və Bakı sovetinə verilmiş onminlərlə əməkçi tərəfindən imzalanmış ərizələrin nəticəsində Bibiheybət, İmamzadə, Əliayaq, Kərbəlayi Əbdülhüseyn məscidləri kimi cəhalət ocaqları qapanmış və onların yerində yeni kültür ocaqları açılmış və açılmaqdadır"* ["Kommunist" qəzeti, 20 dekabr 1936, № 292].

Sovet təbliğatıyla yazılmış kitablarda deyilirdi: *"SSRİ-də sosializmin qələbəsi sayəsində sovet demokratiyası yeni bir mərhələyə, inkişafa daxil oldu. 1937-ci ildə Stalin marksizm-leninizmə zidd olan bir tezis - sosializm yeni-yeni nailiyyətlər qazandıqca, sinfi mübarizənin daha çox kəskinləşməsi tezisini irəli sürdü"* [9, s.574]. Bir neçə ay Daxili İşlər Komissarı olmuş M.Q.Rayev-Kamenskinin əmri ilə bu müddətdə 2000 Azərbaycan vətəndaşı güllələnmişdir. Rayevin qərarları ilə güllələnlər arasında, Əhməd bəy Pepinov, Teyur Salahov və Ayna Sultanova da var idi. Bütün bu siyasətlərin nəticəsi idi ki, Azərbaycanda 1937-ci ilin əvvəlindən 1938-ci il yayın əvvəlindən 1938-ci ilin payızına qədər Azərbaycan, faktiki olaraq rəhbərlik problemi çəkdi.

SSRİ-də xarici vətəndaşları potensial casus gözü ilə baxıldığı üçün onlara qarşı da repressiyalar tətbiq olunurdu. 1937-1938-ci illərdə təxminən 800 alman XDİK-nın № 00439 əmrinə əsasən məhkəmə və istintaqsız mühakimə edilmişdir. 1930-cu illərin ortalarından etibarən SSRİ-də "pasportlaşma" siyasəti həyata keçirilərkən İranlı adı ilə Güney azərbaycanlılara bu pasportlar verilmədi. Bu zaman İran da daxil sərhəd rayonlarından şübhəli elemenrtlərin deportasiyası XDİK-na tapşırıldı və sərhəd zonalarında xüsusi yaşayış rejimi tətbiq edildi. Stalin şəxsən bu məsələni diqqətdə saxlayaraq 1938-ci ilin yanvarın 17-də Yejova sual verdi: *"Bakıda və Azərbaycanda bütün İranlıların müəyyən edilərək həbs edilməsi üçün nə edilib?"*. Ardınca yanvarın 18-i Yejovun imzası ilə Azərbaycan XDİK-na "bütün iranlıların – nə sovet, nə də xarici pasportu olmayan iranıların dərhal həbs edilməsi" haqqında şifrəli teleqramı göndərildi [32, s.294-295]. İlk növbədə, Bakı və Kirovabaddakı şübhəli iranlılar həbs edilməyə başlandı. 1938-ci il 12 may tarixinə aid "Azərbaycan SSR XDİK-nın iranlılarla bağlı tədbirləri haqqında arayış"a əsasən, Bakıda 6510 nəfər, Kirovabadda 2268 nəfər, Ağdamda 181 nəfər "aradan götürülmüşdür". 5416 nəfər ailə başçısı və 9105 nəfər onların ailə üzvü İrana göndərilmişdir [6]. Lakin, İrana göndərilən həmyerlilərimiz orada da casus kimi təzyiqlərə məruz qalmışdılar.

***Siyasi və ictimai xadimlərə qarşı repressiya.*** "Ruhulla Axundov, Sultan Məcid Əfəndiyev, Musabəyov, Qarayev, Bünyadzadə, Mirzə Davud Hüseynov, Həbib Cəbiyev, Həmid Sultanov, Qədirli, Əhməd Triniç və başqalarının əməkçi kütlələrinə qarşı kini bir anda olsa belə səngiməmişdir" ["Kommunist" qəzeti, 9 oktyabr 1937, № 234]. Bununla bağlı, Məhəmməd Əmin Rəsulzadə isə yazırdı: *"Azərbaycanın sovetləşdirildiyi ilk gündən başlayaraq müsavatçılıq və panturanizmə qarşı amansız mübarizə aparan Ruhulla Axundov "panturanizmin zəhərli bir nümayəndəsi və Müsavat partiyasının zavallı bir agenti" kimi günahlandırıldı"*.

1937-ci ilin iyulun 31-də ÜİK(b)P MK-nın Siyasi Bürosunun verdiyi yeni bir qərarla partiya rəhbərliyi bir daha təsdiqləyir ki, repressiyalar genişləndiriləcək və bunun üçün də yeni təcridolunma düşərgələri yaradılacaq. XDİK artıq hər rayon üzrə şöbələrə I və II kateqoriyalar üzrə mühakimə ediləcəklərin siyahısını göndərirdi, onlar da müvafiq üzrə rayon və kəndlərdə bunu tətbiq edirdilər. Elə bunun nəticəsidir ki, SSRİ XDİK əməkdaşları uzun müddət qanunsuz əməllərinə görə mühakimə olunmadılar. Bu repressiyalar isə Azərbaycanda öz qurucularını da aradan götürdü – 1920-ci il 28 apreldən sonra ilk hökumətin üzvlərinin hər biri və keçmiş "Hümmət"çilər güllələndilər (N.Nərimanov və S.Ağamalıoğludan başqa). "Hümmətçi"lərdən yalnız MK-üzvü Mirbəşir Qasımov sağ qaldı, baxmayaraq ki o, 1936-cı ildə Aşura günlərində əzadarlıq məclislərində iştirak etmişdi. Bu isə xüsusən M.C.Bağırov üçün bağışlanmaz səhv olsa belə onun səhvləri bağışlandı. Maraqlısı odur ki, Sovet Azərbaycanının əsasını qoyanlar mənasız ittihamlarla repressiya ediləcəkdilərsə, "özünü müsəlman dünyası ilə yanaşı qoyan və azacıq da olsa, sovet rejiminə bağlılığı olan ortabab azərbaycanlı üçün kim örnək olacaqdı?!" [36, s.172]. XDİK işçiləri siyasi xadimləri ittiham edərkən hətta I katib Mir Cəfər Bağırov əleyhinə də ifadə almağı da unutmurdular, vaxtı gələndə onun əleyhinə arqument kimi istifadə etmək üçün.

İtiiham edilənlərdən Ruhulla Axundov əksinqilabçı təşkilatın əsas rəhbəri kimi götürülürdü, bunun üçün də ona qarşı ağır işgəncələr tətbiq edilirdi və istintaq protokulunda yazılırdı: *"Müttəhim 2*

*saat 15 dəqiqə susdu", "müttəhim 3 saat 40 dəqiqə suallara cavab vermədi", "müttəhim 3 saat 58 dəqiqə susdu"* [38, s.161]. Azərbaycan SSR Mərkəzi İcraiyyə Komitəsinin sədri olmuş Sultan Məcid Əfəndiyev isə işgəncələrə tab gətirməyərək bildirmişdi ki, heç bir əksinqilabi təşkilatın üzvü olmasam da, nəyə desəz verin imza atım. Hətta S.M.Əfəndiyevi ittiham edərək özünə haqq qazandırmaq istəyən Quba rayon İcraiyyə komitəsinin sədri Məmmədxanovun özü də keçmişdə və indi etdiyi səhvləri boynuna almamaqda ittiham edilirdi. Bütün bu "uğurlu" ifşaların nəticəsidir ki, 1937-ci ilin iyulun 23-də SSRİ Ali Soveti tərəfindən Azərbaycan XDİK əməkdaşları Y.Sumbatov, V.Gerasimov, İ.Qavrilov "Lenin" ordeni ilə, N.Enqor, L.Sinman, T.Borşev, İ.Klimençiç, Ə.Tağıyev və Ə.Əliyev "Qırmızı Ulduz" ordeni ilə təltif edilmişlər [19, s.165]. 1937-ci ilin oktyabrında keçirilən Azərbaycan KP MK-nın plenumunda artıq diqqət Qarabağ, Naxçıvan və Kirovabad partiya təşkilatlarına verilir, orda yoxlamalar başlayır. Ümumilikdə isə 1937-ci ildə orta hesabla "üçlük"lər hər ay 730 nəfəri həbs etmiş, onların 460 nəfəri güllələmişdir.

1938-ci ildən etibarən isə repressiyalar sərtləşdirilir, Stalinin N.Yejova göndərdiyi məktubda Bakıdakı neft mədənlərində eserlərin çoxluq təşkil etdiyi və onların dərhal cəzalandırılmasını tələb edir. Bunun nəticəsində yanvarın 31-də "Antisovet elementlər haqqında" qərar qəbul edilir, yeni repressiya ediləcəklərin sayı müəyyənləşdirilir. Azərbaycan SSR-də 2000 nəfər güllələnməli, 1000 nəfər sürgün edilməli idi. Repressiyalar sərtləşdikcə narazılıq da artırdı, belə ki 1938-ci ilin aprelində M.C.Bağırova töhmət məktubu göndərən Molotov yazırdı: "Burada nə isə qaydasında deyil". Azərbaycan XDİK-də rəsmi yoxlamalar başlanılır. Ona görə, L.Beriya 1938-ci ildə Y.Sumbatovu öz yanında daha yüksək vəzifəyə təyin edir, onun yerinə isə Mixail Rayevi təyin edib yoxlamaları dayandırır. Lakin, "günah keçisi" kimi XDİK Dövlət Təhlükəsizliyi İdarəsinin rəisi Gerasimov həbs edilir. Elə həmin ildə yeni "üçlük"ün tərkibi müəyyən edilir: M.Rayev, respublika prokuroru Ağahüseyn Əlihüseynov və MK katibi Mirteymur Yaqubov. Artıq bu cür repressiyaların nəticəsində 1 yanvar 1937-ci ildə Azərbaycan KP üzvləri və üzvlüyə namizədlərin sayı 47194 nəfər idisə, 1938-ci ilin yanvarın 1-də 45331 nəfər idi [13, s.808].

Repressiyaların həcminin böyük olması o dövrdə I katib olmuş M.C.Bağırovun adıyla bağlanılır. Bəli, Bağırov o dövrki partiya xadimləri kimi hamıdan şübhələnirdi, ağır xasiyyətli adam idi. Amma bu o demək deyil ki, ona verilmiş vəzifə səlahiyyətlərini aşırdı. Üstəlik, bu fikirlə də razıyıq ki, repressiyalar dönəmində M.C.Bağırov deyil, yerində məsələn, H.Sultanov, Ə.Qarayev və digərləri olsaydı, yenə də eyni hərəkətlər olacaqdı. Çünki, Moskvanın göstərişlərini yerinə yetirməyən nəinki vəzifəsindən, canından da imtina etməli idi [41, s.298]. Bütün hər şey XDİK-nın əlində idi və onların R.Axundov və H.Sultanovla bağlı olan uydurma təşkilat işiylə bağlı 1700 adam, o cümlədən 20 xalq komissarı və müavini, 34 rayon icraiyyə komitəsinin sədri, 52 raykom katibi, 8 professor və s. cəzalandırıldı [21].

***Elm, ədəbiyyat və incəsənət xadimlərinə qarşı repressiyalar.*** Əksinqilabçıların əleyhinə keçirilən mitinqlərin birində Aşıq Mirzə deyir:

"Stalin bir bağban olub bəsləyir sovet bağını,
Yejov yoldaş da dağıdır terrorçuların yığnağını".

Əslində, bu cür totalitar rejimin altında qalan təkcə "xalq düşmən"ləri deyildi, eyni zamanda yuxarıdakı misal kimi sənət adamlarının əsərləri də bu sırada idi. Ziyalılar kəskin şəkildə xalqın gözündən salındı, onlar illərlə təbliğ etikləri bəşəri dəyərlərdən üz döndərməyə məcbur edildilər. Necə deyərlər, dövr bunu tələb edirdi...

Repressiyalar ölkənin ən böyük təhsil ocağı Bakı Dövlət Universiteti – o vaxtki adıyla Azərbaycan Dövlət Universitetini (ADU) 1937-ci ildə haqladı. 1937-ci ilin yanvarında ADU-nun rektoru Balabəy Həsənbəyov partiyaya əksinqilabi böhtanlar atdığı üçün həbs edilmişdir. Ona qarşı əsas ittiham isə universitetdə millətçiliyi qızışdırmaq idi [17]. BDU-da ən çox repressiyaya məruz qalan isə məhz Tarix fakültəsi olmuşdur. Belə ki, fakültənin dekanı professor B.N.Tixomirovla yanaşı, dekan müavinləri Baba Əsgərov və Hüseyn Biləndərli, fakültənin müəllimləri professorlar A.Bukspan, Nikolayev və digərləri də həbs olundular [16]. Aleksandr Bukspanla bağlı qərarda deyilirdi ki, o, Trotskiçi-Zinovyevçi təşkilatla əlaqədə olaraq Bakıda silahlı üsyana hazırlaşırmış. Onların hər biri günahsız olsa da, yalan ifadələrlə güllələnmişlər. Hətta, H.Biləndərlinin 10 ay davam edən istintaq materiallarında yüz-

lərlə kağız istifadə olunsa da, cəmi 15 dəqiqəyə məhkəmə onu günahkar elan edib güllələnməyə məhkum etmişdir. Ümumilikdə, isə BDU-nun 60-a qədər professor, müəllim və işçi heyəti, 20-yə qədər tələbəsi təqiblərə məruz qalmışdır [34, s.27].

BDU-nun ilk azərbaycanlı rektoru olmuş yazıçı Tağı Şahbazi isə ittiham olunurdu ki: *"... terrorçulara min qat lənət yağdıraraq, onların külünün göyə sovrulmasını tələb etdiyi bir zamanda millətçi Tağı Şahbazi ağzına su alaraq bir kəlmə belə danışmayır və susmaq lazım bilirdi"* ["Kommunist" qəzeti, 8 fevral 1937, № 31]. Deməк, insanlar haqsızlığa qarşı susduğuna görə də ittiham oluna bilərmiş. Həqiqətən dövrün faciəsini göz önünə gətirmək də çətinləşir bəzən. T.Şahbazi həm də M.C.Bağırova qarşı sui-qəsddə də ittiham olunurdu.

Tanınmış alim, filoloq, Mübariz Allahsızlar İttifaqının sədri Vəli Xuluflu isə S.M.Kirovun qətlində iştirakda, 1934-1937-ci illərdə partiya və hökumət rəhbərlərinə qarşı terrorda ittiham olunurdu [24, s.85].

Dövrün faciəsi həmdə onda idi ki, bir-biri dost olmuş kolleqalar, iş yoldaşları üz-üzə qoyulur, yalan ifadələr verirdilər. Məsələn, Hənəfi Zeynallı və Salman Mümtaz yaxın dost olmuş, daim elmi məsələlərdə bir birlərinə kömək olmuşlar. Arxiv sənədlərindən aydın olur ki, Salman Mümtaz repressiyadan əvvəl "Leyli Məcnun" adlı material üzərində işləyirmiş. H.Zeynallının imzasıyla olan həmin sənədlərdə deyilir: "Salman Mümtaz yoldaş tərəfindən hazırlanmış "Leyli Məcnun" işindən (67-200) 133 səhifəlik material aldım. 5.IX.1936" [3], "170 səhifə (200-370). Salman Mümtaz tərəfindən "Leyli Məcnun" materialını aldım. 23.IX.1936" [4]. Təəssüf ki, " Qırmızı repressiya maşını" bu materialları da yox etdi, aralardakı dostluğu da. Hənəfi Zeynallı da S.M.Kirova qarşı sui-qəsddə, həmçinin L.Beriya və M.C.Bağırova qarşı sui-qəsdlərin hazırlanmasında iştirakda ittiham edilirdi. Onun istintaq materialında qeyd edilir ki, Türkiyənin mövqeyindən çıxış edən və Azərbaycan SSR-ni SSRİ-nin tərkibindən çıxarıb İran Azərbaycanına birləşdirmək istəyən nərimanovçular qrupu var imiş [11, S.83]. Azərbaycanda dəvətlə gəlib çalışan özbək alimi Xalid Səid Xocayev həbs edilərkən evindən 3 çamadan dolusu əlyazmasını da aparırlar. Sonralar məlum olur ki, onların hamsı yandırılıb [1, s.191].

Sonralar özü də repressiya olunacaq Seyfulla Şamilov yazırdı: *"Müşfiq bu millətçi və mürtəce təsirlərdən təmizlənməzsə, onun məsələsi qəti qoyulmalıdır. Müşfiq bilməlidir ki, revolvusiya heç bir məsələdə güzəştə getməyə yol verməz!"* ["Kommunist" qəzeti, 17 mart 1937, № 64]. Görünür bu yazıdan "dərs çıxartmayan" Mikayıl Müşfiq haqqında 27 may 1937-ci ildə XDİK kapitanı Çinman tərəfindən yazılan ittiham aktında Müşfiq "Müsavat" gənclər təşkilatı ilə əlaqədə ittiham olunur və yazılırdı: *""Azərbaycanın öz azadlığı yoxdur, o Rusiyanın koloniyasında yaşayır" deməklə o xalq arasında narazılıq yaratmaq istəyir".*

XDİK hələ 1936-ci ildə Hüseyn Cavid haqqında yazırdı: *"H.Cavid ətrafında millətçi-gənc şairləri toplayıb, onları müsavat ruhunda tərbiyə edir... İranda, Dağıstanda, Ermənistanda, Gürcüstanda olan bütün Azərbaycan torpaqlarını birləşdirib, burjua mahiyyətli müstəqil Azərbaycan dövləti qurmaq üçün gizli fəaliyyət göstərən pantürkist, əskinqilabçı təşkilatın üzvləri arasında 9-cu adam Hüseyn Caviddir"* [37, s.192]. Bu sənədlər əslində çox dəyərlidir, çünki burada sovet rejimi özü belə artıq etiraf edir ki, Azərbaycan torpaqları zorla qonşu dövlətlərin ərazilərinə verilib. Hüseyn Cavid kimi bir ziyalının bu torpaqları birləşdirmək istəyi tam normal düşüncədir. Lakin, buna baxmayaraq 1937-ci ildə Əhməd Cavadla bir gündə həbs olunan 55 yaşlı şair "şpionluqda" ittiham olunurdu.

Üzeyir Hacıbəylinin də həyatı təhlükədə idi, işlədiyi Konservatoriyadan onun əleyhinə XDİK-yə 100-lərlə məktub göndərilmişdi və o məktublarda ifşa olunmuş şəxslərlə əlaqədə, onları himayə etməkdə ittiham olunurdu. Bütün bu yalanlara dözməyən Üzeyir bəy 7 may 1938-ci ildə M.C.Bağırova göndəriyi məktubunda yazırdı: *"Nizami, Füzuli və b. kimi klasiklərin zəngin irsi, Koroğlu, Babək kimi xalq qəhrəmanlarının rəşadəti olan Azərbaycan xalqının tarixi tamamilə saxtalaşdırılmış və hətta coğrafi anlayış sözünün tam mənasında unudulmağa qərq edilmişdir"* [27]. Göründüyü kimi, Üzeyir bəy öz həyatı təhlükədə olsa belə yenə də millətini düşünür, ona qarşı olan haqsızlıqlara səssiz qalmırdı.

M.C.Bağırov da dilimizə qarşı özgə münasibətə dözmür və deyirdi: *"... ayrı-ayrı təşkilatlarımızda Azərbaycan dilinə lazımınca qiymət verməmək hallarına qarşı amansız mübarizə aparılmalıdır. Respulikanın bəzi təşkilatlarında görünür ki, hələ iç üzləri açılmamış düşmənlər, Azərbaycan dilində yazışmaya qəsdən yol vermirlər"* ["Kommunist" qəzeti, 11 iyun 1938, № 132].

***XDİK-nın keçirdiyi işgəncələr.*** "Azərbaycan əməkçiləri xalqın bu mənfur düşmənlərini Stalin konstitusiyasının 133-cü maddəsinə tamamilə müvafiq olaraq mühakimə edəcəklər. Bu maddəyə əsasən, *"Vətənə xəyanət etmək, andı pozmaq, dövlətin hərbi qüdrətinə zərər vurmaq, şpionluq - ən ağır cinayət olaraq, qanunun bütün şiddətilə cəzalandırırlır"* ["Kommunist" qəzeti, 26 oktyabr 1937, № 248].

Göründüyü kimi, despot hakimiyyət xalqın adından və konstitusiyaya verdiyi səsdən istifadə edərək, öz əməllərinə haqq qazandırırdı. Məhərrəm Əlizadə xatırlayır ki, XDİK-nın qarşısından keçərkən arxasında gumbultu və sümük xırçıltısı eşidir. Arxasına döndükdə al qana bulaşaraq üzü üstə düşmüş adamı görür. Sonra məlum olur ki, o, istintaq zamanı işgəncələrə dözməyərək özünü pəncərədən atmışdır [22]. Və yaxud şair Hacı Kərim Sanılı Əhməd Triniç kimi ona verilən işgəncələrə dözməyərək istintaqın gedişində vəfat etmişdi.

MİK keçmiş sədri Sultan Məcid Əfəndiyevi isə o qədər döymüşdülər ki, artıq ayaq üstə qala bilmirdi. Hətta onu döyərkən istehza ilə "prezident" adlandırıb təhqir edirdilər. Salman Mümtazın qızı isə həbsxanada atasını ziyarət edərkən gözlərinə inanmır – S.Mümtazın bütün dişlərini vurub sındırmışdılar, üz-gözü isə göy şişlərdən ibarət idi. Salman Mümtaz qızına deyirdi: "Əziz Qubaydullin üzümə durdu və müstəntiq çölə çıxarkən ayaqlarıma düşüb dedi ki, bilirəm, Salman duz-çörək kəsmişik, amma nə edim incidirlər, dözəmmirəm" [25, s.163]. Lakin, bütün bu amansız işgəncələrə baxmayaraq Salman Mümtaz, Həsən İmanov, Ələsgər Ələkbərov, Ağamir Məmmədov kimi ziyalılar "sınmadılar". İstintaqın gedişində bir nəfərə belə böhtan atmadılar.

İşgəncə faktları sənədlərlə sübut edilir. Məsələn, Azərbaycan SSR Xalq Komissarları Sovetinin sədri olmuş Hüseyn Rəhmanova aid protokolda belə bir qeyd var: *"Rəhmanov özünü pis hiss etdi və dindirmənin dayandırılmasını xahiş etdi"* [28, s.41]. Bu fakt özü sübut edir ki, işgəncələrin şiddətinə dözməyən şəxslər istintaqın gedişində huşlarını itirirdilər. Bunu XDİK işçiləri də etiraf edir. XDİK əməkdaşı S.S.Zıkov 1954-cü ildə verdiyi ifadədə deyirdi: *"Xoren Qriqoryanın köməkçisi Şerin keçmiş maarif komissarı Cuvarlinskini necə döydüyünün mən özüm şahidi olmuşam. Bu barədə Qriqoryana danışdıqda isə o bunu gülümsəməklə qarşıladı"*. Hətta Sumbatov özü XDİK işçiləri keçirdiyi müşavirələrdə az adam tutan əməkdaşları kəskin tənqid edirdi. O tələb edirdi ki, hansı üsulla olursa olsun, həbsdə olan dustaqlardan hələ azadlıqda olanlar barədə yalan ifadələr alınmalıdır. Onlara bir az da ruh verən bu qərar olmuşdu:

*"Müttəfiq respublikaların qüvvədə olan cinayət prosessual kodekslərdə dəyişiklik etmək haqqında.*

*... 3. Ali cəza tədbirləri (güllələnmə) haqqında olan hökmlər məhkumların bağışlanmaq haqqındakı iddiaları rədd olunan kimi dərhal yerinə yetirilsin.*

14 sentyabr 1937. Moskva" [35, s.557].

Bu cür rəsmi qaydaları XDİK işçilərinə bir növ siqnal idi ki, ən ağır cəzaya – güllələnməyə məhkum ediləcək şəxslərin istintaqını tez bir zamanda başa çatdırıb, digər işə keçsinlər. Çünki, nəinki SSRİ-də, respublikaların özündə belə müstəntiq çatışmazlığı yaşanırdı. Bəzən gün ərzində bir neçə müttəhimin işiylə məşğul olurdular. Ona görə də, "yorğun" müstəntiqlər işi tez başa çatdırmaq üçün fiziki yollara əl atırdılar. Düzdür, 1938-ci ilin ortalarından Lavrenti Beriya SSRİ XDİK-nın 1-ci müavin təyin edilməsiylə müəyyən yumşalmalar başladı. Amma gözləri dönmüş XDİK işçilərini asan şəkildə qarşısını ala bilməyəcəkdilər. Belə olan halda onların özünə qarşı repressiyalar başlanıldı.

***Kütləvi repressiyaların sonu: "Qırmızı terror öz rəhbərlərini udur".*** 1938-ci ilin 14 yanvarında ÜİK(b)P MK plenumunda belə bir dialoq oldu:

"*Malenkov.* Azərbaycan K(b)P MK 5 dekabr 1937-ci ildə yalnız bir iclasda partiya sıralarından 279 nəfər kommunisti, o cümlədən Bakı şəhəri üzrə 142 adamı xaric etmişdir.

*Bağırov.* Bəlkə onlardan kimlər isə həbs olunmuşlardır?

*Malenkov.* Onlardan neçəsinin həbs olunması barədə mən arayış verə bilərəm. Əvvəl sən arayış ver, sonra mən.

Bağırov. Əvvəl sən de, məruzəçi sənsən.

*Malenkov.* Mən hər fakta görə müvafiq ölkə komitəsindən sənədlər almışam. Əgər lazımdırsa, mən rəqəmlər gətirə bilərəm – 279 nəfərdən 63 nəfəri partiyadan xaric olunduqdan bir ay sonra həbs olunmuşdular. Məndə Azərbaycan KP-dən şifrovkalar var.

Bağırov. Bu şifrovka tam deyil. Mən faktlar gətirə bilərəm ki, neçə adam həbs olunmalıdır. Lakin hələ azadlıqda gəzirlər.

Malenkov. Yoldaş Bağırov, əgər onlar azadlıqda gəzirlərsə, deməli, bunlar dustaq deyillər (zalda gülüş).

Bağırov. Mən bu məsələ barədə danışmaq üçün altı ay ərzində çalışdım, lakin nail ola bilmədim" [12, s.127].

Bu dialoq onu göstərirdi ki, Azərbaycandakı qanunsuz həbslərdən artıq Moskavanın da xəbəri var. Onlar Bağırovla yanaşı XDİK-nın da işini yoxlamaq qərarına gəlirlər. Elə yanvar ayında N.Yejovun tapşırığı ilə göndərilən xüsusi komissiya "respublika rəhbərliyinin əksinqilabla mübarizəsinin zəif təşkilini və M.C.Bağırovun əksinqilabçılarla qayğı ilə yanaşmasını üzə çıxartmalı" idi [29, s.54]. Komissiyanın dediyi kimi, M.C.Bağırov bəzi insanları həbs olunmaqdan xilas etmişdi, xüsusən də ziyalıları. Bunlar arasında Üzeyir Hacıbəyli, Səməd Vurğun, Mikayıl Rəfili və digərləri də var idi. Bu isə vəzifə hərisliyində olan şəxslərin xoşuna gəlmədiyi üçün Bağırovun əleyhinə donoslar yazırdılar. Yoxlamalar L.Beriyanın tapşırığı ilə dayandırılsa da, 1937-1938-ci ildə cinayətə cəlb edilənlərin işinə yenidən baxılmağa başladı. Nəticədə SSRİ-də 330 min günahsız məhkum azad edildi, XDİK-nın 25 min əməkdaşı həbs olundu. Mətbuatda da başqa havalar əsməyə başlamışdı: "Ordenli şair Səməd Vurğun, yaxşı yazıçılarımızdan Mir Cəlal, Sabit Rəhman və başqalarının üzərinə iftira atıb, müxtəlif əsassız ittihamlarla onları ləkələmək və "düşmən" kimi ittifaq sıralarından xaric etdirmək təşəbbüsündə olmuşlar" ["Ədəbiyyat" qəzeti, 2 fevral 1938, № 5].

L.Beriyanın XDİK-nın I müavini olmasıyla yeni qərarlar qəbul edilməyə başlanıldı: 1938-ci ilin noyabrına qədər "üçlük"lərin fəaliyyətinə son qoyulmalı, Xüsusi müşavirə isə birbaşa ləğv edilməli idi. Noyabrın 17-də qəbul edilən "Həbslər, prokuror nəzarəti və istintaqın aparılması haqqında" qərarda XDİK və prokurorluq orqanlarında ciddi səhvlər buraxıldığı etiraf edilirdi. Noyabrın 26-da isə Beriyanın imzası ilə Dövlət Təhlükəsizlik orqanlarının istintaq fəaliyyətini nizamlayan yeni bir əmr qəbul edilir. Bu əmr Azərbaycan da daxil bütün SSRİ-də "Böyük terror"un bitməsi kimi hesab etmək olar. İndi sıra "Böyük terroru" həyata keçirən şəxslərdədir, necə deyərlər **"Qırmızı terror öz rəhbərlərini udur".** İlk olaraq, Nikolay Yejovun 9 dekabr 1938-ci ildə öz xahişi ilə XDİK rəhbərliyindən istefa verdiyi açıqlanaraq yerinə L.Beriya təyin edilir. Yejov isə növbəti il həbs edilərək 1940-ci ildə əməllərinin əvəzi olaraq güllələnir.

"Molotovla yüz qırx söhbət" kitabında yazılır: *"Molotov repressiyalarla bağlı demişdir ki, 1937-ci il zəruri idi. Dövlət eyni zamanda fəhlə sinfinin, kəndlilərin və ziyalıların mənafeyini ifadə edə bilməz". Həmin dövlət həm də etiraf edirdi: "Xalq Daxili İşlər Komissarlığının rəhbər vəzifələr tutan çoxlu məsul işçisi "əksinqilabla mübarizə" adı altında saxta və təxribat xarakterli şişirdilmiş işlər açırdılar"* [7]. *"Az. XDİK-nın Dövlət Təhlükəsizlik İdarəsi 1939-cu ilin I qərinəsində dəlillərin kifayət etməməsi səbəbindən 204 nəfəri məhkəməyə verilmədən azad etmişdir"* [8]. Ümumilikdə, 1934-1939-cu illərdə respublikamızda 27458 nəfər "əksinqilabçı", "üsyançı" adı ilə cəza almışlar. "Arqumenti i faktı" qəzetinə əsasən deyə bilərik ki, ümumən SSRİ-də 40 milyona qədər insan müxtəlif cür bu repressiyalardan əziyyət çəkmişdir [29, s.39-40]. 1938-ci il repressiyaların bitdiyi il deyil, bu sadəcə bu siyasətin ən tüğyan etdiyi illərdir. Repressiyalar isə SSRİ dağılına qədər davam etmişdir.

***Nəticə.*** 1956-cı ildə M.C.Bağırov, A.Atakişiyev, R.Markaryan, X.Qriqoryan, T.Borşev, S.Yemelyanov 0043№-li cinayət işiylə müqəssir bilindilər və ağır cəzaya məruz qaldılar. Həmin məhkəmə prosesində Xoren Qriqoryanın 1937-ci ildə atasına yazdığı məktubu oxundu ki, orada 100 nəfər azərbaycanlının güllələndiyi, 500 nəfər azərbaycanlının isə növbədə gözlədiyini bildirib, bununla da öz millətinin intiqamını aldığını bildirmişdi [18, s.132]. Bu cür şəxslər və eləcə də, sapı özümüzdən olan baltaların xidmətləri sayəsində Azərbaycan bu repressiyalardan ağır şəkildə çıxdı. Millətinin qaymaqları adlandıra biləcəyimiz əsil ziyalılarını itirdi, Salman Mümtaz, Vəli Xuluflu, Xalid Səid Xocayevin simasında minlərlə qiymətli sənədləri itirmiş oldu. Hansı ki, o sənədlərdə millətimizin tarixi, ədəbiyyatı yatırdı. Repressiyaları konkret bir şəxsin üzərinə atmaq heç düzgün olmazdı, xüsusən də Azərbaycan kimi ölkələrdə. Uzun illər tarixşünaslıqda, bir fikir hakim idi ki, SSRİ-də Stalin bu qanlı işlərə rəhbərlik edirdisə Azərbaycanda da I katib kimi Mir Cəfər Bağırov. Lakin, fikrimizcə necə ki, 1920-ci illərdə N.Nərimanov 48 min azərbaycanlının güllələnməsinin qarşısını ala bilməmişdisə, eynilə

M.C.Bağırov da bu cinayətlərin qarşısını tam ala bilməzdi. Hər bir halda, "Böyük terror"un əsas rəhbəri İ.Stalin və ətrafındakı şəxslər idisə, bunu canla-başla yerinə yetirənlər isə XDİK rəhbərliyi və onun işçiləri idi. Ona görə də, ölkə tarixşünaslığımızda keçmiş sovet düşüncəsini bir kənara ataraq yeni bir konsepsiya əsasında repressiya tariximizin arxiv sənədləri əsasında yenidən yazılmasına mütləq ehtiyac var.

ƏDƏBİYYAT

1. "Ağ ləkələr" silinir... (Tərtibçi: Osman Mirzəyev). Bakı, Azərnəşr, 1991, 200 s.
2. Azərbaycan Respublikasının Dövlət Arxivi (ARDA), f.27, siy.4, sax.vah.63, vər.63.
3. Azərbaycan Respublikasının Dövlət Ədəbiyyat və İncəsənət Arxivi (ARDƏİA), f.162, siy.1, sax.vah.5, vər.3.
4. ARDƏİA, f.162, siy.1, sax.vah.5, vər.5.
5. Azərbaycan Respublikası Prezidenti İşlər İdarəsi yanında İctimai-Siyasi Sənədlər Arxivi (ARPİİİSSA), f.1, siy.20, sax.vah.328, vər.1.
6. ARPİİİSSA, f.1, siy.21, sax.vah.219.
7. ARPİİİSSA, f.1, siy.21, sax.vah.365, vər.2, 3.
8. ARPİİİSSA, f.1, siy.22, sax.vah.301.
9. Azərbaycan Kommunist Partiyası tarixinin oçerkləri. Bakı, Azərnəşr, 1964, 818 s.
10. Baberovski Yorq. Düşmən hər yerdədir. Stalinizm Qafqazda. Bakı, Alatoran yayınları, 2021, 700 s.
11. Bünyadov Ziya. Qırmızı terror. Bakı, Azərnəşr, 1993, 331 s.
12. Əhmədov Ramiz. Mir Cəfər Bağırov. Bakı, "Nurlan", 2004, 520 s.
13. Əmrahov Mais. 1937-1938-ci illər repressiyaları Sovet dövlətinin Azərbaycan xalqına qarşı soyqırımı siyasətinin davamı // Akademik Tarih ve Düşünce dergisi, Cilt:9, Sayı:3, 2022, s.792-819.
14. Əziz Boran. Bir kəndin repressiya mənzərələri: ağrılı faktlar, acı həqiqətlər / 525-ci qəzet, 7 avqust 2010-cu il.
15. Əziz Boran. Bir kəndin repressiya mənzərələri: ağrılı faktlar, acı həqiqətlər / 525-ci qəzet, 28 avqust 2010-cu il.
16. Əziz Boran. Repressiyaya məruz qalan alimlər / "Azərbaycan" qəzeti, 01 oktyabr 2009-cu il.
17. Əziz Boran. Repressiyaya məruz qalan alimlər / "Azərbaycan" qəzeti, 02 oktyabr 2009-cu il.
18. Həsənov Cəmil. "Ağ ləkə"lərin qara kölgəsi. Bakı, Gənclik, 1991, 200 s.
19. İsmayılov Eldar. Azərbaycanda "Böyük terror"un tarixi. Moskva: Siyasi Ensiklopediya, 2015, 340 s. (Stalinizmin tarixi)
20. İsmayılov Eldar, Həsənov Cəmil. Fəryad: qanlı 1937-ci il hadisələri haqqında // "Ulduz" jurnalı, 1988 №11, s.49-57.
21. İsmayılov Eldar, Həsənov Cəmil. Kölgə (1930-cu illərin cəza tədbirləri haqqında bəzi qeydlər) / "Ədəbiyyat və İncəsənət" qəzeti, 3 iyun 1988-ci il.
22. İlkin Qılman. Məşum 37-ci ilin acı xatirələrindən / "Ədəbiyyat və İncəsənət" qəzeti, 17 iyun 1988-ci il.
23. Kalinin M.İ. Stalin yoldaşın anadan olmasının altmış illiyinə dair. Bakı, Azərnəşr, 1940, 76 s.
34. Kənan Aslan. XX əsrdə repressiyaya məruz qalanlar. Bakı, Azərnəşr, 2011, 296 s.
25. Qasımov Cəlal. Siyasi repressiya: həyatda və ədəbiyyatda. Bakı, Elm və Təhsil, 2020, 508 s.
26. Qurban Teyyub. Düşmənlərindən güclü şəxsiyyət (Mir Cəfər Bağırov haqqında məqalələr toplusu). Bakı, Şirvanəşr, 2006, 584 s.
27. Məhərrəmov Nizami. Arxiv sənədləri şahidlik edir / "Tarix" qəzeti, 21 sentyabr 1991-ci il.
28. Məhərrəmov Nizami. Getsin-Gəlməsi... Bakı, Azərnəşr, 1992, 144 s.
29. Məmmədov Adıgözəl. Baş tutmamış çevriliş. Bakı, "El-Alliance" nəşriyyatı, 2007, 280 s.
30. Məmmədova Şəlalə. Cənubi Qafqaz XX əsrin 20-30-cu illərində (Azərbaycan məsələləri). Monoqrafiya. Bakı, RS Poliqrafiya MMC, 2020, 376 s.
31. Mir Cəfər Bağırovun məhkəməsi. Bakı, Yazıçı, 1993, 120 s.
32. Хаустов Владимир, Самуэльсон Леннарт. Сталин, НКВД и репрессии 1936-1938 гг. Москва, Российская политическая энциклопедия, 2010, 432 с.
33. RFPA, f.3, siy.58, sax.vah. 212, vər.55-78.

34. Rzayev Azad, Əziz Boran. BDU tarixinin öyrənilməmiş səhifələri // "Tarix və onun problemləri" jurnalı, 2014 № 4, s.27-33.
35. SSRİ İşçi-Kəndli Hökumətinin Qanunlar və Əmrlər toplaması. Moskva, SSRİ Xalq Ədliyyə Komissariatının Yuridik nəşriyyatı, 1937, 780 s.
36. Svyatoçovski Tadueş. Rusiya və Azərbaycan: sərhədyanı bölgə keçid dövründə. Bakı, Xəzər Universiteti nəşriyyatı, 2000, 373 s.
37. Şimşir Sebahattin. Azerbaycanda Kızıl soykırım. İstanbul, IQ Kültür Sanat Yayıncılık, 2011, 210 s.
38. Yaqubov Nəsiman. Ağrılı ömürlər. Bakı, Yazıçı, 1990, 272 s.
39. Yunusov Arif. Azərbaycanda İslam. Bakı, Zaman, 2004, 364 s.
40. Zeynalov İbrahim. Totalitar Sovet Cəmiyyəti: Tarixin ibrət dərsləri – Azərbaycan SSR XX əsrin 20-50-ci illərində. Bakı, "Ləman nəşriyyat poliqrafiya" MMC, 2017, 720 s.
41. Zülfüqarlı Məhərrəm. Repressiya dövrünün tarixşünaslığı (XX əsrin 30-cu illəri) // "Tarix və onun problemləri" jurnalı, 2012 № 12, s.294-302.

**FUAD KHALILOV**
*Baku State University, Faculty of History,*
*4th year bachelor's student*

## PEOPLE'S REPUBLİC OF AZERBAIJAN SSR DURING THE REPRESSIONS OF 1936-1938 FUNCTIONS OF THE INTERNAL AFFAIRS COMMISSARIAT (XDIK)

Following the occupation of Azerbaijan by Russian-Soviet troops in 1920, a wave of mass repressions against people of national opinion began in the country. Anyone they knew opposed to communism, internationalism, "socialist reconstruction" was arrested, sent into exile, and in the worst case, sentenced to death followed by severe torture. Starting from the mid-1920s, this wave of repression subsided to some extent. However, this did not guarantee that there would be new repressions, it served as a kind of curtain. Joseph Stalin, the leader of the USSR, was waiting for an opportunity to seize all power on his own. After eliminating serious opponents such as Lev Trotsky, Sergey Mironovich Kirov, Lev Kamenev, and Grigory Zinoviev, this time he turned his attention to politicians, party and public figures, artists, and even simple village people who did not understand what politics was. With this, the bitter repressions of 1936-1938, which went down in history as the period of "Great Terror" and affected the lives of millions of people in the USSR in one way or another, began. As in the entire USSR, Azerbaijan did not avoid these repressions and even carried out the set plan "with all its heart". The immediate executor of these repressions was the People's Commissariat of Internal Affairs (KHDIK), which is called in Russian "NKVD" (Нарóдный комиссариáт внýтренних дел), which concentrated all internal and special service bodies in the country. This article will objectively shed light on the period of "Great Terror" in Azerbaijan based on archival sources of the time, newspapers, statements of perpetrators and witnesses of repressions, and various scientific works written about this period.

*Keywords:* Great Terror, NKVD, counter-revolutionary organization, totalitarianism, Mir Jafar Bagirov.

*Daxil olma tarixi*: 30.04.2024-cü il.
*Çapa imzalanma tarixi*: 10.05.2024-cü il.

UOT 94(479.24)

**GÜLÇİN HƏSƏNOVA**
*Bakı Dövlət Universiteti,*
*"Azərbaycanın yeni və ən yeni tarixi" ixtisası üzrə magistr tələbəsi*
**hgulchin1@gmail.com**

# NADİR ŞAH ƏFŞARIN DÖVLƏT İDARƏÇİLİYİNDƏ HƏYATA KEÇİRDİYİ İSLAHATLAR

*Elmi rəhbər:*
tarix üzrə elmlər doktoru Tofiq Mustafazadə

*Bir çox tarixi əsərlərdə "Şərqin Napoleonu", "Asiyanın sonuncu fatehi" kimi adlandırılan Nadir şahın Qafqaz, Yaxın və Orta Şərq tarixində böyük rolu olmuşdur. Cənubi Qafqazın bir hissəsinin osmanlılardan geri qaytarılması bu görkəmli şəxsiyyətin əldə etdiyi ən böyük nəaliyyətlərdən idi. Nadir şah Əfşar nəinki Səfəvi dövlətinin keçmiş ərazilərini bərpa etdi, hətta öz imperiyasının sərhədlərinə bir sıra yeni ərazilər də qatdı. O, 1739-cu ildə Şimali Hindistanı ələ keçirmişdir. Öz imperiyasının sərhədərini genişləndirən Nadir şah ilk növbədə dövlətinin idarəçiliyini mərkəzləşdirməyə çalışmış və bu sahədə mühüm tədbirlər görmüşdür. Məqalədə, Nadir şah Əfşarın hakimiyyəti ələ aldıqdan sonra dövlət idarəçiliyində həyata keçirdiyi islahatlardan bəhs olunur.*

*Açar sözlər:* Cənubi Qafqaz, Səfəvi dövləti, Əfşarlar, Nadir şah, islahat.

***Giriş.*** Vətənimiz Azərbaycanın da tərkibinə daxil olduğu qüdrətli bir dövlət yaradan Nadir şah Əfşarın həyatı, taxta çıxmamışdan əvvəlki fəaliyyətləri və şah seçildikdən sonra dövlətin daxili və beynəlxalq vəziyyətinin yaxşılaşdırılması üçün həyata keçirdiyi islahatların tədqiq edilib, öyrənilməsi aktual məsələlərdən biridir. Sözsüz ki, Əfşarlar dövlətinə, Nadir şahın istər xarici, istərsə də daxili siyasətinə nəzər yetirmədən, XVIII əsrin I yarısında Azərbaycanın sosial-iqtisadi vəziyyəti haqqında konkret təsəvvürlər yaratmaq mümkün olmaz.

Nadir şah 29 Əfşar oymağından biri olan Qırxlı oymağına mənsub olmuşdur. Öz dərrakəsi və gücü ilə yaşıdlarından seçilən Nadir, hələ gənclik illərində II Təhmasibin yanında qulluğa başlamış, qısa zamanda onu öz idarəsinə tabe edərək dövlət idarəçiliyini ələ almışdır. 1726-cı ildə şahın yanında qulluğa başlayan Nadir cəmi 10 il sonra (1736-cı ilin mart ayında) taxta oturmuşdur. O, hakimiyyəti ələ aldığı ilk gündən dövlətin daxili və beynəlxalq vəziyyətinin yaxşılaşdırılması üçün bir sıra tədbirlər görmüşdür. Şahın bu tədbirləri dövlət idarə aparatının islahatlarında öz əksini tapırdı.

***Nadir şahın həyata keçiridiyi islahatlar.*** Nadir şah Əfşar öz mövqeyini daha da möhkəmləndirmək üçün dövlət idarəetmə aparatında bir sıra islahatlar keçirdi. Hələ 1736-cı ildə Muğan qurultayından sonra Nadir bir sıra ali vəzifələri (xüsusilə "Baş vəzir") ləğv etmiş, bir sıra məmurların vəzifələrini məhdudlaşdırmışdır. O, qayda-qanunlara nəzarət etmək üçün əyalətlərə xüsusi məmurlar göndərmiş, dövlətin bütün maliyyə orqanlarını özünə tabe edə bilmişdir [1, s.102; 10, s.126].

Uğurlu hərbi əməliyyatlar nəticəsində geniş əraziləri imperiyasına qatan Nadir şah, dövlətini bəylərbəyliyinə bölmüşdü: mərkəzi Təbriz olan Azərbaycan, mərkəzi Məşhəd olan Xorasan və mərkəzi Şiraz olan İraq bəylərbəylikləri. Nadir şah, Səfəvi şahlarının hökmranlığı dövründə Azərbaycanda mövcud olan Qarabağ, Şirvan, Təbriz və Çuxursəəd bəylərbəyliklərini ləğv edərək, İrandan Dərbəndə qədər olan əraziləri əhatə edən vahid Azərbaycan bəylərbəyliyi yaratmış və yeni yaradılmış bəylərbəyliyinin idarəsini qardaşı İbrahim xana həvalə etmişdir [2, s.9; 3, s.34].

Uzun müddətdən sonra geniş hüdudlara malik olan Azərbaycanın idarəsi tək bir şəxsə həvalə edilmişdi. Azərbaycanın bütün hakim və bəyləri, o cümlədən, Qaplankuh və Arpaçaydan tutmuş Dağıstan və Gürcüstan da İbrahim xanın əmrinə tabe olmalı idi [5, s.36].

Onu da qeyd etmək laızmdır ki, Nadir şah mülki işlərdə mühüm məsələlərin həllində kənar şəxslərə etibar etmir, bu işlərə daha çox yaxın adamlarını cəlb edirdi. Rəhbərlik missiyası çox zaman İbra-

him xana həvalə olunurdu [7, s.37]. Digər mühüm vəzifələr isə Nadir şahın oğulları Rzaqulu Mirzə, İmamqulu Mirzə və Nəsrulla Mirzə, eyni zamanda, Nadirin qardaşı oğlu Əliqulu xana tapşırılırdı. Belə ki, Xorasan bəylərbəyliyini idarə edən Rzaqulu Mirzə bir qədər "naibülsəltənə" titulu ilə Əfşarlar imperiyasını idarə etmişdir. Bu vəzifə Rzaqulu Mirzədən sonra Nəsrulla Mirzəyə həvalə olunmuşdur. İmamqulu Mirzə isə "vəkil" rütbəsi daşımışdır [1, s.98; 6, s.544].

Əfşarlar dövlətinin hərbi və siyasi mərkəzi olan Xorasanın idarəçiliyi də yalnız hakim xanədanın üzvlərinə həvalə edilirdi. Hələ Nadir, şah seçilməmişdən əvvəl, 1728-ci ildə İbrahim xan Xorasan hakimi təyin olunmuşdur. Həmin ərazinin idarəçiliyi ilə 1736-cı ildə Rzaqulu xan, 1739-cu ildə isə Əliqulu xan məşğul olmuşdur.

***Nadir şahın hərbi əyanlara və köçəri tayfalara münasibəti.*** Görkəmli tarixçi İ.Petruşevski qeyd edir ki, bəhs olunan dövrdə şah hakimiyyətinin sosial dayağını bir neçə qrupdan ibarət olan feodal sinfi təşkil edirdi ki, bunlardan da biri qızılbaşların köçəri və yarımköçəri tayfalarının hərbi zadəganları idi [8, s.89].

Nadir şah mərkəzi hakimiyyəti möhkəmləndirmək üçün yerli feodal və əyanların hakimiyyətini xeyli məhdudlaşdırırdı. Belə ki, yerli feodallar arasında Nadir şahın arxalana biləcəyi qruplar olduqca az idi. Bir çox yerli tayfaların nümayəndələri hakimiyyətə Səfəvi sülaləsinə mənsub olan bir şəxsin gəlməsinin tərəfində idilər. Buna görə də, Nadir şah yerli əyanlardan daha çox köçəri tayfalara etimad edirdi. Nadir şaha sədaqətlə xidmət edən bir çox tayfaların nümayəndələrinin adlarını çəkmək olar. M.R. Arunova və K.Z. Aşrafyan qeyd edir ki, Əfşarlar və Dərəgəzdə və Abivərddə yaşayan kürdlər bu baxımdan xüsusilə fərqlənirdi [4, s.108].

İlk vaxtlarda Nadirin ən çox güvəndiyi qüvvə Xorasanda məskunlaşan türk tayfaları idi. Məhz bu səbəbdən ən imtiyazlı və üstün vəzifələr bu tayfaların nümayəndələrinə verilirdi. Məsələn, Təhmasib xan Cəlayir hələ 1731-ci ildə Üçquş, Çermuqan və Hacılar dairələrinin hakimi idi. O, 1733-cü ildə Xuzistan, Fars və Kirman qoşunlarının komandanı təyin edilmişdir [4, s.108]. 1736-cı ildə Nadir şahın, oğlu Rzaqulu Mirzəni Xorasana hakim təyin edərək Hindistana yürüşə çıxdığı bir vaxtda Təhmasib xan Cəlayir dövlətin bütün qoşunlarına komandan təyin edilmişdi [1, s.98].

Nadir şah Əfşarın qoşunları müxtəlif tayfalardan ibarət olsa da, bütün yüksək rütbələr Xorasan tayfalarından olan hərbi-feodal zadəganlara-əfşarlara məxsus olmuşdur. Məsələn, İraqda Məhəmməd Musa xan, İrəvanda Mehdi xan Qasımlı, Şirvanda Heydərqulu xan hakim, Əmiraslan xan əmirül-ümərayi-Azərbaycan idi [3, s.36].

Yüksək rütbəli Əfşar sərkərdələrindən biri olan Məhəmməd Hüseyn xan Əfşar 1743-1744-cü illərdə İraq sərdarı olmuşdur. 1744-cü ildə Allahverdi xan Qırxlı Əfşar Fars sərdarı təyin edilmişdir. Digər bir sərkərdə, Baba Əli bəy Əfşarın oğlu Nadirin qayını Fətəli xan Karnal döyüşündə cəzayirçilərə başçılıq etmişdir [1, s.98].

Nadir şahın yaxın qohumlarından biri olan Əmiraslan xan Qırxlı Əfşar 1739-cu ildə Cənubi Azərbaycana hakim təyin edilmişdir. 1743-cü ildə Aşur xan Papali Əfşar Təbrizin hakimi və İrəvanın silahlı qüvvələrinin komandanı təyin edilmişdi [4, s.111].

Tacqoyma mərasimindən sonra Nadir şah XVII-XVIII əsrin əvbəllərində qacar tayfasının ölkəsi olan Mərvin və onun ətrafındakı ərazilərin idarəçiliyini Baba Əli xan Əfşarın oğlu Kəlbəli xan Əfşara həvalə etdi [1, s.100; 4, s.114].

Nadir şahın Şirvan bölgəsinə seçdiyi hakimlər də Əfşarların nümayəndələri idilər. 1736-cı ildə Muğan qurultayında rəsmən şah seçilən Nadir, hələ Muğanda olarkən Mehdi xan Əfşarı Şirvana hakim təyin etmişdi. Yerli üsyanların birində Mehdi xan öldürüldü. Lakin ,bununla belə, ondan sonra Şivana hakim təyin edilən şəxslər yenə də Əfşarlar nəslindən oldular. Belə ki, Mehdi xanın ölümündən sonra Şirvana Sərdar bəy Qırxlı Əfşar, 1744-cü ildə isə Heydər bəy Əfşar hakim təyin edildilər [4, s.111].

Digər tayfaların nümayəndələri də yüksək vəzifə tuturdular. Məsələn, Bayat tayfasından olan Həsən xan Nişapur sərdarı təyin edilmişdi [1, s.98].

Lakin, bununla belə, Nadir şah ən əhəmiyyətli bəylərbəyliklərə çox vaxt Əfşar tayfasının nümayəndələrini hakim təyin edirdi.

***Köçürmə siyasəti.*** Nadir şah özünün əsas hərbi və siyasi dayağı olan Xorasan tayfalarının köçəri zadəganlarının hakimiyyətini daha da gücləndirmək üçün bu tayfaları birləşdirmək məqsədilə bir sıra

tədbirlər həyata keçirmişdir. O, bu məqsədlə dövlətin bütün bölgələrində yaşayan 12 min Əfşar elinin Xorasana köçürülməsi ilə bağlı göstəriş vermişdir [4, s.112].

Nadir şah eyni zamanda digər iri və güclü tayfaların hərbi qüdrətini sarsıdaraq özünə tabe etmək məqsədilə həmin tayfaları parçalayıb, müxtəlif ərazilərə yerləşdirirdi. Belə tayfalardan biri də Qacarlar idi. Nadir Əfşar taxta çıxandan sonra qacarların təsirini zəiflətmək üçün Məhəmmədhüseyn xan Əfşarı Astrabadın hakimi təyin etmişdi. Nadir bununla qacarların təsirinin məhdudlaşacağına inanırdı. Lakin Astrabad hakimi vəzifəsinə qacar yox, əfşar nümayəndəsinin seçilməsinə cavab olaraq yomut türkləri ilə birləşən Astrabad qacarları Məhəmmədhəsən xan Qacarın başçılığı ilə üsyan qaldırdılar [1, s.100]. Lakin üsyan 1744-cü ildə yatırıldı və Astrabad hakimi yenə də Əfşarlardan seçildi. İlk öncə Məhəmməd Zaman xan Əfşar, daha sonra isə Sarı xan Qırxlı Əfşar Astrabad hakimi təyin olundular.

Bütün bunlar omu göstərir ki, yerli tayfaların etirazları belə Nadir şahı "belə tayfaların zadəganlarının təsirini məhdudlaşdırmaq" siyasətindən döndərə bilmədi.

Nadir şah ona düşmən olan tayfaların nümayəndələrinin hərbi gücünü və təsirini zəiflətmək üçün başqa tədbirlər də görmüşdür. Məsələn, Dağlıq Qarabağ və Zəngəzurun beş xristian məlikliyini Gəncə bəylərbəyliyinin aslılığından azad edib, bilavasitə Azərbaycan bəylərbəyi hakiminin tabeliyinə verdi. Beləliklə, Gəncə bəylərbəyləri Mil-Qarabağ düzündə məskunlaşan köçəri tayfalar üzərindəki hakimiyyətini itirmiş oldu [9, s.185]. Bunun əsas səbəbi isə Muğan qurultayında iştirak edən Uğurlu xan Ziyadoğlunun Nadirin şah seçilməsinə etiraz etməsi idi.

Nadir şah Əfşar eyni zamanda Qarabağ Qacarlarının müəyyən bir hissəsini Xorasana köçürdü. Qazax və Şəmsəddin köçəri tayfalarını Kartli çarı Teymurazın tabeliyinə verdi. Uğurlu xanın idarəsində yalnız Gəncə və onun ətrafındakı ərazilər qaldı. 1738-ci ildə carlılarla döyüşdə Uğurlu xanın öldürülməsindən sonra isə Gəncə bəylərbəyi Ziyadoğlu nəslinin nümayəndələrindən seçilməmişdir. Belə ki, onun ölümündən sonra bu vəzifə Hacı xan Gəmizgəzəkə həvalə edilmişdir [4, s.115].

Yuxarıda adları çəkilən tayfalardan başqa bəzi tayfalar da var idi ki, onlar da Nadir şah Əfşarın dövründə öz irsi torpaqlarının idarəsindən uzaqlaşdırılmışdır. Bunlardan biri də Zülqədər tayfası idi. Bu tayfanın nümayəndələri Səfəvi şahlarının hakimiyyəti dövründə Farsın irsi hökmdarı idilər. 1744-cü ildə Fars hökmdarı Tağı xanın devrilməsindən sonra Farsı idarə etmək üçün bir neçə nümayəndə təyin olundu, lakin onların heç biri Zülqədər tayfasına mənsub deyildi.

Nadir şah hər nə qədər əfşar və kürd əyanlarına arxalansa da, bir müddət sonra ( XVIII ərsin 40-cı illərində) bu əyanların hədsiz güclənməsindən qorunmaq üçün tədbirlər gördü.Əfşar və kürd nümayəndələrinin güclənməsinin qarşısını almaq üçün Nadir şah əfqan və özbək əyanlarını himayə edirdi. O, hətta bu zadəganların bəzilərini "vilayət hakimi" vəzifəsinə də təyin etmişdir. Məsələn, Qəni xan Abdali ilk öncə Herat, daha sonra isə Dərbənd hakimi təyin olunmuşdur [1, s.101].

***Nadir şahın mülki bürokratiya ilə münasibəti***. Əfşarlar imperiyasında feodalların böyük bir hissəsi hərbi zadəganlarla yanaşı, mərkəzu və yerli idarəetmə aparatının mülki bürokratiyası ilə təmsil olunmuşdu. Bir çox hallarda bu iki istilah oxşar kimi qeyd edilsə də, qeyd etmək laızmdır ki, hərbi əyanlar və mülki bürokratiya bir-birindən fərqli istilahlardır. İlk öncə qeyd etmək lazımdır ki, hərbi əyanlar əsasən Azərbaycan, İran və digər yerlərin köçəri və yarımköçəri tayfalarının yuxarı təbəqələrindən idi. Mülki bürokratiya isə yerli mənşəli olmuşdur. Bu haqda M.R. Arunova və K.Z.Aşrafyan öz əsərlərində qeyd etmişlər: *"Bu, ilk növbədə onunla izah olunur ki, mürəkkəb idarəetmə aparatının işlərini aparmaq üçün vergi ödəyən əhalinin əsas hissəsinin dilini, onun adət-ənənələrini, ayrı-ayrı rayonların təbii iqtisadi şəraitini bilmək lazım idi. Ən yüksək mülki bürokratiyanın bir çox nümayəndəsi ilk növbədə irsi İran zadəganlarına mənsub idi"* [4, s.117-118].

Mülki bürokratiyaya həm Mustoufi əl-Məmalik, Ləşkərnivis, Nazir-i Büyutat kimi ən böyük feodallar, həm də kiçik məmurlar daxil idi. Bu təbəqənin bir çox nümayəndələri Nadir şahın bəzi tayfaların hərbi-feodal əyanlarının təsirini sarsıtmaqla dövlət torpaq mülkiyyəti fondunun möhkəmləndirilməsi siyasətini dəstəkləyirdi. Nadir şah Əfşarın mərkəzi və yerli idarəetmə sistemini yenidən yaratnaq fikri bürokratiyanın da maraqlarına uyğun gəlirdi. Çünki Nadir şah feodalların əsas qrupunun orta təbəqələrinə dəstək verib, köhnə məmurların, əyanların əvəzinə yeni mülki bürokratiya kadrları yaratmaq istəyirdi [4, s.119]. Məsələn, 1736-cı ildə Tağı hacı Fars vilayətinə hakim təyin olunmuş və Nadir şah ölənə qədər həmin vəzifədə qalmışdır. Əvvəllər isə o, sadəcə bir vergiyığan idi [1, s.101-102].

***Nəticə.*** Geniş əraziləri əhatə edən böyük imperiyanı idarə etmək üçün mərkəzi hakimiyyətin gücləndirilməsinin vacib olduğunu anlayan Nadir şah bu istiqamətdə bir sıra tədbirlər görmüşdür:

1-Ən mühüm vəzifələri ən çox güvəndiyi şəxslərə həvalə etmiş;

2-Bir çox ərazilərdə faktiki mövcud olmuş yerli hakim sülalədən olan əyanların mövqelərini zəiflətmək üçün onları başqa ərazilərə köçürmüş;

3-Köhnə bürokratik zadəganların əvəzinə feodal mülki bürokratiyasının yeni kadrlar yaratmağa səy göstərmiş;

4-Yeni bürokratiyanın bəzi nümayəndələrinə Səfəvi dövlətində mövcud olandan daha geniş hüquqlar vermişdir.

Lakin qeyd olunan dövrdə Nadir çoxsaylı müharibələr aparmışdır və bu müharibələr yoxsulluq və vergilərin sayının artırılması ilə nəticələnmişdir. Bu kimi amillər isə əhalinin, hətta onu dəsdəkləyən mülki bürokratiya nümayəndələrinin də narazılığına səbəb olmuşdur. Hakim sinfin bəzi qruplarının düşmənçilik nümayiş etdirməsi Nadir şah Əfşarın hakimiyyətinin sosial-bazasının getdikcə daralmasına səbəb olmuşdur.

ƏDƏBİYYAT

1.Mahmudov Y.Y., Mustafazadə T.T. Nadir Şah Əfşar: Tarixin gedişini dəyişdirən dahi sərkərdə. Bakı, Turxan NPB, 2019, 248 s.
2.Azərbaycanda dövlətçilik və onun rəmzləri. Bakı, "Elm", 2000, 96 s.
3.Həsənzadə T.D. XVIII-XIX əsr Əfşarlar və Qacarlar dövrünün görkəmli Azərbaycan türkləri. Bakı, "Elm və təhsil", 2014, 282 s.
4. Арунова М.Р., Ашрафян К.З. Государства Надир шаха Афшара. Москва, Восточная Литература, 1958, 284 с.
5. Hüseynov E.İ. Azərbaycan Nadir Əfşarın hakimiyyəti dövründə. Bakı, "Elm", 2013, 224 s.
6.Mammadova R. Nadir şah dönemi devlet yönetimi,askeri ve ekonomik yapı. Nadir şahın mirası (16. Yüzyıldan bu güne İran'da ve Türkiye'de Avşarlar). İstanbul, 2023, s.543-557.
7. Əsədov F.N. Nadir şah Əfşar (Monoqrafiya). Bakı, "İqtisad Universiteti" Nəşriyyatı, 2011, 68 s.
8.Петрушевский И.И. Очерки по истории феодальных отношений в Азербайджане и Армении в XVI-начале XIX в. Ленинград: ЛГУ, 1949, 383 с.
9.Bakıxanov A. Gülüstani-İrəm. Bakı, "Xatun Plyus", 2010, 300 s.
10. Иванов М.С. Очерки истории Ирана. АН ССР, Институт Востоковедения, 1952, 466 с.

**GULCHIN HASANOVA**
*Baku State University,*
*Master's student majoring in "New and most recent history of Azerbaijan"*

## NADER SHAH AFSHAR'S REFORMS IN PUBLIC ADMINISTRATION

Named as "Napoleon of the East" and "the last conqueror of Asia" in many historical works, Nadir Shah had a great role in the history of the Caucasus, Near and Middle East. Recapturing the South Caucasus from the Ottomans was one of the greatest achievements of this scientific personality. Nadir Shah Afshar not only restored the former territories of the Safavid state, but also added a number of new territories to the borders of his empire. In 1739, he passed through Russian India. Nadir, who expanded the personal boundaries of his empire, first of all tried to centralize the administration of the state and saw these effective effects. The article talks about reforms in public administration after Nadir Shah Afar's situation was applauded.

*Keywords:* South Caucasus, Safavid state, Afshars, Nadir Shah, reform.

*Daxil olma tarixi*: 30.04.2024-cü il.
*Çapa imzalanma tarixi*: 10.05.2024-cü il.

***Türk dünyası gənc tədqiqatçılar dərnəyinin Araşdırmaları***
***Studies of the Turkic World Young Researchers Association***

***№2(10) 2024, 40-46***

**UOT 94**

**HƏLİLƏ SADIQOVA**
*Bakı Dövlət Universiteti SABAH qrupları*
*Tarix müəllimliyi ixtisası üzrə III kurs tələbəsi*
**hlilsadiqova4@gmail.com**
ORCID ID : 0009-0004-0158-5335

# OSMANLIDA "QARDAŞ QƏTLİ" MƏSƏLƏSİNƏ BAXIŞ

*Elmi rəhbər:*
tarix üzrə fəlsəfə doktoru Sevinc Ruintən

*Qərb dillərində latın dilindən götürülmüş "fratricide" sözü ilə ifadə olunan "qardaş öldürmə" anlayışı sadəcə qardaşların öldürülməsi deyil, həm də sülalədən olan və taxt-taca can atan oğullar, nəvələr, qardaş oğulları kimi kişilərin öldürülməsi mənasını verir. Ümumilikdə dünya tarixində müşahidə olunan qardaş qətli əslində, tarixi, siyasi və qanuni ideyanın məhsuludur və bu məsələ, türk tarixindən də yan keçməmişdir. Əski türk siyasi ənənəsində hər bir sülalə nümayəndəsi dövlət idarəçiliyini öz əlində saxlamaq istəyirdi. Bu vəziyyət isə dövlətlərin dağılması, ölkələrin parçalanması ilə nəticələnirdi. Qeyd edək ki, Osmanlı dövlətinin ilk dövrlərində nizamlı vərəsəlik sistemi olmamışdır. Şahzadələrin sultanlıq yolunda taleyini təyin edəcək yeganə şey onların taleyi idi. Bu isə şahzadələr arasında daxili münaqişələrə səbəb oldu. Bu vəziyyət Osmanlıları iki çətin variant arasında qoydu: Dövlətin yaşaması üçün qalan sülalə üzvlərini öldürmək və ya dövləti parçalayıb məhv etmək. Osmanlılar qardaş qırğınının "daha az itki" olduğunu düşünərək seçimlərini etdilər. Başqa sözlə, onların bu dəhşətli seçimdən başqa çarələri yox idi. Onu da nəzərə almaq lazımdır ki, qardaş qırğınından canını qurtara bilən bəzi şahzadələrin düşmən dövlətlərin dəstəyi ilə üsyan edikləri də olmuşdur ki, bu vəziyyət yüzlərlə insanın məhvinə, dövlətə külli miqdarda ziyan dəyməsinə səbəb olurdu. Qardaş qətli Fateh Mehmedin "Qanunnamə"si ilə qanun qüvvəsi qazandı. Altı yüz ildən çox mövcud olmuş Osmanlı tarixində qardaş qırğınları nəticəsində altmış bir şahzadə, -onlardan 22-si üsyan və ya sui-qəsd nəticəsində- öldürülmüşdür. XVII əsrin əvvəllərindən vərəsəlik sistemində dəyişiklik edildi, "Ekber ve Erşad" sistemi tətbiq olunmağa başlandı. Sülalənin ən yaşlı nümayəndələri sultan olmağa başladılar və həmin tarixdən etibarən niyyət və məqsəddən asılı olmayaraq qardaş qırğınları, müəyyən istisnalar nəzərə alınmazsa, demək olar ki, həyata keçirilmədi. Qeyd edilməlidir ki, Osmanlı tarixi araşdırmaçıları arasında "Osmanlıda qardaş qətli xalqın rifahı, dövlətin birlik və həmrəyliyinin qorunub saxlaması naminə tətbiq edilmişdir" fikrinin tərəfdarları heç də az deyillər. Hazırki məqalədə, mövcud tarixşünaslıq əsərləri əsasında bu məsələnin araşdırılmasına cəhd ediləcəkdir.*

*Açar sözlər:* Osmanlı, vərəsəlik sistemi, qardaş qətli, "Fateh Qanunnaməsi".

***Giriş.*** Çağdaş tarixin, sosiologiyanın, iqtisadiyyatın öncüllərindən hesab edilən, XIV əsr filosofu, dövlət xadimi və tarixçisi İbn Xəldun dövlət olmağın tələblərindən birinin hakimiyyətin bir əldə cəmləşməli olduğunu hesab edirdi. Onun fikrincə, dövlətə gedən yolun başlanğıcında icma daxilindəki fərdlər və ya fərdlərin mənsub olduğu sülalələr bir araya gəlir, başqalarını məğlub edib onlar üzərində hakimiyyət qurmaq istəyirlər. Üstünlük əldə etdikdən sonra bütün digər sülalələri öz hakimiyyətləri altında birləşdirirlər. Bununla da, digər insanlardan və dövlətlərdən üstün olan bir kefiyyətə çatırlar (1, s.234). Oxşar vəziyyət türklərin ictimai quruluşunda da mövcuddur. Səltənət varisliyi, və ya vərasət sistemi isə suverenliyin davamı ilə bağlı fərqli bir məsələdir. Hökmdardan sonra kimin dövlət başçısı olacağı məsələsi dövlətlərə, cəmiyyətlərə və zamana görə müxtəlif olub. Hər birinin türk dövləti olmasına baxmayaraq, Göytürklərdə, Anadolu Səlcuqlularında, Osmanlıda və digər türk dövlətlərində də fərqliliklərin olduğu görünür. Osmanlıdan əvvəlki türk dövlətlərində mərkəzçi quruluş qəbul edilsə də, zaman-zaman bu qaydanın pozulduğu da görülmüşdür. Osmanlılar isə daha mərkəzçi bir quruluş sərgiləmişlər. Lakin bütün bunlara baxmayaraq, ümumilikdə, Osmanlılar da daxil olmaqla türk dövlətlərində vərasət sistemini tənzimləyən vahid qayda olmamışdır. Mövcud olan vərasət sistemi ilə bağlı

təsəvvür Osmanlıda da davam etmişdir. Fateh Sultan Mehmedin qanunlar məcəlləsindəki "Övladlarımdan kiməsə sultanlıq verilərsə..." ifadəsindən anlaşılır ki, Osmanlıda səltənət varisliyi prinsipi dəqiq müəyyən edilməmişdi (2, s.97). Bununla belə, bəzi təcrübələr sülalə daxilində kimin hakimiyyəti ələ keçirmək şansının daha çox olduğunu göstərirdi. Paytaxta ən yaxın əyalətdə olan şəhzadənin hökmdar öldüyü zaman taxta çıxma şansı digər qardaşları ilə müqayisədə daha yüksək olurdu. Amma sülalənin digər üzvləri də taxt üzərində özünü haqq sahibi görməyə davam edirdi (3, s.1135). Bəzi Türk hökmdarları bunun qarşısını almaq üçün dövləti parçalara ayırıb hər birini bir şahzadənin idarəsinə vermişdisə də, çatışmazlıqları aradan qaldırmaq bir yana, bu dövlətlər düşmənlər tərəfindən asanlıqla məğlub edilmişlər. Səlcuqlular vəliəhd təyin edərək mərkəzçi üsul tətbiq etməyə çalışsalar da, bu üsulun qurulmasında uğur qazana bilmədilər. Tarix kitablarından xatırlayırıq ki, tarixdə türk dövlətləri Şimal-Cənub və Şərq-Qərb olaraq bölünmüş, ya da Səlcuqlularda olduğu kimi bəyliklərə, atabəyliklərə bölünmüşlər. Osmanlı da belə təcrübədən dərs almış, dövlətin belə bir aqibətə düçar olmaması üçün sülalə üzvlərinin ictimai mənafeyə görə qətlə yetirilməsinə üstünlük vermişlər.

***Qardaş qətlini şərtləndirən amillər.*** Qardaş qətlinin səbəblərini ilk öncə vərasət sistemində axtarmaq lazımdır. Mehmet Akmanın fikrinə görə, *"Əski türklərin siyasi hökmranlıq anlayışına görə, xan Tanrı tərəfindən seçilmiş və xeyir-dua almış böyük bir hökmdardır. Öləndə onun yerinə Allahın xeyir-dua verdiyi sülalənin bir üzvü gələcəkdir. Xeyir-duanın Allah tərəfindən kimə veriləcəyi əvvəlcədən bilinmədiyi üçün xanın yerinə kimin keçəcəyi ilə bağlı vərəsəlik sistemi işlənib hazırlanmamışdır". Türklərdəki "ölkə xanədan üzvlərinin ortaq mülküdür" anlayışının nəticəsində "ulus sistemi" ilə torpaqlar qardaşlar arasında bölüşdürülürdü. İstər İslamdan əvvəl türk dövlətlərində, istərsə də müsəlman türk dövlətlərində görülən bu anlayış bir çox qanlı mübarizələrə və dövlətlərin uzun sürməməsinə səbəb olmuşdur. Osmanlılar bu nümunələri və xüsusən də, Türk Səlcuqları dövründə baş verənləri təhlil edərək qardaş qırğınına əl atdılar* (4, s.220).

Digər bir səbəb isə Fetret dövrünün yaşanmış olmasıdır. 1402-1413-cü illər arasındakı bu xaos dövründə şahzadələr bir-birinə qarşı vuruşarkən qonşu dövlətlərlə də əməkdaşlıq edirdilər. Səltənət iddiaçılarının çoxluğu Osmanlı imperiyasını məhv olmaq həddinə çatdırdı. Osmanlıda artıq ictimai asayiş deyə bir şey qalmamışdı. Şahzadələr taxtı ələ keçirmək üçün Osmanlının düşmənləri ilə ittifaq qurmaqdan belə çəkinmirdilər. Fetret dövrü ulus sisteminin necə həyata keçirildiyinin bir nümunəsidir. Teymur bu ənənəni Osmanlı dövlətində tətbiq etmək istəmiş və ölkəni parçalara bölərək hər birini bir şahzadəyə vermişdi. 1416-cı ildə Teymurun oğlu Şahrux Mehmed Çələbinin Musa Çələbini öldürməsindən sonra atasının təsis etdiyi sistemin pozulmasına şiddətlə etiraz etmişdi. Mehmed Çələbi bu məktuba belə cavab vermişdi: *"Dediklərinizə əməl etmək istərdim, amma Osmanlı dövləti qurulduğundan bəri bu problemləri təcrübə ilə həll ediblər. Səltənət ortaqlıq qəbul etməz. İki padşah bir iqlimə sığmaz"* (4, s.222).

Osmanlı hökmdarlarının gücünü təhdid edə və dünyanın nizamını poza biləcək ünsürlərin meydana gəlməsində daxili və xarici qüvvələrin əhəmiyyətli təsiri olmuşdur. Qurulduğu gündən Osmanlı imperiyası ilə sərhəd qonşusu olan Bizans imperiyası Osmanlıya qarşı məğlubiyyətdən sonra varlığını davam etdirmək üçün Osmanlı şahzadələrindən istifadə etmişdir. II Bəyazid dövründə Cem Sultanın, Yavuz Sultan Səlim dövründə qardaşı Əhmədin oğullarının Məmlüklərə sığınmaları; Qanuni dönəmində Şahzadə Bəyazidin Şah Təhmasibə sığınması; İldırım Bəyazid dönəmində Şahzadə Mustafanın Teymur tərəfindən əsir alınması kimi hadisələr Osmanlıya rəqib olan dövlətlərin əsas götürdüyü xarici siyasətlərdən olmuşdur (2, s.99). İldırım Bəyazidın böyük oğlu Əmir Süleyman Ədirnədə padşahlığı ələ keçirəndən sonra şahzadə Qasım və bacısı Fatmanı Bizans imperatoruna əsir olaraq verir. Bizans imperatoru Manuel II Murad taxta çıxanda elçi göndərib təslim olmasını tələb edir, bu istək rədd ediləcəyi təqdirdə əlində ikinci Osmanlı şahzadəsi olduğunu və onun rəqib olaraq taxta çıxarılacağını deyərək açıq-aşkar təhdid edirdi. Bu şahzadə İldırım Bəyazidın oğlu Mustafa Çələbi idi. Sultan Murad rədd cavabı verdikdən sonra Manuel Şahzadə Mustafanı II Murada qarşı üsyana qaldırmışdı (4, s.223).

Sağ qalan şahzadələr müxtəlif zamanlarda hakimiyyətə qarşı üsyan edirdilər. Fateh Sultan Mehmedin qardaşı Əhmədi öldürtməsi və qardaş qətlini qanuniləşdirməsinə qədərki dövrdə sağ qalan şahzadələrin üsyan etdikləri görülmüşdür. I Muradın qardaşları şahzadə Xəlil və İbrahim və II Muradın

qardaşı Mustafa buna nümunədir. Bütün bunlardan çıxarılan nəticədən belə demək olar ki, padşahın edam etdirmədiyi qardaşları üsyan edərək dövlətə böyük fəlakətlər gətirmişlər (4, s.224).

***Fateh Qanunnaməsində qardaş qətli məsələsi.*** Fetret dövründə İldırım Bəyazidın oğulları arasında taxt-tac mübarizəsinin olması Fateh Sultan Mehmedin qardaş qətlinə icazə verməsiylə bağlı qanun hazırlanmasına təsir etmişdir. Fateh Sultan Mehmeddən əvvəl də dövlətin bölünməməsi və qarışıqlığın olmaması üçün qardaş qətli həyata keçirilirdi. Amma ilk dəfə Fateh Sultan Mehmed "Fateh Qanunnaməsi"nə *"Devletin bekası için kardeş katli uyğundur"* deyə bir maddə daxil etmişdir: *"Ve her kimesneye evladımdan saltanat müyessir ola, karındaşların nizam-ı alem için katl itmek münasibdir. Ekser ülema dahi tecviz etmişlerdir. Anınla amil olalar"*. Yəni, "Oğullarımdan hansının taxt-taca çıxması münasibdirsə, ictimai asayiş naminə qardaşlarını qətlə yetirməsi münasibdir. Alimlərin çoxu bunda din baxımından heç bir eybi olmadığına hökm etmişlər. Ona görə hərəkət etsinlər". İncəliklə yazılmış bu maddənin mətnində sülalə üzvlərinin öldürülməsinin səbəbləri və onun hüquqi əsasları açıq-aydın göstərilir. Maraqlıdır ki, qanun maddəsində qardaş öldürmək üçün "uyğun" sözü işlədilir, lakin "lazımdır" və ya " məcburi" deyilmir. Belə başa düşülür ki, qanun bu formada taxt sahiblərinə şahzadələri öldürmək üçün heç bir öhdəlik, məcburiyyət qoymur, sadəcə icazə verir. Fateh Mehmedin hazırladığı qanunda belə yazılıb: *"Bu Kanun-name atam ve dedem kanunudur ve benim dahi kanunumdur. Evlad-ı kiramım neslen-bade-neslin bununla amil olalar"*. Burdan məlum olur ki, qardaş qətli Fatehdən əvvəlki dövrlərə də aid olub. I Muradın, İldırım Bəyazidin, I Mehmedin və II Muradın qardaşlarını öldürmüş olması bunun Fatehdən başlamadığını açıq-aydın göstərir (5; 9, s.19-21).

***Osmanlı dövlətində xanədandaxili qətl hadisələri.*** Osmanlı dövlətində xanədan üzvü olub ilk qətl edilən şəxsin Osman bəyin əmisi Dündar bəy olduğu ehtimal edilir. Ərtoğrul Qazinin son günlərində nümayəndəsi olan kiçik oğlu Osman bəy atası öldükdən sonra bəy olmuşdur. Amma digər tayfalar Ərtoğrul Qazinin əmisi Dündar bəyin başçı olmasını istəyirdilər və Dündar da Osman bəyin əleyhinə fəaliyyət göstərir. Bu səbəblə Dündar 1298-ci ildə öldürülmüşdür (6, s.104). Bəzi mənbələrə görə, Dündarı Osman bəy özü öldürmüşdür (7).

Xanədan üzvlərinin qətl edilməsi hadisəsinin ikinci dəfəsi Sultan Murad Hüdavendigar dövründə baş vermişdir. Bizans tarixçisi Qriqorasa görə, Orxan bəy özündən sonra Xəlilin sultan olmasını istəyirdi. Ancaq Orxan bəyin vəfatı ilə böyük oğul Murad sultan seçildi (6, s.160). Sultan Murad sultan olduqdan sonra qardaşları İbrahim və Xəlili qətlə yetirib. Sultan Muradın qardaşlarını qətlə yetirməsinin səbəbi, qardaşlarının onun sultanlığını qəbul etməmələri və ona baş qaldırmaları idi (3, s.1139). Bizans mənbələrində Sultan Muradın hakimiyyətindən əvvəl İbrahimin öldüyü qeyd olunmuş olsa da, Əhmədinin əsərində bunun doğru olmadığı aydın olur (3, s.1141).

Sultan Murad dövründə baş verən bir başqa hadisə də Sultan Muradın oğlu Savcı bəyi qətl etməsi hadisəsidir. Üsyan xəbərini eşidən Sultan Murad dərhal Rumeliyə keçdi və məhz asiləri tutdu. Əvvəlcə Savcı bəyin gözlərinə mil çəkdirərək, sonra da onu öldürdü. Padşahın öz oğlunu qətl etməsi Osmanlı dövlətçilik anlayışına və iqtidarın qorunmasına verilən önəmi göstərir.

Xanədan içi qətl hadisələrindən biri kimi qiymətləndirə biləcəyimiz ilk hadisə İldırım Bəyazid dövründə baş vermişdir. Osmanlı İmperiyası ilə xaçlı birlikləri arasında səkkiz saat davam edən I Kosova döyüşü Osmanlı İmperiyası tərəfindən qazanılmışdı. Bu qələbənin əlaməti olaraq döyüş meydanını dolanan Sultan Murad yaralı bir Serb olan Miloş Obiliç tərəfindən bıçaqlanmışdı. Ağır yaralı olmasına rəğmən müharibəni başsız qoymaq istəməyən Sultan Murad vəziyyətinin ağırlaşmasını görüb böyük oğlu Bəyazidi çağırtıb hökmdar elan edir. Bir müddət sonra Sultan Murad vəfat etdikdən sonra digər şahzadə Yaquba "Atan çağırır" deyə xəbər göndərirlər və Yaqub Çələbi gələr-gəlməz taxt-taca iddia etməsin deyə boğduruldu (6, s.328-345).

Osmanlı İmperiyasında xanədan üzvlərinin öldürülməsi hadisələrinin ən mühümlərindən biri, dördüncü Osmanlı padşahı olan İldırım Bəyazidın Ankara döyüşündə (1402) Teymura məğlub olması və əsir düşməsi sonrası oğulları arasında baş vermişdir. İldırım Bəyazid bu döyüş zamanı Teymura əsir düşərkən oğullarından Süleyman və Mehmed döyüşdən qaçaraq müxtəlif şəhərləri özlərinə mərkəz seçmişdilər. Bu oğullarının xaricində Qasım, yaşının kiçik olması səbəbiylə Bursada qoyulmuş və döyüşə aparılmamışdı. Musa və Mustafa isə atası İldırım Bəyazid kimi Teymura əsir düşmüş, ancaq daha sonra azad edilmişdilər. Mübarizə aparan qardaşlar İsa, Musa, Süleyman və Mehmed idi. Onlardan

Süleyman Rumeliyə keçərək Ədirnədə hökümdarlığını elan etdi. Musa isə Teymurdan atasının tabutunu alaraq Bursaya gəldi və İsa adlı qardaşının buradan qaçmasını təmin edərək hökmdarlığını elan etdi. Mehmed Çələbi isə Amasya əyalətində nüfuzunu təmin etmişdi. Bu vəziyyət Osmanlı imperiyasının dağılmasına səbəb ola biləcək bir təhdidə çevrilmişdi. Qardaşların öz bölgələrindəki nüfuzları ilə razılaşmayaraq Osmanlı imperiyasının bir tək sultanının ola biləcəyinə inanaraq başladıqları mübarizədə əvvəlcə Mehmed qardaşı İsanı öldürdü. Daha sonra Musa qardaşı Süleymanı öldürdü. Ən nəhayət Mehmed Musanı öldürərək Osmanlı imperiyasının on bir il davam edən bu taxt döyüşü dövrünə son qoydu.

Osmanlıda qundaqdakı şahzadənin öldürülməsi hadisəsinin ilk nümunəsi Fatih Sultan Mehmed dövründə yaşanmışdır. Osmanlı mərkəziyyətçiliyini nizamlı bir şəkildə ortaya qoymaq istəyən Sultan Mehmedin ilk işlərindən biri, hələ qundaqda olan qardaşı Əhmədi boğduraraq səltənət haqqını təmin etmək olmuşdur. Sultan Mehmedin belə bir qərar qəbul etməsində dövrün şəraitinin müəyyən təsiri olduğu açıqdır.

Fatih Sultan Mehmed dövründə baş verən digər bir xanədan içi qətl hadisəsi İstanbulun fəthi zamanı Bizans sarayında olan şahzadə Orxanın öldürülməsi hadisəsidir. Osmanlının görkəmli dönəminə kölgə düşürə biləcək bir hadisə, II Bəyazid ilə Cem Sultan arasındakı taxt mübarizəsi olmuşdur. Bu mübarizə Fateh Sultan Mehmedin vəfatından sonra II Bəyazidin sultan olması ilə başlayıb, Cem Sultanın taxta iddia etməsi və üsyanı ilə sürətlənmişdir. Sultan II Bəyazid Cem Sultan hadisəsi baş verənə qədər oğlu Oğuz xanı nəzarəti altında saxlamışdı, amma bu hadisələr baş verəndə əvvəlcə Cem Sultanı dəstəkləyən Gedik Əhməd Paşanı qətlə yetirmiş, sonra isə qardaşı oğlu Oğuz xanı İskəndər paşaya qətlə yetirtmişdir. Cem Sultanın digər oğlu Murad isə əvvəlcə Misirə, sonra da atasının ardınca Rodosa getdi, orada xristianlığı qəbul etdi. Rodosun fəthi zamanında Murad və oğulları qətlə yetirildilər (6, s.367-387).

Yavuz Sultan Səlimin atasını Dimetokaya göndərdikdən sonra zəhərləyərək öldürdüyü iddiaları var. II Bəyazidin ölümünün müxtəlif mənbələrdə fərqli səbəbləri açıqlanmışdır. Xəstələnib öldüyü, iztirabdan öldüyü kimi iddialar olmasına rəğmən, Bəyazidin oğlu Səlim tərəfindən zəhərlənməsi iddiası da vardır. Bu iddiaya görə, Bəyazidin Dimetokaya getmək və təkrar səltənəti ələ keçirməsi ehtimalının olması səbəbi ilə, Səlim Bəyazidin həkimi vasitəsilə atasını zəhərlətmişdir.

Osmanlıda taxtı ələ keçirmək uğrunda mübarizənin ən şiddətli dövrü II Bəyazidin oğulları arasında baş vermişdir. Hələ Səlim taxta çıxmamışdan əvvəl qardaşları ona qarşı müxalif mövqe tutmuşdular. Bütün bunlar sonrakı hadisələri şərtləndirmişdi. 1512-ci ildə Sultan Bəyazid oğlu Səlimi İstanbula çağırdı və Səlim yeni hökmdar oldu. Sultan Səlimin hökmdarlığının ilk dövründə qardaşlarını qətl etmək kimi bir niyyəti yox idi. Ancaq qardaşlarının ona qarşı olduğunu öyrəndikdən sonra Əhmədi, Şahinşah, Aləmşah və Mahmudu öldürtdü.

Osmanlının ən möhtəşəm dönəmlərindən biri olan Qanuni Sultan Süleyman zamanında xanədan içi qətl hadisələri acı bir şəkildə yaşanmıştır. Onun dövründə iki önəmli xanədan daxili qətl hadisəsi baş vermişdir: Şahzadə Mustafanın və Şahzadə Bəyazidin və oğullarının öldürülməsi. Rüstəm Paşa Anadolunun şərqinə doğru səyahət edərkən Ağsaray ətrafında Sultan Süleymana bir xəbər çatdırmaq üzrə təlimləndirilən Şəmsi Ağa və çavuşbaşının İstanbula geri qayıtmasına şərait yaradır. Bu xəbərə görə, yeniçerilərin Şahzadə Mustafaya olan itaətləri artmış və əsgərlərin Mustafanı hökmdar elan etməyi düşündükləri ilə bağlı şayiələr yayılmışdı. Sultan Süleyman, bu xəbərə inanmasa da təşvişə düşür, növbəti il səfərə özü qatılıb vəziyyəti nəzarət altına almaq üçün Rüstəm paşanı İstanbula çağırtdırır. Növbəti dəfə özü səfərə çıxır. Mustafa da ona ordu ilə qoşulacaqdı. Buna etiraz edənlər oldu. Mustafa buna baxmayaraq, “Nə olursa olsun, atasının əmrini yerinə yetirmək istədi və taleyin onu çəkdiyi yerə getməyə qərar verdi” dedi. Lakin atasının çadırına çatanda saray məmurlarının və ya onu qarşılamalı olan sultanın əvəzinə onu öldürmək üçün təyin edilmiş yeddi lal görüb dəhşətə gəldi. Dilsizlər Şahzadəni boğmaq üçün çox çalışsalar da, bacara bilmədilər; lakin Mahmud ağa Şahzadəni boğmağı bacardı. Şahzadə Mustafanın öldürülməsindən sonra cəmi 7,5 yaşında olan oğlu Mehmed anasının əlindən alınaraq boğularaq öldürüldü. Qanuni Süleyman dövründə digər bir sülalə qətliamı şahzadə Bəyazid və oğullarının öldürülməsi idi. Şahzadə Bəyazidlə Səlim arasında düşmənçiliklə yanaşı, sarayda iki şahzadənin tərəfdarları arasında dövlətə zərər verəcək bir rəqabət də var idi. Şahzadə Səlimin əhatəsində

olan Lala Mustafa Rüstəm Paşanın əleyhdarı olduğu üçün bu münaqişədə iştirak etmiş və Səlimin sultanlığını təmin etmək üçün Bəyazidə təxribat xarakterli məktublar yazmış, Bəyazidin cavab olaraq yazdığı məktubları ona göndərmişdir. Lala Mustafanın fəaliyyəti nəticəsində Şahzadə Bəyazid Sultan Süleymanın gözündə üsyançı oldu. Sultan Süleyman Bəyazidə qarşı səfərə çıxmağa qərar verdi. Lakin döyüşdə məğlub oldu və Amasiyaya qaçmalı oldu. Şahzadə Bəyazid Səlimlə mübarizəsi zamanı Lala Mustafanın Səlimin tərəfində olduğunu və onu bu yola apardığını anlayır; amma artıq gec idi, üsyankar olmuşdu. Bundan sonra Bəyazid Səfəvi şahı Təhmasibə sığınır. Şahzadənin Təhmasibə sığındığını öyrənən Sultan Süleyman şahzadənin təslim olması ilə bağlı Təhmasibə məktub göndərir. Təhmasib məktub göndərərək şahzadənin bağışlanmasını istədi. Lakin Sultan Süleyman şahın tələblərini qəti şəkildə rədd etdi. Şah Təhmasib də Osmanlılarla münasibətlərinin korlanmasından ehtiyat edərək şahzadənin təslim olmasını qəbul etdi. Şah şahzadəni təslim etməyə razılaşdıqdan sonra sultan tərəfindən təyin edilən Van Bəylərbəyi Hüsrev Paşa və Qapıçı Sinan Ağa və Şahzadə Səlimin təyin etdiyi çavuş Əli Ağa İrana gedərək şahzadə Bəyazidi və dörd oğlunu ələ keçirərək hamısını boğdular, cəsədlərini Sivasa göndərib orada basdırdılar.

II Səlimin ölümündən sonra onun böyük oğlu Murad taxta çıxdı və III Sultan Murad dövlət asayişi naminə beş qardaşını boğdu. Digər oxşar hadisə III Mehmedin dövründə də baş verdi. Mehmed hökmdar olduqdan sonra 19 qardaşını boğdurmuşdu. Sultan III Mehmed dövründə baş verən xanədandaxili qətl hadisəsi Sultanın oğlu Mahmudun öldürülməsidir. Osmanlı tarixində ən böyük sülalədaxili qətl hadisələri III Mehmed dövrü Osmanlı şahzadələri üçün də əhəmiyyətli dəyişikliklər dövrü idi. Bu dövrdən etibarən şahzadələr sancaqlara göndərilmir və onlar sarayda "qəfəs həyatı" keçirirdilər. I Əhməd vəfat edəndə onun yerinə böyük oğlu olmadığı üçün qardaşı Mustafa hökmdar oldu. Mustafanın qısa səltənəti dövründə sülalədaxili qətllər olmayıb. Bununla belə, sülalədaxili qətl nümunəsi II Osmanın dövründə baş verib. II Osmanın altı qardaşı var idi və o, bu qardaşlara toxunmadı. Ancaq ixtilaf olarsa, Rumeli Kazaskeri Kəmaləddin Əfəndidən aldığı fətva ilə sultanlığı ələ keçirəcək yaşda olan qardaşı Mehmedi öldürtdürdü.

IV Muradın dövründə də xanədandaxili qətllər nümunələri də var idi. Sultan Muradın sağlığında dörd qardaşı var idi. Sultan Murad II Osmanın başına gələnlərin başına gəlməməsi üçün qardaşlarını aradan götürmək üçün uyğun bir mühitin yaranmasını gözləyirdi. Qalibiyyətli müharibələr sonrası əhalinin narazılığının çox olmayacağını düşünərək qardaşları Süleyman, Bəyazid və Qasımı öldürdü. I Mahmudun ölümündən sonra hökmdar olan III Osman uzun müddət saray həyatında yaşadığı üçün əsəbi, ictimai münasibətlərdən uzaq böyüyüb. Sultan Osman əmisi oğlu Mehmedi öldürmüşdür (8).

***Nəticə.*** Tarix boyu bir çox hökmdar dövlət idarəsində öz mövqeyini qorumaq üçün müxtəlif tədbirlərə əl atmışlar. Bu tədbirlərdən biri də hakimiyyətini ələ keçirməyə çalışan və ya ələ keçirmə ehtimalı olanları aradan qaldırmaqdır. Bu şəxslər hökmdar ailəsindən də ola bilərlər. Bu zaman da hökmdar ailə, sülalə üzvlərini öldürtmək məcburiyyətində qalır. Çünki mövqeyinin ələ keçirilməsi qan tökülməsinə, dövlətdə nizam-intizamın pozulmasına, böhrana və ya parçalanmaya səbəb olur.

Osmanlı dövlətində də, padşahlar hər hansı bir problem, təhlükə yaranmaması və öz mövqelərini qorumaq üçün xanədan içi qətl başlığı altında bir çox qətl hadisəsi törətmişdirlər. Fateh Sultan Mehmedin "Qanunnamə"sində qardaşlarını nizam-intizamı qorumaq üçün öldürə biləcəyi ilə bağlı maddə var idi ki, bu da böyük ehtimalla Fatehin özündən əvvəlki dönəmdə baş verən hadisələrlə bağlı idi. Fateh Sultan Mehmed də, bunun yolunu alimlərdən aldığı fətva ilə şahzadələri qətl etməkdə tapmışdır. Qətl hadisələrini araşdırdıqda hər dəfəsində dövlətin nizamını pozacaq ünsürlərin mövcud olduğu görünür. İstanbulun fəthinə qədər şahzadələr xarici qüvvələr tərəfindən dövlətə qarşı qoyulurdu. Bunlardan da ən çox bu yola əl atanı varlığını Osmanlıdakı fitnəyə bağlayan Bizans imperiyası idi. Ankara döyüşündən sonra bu siyasət açıq-aydın görülməkdə idi. Xarici təsirlərdən başqa əsas səbəblərdən biri də mövcud vərəsəlik sisteminin olmaması idi. Şahzadələr sancaqlara göndərilsələr də, hökmdar öldükdən sonra açıq rəqabət meydana çıxırdı. Padşahlar istədikləri şahzadəni paytaxta yaxın sancağa təyin etsələr də, şahzadələrin bu mövzudakı hirsləri və ya saraydakı qrupların bir şahzadəni taxta çıxarmaq istəməsi onların arasında rəqabətə səbəb olurdu.

Qeyd edək ki, hakimiyyəti ələ keçirmək uğrunda gedən mübarizə nəticəsində baş verən bu hadisələr daha çox qüdrətli şəxslərin dövlətin başına gəlməsinə səbəb olmuşdur. Nəticə etibarı ilə demək

olar ki, sülalə üzvlərinin qətli çox vaxt hökmdarların və ya sülalə üzvlərinin istəkləri ilə deyil, zərurət nəticəsində baş verirdi. Çünki onlar dövlət nizamının pozulmasının qarşısını almaq istəyirdilər. Osmanlı tarixi araşdırmaçıları ümumilikdə qardaş qətli hadisəsinin yalnız Osmanlı tarixində deyil, Bizans, İran, Ərəb, həmçinin digər türk dövlətlərinin də tarixində baş verdiyini edirlər (9, s.20).

ƏDƏBİYYAT

1. İbn Khaldun. The Muqaddimah, translated by Franz Rosenthal. Princeton, Princeton University Press, 2005, 681 p. – URL: https://ia803106.us.archive.org/22/items/etaoin/The%20Muqaddimah%20%E2%80%93%20An%20Introduction%20to%20History%20by%20Ibn%20Khaldun.pdf [30.04.2024].
2. Ekrem Buğra Ekinci. Osmanlı Hukukunda Şehzade Katli // Bayburt Üniversitesi İlahiyat Fakültesi Dergisi, Yıl 2015, Cilt: 1, Sayı: 1, s.71-83. - URL: https://dergipark.org.tr/tr/pub/bayburt-ilahiyat/issue/75364/1236487 [30.04.2024].
3. Muhammet Nuri Tunç. Osmanlıda hanedan içi katl // Turkish Studies, Ankara, 2014, Volume 9, Issue 4, p.1133-1167. – URL: https://www.academia.edu/35551891/KARDE%C5%9E_KATL%C4%B0_OSMANLIDA_HANEDAN_%C4%B0%C3%87%C4%B0_KATL [30.04.2024].
4. Mehmet Akman. Kardeş katli ve hukuku boyutu // Düşten Fethe İstanbul, 2015, s.219-231. – URL: https://www.scribd.com/doc/181483991/Mehmet-Akman-Osmanl%C4%B1-Devletinde-Karde%C5%9F-Katli-1 [30.04.2024].
5. A.Nilüfer İsvan, İrvin Cemil Schick. Osmanlı hanedanında kardeş katli yahut aile içi rekabeti ortadan kaldırmanın gerçekleri ve yolları / K24, 04 Ocak 2018. – URL: https://t24.com.tr/k24/yazi/aile-ici-rekabet,1503 [30.04.2024].
6. Uzunçarşılı. Osmanlı tarihi, c.1. Ankara, TTK, 1994, 810 s. – URL: https://www.scribd.com/document/491459289/Uzuncarsili-Ismail-Hakki-Osmanli-Tarihi-02 [30.04.2024].
7. Joseph von Hammer. Büyük Osmanlı tarihi, Cilt 3, İstanbul, 1989, 667 s. – URL: https://www.scribd.com/document/456213434/Joseph-Von-Hammer-Buyuk-Osmanl%C4%B1-Tarihi-3 [30.04.2024].
8. Dr. Mehmet Akman. Osmanlı devletinde kardeş katli. İstanbul, Eren Yayıncılık, 1997, 208 s.
9. Sevinc Ruintən. Terminlərlə Osmanlı tarixi: "Sancaq sistemi", "Qardaş qətli", "Ekber ve Erşed sistemi", "Qəfəs sistemi" // Tarix və onun problemləri, 2023 №4, s.17-24.

**HALILA SADIGOVA**
*Baku State University SABAH groups*
*4th year student of speciality of History teacher*

## A REVIEW OF THE ISSUE OF "FRATRICIDE" IN THE OTTOMAN EMPIRE

In Western languages, the concept of "fratricide", which is derived from the Latin word "fratricide", means not only the killing of brothers, but also the killing of men from the dynasty who aspire to the throne, such as sons, grandsons, nephews. In fact, the fratricide observed in world history is actually a product of historical, political and legal ideas, and this issue has not escaped Turkish history either. In the old Turkish political tradition, each representative of the dynasty wanted to keep the state administration in his own hands. This situation resulted in the disintegration of states and the fragmentation of countries. It should be noted that there was no orderly succession system in the early days of the Ottoman state. The only thing that would determine the fate of the princes on the path to the sultanate was their fate. This caused internal conflicts between the princes. This situation left the Ottomans with two difficult options: to kill the remaining members of the dynasty for the survival of the state,

or to dismember and destroy the state. The Ottomans made their choice, thinking that fratricide was "fewer losses". In other words, they had no choice but to make this terrible choice. It should also be taken into account that some of the princes who were able to escape the fratricide also rebelled with the support of enemy states, which caused the destruction of hundreds of people and caused huge damage to the state. Fratricide became law with Fateh Mehmed's "Law". Sixty-one princes were killed as a result of fratricide in Ottoman history, which existed for more than six hundred years, 22 of them as a result of rebellion or conspiracy. From the beginning of the 17th century, the succession system was changed, the oldest representatives of the dynasty began to become sultans, and from that date, fratricide was not carried out regardless of the intention and purpose, the "Ekber and Ershad" system began to be applied. It should be noted that among Ottoman history researchers, there are not a few supporters of the opinion that "fratricide was practiced in the Ottoman Empire for the sake of the welfare of the people, the preservation of the unity and solidarity of the state." In the present article, an attempt will be made to examine this issue based on existing historiographical works.

*Keywords:* Ottoman, inheritance system, fratricide, "Fateh's Law".

*Daxil olma tarixi*: 30.04.2024-cü il.
*Çapa imzalanma tarixi*: 10.05.2024-cü il.

№2(10) 2024, 47-53

UOT 94

**HƏSƏN CƏFƏROV**
*Azərbaycan Universitetinin magistrantı*
**Hsncfrov620@gmail.com**

# "DAŞNAKSÜTYUN" PARTİYASI VƏ ERMƏNİ KİLSƏSİNİN TERRORÇU FƏALİYYƏTLƏRİ

*Elmi rəhbər*:
tarix elmləri doktoru Kərim Şükürov

*Tarix boyunca Erməni kilsəsi xristian dini ayinlərinin, vacib əməllərinin icrasını həyata keçirən qurum kimi deyil, milli identifikasiyanın formalaşması prosesində, erməni milli və hətta irqçi düşüncələrin meydana çıxmasında aktiv rol oynayan mərkəz kimi fərqlənmişdir. Ermənistan dövlət xadimləri öz mövqelərini möhkəmləndirmək üçün kilsə ilə sıx əlaqələr yaratmağa, kilsənin nüfuzundan istifadə etməyə çalışmışdırlar. Ermənistan dövlət xadimləri kilsə ilə yaxın əməkdaşlığı ölkəni idarə etməyin və erməni diasporları, həmçinin terrorçu təşkilatları ilə əlaqələrin yaradılmasının, beynəlxalq təşkilatlara təsir etmə imkanlarının əldə edilməsinin başlıca mənbəyi hesab edirlər. Hnçak, "Daşnaksütyun", Armenikan, ASALA kimi beynəlxalq terror təşkilatları ilə əlbir olan erməni kilsəsi erməni psixikasında "Böyük Ermənistan" xülyasının aktual qalmasının əsas səbəbkarlarındandır.Erməni kilsəsi terror fəaliyyətini əsasən "Daşnaksütyun" terror təşkilatı vasitəsilə həyata keçirmişdir.İlk dövrlərdə adı çəkilən terror təşkilatlarının yaranmalarının və fəaliyyətlərinin ideoloji mənbəyi kilsə idisə, hazırda kilsə həmin təşkilatların əlində alətə çevrilmişdir və müəyyən mənada məhz bu təşkilatların göstərişləri, maddi və mənəvi dəstəyi əsasında geniş təsir imkanlarına malikdir. Məqalədə erməni kilsəsinin və "Daşnaksütyun"partiyasının birlikdə terror fəaliyyətinin istiqamətləri ətraflı tədqiq olunmuşdur.*

*Açar sözlər:* ermənilər, erməni kilsəsi, erməni qriqorian kilsəsi, milli ideoloji mərkəz, erməni terror təşkilatları.

***Giriş.*** Erməni terrorizmi erməni millətçi qruplarının və təşkilatlarının sistematik təhdid və fərdi intiqam aktlarından biridir. Erməni terrorizmi mütəşəkkil və yaxşı təşkilatlanmış bir terrorizm olmaqla, beynəlxalq terrorizminin geniş qanadı və şəbəkəsi olmuşdur. Erməni millətinin milli mənlik şüuru, özünüdərki, milli identifikasiyası kilsənin birbaşa təsiri altında formalaşmışdır, bu proses bu gün də davam edir və hər zaman belə olacaqdır. Milli ideoloji mərkəz kimi çıxış edən kilsə ermənilərin tarixinin, mədəniyyətinin yaradıcısıdır. Hər zaman ilk növbədə öz müstəqilliyini bərqərar etmək istiqamətində fəaliyyət göstərən kilsə bu məqsədlə bütün mümkün imkan və vasitələrdən istifadə etmişdir və etməkdədir. Erməni kilsəsi yarandığı ilk dövrlərdən qarşısına qoyduğu məqsədi müasir dövrdə də davam etdirməkdədir. "Böyük Ermənistan" xülyasının bu günə qədər də aktual olmasının səbəbkarı məhz erməni kilsəsi olmuşdur. Müxtəlif dövrlərdə ideoloji mərkəz olaraq kilsə ermənilərin "dənizdən dənizə bir dövlət" xəstəliyini, xülyasını alovlandırmış, bu fikirləri dəstəkləyəcək, yayacaq və bu amal uğrunda hər şeyə hazır olan qruplaşmaların yaradılmasında fəal iştirak etmişdir.Erməni kilsəsinin terrorçuluq fəaliyyəti birbaşa "Daşnaksütyun" təşkilatı vasitəsilə həyata keçirilmişdir.

***Erməni terror təşkilatlarının yaranmasında Erməni kilsəsinin rolu.*** Erməni xülyasının reallaşdırılması istiqamətində ilk təşilatlanmış, terrorçu fəaliyyətə başlayan birlik "Hnçak" olmuşdur. 1887-ci ildə Cenevrədə təhsil alan Nazarbayov qardaşları və bir qrup tələbələr tərəfindən yaradılan bu təşkilat ilk dövrlərdə Osmanlı imperiyası və Qacarlar dövlətinin ərazisində terror fəaliyyətilə məşğul idi. [13, s.45]. XIX əsrin 90-cı illərində yaradılan "Daşnaksütyun" partiyasının yaradılmasında və fəaliyyətinin dəstəklənməsində erməni kilsəsinin xüsusi rolu olduğunu söyləmək lazımdır. İlk yarandığı dövrdən terrorçuluğu əsas fəaliyyət planı kimi müəyyənləşdirən partiyanın hələ 1907-ci ildə müxtəlif dövlətlərdə ümumən 3233 filialı var idi və bunlardan 2311-i Rusiya imperiyasında, qalanları isə erməni diasporası olan ölkələrdə yerləşmişdilər. XX əsrin əvvəllərində "Daşnaksütyun"un üzvlərinin sayı 100

min nəfərə çatırdı. Türkiyə ərazisində erməni dövləti qurmaq niyyətində olan partiyanın nizamnaməsində aşağıdakılar əsas fəaliyyət istiqamətləri kimi müəyyənləşdirilmişdir:

1) yalnız ermənilər arasında deyil, Türkiyədə yaşayan digər məzlum xalqlar arasında da inqilabi təşviqat aparmaq;

2) erməniləri silahlandırmaq və təşkilatlandırmaq;

3) terror törətmək;

4) dövlət müəssisələrini soymaq və dağıtmaq [16, s.141].

***I Dünya müharibəsi və "Daşnaksütyun" partiyasının terrorçuluq fəaliyyəti.*** Birinci Dünya müharibəsi ərəfəsində türklərə qarşı kütləvi qırğınlar törədən bu təşkilatlar qeyd edildiyi kimi bilavasitə erməni kilsəsinin hərtərəfli dəstəyindən yararlanırdılar. Hətta bu təşkilatların terror fəaliyyətinin nəticəsi olaraq müəyyən ərazilər əldə edəcəklərinə əmin olan kilsə katalikosu V Gevorq Rusiya çarı I Nikolayla şəxsən görüşərək Osmanlının məğlub olması üçün erməni terrorçularının geniş fəaliyyətinin mükafatı olaraq bir sıra ərazilərin – Ərzrum, Van, Bitlis, Elazığ, Diyarbəkr və Sivasın ermənilərə verilməsi haqda razılığını almışdır.

Beləliklə, Birinci Dünya müharibəsinin (1914-1918) başlanması ilə erməni terrorçuları və erməni qriqorian kilsəsi belə hesab etdilər ki, onların "dahiyanə" ideyalarının reallaşdırılması üçün əlverişli məqam gəlmişdir. Ermənilər Antanta dövlətləri ilə sıx əlaqələr yaradaraq Osmanlı imperiyası daxilində dağıdıcı fəaliyyətə başladılar. Öz himayədarlarından silah alan ermənilər arxa cəbhədə mülki müsəlman əhalisinə qarşı qanlı hücumlar həyata keçirməyə başladılar. Onlar hələ 1905-ci ildə baş verən inqilabla bağlı Rusiya imperiyasının zəifləməsindən istifadə edib, Cənubi Qafqazda və İranda yaşayan azərbaycanlılara qarşı etnik təmizləmə siyasəti yürütdülər [13, s.46].

Amerikalı tarixçi Stenford C.Şou özünün "Osmanlı imperiyasının və müasir Türkiyənin tarixi" adlı tədqiqatında göstərirdi ki, Birinci Dünya müharibəsi gedişində *"...müsəlmanların ermənilər tərəfindən amansız və kütləvi qırılması baş vermişdir. Milyondan çox türk kəndlisi öz isti ocaqlarını tərk etməyə məcbur olmuşdu. Türk qaçqınlar tikə-tikə doğranmışdılar. Türkiyənin beş əyalətinin – Trabzon, Ərzincan, Ərzurum, Van, Bitlis ərazisində yaşayan 3 milyon 300 min insandan 1914-cü ildə 600 min nəfəri qaçqın düşmüşdü"* [14, s.10].

Birinci Dünya müharibəsinin aktiv iştirakçılarından olan Rusiyanın daxilində inqilablar, siyasi xaos imperiyanın ucqarlarında, o cümlədən Cənubi Qafqazda milli münaqişələrlə davam edirdi. Rusiyada siyasi böhranın dərinləşməsindən istifadə etməyə çalışan erməni terror təşkilatları Azərbaycanda müsəlmanlara qarşı soyqırımı siyasətini həyata keçirdilər. 1917-ci il Fevral inqilabı dövründə ermənilər Azərbaycan ərazilərinin işğalı fəliyyətini genişləndirdilər [3, s.133].

***1918-1920-ci illərdə "Daşnaksütyun" partiyası və erməni kilsəsinin terrorçuluq fəaliyyəti.*** 1919-cu il fevralın 6-13-də İrəvanda "qərbi ermənilərin II qurultayı" keçirilmişdi. Bu toplantı Eçmiədzin Katolikosu tərəfindən təqdis edilərək açılmışdı. Toplantıda "Birləşmiş Ermənistan"ın qurulması qərarlaşdırılmışdı. Ermənilər Şərqi Anadolunun Ermənistan Respublikasına ilhaq edilməsini nəzərdə tuturdular. "Birləşmiş Ermənistan"a ingilislərin məğlub etdikləri Qarsdan başqa Osmanlı dövlətindən alınacaq digər ərazilər də daxil edilməli idi. Bu qurultaydan sonra ermənilər 1919-cu il fevralın 12-də baş tutan Paris Sülh Konfransına müraciət edərək Tbilisinin cənubundan Sivas da daxil olmaqla Adanaya qədər sərhədlərdə "Böyük Ermənistan" qurulmasına kömək istəmişdilər. 1920-ci il avqustun 10-da hazırlanan Sevr müqaviləsinə görə, Qars, Ərdəhan, Van, Ərzurum və Trabzon vilayətləri də daxil olmaqla, böyük bir ərazi ermənilərə verilməli idi. Lakin Sarıkamış yaxınlığındakı döyüşlərdə Qars və Ərdəhan bölgələri türklər tərəfindən azad edildi və Sevr müqaviləsi qüvvədən düşdü, 1921-ci il Moskva müqaviləsi ilə əldə olunmuş qələbənin nəticələri möhkəmləndirildi [7, s.32-33].

Bir daha qeyd etməliyik ki, erməni millətinin xəstəlik halını almış xülyalarının reallaşdırılması ilə bağlı bütün təbliğat və təşviqat fəaliyyəti kilsəyə məxsus olmuşdur. Bir daha vurğulanmalıdır ki, 1918-1920-ci illərdə Ermənistan Respublikasının yaradılmasının ideya daşıyıcısı olan erməni kilsəsi yeni hökuməti dəstəkləyirdi və erməni dövlətçiliynin formalaşdırılmasına köməklik göstərirdi.1918-1920-ci illərdə Türkiyə, Azərbaycan və Gürcüstana qarşı ermənilərin ədalətsiz müharibələrində terrorçu daşnak partiyasının üzvlərinin fəaliyyəti xüsusi bir araşdırma tələb edir və burada kilsə ilə daşnakların birgə fəaliyyəti işıqlandırılmalıdır. Türkiyə tədqiqatçısı Zeynəb İskefiyelinin araşdırmalarına əsa-

sən, XIX əsrin sonu - XX əsrin əvvəllərində erməni cəmiyyətləri, məktəbləri və kilsələri, bütövlükdə erməni patriarxlığı öz siyasi qanuni və dini toxunulmazlıqlarından istifadə edərək üsyan və inqilabların hazırlandığı komitələrə, bürolara, silah və sursat anbarlarına çevrilmişdilər. Gənc partizanlardan yepiskoplar və ruhanilər seçilirdi. Erməni terrorçuları fəaliyyət göstərdikləri ərazilərdə yepiskopların da olmasına çalışırdılar. “Daşnaksütyun” və Hnçak təşkilatlarında keşişlər, vartabetlər, yepiskoplar və hətta patriarxlar fəaliyyət göstərirdilər. Erməni inqilabı hərəkatlarına qoşulmaq istəməyən patriarxlar və ruhanilər bu terror təşkilatları tərəfindən təhdid edilir, istefa etmək məcburiyyətində qalır və ya kilsədən uzaqlaşdırılırdılar [9, s.242-243].

Qeyd etmək olar ki, I Dünya müharibəsi dövründə erməni katalikosları Osmanlı imperiyasına qarşı törədilən cinayətlərdə terrorçularla əlbir fəaliyyət göstərmişdilər. Kilsə xadimlərinin başlıca fəaliyyəti ermənilər arasında osmanlılara qarşı təbliğat aparmaq, onları üsyana təşfiq etmək və hətta onları silah-sursatla təmin etmək idi. I Dünya müharibəsi dövründə kilsələr müxtəlif Avropa ölkələrindən gətirilən silahların saxlanıldığı depolara çevrilmişdilər və bu silahlarla təchiz edilən daşnaklar zəbt etməyə çalışdıqları Türkiyə və Azərbaycan torpaqlarında yerli əhalinin öldürülməsi zamanı bu silahlardan istifadə etmişdilər. Müharibədən sonrakı dövrdə də məhz kilsənin yaxından köməkliyi ilə ermənilər Azərbaycan ərazilərində yerli əhalinin məhv edilməsi, terror yolu ilə onların qaçqına və köçkünə çevrilməsinə səbəb olmuşdular. 1918-1920-ci illər Azərbaycan tarixinin şərəfli və gərgin bir dövrü kimi səciyyələndirilə bilər. Belə ki, 1918-ci il 28 may tarixində yaradılan Azərbaycan Xalq Cümhuriyyəti şimaldan Denikin, qərbdən Ermənistanın təcavüzü ilə üzləşdilər. 1918-ci ilin avqustunda isə ingilislər və Biçeraxovun silahlı dəstələri Bakıya daxil oldular [3, s.133].

Belə bir siyasi qarışıqlıq dövründə erməni təcavüzləri Azərbaycan Xalq Cümhuriyyətinin siyasi varlığını təhlükə altına salan əsas amillərdən biri idi. Dövlət quruculuğunda Azərbaycan Xalq Cümhuriyyəti “millətlərin öz müqəddəratını təyinetmə” prinsipindən çıxış etsə də, Ermənistan tərəfi “tarixi prinsipi” əsas götürür, guya qədimdə mübahisəli ərazilərin “Böyük Ermənistan” ərazisinə daxil olduğunu iddia edirdi. Ermənistan Respublikasının daha çox əraziləri ələ keçirmək cəhdləri milli münaqişənin dərinləşməsinə, yüz minlərlə əhalinin öz torpaqlarından qaçqın düşməsinə səbəb olmuşdur [5, s.152].

Azərbaycan Xalq Cumhuriyyətinin Baş Naziri F.X.Xoyski Ermənistan hökumətinə göndərdiyi notada bildirirdi ki, azərbaycanlılara qarşı təcavüz siyasəti qəti olaraq dayandırılmalıdır [11, s.137]. Lakin erməni kilsəsinin maddi və mənəvi dəstəyi və bir çox hallarda təhriki ilə azərbaycanlılara qarşı soyqırımı ölkənin demək olar ki, bütün regionlarında həyata keçirilirdi. Bakı, Şamaxı, Quba, Göyçay, Qarabağ, Zəngəzur, Naxçıvan, Şəki, Lənkəran və Azərbaycanın əzəli torpaqları olan İrəvan, Göyçə və digər ərazilərdə ermənilərin yerli mülki azərbaycanlılara qarşı törətdikləri qırğınlar nəticəsində on minlərlə əhali öldürülmüşdü. Tədqiqatçı Sabir Əsədov E.Korkotyanın əsərinə istinadla göstərir ki:

*“1831-1931-ci illərdə Sovet Ermənistanının əhalisi” adlı kitabında göstərir ki, 1918-1920-ci illərdə indiki Ermənistan ərazisində yaşayan 575.000 azərbaycanlı əhali kütləvi qırğına məruz qaldılar”* [10, s.65].

Azərbaycan Xalq Cümhuriyyətinin Gəncədə 1918-ci il 15 iyul tarixli iclasında Azərbaycan türklərinə qarşı törədilən vəhşilikləri araşdırmaq üçün Fövqəladə İstintaq komissiyası yaradılması haqqında məsələ qaldırılmışdı. Bu Şuranın fəaliyyətinin nəticələri ümumiləşdirilərək fransız, alman, rus və türk dillərinə tərcümə olunacağı bildirilirdi. 1918-ci ilin iyulundan 1920-ci ilin martına qədər fəaliyyət göstərən komissiya Azərbaycanın ayrı-ayrı bölgələrində ermənilər tərəfindən törədilən terror aktlarına dair cildlərlə materiallar hazırlamışdı [8, s.20].

Onu da qeyd etmək lazımdır ki, XX əsrdə Cənubi Qafqazda xüsusi vüsət alan erməni terroru yalnız azərbaycanlılara qarşı deyil, həmçinin bu regionda yaşayan və ermənilərin planlarının həyata keçirilməsi yolunda maneə olaraq qəbul edilən bütün xalqlara qarşı çevrilmişdi. Azərbaycanlılarla yanaşı, bu dövrdə gürcülər, kürdlər, ruslar, yəhudilər və digər millətlərin nümayəndələri erməni terrorunun qurbanlarına çevrilmişdilər. Bu qətllərin başlıca səbəbi “Böyük Ermənistan” xülyasının gerçəkləşdirilməsi idi. 1919-cu ilin yanvarında daşnak hökuməti Qarabağ ərazisi ilə əlaqədar iddialar irəli sürmüşdü. Ermənilər aşağıdakı əraziləri Qarabağdan qoparmaq istəyirdilər:

1. Tərtəri çıxmaq şərtilə Cavanşir qəzasının cənub, qərb hissəsini;

2. Ağdamı və Qacar kəndini çıxmaq şərtilə Şuşa qəzasının qərb hissəsini;
3. Vəng, Hadrut, Yeqorlu və Arakel kəndləri ilə birlikdə Cəbrayıl qəzasının bir hissəsini;
4. Kirs dağından Cənub qərbdə yerləşən Şahverdilər kəndini və Araz çayı üzərindəki Ağbil stansiyasını çıxmaq şərtilə bütün Zəngəzur qəzasını [16, s.15].

Onu da qeyd etmək lazımdır ki, XX əsrin ilk onilliklərində ermənilərin geniş terror fəaliyyəti Qərbi Avropa dövlətləri və birbaşa olaraq Fransa və Böyük Britaniya tərəfindən dəstəklənir və şərait yaradılırdı. Burada başlıca məqsəd həmin dövlətlərin Kiçik Asiyada və Cənubi Qafqazda nüfuzlarının genişləndirilməsi, bu ərazilərin müstəmləkəyə çevrilməsi idi. Böyük dövlətlərin bu siyasətindən öz xeyirləri üçün yararlanmağa çalışan erməni kilsəsi və terror birləşmələri yerli əhaliyə qarşı amansız vəhşiliklər törədirdilər. 1918-ci ildə Antanta İttifaqına daxil olan Fransa və Böyük Britaniyanın köməkliyi ilə Qars vilayətini və İrəvan quberniyasının bir hissəsini ilhaq edən daşnak erməni respublikası öz ərazilərini 17.500 ingilis kv.milinə çatdırdı. Burada yaşayan 1.510.000 insanın 795.000-i erməni, 575.000-i müsəlman türklər, 140.000-i digər millətlərdən olanlar idi. Bu ərazilərlə kifayətlənməyən ermənilər Gürcüstanın Axalkalaki və Borçalı, Azərbaycanın Qarabağ, Naxçıvan və Yelizavetpol quberniyasının cənub hissəsinə iddia edirdilər və bu ərazilərin güclə əldə edilməsi cəhdləri 1918-ci ilin dekabrında Gürcüstan və Azərbaycanla uzunmüddətli müharibənin başlanmasına səbəb oldu. Bolşevik Rusiyasının rəhbəri V.İ.Lenin daşnak hökumətinin iddiaları ilə bağlı qeyd edirdi ki: "*Türkiyəni Sovet Rusiyasına qarşı çevirməyə çalışan və dostluq münasibətlərinin yaranmasına dair danışıqların aparılmasına mane olan Antanta rəhbərləri daşnak Ermənistanın Türkiyə üzərinə hücum etməsinə təşəbbüs göstərdilər. Demək olar ki, Kiçik Asiyanın yarısını əhatə edəcək "Böyük Ermənistan" qurmaq istəyən ermənilər Türkiyəyə qarşı çox aqressiv mövqedə idilər. ...Müharibədə məğlubiyyət Ermənistanı son hədd iflasa gətirmiş oldu*" [10, s.65].

***Sovet dövründə erməni kilsəsinin fəaliyyəti.*** Ermənistan 1920-ci ildə Sovet Rusiyası tərəfindən işğalından sonra ləğv edildi və Zaqafqaziya Sovet Federativ Respublikasının tərkibinə daxil oldu. 1921-ci ildə Türkiyə ilə Zaqafqaziya Sovet Federativ Respublikası arasında Qars müqaviləsi imzalandı. Daşnakların hücumlarına məruz qalaraq qaçqın düşən və Qars müqaviləsindən sonra öz doğma yerlərinə qayıdan azərbaycanlılar gözlədiklərinin əksinə olaraq daha kəskin sıxışdırmalarla qarşılaşdılar və artıq 1926-cı ildə 25 min nəfər azərbaycanlı Ermənistanı tərk etmək məcburiyyətində qalmış, o cəmi 84.717 nəfər azərbaycanlı qalmışdı. 1921-1936-cı illərdə Ermənistana İran, Türkiyə, Yunanıstan, Fransa, Suriyadan 42 min erməni immiqrasiya etmişdi [18, s.104].

1943-cü il Tehran konfransında ermənilər SSRİ rəhbərliyinə müraciət edərək İranda yaşayan ermənilərin Ermənistana köçürülməsinə şərait yaradılmasını istəmişdilər və SSRİ Ali Soveti Rəyasət Heyətinin 1946-cı il Fərmanına əsasən xarici ölkələrdə yaşayan ermənilərin Ermənistan SSR ərazisinə köçürülməsinə razılıq verilmişdi. Ermənilərin belə bir təkliflə müraciətlərində "Daşnaksütyun" partiyasının və erməni kilsəsinin əsaslı təsiri olmuşdur. Xaricdə yaşayan ermənilərin bilavasitə azərbaycanlıların yaşadıqları bölgələrdə yerləşdirilməsi nəzərdə tutulmuşdu. Ermənilər bu yolla tədricən ölkənin ərazilərini Azərbaycan torpaqları hesabına böyüdəcəklərini düşünürdülər.

Sovet dövründə Erməni kilsəsinin iki nüfuzlu mərkəzi vardır: Eçmiədzin katolikosluğu və Kilikiya katolikosluğu. Bu mərkəzlər arasındakı qarşıdurma sovet hakimiyyəti dövründə böyümüş oldu. Eçmiədzin kilsəsi Sovet imperiyası dövründə kommunizm rejimində fəaliyyət göstərməli idisə, Kilikiya kilsəsi "Daşnaksütyun "partiyasının təsiri altında idi və daha çox mühacir erməniləri öz ətrafında birləşdirirdi.

***Dağlıq Qarabağ münaqişəsində Erməni kilsəsi və "Daşnaksütyun" partiyasının terrorçuluq fəaliyyəti.*** Azərbaycan torpaqlarının 20%-nin işğalı və uzun illər münaqişənin həllini tapmamasında kilsənin danılmaz rolunu vurğulamaq lazımdır. Əsasən xristan dövlətlərindən (ABŞ, Fransa, Rusiya) təşkil edilən Minsk qrupu yalançı siyasi birlik idi və tarixən olduğu kimi yalnız bir tərəfə - ermənilərə xidmət edirdi. Kilsə bir tərəfdən erməni diasporaları və "Daşnaksütyun" partiyasının üzvləri ilə əlaqə saxlayaraq onların münaqişənin həllində aparıcı qüvvə olan dövlətlərə təsir və təzyiq etməsini təmin edirdi, digər tərəfdən isə bilavasitə özü həmin dövlətlərlə əlaqələr saxlayır, "yazıq ermənilərin" hüquqlarının və xülyalarının reallaşmasında köməklik istəyirdilər. Erməni kilsəsi bu gün də nüfuzlu siyasi qüvvə olaraq qalmaqdadır. XXI əsrdə hakimiyyətə gələn erməni siyasətçiləri kilsəni öz himayədarla-

rına çevirmək məqsədilə onu gücləndirməyə, həmçinin kilsə vasitəsilə diasporaları nəzarətdə saxlamağa çalışırlar. Erməni apostol kilsəsinin əsas mərkəzləri olan Eçmiədzin və Kilikiya katolikosluqları "Daşnaksütyun" partiyasının tam təsiri altındadırlar. 1890-cı illərdə yaranan və əsas məqsədləri "Böyük Ermənistan" xülyasının gerçəkləşdirilməsi olan bu partiya davamlı olaraq türklərə qarşı soyqırım siyasəti həyata keçirməklə məşğul olmuşdur və dünya tarixinin kritik dövrlərində açıq fəaliyyət göstərmişdir.

Professor Musa Qasımlının qeyd etdiyi kimi hələ XIX əsrdə:

*"Erməni kilsəsi daşnak terrorçularının toplaşdığı yerə çevrilmişdi. "Daşnaksütyun" kilsə xadimləri seçilərkən öz namizədini keçirməyə çalışır və ona nail də olurdu. Bununla əlaqədar olaraq İrəvan quberniya jandarma idarəsinin rəisi Daxili İşlər Nazirliyinin Polis Departamentinə 1903-cü ilin noyabr ayında yazdığı 1288 №-li məxfi raportunda vurğulayırdı: "İrəvan kilsəsinin keşişi Sukias Ter-Qriqorian "Daşnaksütyun" Partiyasının üzvüdür". Kilsə və terror təşkilatları bərabər hərəkət edirdilər... Kilsənin terror təşkilatı ilə əlaqədə olaraq xristianlığı gözdən salmasının daha bir nümunəsi "Daşnaksütyun"un Eçmiədzin kilsəsinin yanında dini təşkilat olan Patorik təşkil etməsi idi. Yalnız rəhbərliyə tabe olan bu terror təşkilatının başlıca vəzifəsi ermənilərin psixoloji və dini hisslərinə təşkilatın mövqeyindən təsir etmək idi. Patorikin fəaliyyətində erməni katolikosunun şəxsən iştirak etməsi isə kilsə və terror təşkilatının bərabər hərəkət etdiyini göstərirdi. Cənubi Qafqazda tökülən qanlar üçün məsuliyyəti erməni kilsəsi və terror təşkilatları daşıyırdı."* [2, s.82-87].

***Nəticə.*** I Dünya müharibəsi və II Dünya müharibəsi dövrlərində, SSRİ-nin yarandığı və dağıldığı illərdə "Daşnaksütyun" türklərə qarşı kütləvi qırğın həyata keçirərkən yenə də erməni kilsəsinin və kilsə xadimlərinin xidmətlərindən yararlanmışdı. Tarixin nisbətən sabit məqamlarında isə "Daşnaksütyun" partizan fəalliyyəti aparmış, terrorlar törətmişdir. "Daşnaksütyun"un davamçısı olan, Livan erməniləri tərəfindən yaradılan ASALA (Ermənistanın azadlığı uğrunda erməni ordusu) 1980-ci ildən beynəlxalq terror təşkilatı olaraq qeydiyyata alınmışdır. Bu gün geniş terror fəaliyyəti ilə məşğul olan adı çəkilən təşkilatlar hər zaman olduğu kimi həm Eçmiədzin, həm də Kilikiya kilsələri ilə sıx əlaqədə fəaliyyət göstərirlər. Ermənistanın Konstitusiyasında vicdan azadlığı elan edilsə də, kilsə həm de facto, həm də de yure olaraq böyük nüfuza malikdir. Konstitusiya milli kilsənin xüsusi rolunu etiraf edir. Kilsənin təsiri erməni diasporalarının fəaliyyətlərində də görünür. Bu gün də erməni kilsəsi etnik identikliyin zəruri əsasları kimi qəbul edilir və dindən çox siyasi məsələlərlə məşğul olur, Ermənisan hökuməti ilə diasporalar arasında vasitəçilik edir, ölkə daxilindəki proseslərə qarışır Erməni diasporlarının başlıca və nüfuzlu institutu olan Erməni kilsəsinin əsas vəzifəsi milli identikliyin qorunub saxlanması, ermənilərin assimilyasiya olunmasının qarşısının alınmasıdır.

Yarandığı gündən siyasi diplomatiya aləmində buqələmun kimi rəngdən-rəngə düşən, alçaq və riyakar yol tutan "Daşnaksütyun" partiyası öz qocaman liderlərinin düşündüyündən də irəli getdi. Xarici ölkələrə mühacir kimi səpələnən, qəriblikdə yaşayan erməni daşnakları harda olursa-olsunlar "Daşnaksütyun" partiya özəklərini yaradır, terror təşkilatları ilə qanlı əməllərini yerinə yetirirdilər. Onlar dünya ermənilərinin dini mərkəzi - Eçmiədzin kilsəsi din xadimlərinin köməyi ilə sovet Ermənistanının bölgələrində daşnak özəklərini yarada bildilər.

Erməni kilsəsi və "Daşnaksütyun" partiyası daim "əməkdaşlıq" etmişlərdir. Kilsə və terror təşkilatının əlaqəsi nə qədərdə qəribə səslənsə tarixdə bunun sübutları çoxdur. Kilsə qeyri-rəsmi şəkildə dövlət idarəçiliyinə müdaxilə edir, dövlətin ideoloji mərkəzi kimi çıxış edir. Ermənistanın dövlət idarəçiliyinə gələn siyasətçilər kilsə ilə sıx əlaqədə olurlar.

"Daşnaksütyun" kimi beynəlxalq terror təşkilatı ilə əlbir olan erməni kilsəsi erməni psixikasında "Böyük Ermənistan" xülyasının aktual qalmasının əsas səbəbkarlarındandır. Onu da demək olar ki, ilk dövrlərdə adı çəkilən terror təşkilatlarının yaranmasının və fəaliyyətlərinin ideoloji mənbəyi kilsə idisə, hazırda kilsə həmin təşkilatların əlində alətə çevrilmişdir və müəyyən mənada məhz bu təşkilatların göstərişləri, maddi və mənəvi dəstəyi əsasında geniş təsir imkanlarına malikdir.

ƏDƏBİYYAT

1. Azərbaycan Xalq Cümhuriyyətinin milli siyasəti. Bakı, Qartal, 1998, 200 s.

2. Qasımlı Musa. Erməni kilsəsinin xristianlıq və Rusiya əleyhinə fəaliyyətləri: tarixdən günümüzə // "Milli Məclis" jurnalı, Bakı, 2021, s.82-87.
3. Qəhrəmanlı Nazim. Azərbaycan Xalq Cümhuriyyəti dövründə Azərbaycanda etnosiyasi vəziyyət və milli özünüdərk prosesi. Bakı,Yurd, 1998, 223 s.
4. Qurbanlı Əsəd. Azərbaycanlıların Ermənistan SSR-dən deportasiyası tarixindən (1947-1953-cü illər). Bakı, Turxan NPB, 2018, 168 s.
5. Mustafa Nazim. Azərbaycan Xalq Cümhuriyyəti dövründə milliərazi münaqişələri və qaçqınlar problemi / "Xalq qəzeti".-2012.-25 may.- № 114, s.6.
6. Turan Anar. Erməni terroru və Qriqorian kilsəsi. Bakı, 2019, 136 s.
7. Arslan Ali. "Ermeni Kilisesi'nin Ermenilerin Hayatı ve İdeallerindeki Yeri ve Büyük Güçlerin Ermeni Kilisesine Nüfuzu". - Tarihte Türkler ve Ermeniler-Ermeni Meselesinin Ortaya Çıkışı Kilise ve Misyonerlik. Ankara, Türk Tarih Kurumu Yayınları, 2014, s.13-39.
8. Azerbaycan belgelerinde ermeni sorunu (1918-1920). T.C.Başbakanlık devlet arşivleri genel müdürlüğü. Cumhuriyet arşivi daire başkanlığı. Ankara, Yayın No: 28, 2001.
9. İskefiyeli Zeynep. Ermeni kimliğinin oluşumunda din faktörü: Hıristiyanlık, kilise ve misyonerler // Akademik İncelemeler Dergisi, Yıl k2007, Cilt:2, Sayı:1, s.231-255.
10. Историческая география Западного Азербайджана. Составитель: Сабир Асадов. Баку, изд-во Азербайджан, 1998, 560 с.
11. Азербайджанская Республика. Документы и материалы. 1918-1920 гг. Баку, Элм, 1998, 440 с.
12. Альгимантас Лекис. Переселение народов на Кавказе XX в. Вильнюс: Институт науковедения, 2016, 328 с.
13. Гаджиева Зенфира. Армянская церковь: государство в государстве? // İRS, № 6 (96), 2018, с.42-47.
14. Иманов Камран. "Армянский геноцид" или армянский террор? Агентство по авторским правам Азербайджанской Республики. Баку, Элм, 2017, 64 с.
15. Историческая география Западного Азербайджана. Баку, Элм, 1998 560 с.
16. К истории образования Нагорно-Карабахской области Азербайджанской ССР (1918-1925). Документы и материалы Баку, Азернешр. 1989, 193 с.
17. Мархулия Гурам. Армяне в поисках Армении. Тбилиси, СГУ, 2010.
18. Мустафа Назим. Репрессии против азербайджанцев на территории нынешней Армении в 1920-1930 гг. // Азербайджан и азербайджанцы, № 7-8 2001, s.7-8.
19.Тирабян Капуне. Роль религии при формировании армянской диаспоры в РФ // Управленческое консультирование, № 5 2018, с.184-191.

**HASAN JAFAROV**
*Master student of Azerbaijan University*

## DASHNAKTSUTYUN PARTY AND ARMENIAN CHURCH TERRORIST ACTIVITY

Throughout history, the Armenian church has distinguished itself as a center that plays an active role in the process of formation of national identification, in the emergence of Armenian national and even racist thoughts, not as an institution that performs Christian religious rites and important acts. The government officials in power tried to establish close relations with the church and to use the authority of the church in order to strengthen their position. State officials consider close cooperation with the church to be the main source of managing the country and establishing relations with the Armenian diaspora, as well as terrorist organizations, gaining opportunities to influence international organizations. The Armenian Gregorian Church, which is in collusion with international terrorist organizations such as Hnchak, Dashnaksutyun, Armenikan, ASALA, is one of the main reasons for the "Great Armenia" dream to remain relevant in the Armenian psyche. if it was a church, now the church has become a tool in the hands of those organizations and, in a certain sense, it has wide possibilities

of influence based on the instructions, material and moral support of these organizations. In the article, the activities of the Dashnaksutyun party of the Armenian church in the 20th-21st centuries were studied in detail.

*Keywords*: armenians, armenian church, armenian gregorian church, national ideological center, armenian terrorist organizations.

*Daxil olma tarixi*: 30.04.2024-cü il.
*Çapa imzalanma tarixi*: 10.05.2024-cü il.

№2(10) 2024, 54-56

UOT 94(479.24)

**HÜSEYN MƏMMƏDOV**
*Azərbaycan Universiteti, I kurs magistr tələbəsi*
**huseynilgaroghlu@gmail.com**

# AZƏRBAYCAN TARİXİNDƏ 20 YANVAR FACİƏSİ

*Elmi rəhbər:*
tarix üzrə fəlsəfə doktoru Nüşabə Quliyeva

*Azərbaycanda "Ümumxalq Hüzn günü" kimi qeyd edilən 20 Yanvar faciəsi 1990-cı il yanvarın 20-də baş vermiş ölkə tarixində faciəli, kədərli və eyni zamanda qürurlu hadisə kimi dünya miqyasında tanınır. Bu faciəli hadisə Azərbaycanın Sovet hakimiyyətindən müstəqilliyə keçidi zamanı siyasi təlatümlər dövründə paytaxt Bakıda baş vermişdi. Faciə suverenliyə can atan Azərbaycan xalqı ilə Sovet hökuməti arasında nəzarəti saxlamağa cəhd edən gərginlikdən qaynaqlanırdı. Həmin taleyüklü gündə Sovet hərbi qüvvələri, o cümlədən tanklar və qoşunlar artan etirazları və müstəqillik tələblərini yatırmaq üçün Bakıya hücum etdilər. Bu faciə zamanı 131 nəfər öldürülmüş, 744 nəfər yaralanmış 400 nəfər həbs edilmiş, 4 nəfər itkin düşmüşdür. Bu zaman mülki əhaliyə qarşı hərbi güc tətbiqi həm ölkə daxilində, həm də beynəlxalq səviyyədə qəzəb və qınaq doğurmuşdur.*

*20 Yanvar faciəsi Azərbaycanın müstəqillik yoluna böyük təsir göstərmişdir. Bu, Azərbaycan xalqının sovet idarəçiliyindən qurtulmaq əzmini gücləndirmiş, müqavimətinin artmasına gətirib çıxarmış, nəticədə 1991-ci ilin sonlarında müstəqilliyin bərpası ilə yekunlaşmışdır. Bu hadisə həm də xalqın kollektiv yaddaşında əbədi iz buraxmışdır.*

*Açar sözlər:* 20 Yanvar faciəsi, Ümumxalq Hüzn günü, SSRİ Mərkəzi hökuməti, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi, Azərbaycan xalqının milli hərəkatı, müstəqil Azərbaycan.

***Giriş.*** Azərbaycanda 20 Yanvar faciəsi xalqın tarixində ağrılı və eyni zamanda şərəfli bir hadisə kimi qalır və sovet hakimiyyəti dövründən müstəqilliyə qədər gedən yolun mühüm mərhələlərindən biri hesab olunur. 1990-cı il yanvarın 20-də paytaxt Bakıda və ətraf rayonlarda baş vermiş faciə Azərbaycan xalqı və onun suverenlik axtarışında silinməz iz qoymuş siyasi təlatümlər və zorakılıqların qaranlıq dövrünü əks etdirir [6]. Faciə Azərbaycanın müstəqillik istəkləri ilə SSRİ Mərkəzi hökumətinin nəzarəti saxlamaq səyləri arasında toqquşma nəticəsində meydana çıxmış, nəticədə xeyli insan şəhid olmuş və geniş qınaqla nəticələnən dağıdıcı repressiya ilə yekunlaşmışdır. Məqalənin giriş bölməsi 20 Yanvar faciəsinin Azərbaycanda baş vermiş hadisələri, səbəbləri və nəticələrini daha dərindən araşdırmaq üçün zəmin yaradır.

***Tarixi kontekst***. 20 Yanvar faciəsinin əhəmiyyətini anlamaq üçün Azərbaycanın 1980-ci illərin sonu və 1990-cı illərin əvvəllərindəki tarixi kontekstinə nəzər salmaq lazımdır. Belə ki, Sovet İttifaqı dağılmağa başlayanda müstəqillik çağırışları onun tərkibində olan respublikalarda, o cümlədən Azərbaycanda əks-səda vermişdi. Millətçi əhval-ruhiyyənin yüksəlişi, suverenlik və muxtariyyət tələbləri Moskvanın mərkəzləşdirilmiş hakimiyyətinə meydan oxuyaraq ümumən SSRİ-ni bürümüşdü. Belə bir şəraitdə Azərbaycanın müstəqillik yolu çoxsaylı problemlərlə, o cümlədən etnik gərginlik, iqtisadi çətinliklər və siyasi repressiyalarla üzləşmişdir. Qonşu Ermənistanın Azərbaycana davamlı ərazi iddiaları, konkret qeyd etsək, Dağlıq Qarabağ münaqişəsi qeyri-sabitliyi daha da gücləndirmiş və Azərbaycan xalqı arasında öz suverenliklərini müdafiə etmək üçün vətənpərvərlik hissinin yüksəlməsinə səbəb olmuşdur.

***Faciəyə səbəb olan hadisələr.*** 20 Yanvar faciəsinə qədər baş vermiş provakasiyalar ("Sumqayt hadisəsi", Topxana meşəsinə vurulan zərər və s.) gərginliyin daha da artması və Sovet hakimiyyətinə qarşı narazılığın yüksəlməsi ilə yadda qalmışdır. Müstəqillik istəkləri ilə canlanan Azərbaycan əhalisi siyasi islahatlar və daha geniş səlahiyyət tələb edərək kütləvi nümayişlər təşkil etmişdir. Lakin bu dinc etirazlar Sovet hakimiyyəti tərəfindən artan düşmənçilik və repressiyalarla qarşılandı. 1990-cı il

yanvarın 20-si ərəfəsində sovet hərbi qüvvələrinin, o cümlədən tankların və qoşunların Bakıya yeridilməsi ilə gərginlik həddinə çatdı. Bunun ardınca dinc əhaliyə qarşı qəddarcasına şiddət tətbiq edildi, fərq qoyulmadan zorakılıqlar, atışmalar və kütləvi həbslər həyata keçirildi. Silahsız nümayişçilərə qarşı hərbi güc tətbiqi xalqı və dünyanı şoka saldı, qəzəb və qınaqlara səbəb oldu [2].

1990-cı il yanvarın 20-nin sübh saatlarında sovet ordusu Bakıya genişmiqyaslı hücuma keçdi, əsas etiraz və narazılıq sahələrini hədəf aldı. Küçələrdə silahlı əsgərlərin müşayiəti ilə tanklar müstəqillik hərəkatını boğmağa çalışırdı. Şahidlərin ifadələri və dövrün hesabatları bakılıların başına gətirilən vəhşiliyin dəhşətli mənzərəsini yaradır. Damlarda yerləşdirilən snayperlər silahsız etirazçıları hədəfə almış, tanklar isə yaşayış məhəllələrində qorxu və xaos aşılamışdır. Gücdən istifadə qeyri-mütənasib idi, nəticədə rəsmi məlumatlara görə, *"... qoşunların qanunsuz yeridilməsi nəticəsində Bakıda və ətraf rayonlarda 131 nəfər öldürüldü, 744 nəfər yaralandı. Həlak olanların arasında qadınlar, uşaqlar və qocalar, həmçinin təcili yardım işçiləri və milis nəfərləri olub"* [4].

***Faciənin nəticəsi, ona verilən siyasi qiymət.*** Faciədən sonra 21 yanvar 1990-cı ildə Moskvada olan ümummilli lider Heydər Əliyev Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə getmiş, SSRİ rəhbərliyinin bu qərarına etirazını bildirmiş, hadisəni *"hərbi təcavüz", "Azərbaycan xalqı qarşısında cinayət"* adlandırmışdı [3; 4].

Daha sonra, 1990-cı il noyabrın 20-də Naxçıvan MR Ali Məclisinin sessiyasında Yanvar faciəsi *"Azərbaycan xalqının suveren hüquqlarına qəsd"* kimi qiymətləndirildi [3; 4].

1994-cü il martın 29-da Azərbaycan Respublikası Milli Məclisində hadisəyə ilk dəfə hüquqi-siyasi qiymət verildi: *"Azərbaycanda vüsət tapmış milli azadlıq hərəkatını boğmaq, demokratik və suveren bir dövlət yaratmaq amalı ilə ayağa qalxan xalqın inam və iradəsini qırmaq, milli mənliyini alçaltmaq və belə bir yola qədəm qoyan hər hansı xalqa sovet hərb maşınının gücünü nümayiş etdirmək məqsədilə 1990-cı il yanvarın 20-də Sovet Silahlı Qüvvələrinin Bakı şəhərinə və respublikanın bir neçə rayonuna yeridilməsi, nəticədə haqq və ədalətin müdafiəsi naminə küçələrə çıxmış silahsız adamların qəddarcasına qətlə yetirilməsi Azərbaycan xalqına qarşı totalitar kommunist rejimi tərəfindən hərbi təcavüz və cinayət kimi qiymətləndirilsin"* [3].

Ümumilikdə baxıldıqda, faciə özündən sonrakı dəyişikliklər üçün katalizator rolunu oynamış, Azərbaycan xalqının sovet hakimiyyətindən xilas olmaq əzmini gücləndirmişdir [5]. O, yenilənmiş milli kimlik və birlik hissini alovlandırmış, müstəqillik axtarışında müxtəlif qruplar arasında həmrəyliyi gücləndirmişdir. Müstəqilliyə gedən yol çətinliklərlə, şəhidlərlə dolu olsa da, 20 Yanvar faciəsi Azərbaycanın qurtuluş çağırışına çevrilmişdir. Nəticədə, 1991-ci il oktyabrın 18-də Azərbaycan müstəqilliyini elan edərək, öz müqəddəratını təyin etmək cəhdində tarixi mərhələni qeyd etmişdir.

Azərbaycanda 20 Yanvar faciəsi hər il "Ümumxalq Hüzn günü" olaraq qeyd olunur. Faciənin irsi azərbaycanlıların kollektiv şüurunda yaşayır, onların şəxsiyyətini və zəhmətlə qazanılmış müstəqillik azadlıqlarının qorunmasına sadiqliyini formalaşdırır [3]. Azərbaycanda 20 Yanvar faciəsi öz müqəddəratını təyin etmək əzmində olan xalqın azadlıq mübarizəsini və mətanətini simvolizə edən xalqın tarixində mühüm məqamdır. O, bəşəriyyətin müsibətlər qarşısında dayanıqlı ruhunun sübutu kimi dayanır.

***Nəticə.*** Sonda qeyd edək ki, Azərbaycanda 20 Yanvar faciəsi müstəqillik yolunda verilən fədakarlıqların əksidir. Dövlət tərəfindən günahsız insanlara qarşı zorakılıq aktı kimi yadda qalan həmin taleyüklü günün hadisələri Azərbaycan xalqının sovet zülmündən qurtulmaq əzmini gücləndirmişdir. Faciə 1991-ci il oktyabrın 18-də müstəqilliyin elan edilməsinə yol açaraq, milli kimlik və birlik hissinin təzələnməsinə səbəb olmuşdur. 20 Yanvar faciəsinin irsi azərbaycanlıların kollektiv yaddaşında qalaraq, onların kimliyini, azadlıq və demokratiya prinsiplərini qorumağa sadiqliyini formalaşdırmışdır. Azərbaycan müstəqil dövlət kimi tərəqqisini davam etdirdikcə 20 Yanvar faciəsindən çıxarılan dərslər öz aktuallığını saxlayır. Onlar bizə insan ruhunun möhkəmliyini, çətinliklər qarşısında birliyin gücünü və bütün dünyada ədalət və insan hüquqları uğrunda davam edən mübarizəni xatırladır. Həmin faciəli gündə həyatını itirənlərin xatirəsi əbədi olaraq ehtiramla yad edilir. 20 yanvar qurbanları "20 Yanvar şəhidi" adlandırılır. Ümumilikdə, 150 nəfər 20 Yanvar şəhidi vardır [3].

Bu faciəli hadisədən sonrakı illərdə Azərbaycan öz müstəqilliyini möhkəmləndirmək və demokratik təsisatlarını gücləndirmək üçün mühüm addımlar atmışdır [4]. Azərbaycanın 20 Yanvar fa-

ciəsinin davam edən təsirləri milli şüurun və ictimai həmrəyliyin güclənməsində də özünü göstərir. Bu birlik və həmrəylik hissi ölkənin daxili və xarici siyasətində mühüm rol oynamaqdadır.

Gələcəyə baxarkən qeyd etməliyik ki, Azərbaycanın 20 Yanvar faciəsi və onun irsindən çıxaracağı dərslərə diqqət yetirilməsi vacibdir. Belə faciəli hadisələrin bir daha təkrarlanmaması üçün demokratik təsisatların gücləndirilməsi, insan hüquqlarının qorunması, sosial sülhün təmin edilməsi böyük əhəmiyyət kəsb edir. Azərbaycanın bu istiqamətdə atdığı addımlar ölkənin inkişafına, beynəlxalq aləmdə nüfuzunun artmasına zəmin yaradacaq [2]. Bütün bunlarda belə nəticəyə gəlirik ki, 20 Yanvar faciəsi Azərbaycan xalqının taleyində dönüş nöqtəsi olmuş və ölkənin müstəqilliyi uğrunda mübarizədə mühüm rol oynamışdır.

## ƏDƏBİYYAT

1. Betty Blair. Black January: Baku (1990) // Azerbaijan İnternational, Winter 2002 (10.4), p.58-63. URL: https://www.azer.com/aiweb/categories/magazine/ai104_folder/104_articles/104_black_january.html [30.04.2024].
2. Xarici İşlər Nazirliyi 20 Yanvar – Ümumxalq Hüzn Günü ilə bağlı bəyanat yayıb / Respublika qəzeti, 20.01.2023. URL: https://respublika-news.az/az/news/xarici-isler-nazirliyi-20-yanvar-umumxalq-huzn-gunu-ile-bagli-beyanat-yayib [30.04.2024].
3. Qan yaddaşı. 20 Yanvar – Ümumxalq Hüzn Günü / Azərbycan Respublikasının Prezidentinin rəsmi internet səhifəsi. URL: https://president.az/az/pages/view/azerbaijan/memories [30.04.2024].
4. Qan yaddaşı. 20 Yanvar – Ümumxalq Hüzn Günü / Azərbycan Respublikasının Ali Məhkəməsinin rəsmi internet səhifəsi. URL: https://supremecourt.gov.az/az/azerbaycan/qan-yaddasi [30.04.2024].
5. Xanməmmədova Ş. 20-dən 20-yə (20 Yanvar şəhidlərinin əziz xatirəsinə həsr olunur). Bakı, «MBM», 2010, 96 s.
6. 20 yanvar şəhidləri: kataloq. Bakı, Elm, 2018, 210 s. URL: https://ebooks.az/ru/book/wvyxidf [30.04.2024].

**HUSEYN MAMMADOV**
*Azerbaijan University, History graduate student*

## THE TRAGEDY OF JANUARY 20 IN THE HISTORY OF AZERBAIJAN

The January 20 tragedy in Azerbaijan is known worldwide as a tragic, sad and at the same time proud event in the history of the country, which took place on January 20, 1990. This tragic event took place in the capital, Baku, during the period of political upheaval during the transition of Azerbaijan from Soviet rule to independence. The tragedy stemmed from the tension between the Azerbaijani people, who were striving for sovereignty, and the Soviet government, which was trying to maintain control. On that fateful day, Soviet military forces, including tanks and troops, attacked Baku to quell the growing protests and demands for independence. In this tragedy, 744 people were injured, 400 people were arrested and 4 people were missing. At this time, the use of military force against the civilian population caused anger and condemnation both within the country and internationally.

The January 20 tragedy had a great impact on Azerbaijan's path to independence. This strengthened the determination of the people of Azerbaijan to get rid of the Soviet rule, led to the increase of resistance and eventually ended with the restoration of independence in late 1991. This event also left an eternal mark in the collective memory of the people.

*Keywords:* January 20 tragedy, National Mourning Day, the Central Government of the USSR, the Armenian-Azerbaijani Nagorno-Karabakh conflict, the national movement of the Azerbaijani people, independent Azerbaijan.

*Daxil olma tarixi*: 30.04.2024-cü il.
*Çapa imzalanma tarixi*: 10.05.2024-cü il.

**UOT 94(479.24)**

**QARA KARIMOV**
*Master's Degree student of Baku State University*
*majoring in the Method and Methodology of Teaching of History*
**qarabey2106@gmail.com**

# THE ISSUE OF STUDYING THE CRIMES COMMITTED BY ARMENIANS AGAINST AZERBAIJANIS IN 1905-1907 IN TEACHING THE HISTORY OF AZERBAIJAN

*Scientific supervisor*:
PhD in history Aydın Mammadov

*Azerbaijan has a rich and ancient history, one of the oldest centers of civilization. The inhabitants of its historical territory left a rich cultural heritage that was created over many millennia. On the territory of Azerbaijan, in ancient times, human society and the primitive communal system arose, then classes and states arose, the era of the Middle Ages passed, and a new time began. Knowledge of history is undoubtedly one of the very significant indicators of the culture of a people. The study of history can instill certain qualities that cannot be acquired in any other way. History helps a person become a citizen. Using the example of the history of Azerbaijan, it can be argued again and again that history is truly the "voice of our ancestors", it is our past, it is the accumulated human experience, often acquired at a very high price. This is social memory, a person's memory of his great exploits, victories and tragic mistakes, successes and defeats. History provides rich material for comparison and allows us to better understand the present in all its originality, serves as a tool for its knowledge and often points the way to the future. People have always been interested in their past, their history. People study the past to find a basis for their views, to deepen their understanding of the present, to clarify the future. A close connection with modernity and the future is one of the most characteristic features of historical science. Without knowledge of the past, it is not only impossible to know the present, but also to correctly, objectively and realistically determine the prospects for subsequent development and the future.*

*Keywords:* Azerbaijan, Middle Ages, Armenians, Eastern Anatolia.

***Introduction.*** The crimes committed by Armenians against Azerbaijanis in 1905-1907 are one of the dark pages of the history of Azerbaijan. This period is remembered by the clashes and confrontations that took place on the national ground in the South Caucasus. The violence, massacres and provocations carried out by Armenians against Azerbaijanis have left deep traces in the national memory of the Azerbaijani people. These events were accompanied not only by physical destruction, but also by the destruction of cultural heritage and historical monuments. Researching and studying this tragic period of our history is of great importance in terms of providing accurate information to future generations.

Emphasizing the role and importance of these events in the teaching of Azerbaijani history is important for the protection and strengthening of our national identity. The detailed investigation of these crimes in history lessons aims to instill national values in students, preserve national memory and prevent similar tragedies from happening again in the future. The teaching of this subject also plays an important role in the formation of national consciousness and the rise of the patriotic spirit.

Currently, special attention is paid to the topic of Armenian-Azerbaijani relations in the historiography of the homeland, and the main object of research is, as a rule, the 19th and 20th centuries. The story of the massacres against the Azerbaijani Turks in the Caucasus at the start of the 20th century, particularly in the area that is now Armenia, was based on the experiences of the Armenians in Eastern Anatolia at the close of the 19th century. The "Armenian question," which was brought up as a result of European governments' efforts during the Russo-Turkish War of 1877-1878, later served as a vehicle for the Armenians of Eastern Anatolia to obtain autonomy and form an independent Ar-

menian state. Prior to gaining this autonomy, Armenians in the provinces of Eastern Anatolia-that is, in the regions they refer to as "Western Armenia"-had to surpass one another in number [1, 18]. At the modern stage, when Azerbaijan is gaining its independence, how history is taught in secondary schools of those countries is one of the factors that have a decisive influence on the formation of national consciousness in the young generation. The role of this important factor in the educational process in the Turkic-speaking republics that gained their independence is important because the policy of erasing the history of the Turkic peoples from memory was implemented for a long time both in tsarist Russia and during the rule of the Soviet-Bolshevik regime. In addition, in the period of the Republic, Turkish high schools were also heavily influenced by the West, especially the French educational system, in the field of history teaching. Historically, in a short period of time, important successes were achieved in the teaching of history in secondary schools of Azerbaijan, and new history textbooks were created, cleansed of the harmful concepts of the past. The experience of Azerbaijan shows that there is a great need to expand the educational relations between the Turkic states in the field of history teaching, to switch to a single system acceptable to all in this field. The relevance of the research conducted on the basis of the example of Azerbaijan is mainly related to this.

The importance and relevance of the study of this topic and period is related to the influence of these relations on the modern socio-political life of Azerbaijan. At the end of the 20th century, Armenia's territorial claims to Nagorno-Karabakh (Nagorno-Karabakh) gave impetus to the study of the history of Armenian-Azerbaijani relations, conflicts between the two nations, and armed conflicts. The conflict that led to the war between the two countries and the occupation of 20% of the territory of Azerbaijan, and then the liberation of the Azerbaijani lands from occupation, made it necessary to analyze the issue of relations from a new perspective and find answers to questions related to this issue. the causes of the conflict. The conflicts and tensions that originated from the Russian Empire and continued until the Soviet era made the study of historical experience even more relevant. The prohibition of objective coverage of this topic in Soviet historiography was one of the factors stimulating this process. The ideological dogma and class approach to events that prevailed in Soviet history led to the creation of "closed topics". One such topic was the Armenian-Azerbaijani conflict of 1905-1906 - the first international conflict involving many cities and regions of the South Caucasus. An in-depth analysis of the nature of this armed conflict, which was called a "massacre" by contemporaries due to the scale of the conflict and the number of casualties, methods and means of struggle (use of heavy weapons, occupation of territories, economic). damage, expulsion of the population) shows that the real war was going on in 1905-1906.

This is an attempt to research the roots of the protracted conflict between Armenia and Azerbaijan and the way scholars from both countries looked on the events of 1905-1906, which are described by many as “the Armenian-Tatar massacres”. These were the first bloody clashes between two ethnic communities, which had co-existed peacefully sideby-side for centuries. What was the reason for the animosity and did how the massacres 1905-1906 affect the current situation? It is no easy task to restore a picture of the events because both ethnic communities lived under the Russian Empire where the media was not an impartial observer. Many scholars and experts believe that the Russian authorities were either interested in, or actively encouraged, the ethnic clashes in the Caucasus. At the very least, the Russian authorities did not act to stop the bloodshed or restore order. In this article I analyze the historical context of the events which led to the massacres, the socio-economic causes which fed the conflict as well as the overall course of events [5, 14].

The first people's revolution of the 20th century - the first Russian bourgeois-democratic revolution of 1905-1907, which entered the history of mankind as the age of revolutions, the exacerbation of the socio-economic and political crisis in Russia at the beginning of the century, the rise of the struggle of the working class, which became the vanguard of the revolutionary movement, and the increase of peasant protests It spurred the expansion of the national liberation movement in the fringes of the multinational empire, 57 percent of which were dependent nations. Baku, which was the raw material base of the empire's developing industry and one of the four largest industrial centers, also became one of the centers of the labor movement. The use of economic terror methods by the

workers during the mass strike in the Balakhani, Sabunchu, Ramana mines, which began on December 13, 1904 and ended on December 30 with the signing of the first collective agreement between the oil industrialists and the workers in the history of Russia (from December 25 to 30 125 boreholes were burned in the Balakhani-Sabunchu-Ramana mines, and 225 boreholes in the city as a whole) could not help but disturb the Russian tsarism [4, 66-67].

Therefore, Russian tsarism, trying to maintain its rule, used the method "one of the oldest and oldest methods of tyranny" to distract the masses from the revolutionary movement, skillfully using the method of "lubricating and uniting the nations subject to it, and creating conflict and enmity between different nations" used. The defeat of the separatist activities of the Armenian nationalists who started to organize politically in the territory of the Ottoman state in the second half of the 11th century, and the fact that the tsarist Armenians shifted the center of gravity of their actions to Azerbaijan, as a continuation of the Velikorus policy, the Armenian-Dashnak gangs who gained "combat experience" in Turkey He encouraged the war of Aliyan against the peaceful Azeri Turks. On the eve of the revolution, the Dashnaks, who strengthened their structures and armed themselves from head to toe, began to realize their ugly goals - to expel Muslims from their territories and to create an Armenian state. The first attacks began in the areas where Armenians lived densely - Yelizavetpol, Iravan governorates, Kars, Shusha, Nakhchivan, where the Armenians had a high chance of success. Armed from head to toe, the members of the "zinvor" gangs, seeing the complete indifference of the tsarist government authorities, came to Armenian settlements and began to mobilize them for war with the "Turks". Dashnak units rushing like the wind fell like snow on defenseless Turkish villages, destroyed and looted them. The battle tactics were very simple: to attack defenseless civilians unexpectedly and kill them, after looting and burning houses, disappear immediately to avoid retaliation [3, 174-175].

Mir Mohsun Navvab's work "History of conflict and unrest between the Caucasian Armenian tribe and Muslims" published under the title "Armenian-Muslim conflict in 1905-1906" reveals both the scale of the tragedies that befell our people in the first decade of the 20th century and the history of the Nagorno-Karabakh problem. It is considered a valuable source in terms of learning the essence of its roots. M.M.Navvab rightly writes that the massacres in the Iravan governorate started from the city of Iravan and then spread to Nakhchivan. The author writes that hired killers of Armenian commandos (terrorist organizations) killed many innocent people, including Russians and Armenians. Also, M.M.Nawab notes that the head of the state ignored the riots due to his involvement in the Russo-Japanese war. In his work, M.M.Navvab gave concise information about the massacres committed by Armenian armed groups in the cities of Baku, Iravan, Shusha, Iravan, Nakhchivan, Shusha, Jabrayil, Zangezur and countermeasures taken by Muslims. There are several works of Armenian authors related to the massacres committed in 1905-1906. "Armenian-Turkic clashes in the Caucasus (1905-1906 years)" by A-don, one of the Armenian authors, published in Yerevan in 1907. Documentary, statistical, topographical explanations", S.Zavaryan's "Economic conditions of Karabakh and the famine of 1905-1906", published in Russian in 1907 in St. Petersburg. Although the nature of the massacres of 1905-1906 was distorted in Alibekov's works "Bloody days of Yelizavetpol before the judgment of the society", published in Russian in Tbilisi in 1906, these works provide researchers with a lot of material from a factual point of view [2, 4]. One of the primary issues is that, in certain situations, instead of representing the actual and real objective of these battles, historians have revealed mutual contradictions in a provocative manner for many years under the influence of historians from other nations. There are contradictions in our history, such as writing about a number of events that have caused division and conflict in accordance with the concept of western historians without taking into account national characteristics, and attempting to teach using western teaching methods, which must be eliminated.

***Conclusion.*** The inclusion of crimes committed by Armenians against Azerbaijanis in the years 1905-1907 in the teaching of Azerbaijani history plays an invaluable role in shaping the national consciousness and historical memory of the younger generations. The in-depth study of these events is important for future generations to learn from the tragedies of the past and to prevent such events from happening again in the future.

Understanding the causes and consequences of the Armenian-Azerbaijani conflict, realizing that Azerbaijanis have suffered historical injustices, helps to strengthen national unity and solidarity. Besides, the teaching of this subject contributes to the formation of values such as tolerance, mutual respect and respect for human rights in students.

Thus, studying and teaching crimes committed by Armenians against Azerbaijanis in 1905-1907 is of great importance in terms of protecting national memory and better understanding of national identity of future generations. It is important not only to forget the tragic pages of our past, but also to build a more just and peaceful society.

REFERENCES

1. Azərbaycanlıların soyqırımı və deportasiyası. [Elektron resurs]. URL: Azərbaycan Respublikası Prezidentinin İşlər idarəsi Prezident Kitabxanası, 189 s. - https://files.preslib.az/projects/azerbaijan/gl7.pdf [30.04.2024].
2. Nazim Mustafa. Mənbələr Azərbaycanlıların 1905-1906-cı illər soyqırmı haqqında / Xalq qəzeti.- 2009.- 31Mart.
3. Bəxtiyar Nəcəfov. Düşməni iç üzü. XIX-əsrin sonu XX-əsrin əvvələrində Türkiyə və Cənubi Qafqazda erməni terrorizminin tarixi. Baki, 1993, 280 s.
4. И.С.Багирова. Политические партии и организации Азербайджана в начале XX века (1900-1917). Баку, «Елм», 1997, 336 с.
5. Shafiyev Farid. Armenian-Azerbaijani conflict: roots. Massacres of 1905-1906 // "World of diplomacy", journal of the Ministry of Foreign Affairs of the republic of Azerbaijan, №18-19, 2008, p.14-29.

**QARA KƏRİMOV**
*Bakı Dövlət Universitetinin*
*Tarixin tədrisi metodikası və metodikası ixtisası üzrə magistratrantı*

## AZƏRBAYCAN TARİXİNİN TƏDRİSİNDƏ 1905-1907-Cİ İLLƏRDƏ ERMƏNİLƏRİN AZƏRBAYCANLILARA QARŞI TÖRƏTDİKLƏRİ CİNAYƏTLƏRİN ÖYRƏNİLMƏSİ MƏSƏLƏSİ

Sivilizasiyanın ən qədim mərkəzlərindən biri olan Azərbaycanın zəngin və qədim tarixi var. Buranın tarixi ərazisinin sakinləri min illər ərzində yaradılmış zəngin mədəni irs qoymuşdur. Azərbaycan ərazisində qədim dövrlərdə insan cəmiyyəti və ibtidai icma quruluşu yaranmış, sonra siniflər və dövlətlər yaranmış, orta əsrlər dövrü keçmiş, yeni dövr başlamışdır. Tarixi bilmək, şübhəsiz ki, bir xalqın mədəniyyətinin ən mühüm göstəricilərindən biridir. Tarixin tədqiqi müəyyən keyfiyyətlər aşılaya bilər ki, onları başqa yolla əldə etmək mümkün deyil. Tarix insanın vətəndaş olmasına kömək edir. Azərbaycan tarixinin timsalında dönə-dönə iddia etmək olar ki, tarix doğrudan da "əcdadlarımızın səsidir", o, bizim keçmişimizdir, toplanmış insan təcrübəsidir, çox baha qiymətə əldə edilir. Bu, sosial yaddaşdır, insanın böyük şücaətləri, qələbələri və faciəli səhvləri, uğurları və məğlubiyyətləri haqqında xatirəsidir. Tarix müqayisə üçün zəngin material verir və bütün orijinallığı ilə indini daha yaxşı anlamağa imkan verir, onun bilikləri üçün alət rolunu oynayır və çox vaxt gələcəyə yol göstərir. İnsanlar həmişə öz keçmişləri, tarixi ilə maraqlanıblar. İnsanlar öz baxışlarına əsas tapmaq, bu günü dərk etmək, gələcəyi aydınlaşdırmaq üçün keçmişi öyrənirlər. Müasirliklə və gələcəklə sıx əlaqə tarix elminin ən xarakterik xüsusiyyətlərindən biridir. Keçmişi bilmədən nəinki indini bilmək, həm də sonrakı inkişafın və gələcəyin perspektivlərini düzgün, obyektiv və real müəyyən etmək mümkün deyil.

*Açar sözlər:* Azərbaycan, Orta əsrlər, ermənilər, Şərqi Anadolu.

*Daxil olma tarixi*: 30.04.2024-cü il.
*Çapa imzalanma tarixi*: 10.05.2024-cü il.

UOT 94(479.24); UOT 94

**LEYLA HEYDƏROVA**
*Azərbaycan Universiteti,*
*"Azərbaycanın qədim və orta əsrlər tarixi" ixtisası üzrə II kurs magistrant*
**heyderova.leyla85@gmail.com**

# SƏLCUQLARIN AZƏRBAYCANDA DÖVLƏT İDARƏÇİLİYİ, SOSİAL-İQTİSADİ VƏZİYYƏT

*Elmi rəhbər:*
tarix elmləri doktoru Yaqub Mahmudov

*Məqalədə oğuzların Üç ox qolunun Qınıq boyundan olan Səlcuqların dövlət qurduqdan sonra idarəçilik sistemindən bəhs olunmuşdur. Həmçinin Səlcuqlar dövründə mövcud olan sosial-iqtisadi vəziyyət təsvir edilərək torpaq, vergi növləri göstərilmişdir. Səlcuq sultanlarının, xüsusilə Məlikşah dövründə Azərbaycandakı fəaliyyətləri də əks olunmuşdur.*

*Açar sözlər:* Səlcuqlar, idarəçilik, ticarət, torpaq formaları, vergilər.

***Giriş.*** İnkişaf etmiş feodalizmin başlanğıcında Yaxın və Orta Şərq tarixində yeni bir türk dövlətinin əsası qoyuldu. Mərkəzi Asiyadan Aralıq dənizinədək, Dərbənddən İran körfəzinə qədər əraziləri əhatə edən Böyük Səlcuq imperatorluğu dünya tarixində yeni mərhələni başlatdı. Oğuzların Sol qolunun Qınıq boyundan olan Səlcuqlar Qaraxanlılar, Qəznəvilər və Bizansla mübarizə sonunda dövlət quraraq yeni sistemli idarəçiliyə başladılar. Səlcuqlar Azərbaycanı da öz tərkibinə daxil edərək Cənubi Qafqazda möhkəmləndi, türk-müsəlman amili regionda gücləndi. Səlcuqlar gəldikdən sonra Azərbaycanda Sasani və Xilafət ağalığı dövründə itirilmiş dövlətçilik ənənələrimiz bərpa edildi. XI əsrin 20-30-cu illərində Şəddadilər və Rəvvadilər dövlətlərində məskunlaşan oğuzlar yerli xalqla birləşərək Bizans və onun müttəfiqlərinə qarşı mübarizə aparmışlar. XI əsrin 50-ci illərində Rəvvadilər və Şəddadilər dövlətləri, 60-cı illərdə isə Şirvanşahlar dövləti Səlcuqlardan vassalığı qəbul etmişlər. 1071-ci ildə Rəvvadilər dövlətinə, 1088-ci ildə Şəddadilər dövlətinə tamamilə son qoyulmuş, təkcə Şirvanşahlar dövləti uzun müddət varlığını qoruyub saxlaya bilmişdi.

***İdarəçilik.*** Tarix boyu bir çox dövlətlər qurmuş türklər özlərindən əvvəlki idarə sistemindən fərqli olan və müstəqil ideologiyaya əsaslanan sistem yaratmışdılar. Qədim türk anlayışına görə, dövlət onu idarə edən hökmdar soyunun ortaq mülkiyyətidir. Böyük Səlcuq dövlətində hələ ilk hökmdarlardan başlayaraq dövlət idarəçiliyi nizamlı və mükəmməl şəkildə təşkil olunmuşdu.

Səlcuqlarda dövləti təmsil edən yeganə şəxs sultan idi və onun hakimiyyəti mütləq idi. Lakin dövlət və hökumət işləri bəzən Səlcuq Sultanı adına Böyük Divan nəzarətində olurdu. Hökmdarlıq işarətlərinə daxil idi: ünvan və ləqəbləri, xütbə, sikkə, taxt, tac, bayraq, tuğra, səltənət çadırı [5, s. 96-101].

Hökmdarın rəhbərlik etdiyi təşkilatlar:

1. Saray təşkilatı
2. Hökumət təşkilatı
3. Ordu təşkilatı
4. Elm təşkilatı.

Saray təşkilatı vasitəsilə Səlcuq sarayında adət-ənənələr davam etdirilir, mərasimlər təşkil olunurdu. Vəliəhdin təyin olunması, təbriknamə və fəthnamələrin göndərilməsi, elçi görüşləri, sarayda girov saxlamaq və bir çox mərasimlər keçirilirdi. Səlcuq sultanlarının həyatı rəsmi və özəl olaraq iki yerə ayrılırdı. Sultanın yaşadığı yer və iqamətgahı saray idi. Saray salamlıq və hərəm olaraq fəaliyyət göstərirdi. Salamlıq sarayda hökmdarın rəsmi və özəl məclislərini keçirdiyi, dəvətlərin qəbul olunduğu, idarəçilikdə qərarların qəbul edildiyi hissəsi idi. Hərəmdə isə hökmdarın xanımları, cariyələri yaşayırdı.

Onu da qeyd etməliyəm ki, Səlcuqlarda levirat üsulu evliliklər mövcud idi. Yəni ölən qardaşının dul xanımı ilə nigahlanmaq levirat nigah adlanırdı. Belə ki, Yusif Yınal ölən qardaşı Mikayıl bəyin

xanımı ilə evlənmiş, dünyaya gələn İbrahim Yınal Toğrul bəy və Çağrı bəyin ana bir qardaşı olmuşdu. Toğrul bəy də Çağrı bəy vəfat etdikdən sonra onun dul xanımı ilə evlənmişdi.

Səlcuqlarda dövlət işləri ilə bağlı məsələləri danışıb həll edildiyi yer Böyük Divan idi. Ona Divan-ı Sultan da deyilirdi. Əyalət mərkəzlərində təhlükəsizliyi qoruyan şahnə adlı əsgərlər xidmət edirdilər. Mülki idarələrə amidlər nəzarət edirdi. Şəhər işlərinə, onun təmizliyinə müxtəsiblər rəhbərlik edirdi. Hökumət təşkilatında iki əsas vəzifə vardı: naib-i səltənət və pərvanəçilik. Bu naib vəzifəsi hökmdar dövlət başında olmadığı zaman dövlət işlərini idarə edirdi. Bu vəzifə sahibi vəzirdən sonra gəlirdi. Pərvanəçilik isə dəftərxanada yerləşən hesabatlara, sənədlərə nəzarət edən, xass və iqta torpaqlarına sahib olanların hesabatlarını hazırlayanlar idi [8].

Böyük Səlcuq imperatorluğunda dövlətin əsas ordu qüvvələrini təşkil edir:

1. Xass qüvvələri (qulamlar);
2. İqta sahiblərinə məxsus qüvvələr;
3. Vassal dövlət qüvvələri;
4. Şəhər və bölgə qüvvələri;
5. Könüllülər;
6. Türkmən qüvvələri.

Səlcuqlar hənəfi və şafi məzhəbinə üstünlük verirdilər, təxribatçı batıni hərəkatına qarşı mübarizə aparırdılar. Elmin inkişafı üçün bir çox şəhərlərində sultanlar və vəzirlər tərəfindən mədrəsələr də inşa edilirdi. Toğrul bəy Nişapurda, Çağrı bəy və vəzir Kündüri Mərvdə, Alp Arslan Bağdadda, Məhəmməd ibn Məlikşah İsfahanda, Toğrul ibn Məhəmməd Həmədanda mədrəsələr tikdirmişdi. Vəzir Nizamülmülkün bir çox yerlərdə tikdirdiyi Nizamiyyə mədrəsələrində dərs deyən müəllimlər müdərris adlanırdılar [11].

Böyük Səlcuq imperatorluğu mərkəzləşmiş idarəetmə sisteminə malik idi. Dövlətin ilk mərkəzi Nişapur, daha sonralar Rey, İsfahan və sultan Məlikşahın dövründə isə Mərv şəhəri olmuşdur. Ölkə əyalətlərə, əyalətlər isə qəzalara bölünürdü. Dövlətin idarə olunmasında hökumət təşkilatı əsas rol oynayırdı.

Böyük divanın sahibi hökmdar idi. Hökmdardan sonra ikinci şəxs vəzir sayılırdı. Səlcuqlarda ilk divan təşkilatı 1036-cı ildə Toğrul bəy tərəfindən toplanmışdı. Təxminən 120 illik tarixi olan Səlcuq imperatorluğunun 23 vəziri məlumdur. Vəzirlərin dövlətin idarə olunması və hökmdarların siyasətində böyük təsirləri var idi. İlk Səlcuq vəziri Salar Türkan (1038-1045) olmuşdur. Onlardan ən məşhuru və uzun müddət hakimiyyətdə olanı vəzir Nizamülmülk idi. Sultan Məlikşah dövləti, xalqları necə idarə etmək üçün alimlərə tapşırıq vermişdir. Nizamülmülk, Tac əl-mülk, Şərəf əl-Mülk, Məcd əl-Mülk əsərlərini yazaraq sultana göstərmişlər. Sultan da Nizamülmülkün “Siyasətnamə" əsərini bəyənmişdi.

Sultan Məlikşahın həyata keçirdiyi ən böyük islahatlardan biri “Cəlali təqvimi"ni yaratmaq oldu. Ömər Xəyyam tərəfindən hazırlanan bu təqvimdə ilin başlanğıcı Novruz bayramından götürülürdü. Sultan Məlikşah həm də “Novruz bayramı” nı rəsmi dövlət bayramı elan etdi. Məlikşah elm və sənət adamlarına dəyər verir, onları himayə edir, hətta böyük miqdarda pul ad ayırmışdı. Səlcuq səltənəti dövründə Nizamülmülk, Ömər Xəyyam, Mahmud Kaşqarlı. Qəzzali, Muizzi, Lamii, Beyhakiy, Ənsari, Cürcani və digərləri kimi İslam dünyasının elm, fəlsəfə, təsəvvüf şəxsiyyətləri yetişmişdir [4, s.52-63].

Əslində Səlcuq dövlətində Toğrul bəydən etibarən “ikili sistem" tətbiq olunurdu. Dövlətin şərq hissəsi olan Xorasanı Toğrul bəyin qardaşı Çağrı bəy idarə edirdi. Lakin Çağrı bəy müstəqil deyildi, Sultan Toğrula tam tabe idi. Mərv şəhərini ələ keçirdikdən sonra Çağrı bəy şahənşah, yəni padşahlar padşahı titulunu almışdı. Alparslan dövründə bu sistem ləğv edildi, mərkəzləşmiş idarə üsuluna keçirildi. Sultan Məlikşahla birlikdə 30 il ikili sistem tətbiq olunmamışdı.

Dövlətin idarə olunmasında atabəylərin də əhəmiyyətli rolu vardı. Atabəy ata və bəy sözlərindən yaranmışdır, türklərə məxsus olan ünvandır. Xüsusilə, Səlcuqlar dövründə sultanlar şahzadələrini yetişdirmək üçün onlara təyin etdikləri müəllimlərə atabəy titulu vermişdilər. Səlcuqlar tarixində ilk atabəy Alp Arslan tərəfindən oğlu Məlikşaha xacə təyin edilən Nizamülmülk idi. Atabəylər qulamlardan təyin edilirdi və onlara iqtalar verilirdi. Atabəyin vəzifəsi kiçik yaşda ona verilən məlikləri tərbiyə və təhsil verməklə bir növ taxta hazırlamalı idi. Lakin sonradan mərkəzi idarənin zəiflədiyi zamanlarda atabəylər öz yanlarında olan məlik şahzadələr adından idarəçilikdə güclənmək istəyirdilər. Onlar taxt

uğrunda mübarizələr apararaq qalib gələrdilərsə, məliki taxta oturdub özləri də sultanın yanında çox yaxşı mövqelərdə yer tuturdular. Lakin taxt mübarizəsində əgər məğlub olardılarsa, şahzadənin dul anası ilə evlənərək mövqelərini gücləndirirdilər. Bir tərəfdən mərkəzi hakimiyyətə tabe olmaqla yanaşı, digər tərəfdən də öz ərazilərində nüfuzunu yayırdılar. Onlara verilən iqta torpaqlarının özlərindən sonra oğullarına keçməsini təmin edirdilər.

***Torpaq formaları.*** Səlcuqlarda dövlətə məxsus olan torpaqların dörd əsas forması mövcud idi: xass, iqta, mülk, vəqf.

1. Xass torpaqları – hökmdara məxsus torpaqlardır. Bu torpaqlardan yığılan vergilər hökmdarın xəzinəsinə daxil olurdu. Səlcuq sultanları bu torpaqlardan istədikləri kimi idarə edirdilər, hətta bu torpaqlardan iqta da bağışlayırdılar. Çox zaman xass torpaqlarını qohumlara paylayardılar.
2. İqta torpaqları – göstərilən xidmət və maaş qarşılığında komandirlərə, əsgərlərə verilirdi. Əmirlər və dövlət adamları vəzifələrindən azad edilərdilərsə, verilən iqta torpaqları onların əlindən alınırdı. Səlcuqlarda hökmdar dəyişilərkən iqta sahibləri də dəyişilirdi.
3. Mülk torpaqları – təsərrüfat işləri ilə məşğul olan feodallar bu torpaqlarda tamamilə haqq sahibi idilər. Mülk torpaqları sahiblərinə tam bağışlanılardı, onların əllərindən alınmazdı. Mülk sahibi istəsə, torpaqlarını uşaqlarına miras olaraq qoya bilərdi, ya da sata bilər, vəqfə bağışlayardı.
4. Vəqf torpaqlar – mülk torpaqlarının gəlirləri əsasında elmi və sosial müəssisələrinin xərclərini qarşılamaq üçün yaradılmış ərazilər idi. Vəqf torpaqlarının gəlirləri məscidlər, mədrəsələr, xəstəxanalar kimi xalq üçün yararlı olan qurumlarda xidmət göstərənlərin ehtiyacları üçün qarşılanırdı.

Səlcuq dövlətində siyasi və hərbi cəhətdən idarəçilikdə hakim olan türklər sosial həyatda da üstün mövqe tuturdular. Saray təşkilatı, hərbi hissə nümayəndələri türklərdən seçilmişdi [10].

Böyük Səlcuq imperatorluğunun yaranması nəticəsində tərkibində olan ərazilərdə, həmçinin Azərbaycanda da torpaq mülkiyyəti və vergi sistemində dəyişikliklər baş verir. Xüsusilə iqta torpaq mülkiyyəti forması Azərbaycanda səlcuqların gəlişi ilə üstün mövqe tutdu. Səlcuq sultanları hərbi xidmət qarşılığında Səlcuq əmirlərinə imperatorluq ərazisindəki torpaqları iqta şəklində paylayırdılar. Sultanların məqsədi mərkəzi hakimiyyəti gücləndirmək üçün hərbi-siyasi dayaq yaratmaq idi. Ən çox iqta paylayan Səlcuq sultanı da Məlikşah olmuşdur. O, 46.000 Səlcuq süvarisinə iqta paylamışdır. Azərbaycanın Aran, Şirvan, Dərbənd vilayətlərinin sultanın ən yaxın əmirlərinə iqta olaraq verilməsi Səlcuqlar üçün Azərbaycan torpaqlarının necə dəyərli olduğunu göstərir [2, s.16-21].

Səlcuqlar dövründə iqta torpaqlarının məzmunu da dəyişir, yəni zaman keçdikcə iqta irsən keçməyə başlayır, hətta mülkdən fərqlənmirdi. Zamanla iqta sahibləri böyük ərazilərini müstəqil idarə etməyə başlayaraq mərkəzi hakimiyyətə tabe olmayan yeni müstəqil dövlətlərə çevrildilər.

Səlcuqlar dövründə yaranan torpaq mülkiyyəti formalarından biri də uc torpaqları idi. İmperatorluğun ucqar sərhədlərini qorumaq məqsədi ilə sərkərdələrə paylanılan torpaqlara uc torpaqları deyilirdi. Bu torpaqlara daha çox sarayda qarışıqlıq yaradan əmirləri cəzalandırmaq məqsədi ilə idarəçilikdən uzaqlaşdırmaq üçün göndərilirdilər. Tarixə analogiya etsək, uc torpaqları Frank imperatoru Böyük Karl tərəfindən imperatorluğun sərhədlərində yaradılmış markqraflıqlara bənzəyir.

Ümumiyyətlə, səlcuqlar ələ keçirdikləri ərazilərdə torpaqları iki yerə ayırırdılar. Bunlar ülüş və uc torpaqları adlanırdı. Müsəlmanların yaşadıqları ərazilərdə tayfa bəylərinə, hakim təbəqəyə verilən torpaqlara ülüş deyilirdi. Uc torpaqları isə az öncə qeyd etdiyimiz kimi İslam coğrafiyasının sərhədlərində yerləşən ərazilər idi ki, mərkəzi hakimiyyətə tabe olmayan, yola getməyən bəylərə, hərbi rəislərə, tayfalara verirdilər.

Səlcuqlar ənənəvi vergilərlə yanaşı, yeni vergi növlərini də tətbiq edirdilər. Səlcuqlar silah bahası, nal bahası, şərab bahası kimi yeni vergilər alırdılar. Azərbaycanda daha əvvəl mövcud olan xərac, cizyə, üşr adlı vergilər və yolların salınması, qalaların tikilməsi mükəlləfiyyətləri ödənilirdi.

Məlikşahın dövründə vahid pul, çəki, ölçü sisteminin yaradılması, karvan yollarının təhlükəsizliyinin təmin edilməsi ticarətin inkişafına müsbət təsir edirdi. 1087-ci ildə Məlikşah tacirləri bəzi ticarət rüsumlarından azad etmək barədə fərman verdi. Bu qərar beynəlxalq ticarətin canlanması üçün şərait yaratdı. Bütün bunlar Səlcuq imperatorluğunda ticarət və iqtisadi əlaqələrin canlanmasında, inkişafında əhəmiyyətli rol oynadı [3].

***Ticarət.*** Səlcuqlarda iqtisadi həyat karvan yolları vasitəsilə yüksək səviyyəyə çatmışdı. Türküstan, Xarəzm, İran, İraq, Suriya, Azərbaycan, Anadolu istiqamətində ticarət yollarından keçən karvanların təhlükəsizliyi təmin olunurdu. Səlcuqlar dövlət idarəçiliyində bir çox xüsusiyyətləri Qəznəvilər dövlətinin nümunəsində yaratmışdılar. Qəznəvilər kimi Səlcuqlar da ticarət yollarında karvanlara nəzarət etmək üçün mühafizə dəstələri yerləşdirmiş, onların təhlükəsizliyini təmin etmişdir. Hətta zərər çəkmiş karvançıya dövlət tərəfindən təzminatı ödənilirdi. Səlcuqlar karvan yollarına əhəmiyyət verməklə digər ölkələrlə mübadilələri artırmışdı. Karvan basqınları, hücumlarının qarşısını almaq üçün Sultan Məlikşah dövründə yeni vergilər tətbiq edildi. Belə ki, ticarət vergiləri və gömrüklər birgə altı yüz min dinar təşkil edirdi [12].

Dövrünün siyasi-mədəni xadimlərindən biri olan Qəzzali ticarət münasibətləri haqqında öz əsəri olan “Kimya əs-səadət" əsərində məlumatlar vermişdir. O, bazarları Rəbbin süfrəsi adlandıraraq dürüst tacirləri mədh edirdi. Verilən məlumatlara əsasən, ticarətin üç üsulu olmuşdur: xəzzan, rakkaz, mücəhhiz. Xəzzan tacirlər məhsulu yığıb saxlayır və ehtiyac olduğu anda satışa çıxarır. Rakkaz tacirlər müxtəlif ölkələrdə səyahətlər edərək, ticarət əlaqələri yaradaraq özlərini təmin edirdilər. Mücəhhiz tacirlər isə mərkəzdən idarə olunan şəbəkə kimi fəaliyyət göstərirdilər. Səlcuqlar dövründə vasitəçilik edən simsarların sayı artmaqda idi.

Səlcuqların Azərbaycanda Yaquti xanədanlığı dövründə sərhədlər Arandan Mərkəzi Anadoluya qədər uzandı. Bu da Səlcuqlar ərazisi və sərhədlərində ticarət əlaqələrini sürətləndirirdi. Bizans ərazisində yerləşən digər dindən olan xalqların da türklərlə alış-veriş etməsi Bizans məmurlarını qəzəbləndirir və onlar xalqı cəzalandırırdılar [6].

Bizansla tez-tez münaqişələr yarandığında daha sonra ticarət anlaşmaları imzalanardı. Bağlanan sazişlərdə əlavə edilmiş maddələrə əsasən, Səlcuq əmirləri tacirlərin təhlükəsizliyini öz öhdəliklərinə götürmüşdülər.

***Nəticə.*** Beləliklə, Yaxın və Orta Şərq tarixində iz qoyan Böyük Səlcuq imperatorluğunun idarəçilik sisteminə, sosial-iqtisadi vəziyyətinə nəzər saldıq. Apardığım tədqiqata əsasən daha öncədən bizə məlum olamayan saray idarəçiliyi, hökumət təşkilatı, ordu quruculuğundan bəhs etdim. Mövcud olan terminlərin izahını göstərdim. Həmçinin torpaq mülkiyyəti formalarının XI əsr feodalizm quruluşuna əsasən bizimlə oxşar olduğunu da öyrənmiş olduq. Səlcuqlar üçün ticarətin də necə önəmli olduğunu aydınlaşdırdıq.

ƏDƏBİYYAT

1. Azərbaycan tarixi (III-XIII əsrin I rübü). Yeddi cilddə. II cild, Bakı, Elm, 2007, 608 s.
2. Mahmudov Y. Azərbaycan tarixi İntibah dövrü (IX əsrin ikinci yarısı-XIII əsrin əvvəlləri). Bakı, “Altay dünyası", 1996, 81 s.
3. Mahmudov Y. Seçilmiş əsərləri. VI cild. Bakı, 2011, s.461-515.
4. Məmmədov E. Səlcuqlar. Bakı, Mürtəcim, 2015, 204 s.
5. Muxtarova Ə.İ. Türk xalqlarının dövlətçilik tarixi (qədim dövr və orta əsrlər). Bakı, Adiloğlu, 2002, 136 s.
6. Nəcəf N.Ə. Azərbaycan Səlcuqları: Yaqutilər. Bakı, Çapar yayınları, 2020, 282 s.
7. Nəcəf N.Ə. Səlcuqlu dövlətləri və Atabəyləri tarixi (Oğuzların ortaya çıxmasından - XIV əsrə qədər). Bakı, Qanun, 2010, 756 s.
8. Bedirhan Y. Orta Çağ Tarihi. Ağrı, Nobel Akademik Yayıncılık Eğitim Danışmanlık TİC, LTD, ŞTİ, 2012, 448 s.
9. Büyük Selçuklu Tarihi. Anadolu Üniversitesi. Açıköğretim Fakültesi No:1354, Editör Bezer G.Ö, Eskişehir, Ocak 2019, 223 s.
10. Doğuştan Günümüze Büyük İslam Tarihi. Yeddinci Cilt. Redaktör: Yıldız H.D. İstanbul, Çağ yayınları, 1989, s.95-211.
11. Kafesoğlu İ. Selçuklu Tarihi. İstanbul, Milli Eğitim Basımevi, 1972, 190 s.
12. Köymen M.A. Büyük Selçuklu İmparatorluğu Tarihi: Kuruluş Devri. Cilt I. Ankara, Türk Tarih Kurumu Basımevi, 2000, 396 s.

**LEYLA HEYDAROVA**
*Azerbaijan University,*
*2nd year master's student majoring in "Ancient and Medieval History of Azerbaijan"*

## PUBLIC ADMINISTRATION OF THE SELJUKS IN AZERBAIJAN, SOCIO-ECONOMIC SITUATION

In this article, the management system of the Seljuks from the Qinig neck of the Three Arrows branch of the Oguz was discussed after the establishment of the state. Also, the socio-economic situation during the Seljuk period was described and the types of land and taxes were indicated. The activities of the Seljuk sultans, especially during the Malikshah period, in Azerbaijan are also reflected.

*Keywords:* Seljuks, administration, trade, land forms, taxes.

*Daxil olma tarixi*: 30.04.2024-cü il.
*Çapa imzalanma tarixi*: 10.05.2024-cü il.

№2(10) 2024, 66-69

UOT 94(479.24)

**MƏRYƏM RƏHİMOVA**
*Azərbaycan Universiteti*
*"Azərbaycanın qədim və orta əsrlər tarixi" ixtisası üzrə magistrant*
**mryam.rahmova@gmail.com**

# I ŞAH ABBASIN İSLAHATLARI

*Elmi rəhbər:*
tarix elmlər doktoru Yaqub Mahmudov

*Səfəvi imperatorluğuna xarici hücumların artdığı, daxili vəziyyətin gərginləşdiyi zamanda hakimiyyətə Şah I Abbas gəldi. O, qızılbaş əmirlərinin özbaşnalığına son qoymaq, mərkəzi hakimiyyəti gücləndirmək, itirilmiş əraziləri geri qaytarmaq məqsədilə əsaslı islahatlar keçirməyə başladı. Onun islahatları nəticəsində Səfəvi dövləti əvvəlki qüdrətini bərpa etdi, qızılbaş əyanlarının itaətsizliyinə son qoyuldu. Siyasi sabitlik bərqərər oldu. Dövlətin əsas dayağı olan nizami qoşun yaradıldı, müdafiə qabiliyyəti artdı. Səfəvi dövləti qısa zaman ərzidə itirlimiş torpaqları geri qaytardı və güclü imperiyaya çevrildi.*

*Açar sözlər:* Səfəvi imperatorluğu, Şah I Abbas, Qızılbaş əyanları, Şah I Abbasın hərbi islahatları.

***Giriş***. 1587-ci ildə Qəzvində taxta çıxan Şah I Abbasın (1587-1629) əsas vəzifəsi xarici işğallara məruz qalan, daxildən parçalanan dövləti məhv olmaqdan xilas etmək idi. Bu zaman ərazilərimizin böyük hissəsi osmanlıların, Xorasan isə özbəklərin işğalı altına düşmüşdü. Belə ağır vəziyyətdə o, Osmanlılarla sülh bağlamağa məcbur oldu və diqqətini daxili sabitliyi bərqərar etməyə yönəltdi. Şah I Abbas qızılbaş əyanlarının itaətsizliyinə son qoymaq və itirilmiş əraziləri geri qaytarmaq məqsədilə idarə sistemi, hərbi və iqtisadi-sosial sahələrdə islahatlar keçirdi [1, s.274].

Mərkəzi hakimiyyəti gücləndirmək üçün şah ilk növbədə onu taxta çıxaran Ustaclı, Şamlı və digər qızılbaş əmirlərinə qarşı mübarizəyə başladı.

Dövlətin mərkəzini 1598-ci ildə Qəzvindən İsfahana köçürdü. Yeni paytaxtın və onun ətraf bölgələrinin əhalisinin xeyli hissəsini Şah I İsmayıl tərəfindən burada dayaq yaratmaq məqsədi ilə köçürülüb yerləşdirilmiş Təklə türkləri təşkil edirdi.

Şah I Abbas buraya Təbrizdəndə çoxlu əhali köçürüb, onlara Zayəndərud çayının sahilində Təbrizabad (Abbasabad) adlı məhəllə saldırdı. Bununla yanaşı, Şah I Abbasın zamanında Təbrizdən İsfahana 200 sənətkar ailəsi köçürüb yerləşdirdi [6, s.78].

Adam Oleari mərkəzi və yerli bürokratik idarələrə təyinatlar, həm də bu orqanlarla şah hakimiyyəti arasındakı münasibətləri təhlil etmiş, bunların irsi olmadığını qeyd etmişdi. O bildirmiş ki, geniş ərazini əhatə edən bu ölkə inzibati cəhətdən çoxlu vilayətlərə bölünmüşdür. Şah mərkəzi hakimiyyəti və paytaxtdan uzaq olan vilayətləri xan, kələntər, darğa, vəzir ünvanı ilə məlum olan hakimiyyət məmurları vasitəsilə idarə edirdi [2, s.103].

Şah I Abbas hakimiyyətə gəldiyi vaxtdan etibarən idarəçiliyə yeni əmirlər gətirmişdi. Lakin onlar da özlərindən əvvəlkilərin yolu ilə getməyə başladılar. Məhz bu səbəbdən, onların da çoxu hakimiyyətdən kənarlaşdırıldı. I Şah Abbas hakimiyyətə gəlməsində Mürşüdqulu xana borclu idi. 1589-cu ildə ləyaqətli şəxs Mürşüdqulu xan öldükdən sonra şah yüksək vəzifədə olan əyanları vəzifədən azad etdi. Bu həm ara çəkişmələrini azaltdı, həmçinin şahın hakimiyyətini möhkəmləndirdi. Onların əvəzinə isə gənc və az tanınmış əmirləri gətirdi. I Şah Abbas həyata keçirdiyi cəza tədbirləri ilə hakimiyyətinin möhkəmləndirilməsinə nail ola bilmədi. Bu səbəbdən Gilanda, Astrabad, Kaşan, Luristanda baş qaldırmış separatizm dövlətin gücləndirilməsi qarşısında ciddi problemlərə səbəb olurdu. Buna görə də, I Şah Abbas əhalisinin çoxu türk olmayan bu vilayətlərdə məhəlli sülalələri və bir çox senyor mülklərində hakimlərin irsi hüquqlarını ləğv etdi. Hakimiyyətə tərkibindəki başqa xalqların əsilzadələri, eyni zamanda kiçik yaşından saraya gətirilib burada tərbiyə alan çərkəz, gürcü qulları da cəlb olundu. Onların idarəçiliyə gətirilməsi qızılbaşların hakimiyyətdəki mövqeyini zəiflətmək məqsədini güdmürdü. O,

bununla imperatorluğun tərkibindəki başqa xalqların mərkəzdənqaçma meyllərinin qarşısını aldırdı. Ona görə ki, Şah I Abbas öz daxili siyasətində dövlətin milli mahiyyətini dəyişmək fikrində olmamış və əksinə onun möhkəmləndirilməsi tədbirlərini həyata keçirmişdir. Bu dövləti quran da, yaşadan da türklər idi. Belə ki, 1628-ci ildə dövlətin önəmli vəzifələrində olan 92 əmirdən 54 nəfəri türk, 15 nəfəri türkləşmiş və türk dilindən başqa dil bilməyən qulam və qalanı isə qeyri-türklərdən ibarət idi [6, s.80].

Dövləti parçalamağa çalışanlara qarşı son dərəcə qətiyyətli davranan Şah I Abbas tərəfindən bir sıra məsuliyyətli vəzifələrə qeyri-türk nümayəndələrinin gətirilməsi faktını qeyd etmək lazımdır. Səfəvi hökmdarı bu formada təyinatlar zamanı həmin şəxsin etnik mənsubiyyətini deyil də onun idarəçilik qabiliyyətini əsas götürürdü. Belə məsul vəzifələrə nəinki farslar, həmçinin gürcülər də gətirilirdi. Allahverdi xan oğlu Davud xan bunlardan biri idi. İsfahanın paytaxt elan olunması məsələsinə gəldikdə isə bu şəhər sürətlə türkləşirdi. Yeni-yeni türk məhəllələri meydana gəlirdi. Paytaxtın dəyişilməsi ilə bağlı daha bir faktı da deyə bilərik ki, Şah I Abbas fürsət yaranan kimi Qəzvindəki iqamətgahına yollanır və dövləti oradan idarə edirdi [5, s.129].

Şah vəzirinin yanında Məşvərət Şurası mövcud idi. Şahın qərarına verilməli olan məsələlər vəzirin yanında toplanmış olan, vəzirə tabe olan vəzifəli adamların olduğu Məşvərət Şurasında müzakirə olunduqdan sonra şahın diqqətinə çatdırıldı. Müzakirələrdə vilayətlərdə olan vəziyyət, dövlətin daxili həyatı ilə bağlı məsələlər var idi. Hərbi yürüşlər zamanı şah özü də qoşun başçılarının və əmirlərin məşvərət iclasını təşkil edirdi. Lakin bunlar daimi deyildi [5, s.154].

Şah I Abbasın mərkəzi hakimiyyəti bərqərər etmək fəaliyyətindən sonra müəyyən vəzifələrə qeyri-qızılbaş tayfasından olan şəxslər təyin olunsa da, qızılbaş, həmçinin digər türk tayfalarından olan əyanlar dövlət idarəetmə orqanlarında öz üstün mövqelərini qoruyub saxlamışdılar.

Hökmdarın maliyyə sferasında da keçirdiyi islahatlar xüsusi önəm daşıyır. İslahatın keçirilməsində əsas məqsəd məmur özbaşnalığının qarşısını almaq və xəzinə gəlirni mütəmadi olaraq artırmaq idi. I Şah Abbas əhalinin vəziyyətini yaxşılaşdırmaq üçün verginin miqdarını müəyyən qədər azaltmağa çalışırdı. Xorasan və İsfahan şəhərlərində verginin həcmi azaldılmış, Dərbənd və Ordubad şəhərləri vergilərdən azad olunmuşdu. Müharibə nəticəsində dağıntılara məruz qalmış cənub bölgəsi iki il müddətində vergi və rüsumlardan azad olunmuşdu. Şah I Abbas 1615-ci ildə əhalidən yığılan və məmurların saxlanılmasına sərf olunan əlavə rüsumları da ləğv etdi. Bu çox böyük güzəşt idi. Çünki rüsumların ümumi illik miqdarı 30 min tümənə bərabər idi. Şah I Abbasın zamanında imperiyanın maliyyə vəziyyətini yaxşılaşdırmaq üçün mühüm vəzifələrə təyin olunan məmurlardan "peşkəş" adlanan xüsusi vergi yığılırdı. Vergi yığılmasının iltizama verilməsi əhalinin vəziyyətini çətinləşdiyi üçün iltizamçılar üzərində nəzarət daha da gücləndirilmişdi.

İqtisadi sahədən həyata keçirilən tədbirlər içərisində mühüm yeri ticarət xususilə xarici ticarət təşkil edirdi. XVI əsrin ikinci yarısından başlayan Osmanlı Səfəvi müharibəsi Azərbaycanın iqtisadi sisteminə ağır zərbə vurmuşdu. Şah I Abbas şəhər həyatının dirçəlməsinə xüsusi önəm verirdi. İpək istehsalı və satışı ilk növbədə dövlət inhisarına keçirilmiş oldu. İpək ticarətinin şahın nəzarəti altında olması məsələsini qeyd edən İsgəndər bəy Münşi göstərirdi ki, ipək ticarəti və Şah xəzinəsinə daha çox gəlir gətirirdi. Hələ Şah I İsmayılın dövründə müsəlman və kafirliyindən asılı olmayaraq istənilən tacir karvanın qarət olunmasına qarşı ciddi şəkildə cəza qərarları qəbul olunmuş, tacirləri öldürənlər edam olunurdu. Bu məsələyə I Şah Abbas da xüsusi önəm verirdi [3, s.85].

Tarixşünaslıq səhvi olaraq Səfəvi dövlətinin XVI-XVII əsr hərbi islahatların keçirilməsi Antoni və Robert Şerli qardaşlarının adı ilə bağlanılır. Bu əsrlərdə ordu quruculuğunun, hərbi islahatın keçirilməsi birbaşa Şah I Abbasın fəaliyyəti ilə əlaqədardır. Şerli qardaşları 1598-ci ildən sonra ordu quruculuğuna başlamış olduğu halda, I Şah Abbas 1592-ci ildən sonra bu fəaliyyətə başlamışdı. Xüsusilə 1593-cü il Xorasana uğursuz yürüşündən sonra Şahın başlatmış olduğu hərbi islahat 1598-ci il Xorasan yürüşünə qədər davam etmişdi. Şah I Abbas Etimad üd dövlə Hətəm Bəy Ordubadiyə göstəriş verərək ordu quruculuğuna başlamışdı. Petruşevskinin "XVI - XIX əsrin əvvələlərində Azərbaycanda və Ermənistanda feodal münasibətlər tarixinin oçerkləri" bu dövr ordu quruculuğu haqqında məlumatlar vermişdi.

I Şah Abbas hərbi islahatında Osmanlı dövlətinin yeniçəri hərbi institutunu örnək olaraq qəbul edərək, qulam, tüfəngçi nizami alaylarını yaratmış və topçu taqımını da təşkil edib, əsgəri təşkilatı təkmilləşdirərək, dövləti hərbi-siyasi baxımdan gücləndirməyə nail olmuşdur.

1. *Qızılbaşlar (Qorçilər)* XVII əsr boyu Səfəvi ordusunda üstünlük təşkil etmişdir. I Şah Abbas ordunun bu növünü aradan götürüb onların yerində qulamları yerləşdirmək istəsə də, buna müvəffəq ola bilməmişdir. Qızılbaşlar türk tayfalarından ibarət idi. Bu hərbi hissəyə hər tayfanın içərisindən rəhbər seçilirdi.

2. *Qulamlar* öz valideynləri və dini ilə əlaqəsini itirmiş şah sarayında tərbiyə almış gürcü, çərkəz mənşəli gənclərdən təşkil olunmuşdu. Osmanlı yeniçərilərinə bənzər hərbi hissə idi. Qulamların başında qullarağası dururdu.

3. *Tüfəngçilər*. Bu qoşun növünə müxtəlif vilayətlərdən çağrılan əhalinin müəyyən təbəqəsi cəlb olunurdu. Tüfəngçilər şaha məxsus qoşun növü idi. Tüfəngçilərə digər xalqların nümayəndələri cəlb olunsa da, əsas hissəsi Azərbaycan türklərindən ibarət idi.

4. *Topçular*. Səfəvi ordusunda topdan əsasən düşmənin gücləndirilmiş mövqeyinə zərbə vurmaq və qala mühasirəsi zamanı istifadə olunurdu [6, s.80].

Səfəvi ordusunun hərbi dəniz qüvvələri yox idi. Şah I Abbas portuqalları körfəz ərazilərindən çıxarmaq üçün ingilislərdən yardım almağa başladı. Şahın xələfləri körfəzin təhlükəsizliyini qorumaq üçün Hollandiya və Fransa dövlətlərindən yardım almışdılar. J.Şarden öz "Səfərnamə"sində yazır ki, *"mənim bildiyimə görə şahın şimal və cənub dənizlərində bircə dənə də olsa gəmisi və əsgəri yoxdur. Mən şəxsən bu iki dənizin sahil boyu ərazilərini piyada gəzmişəm. 15-20 il olar ki, kazaklara qarşı bir dəniz alayı təşkil edilibdir. Lakin ona dəniz qüvvəsi adını vermək olmaz. Səbəb ondadır ki, kazakların təhlükəsi dəf ediləndən sonra balıqçılardan ibarət olan muzdlu şəxslər dağılışaraq hərə öz işi ilə məşğul olur"* [4, s.280].

Pyetro della Valle Şah I Abbasın dövründə 12 min nəfər qorçunun məvaciblə təmin olunması haqqında məlumat vermişdir. Qeydlərə görə, sərhəd vilayətlərdəki hərbi-strateji əhəmiyyətli şəhərlər, qalalar, körpülər, qorçular tərəfindən mühafizə olunur və onları məvacibla təmin edirdilər. Səyyah Şah I Abbasın ordu quruculuğu ilə bağlı təşkil etdiyi yeni qoşun növləri, onların sayları və təminatları haqqında da dəyərli məlumatlar vermişdi. Səyyahın qeydlərindən aydın olur ki, əsgərlərin hər bir ildə 5 tüməndən çox məvacib alırdı [3, s.162].

Nəticə olaraq, Türkiyə ilə müharibələri davam etdirmək niyyətində olan Şah I Abbas ordunu yenidən təşkil etməyə başladı. Atıcıların 12000-ci korpusunun və 10000-ci süvari korpusunun tərkibində nizami qoşunlar yaradıldı. Döyüşçülər Osmanlı İmperiyasında yeniçəri kimi yetişdirilmiş, gürcülər və digər Qafqaz xalqları gənc yaşlarında valideynlərindən seçilmiş, İslamı qəbul etmiş və İranda tərbiyə almışlar. Həmçinin hərbi hissələr İran əhalisindən cəlb edilirdi. Artilleriya cəlb edildi, odlu silahlar verildi, İngilis hərbi təlimatçıları qoşunlarda təlimlərə cəlb edildi. Orduda çalışanların Türk qızılbaş tayfalarına torpaq mülkiyyəti verildi və Şah Abbasın xüsusi himayəsindən istifadə etdilər.Hərbi islahat həm də mərkəzi hakimiyyəti gücləndirmək üçün həyata keçirilirdi [7, s.342].

***Nəticə.*** Şah I Abbasın həyata keçirdiyi mütərrəqi islahatlar nəticəsində dövlətin hərbi və siyasi qüdrəti bərpa edildi. Qızılbaş əmirlərinin itaətsizliyinə son qoyuldu, dövlətdə müxtəlif "sülalə hakimlərinin" aradan qaldırılması ilə mərkəzi hakimiyyət gücləndirildi və tam siyasi sabitlik bərqərar oldu. İslahatlar ölkənin iqtisadi tərəqqisinə də təsir göstərdi. Qonşu ölkələrlə ticarət əlaqələri quruldu. Səfəvi imperatorluğunun əsas dayağı olan nizami qoşun yaradıldı və bunun nəticəsində itirilimiş əraziləri geri qaytarmaq asanlaşdı. Onun aparadığı isalahatlar Səfəvi imperatoluğu yeni bir məqama çatdırdı ki, onu nəinki şərqin, hətta dünyanın ən güclü imperiyalarından birinə çevirdi.

## ƏDƏBİYYAT

1. Azərbaycan tarixi. Yeddi cilddə. III cild. Bakı, Elm nəşriyyatı, 2007, 590 s.
2. Baxşəliyev A.B. Səfəvi dövlətinin sosial-iqtisadi həyatı və beynəlxalq əlaqələri. Bakı, 2009, 274 s.
3. Qurbanov C.X. Səfəvi hökmdarı I Şah Abbas (1587-1629). Bakı, Zərdabi LTD, 2011, 175 s.
4. Nəcəfova R.F. Səfəvi imperiyası ordusunun quruluşu // Akademik Tarih ve Düşünce Dergisi, 6(5) Kış 2019, s.274-287.
5. Süleymanov M.S. Səfəvilər. VIII cild: I Şah Abbas. Bakı, Maarif nəşriyyatı, 2023, 832 s.

6. Süleymanov N.M. Azərbaycan Səfəvilər dövləti (1501-1736-cı illər). Dərs vəsaiti. Bakı, İqtisad Universiteti, 2018, 213 s.
7. Гусейнова И.М. История народов Кавказа (с древнейших времен до наших дней). Баку, Елм и тахсил, 2018, 1248 с.

**MARYAM RAHIMOVA**
*First-year graduate student of Azerbaijan University*

## THE REFORMS OF SHAH ABBAS I

Shah Abbas I came to power at a time when foreign attacks and internal conflicts permeated the Safavid empire. He started reforms in order to put an end to the arbitrariness of the emirs, to strengthen the central government, and to return the lost territories. As a result of the reforms of Shah Abbas I, the state was restored to its former power, and the disobedience of the qizilbash princes was ended. Political stability has been established. The regular army, which is the mainstay of the state, was created, and its defense capability increased. The Safavid state quickly regained the lands it had lost in the war and became a powerful empire.

*Keywords:* Safavid empire, Shah Abbas I, Qizilbash princes, Reforms of Shah Abbas I.

*Daxil olma tarixi*: 30.04.2024-cü il.
*Çapa imzalanma tarixi*: 10.05.2024-cü il.

Türk dünyası gənc tədqiqatçılar dərnəyinin Araşdırmaları
Studies of the Turkic World Young Researchers Association

№2(10) 2024, 70-75

UOT 94(479.24)

**NURİDƏ ƏLİYEVA**
*Qərbi Kaspi Universitetinin*
*"Qafqaz xalqlarının tarixi" ixtisası üzrə II kurs magistrantı*
**murideeliyeva@gmail.com**

# DAĞLIQ QARABAĞ MUXTAR VİLAYƏTİ NECƏ YARANDI?

*Elmi rəhbər:*
tarix üzrə fəlsəfə doktoru Ramin Fətullayev

*Məqalədə Azərbaycan ərazisində Dağlıq Qarabağ Muxtar Vilayətinin (DQMV) yaradılmasının məqsəd və nəticəsi tarixi-siyasi kontekstdə tədqiq edilir, bu məsələyə ermənilərin işğalçı fəaliyyətlərinin nəticəsi kimi qiymət verilir. 1918-1920-ci illərdə Azərbaycan Xalq Cümhuriyyəti ilə ərazi iddiaları ilə mübarizə aparan erməni daşnaklar Azərbaycanda sovet hökumətinin qurulmasından sonra öz məkrli siyasətlərini həyata keçirmək üçün bolşevik havadarlarının köməyi ilə daha da fəallaşdılar. Bu dövrdə ermənilər Qarabağı ələ keçirə bilməsələr də, Qarabağda yaşayan azsaylı ermənilərə muxtariyyətin verilməsi, DQMV-nin yaradılması erməniləri sonrakı dövrlərdə Qarabağ torpaqlarına daha da iddialı etdi. Mərkəz (Moskva) tərəfindən dəstəklənən erməni millətçi qüvvələri XX əsrin sonlarında Azərbaycanın Dağlıq Qarabağ bölgəsini ələ keçirmək üçün öz ekspansionist fəaliyyətlərini genişləndirdilər ki, bu da 20% torpaqlarımızın işğalı ilə nəticələndi.*

*Açar sözlər:* Azərbaycan SSR, Ermənistan SSR, Qarabağ, DQMV, muxtariyyət.

***Giriş.*** Dünyanın müxtəlif ərazilərindən ermənilərin Cənubi Qafqaza köçürüldüyü ilk vaxtlardan burada yaşayan xalqların, o cümlədən Azərbaycan xalqının məşəqqətli günləri başlamışdır. Azərbaycanın qədim tarixi torpaqlarını çarizmin himayəsi altında zaman-zaman ələ keçirərək "erməni vilayəti" yaradan erməni şovinistləri bununla kifyətlənməyərək dənizdən-dənizə "Böyük Ermənistan" dövləti qurmaq kimi məkrli və mənfur bir niyyətə düşmüş, XX əsrin əvvəllərində (1905, 1914-1915, 1918-1920-ci illər) bu siyasətə davam etmiş, 1920-ci ildə Azərbaycanda sovet hakimiyyətinin bərqərar olmasından sonra isə daha kəskin şəkildə yenidən fəallaşmışdılar. Erməni millətçiləri aşkar şəkildə elan edirdilər ki, Cənubi Qafqazda Gürcüstansız və Azərbaycansız yalnız Ermənistan qalmalıdır. Tarixi Azərbaycan torpaqlarını "mübahisəli ərazi" hesab edən erməni daşnakları ölkəmizdə ağır milli problem yaratmağa nail olmuşdular. Onu da qeyd etmək lazımdır ki, bu problemin inkişaf etdirilməsində və "həllində" Azərbaycanda hər şeydən əvvəl öz müstəmləkəçi niyyətlərini güdən Sovet Rusiyasının mühüm rolu var idi. Sovet hakimiyyətinin ilk illərində (1920-1923) Naxçıvan, Zəngəzur və Dağlıq Qarabağın adı Azərbaycan və Ermənistan arasında "mübahisəli ərazilər" kimi çəkilirdi. Azərbaycandakı ərazi mübahisələrində təkcə Rusiyanın və Ermənistanın deyil, həm də "parçala və hökm sür" siyasətini rəhbər tutan iri Qərb ölkələrinin müəyyən məqsəd və öz mənafeləri var idi.

***Dağlıq Qarabağa muxtariyyət verilməsi uğrunda ermənilərin mübarizəsi.*** "Dağlıq Qarabağ məsələsi" Azərbaycanda son dərəcə gərgin və mürəkkəb siyasi ziddiyyətlər fonunda gündəmə gətirilmişdi. Ölkəmizə müxtəlif dönəmlərdə kütləvi şəkildə köçürülmüş erməni əhalisi Azərbaycandakı milli azlıqlar içərisində faiz etibarı ilə çoxluq təşkil edir, onların əsas hissəsi Dağlıq Qarabağ ərazisində azərbaycanlılarla qonşuluqda yığcam şəkildə yaşayırdılar. Burada bir faktı xüsusi qeyd etmək yerinə düşərdi. Belə ki, XX əsrin əvvəllərində daşnakların apardığı məkrli anti-Azərbaycan siyasətinə baxmayaraq, Dağlıq Qarabağdakı erməni icmasının özü də Qarabağın bölünməzliyinə qətiyyətlə tərəfdar çıxırdılar. Məsələn, A.Mikoyan 1919-cu ilin mayın 22-də V.İ.Leninə ünvanladığı məktubunda yazırdı: *"Daşnaklar Qarabağı Ermənistana birləşdirməyə çalışırlar, lakin Qarabağ əhalisi üçün bu, onlar üçün həyat mənbəyi olan Bakıdan məhrum olmaq və heç nə ilə əlaqəsi olmadıqları İrəvan ilə bağlanmaq deməkdir. Qarabağın erməni əhalisi V qurultayda sovet Azərbaycanını tanımaq və onunla birləşməyi qərara alıb"* [10, s.26]. Bundan başqa, həmin ilin 6 iyununda yepsikop Şahnaza-

rov və erməni icması nümayəndələri X.Sultanovla görüşərək, Azərbaycan Xalq Cümhuriyyəti hökumətini tanıdıqlarını bildirmişdilər. 1919-cu ilin 23 noyabrında Azərbaycan və Ermənistanın baş nazirləri Nəsib bəy Yusifbəyli və Aleksandr Xatisov Gürcüstan xarici işlər naziri Yevgeni Gegeçkori və ABŞ polkovniki Ceyms Reyin iştirakı ilə sülh sazişi imzaladılar. Hər iki tərəfin razılığı ilə polkovnik C.Rey "neytral şəxs" təyin edildi. Belə ki, bütün mübahisəli məsələlər onun iştirakı ilə həll edilməli idi. Sülh sazişinə görə, "mübahisəli sərhəd məsələsini" silah gücü ilə deyil, diplomatik danışıqlar yolu ilə həll edilməli, habelə qoşunlar sözügedən ərazidən çıxarılmalıydı. Lakin, erməni daşnakları bu sazişi hər vəchlə qüvvədən salmağa çalışırdılar. Bu da o deməkdir ki, türk millətinə xüsusi nifrət bəsləyən azğın erməni millətçilərinin partiyası (yəni Daşnaksütun) regionda sülhün bərqərar olmasını qəbul etmək istəmirdi. Elə buna görədir ki, Azərbaycan 23 noyabr sazişinə müvafiq olaraq öz hərbi hissələrini Zərgəzurdan çıxardığı halda, Ermənistan nəinki nizami qoşunların; bölgədən çıxarmış, əksinə, əlavə qüvvələr gətirərək döyüş əməliyyatlarını davam etmiş, dinc əhaliyə qarşı qırğınlar həyata keçirmiş, habelə öz torpaqlarından qovmuşdur [11, s.84].

1920-ci il 30 apreldə Azərbaycan SSR xalq xarici işlər komissarə Mirzədavud Hüseynov daşnak hökumətinə erməni silahlı dəstələrinin Qarabağ və Zəngəzurdan çıxarılması, milli qırğınlara son qoyulmasını tələb edən nota göndərmiş, əks halda Azərbaycan SSR hökumətinin təxirəsalınmaz tədbirlər görəcəyi bildirmişdi. Ermənistan hökuməti nəinki Azərbaycan SSR-in bu tələblərinə cavab vermir, əksinə, daşnaklar tərəfindən müsəlmanlara amansızlıqlar və vəhşiliklər davam etdirilir, azərbaycanlı kəndləri məhv edilirdi. Erməni və rus müəlliflərin özləri də Dağlıq Qarabağdakı sözügedən faciələrin əsas səbəbkarının Daşnaksütun partiyası başda olmaqla Ermənistan hökuməti olduğunu səmimi şəkildə etiraf etmişlər. Məsələn, rus tarixçisi V.Qurko-Kryajin 1926-cı ildə nəşr olunmuş "Böyük Sovet Ensiklopediyası"nda və bir sıra başqa əsərlərində müəllif Ermənistan tərəfindən Azərbaycana qarşı yönələn əsassız ərazi iddiaları və bu məqsədlə Azərbaycana qarşı qanlı hərbi əməliyyata başladığını açıq şəkildə etiraf etmişdi [6, s.231]. 1920-ci ilin mayın 9-da Bakıda yaşayan qarabağlı və zəngəzurlu azərbaycanlıların və ermənilərin həmrəylik mitinqi keçirildi və mübahisəli ərazi məsələlərinin dinc yol ilə, qan tökülmədən nizamlanması qərara alındı [1, s.166].

***Ermənistanın sovetləşməsindən sonra Dağlıq Qarabağda siyasi proseslər və DQMV-nin yaradılması üçün zəmin hazırlanması.*** 1920-ci ilin 29 noyabrında Ermənistanda "sosialist inqilabı" baş verdi. Ertəsi gün, noyabrın 30-da AK(b)P Mərkəzi Komitəsinin Təşkilat bürosunun və Siyasi büronun birgə iclası keçirildi və burada Ermənistanda Sovet hakimiyyətinin elan olunması məsələsi nəzərdən keçirilərkən sovet Ermənistanına "Bəyannamə" ilə müraciət etmək qərara alındı. Qərarda deyilirdi:

1. Azərbaycan SSR və Ermənistan SSR arasında heç bir sərhəd mövcud deyil;
2. Qarabağın dağlıq hissəsinə öz müqəddəratını təyin etmə hüququ verilir;
3. Azərbaycan SSR Ermənistan SSR ilə sıx hərbi və təsərrüfat ittifaqı bağlayır.

Əfsuslar olsun ki, qərarın 1-ci bəndi xüsusi don geyindirməklə "mübahisəli ərazilər"in Ermənistana verilməsi kimi qiymətləndirildi. Halbuki sözügedən bənd Azərbaycan SSR hökuməti tərəfindən "ictimai-siyasi quruluşu eyni olan dövlətlərin sərhədlərinin biri-birinin üzünə açıq olması" baxımından nəzərdən keçirilirdi. "Bəyannamə"nin müzakirələrində N.Nərimanovla yanaşı Q.Kaminski və S.Orconikidze də iştirak edirdilər. "Bəyannamə" 1920-ci il dekabrın 1-də Azərbaycan SSR hökumət başçısı N.Nərimanov tərəfindən Bakı Sovetinin təntənəli iclasında elan olundu. Nərimanov sözügedən bəyannamə ilə çıxışında deyir: *"Dağlıq Qarabağın zəhmətkeş kəndlilərinə öz müqəddəratlarının təyin edilməsi kimi tam hüquq verilir"*. Maraqlısı budur ki, özünü Qafqazın ağası kimi sərbəst aparan S.Orconikidze öz çıxışında bəyyanməni – yəni, N.Nərimanovun çıxışını təhrif edərək həmin vaxt söyləyir: *"Nərimanovun fikri çox xarakterikdir. Zəngəzur, Naxçıvan və Qarabağ - bu sözlərin mənasının onlardan xəbərsiz olan ruslar üçün elə bir əhəmiyyət kəsb etmir. Hansısa Zəngəzur – məhsulsuz dağlar, susuz, çörəysiz, orada heç nə yoxdur. Hansısa Dağlıq Qarabağ. Nə var bu Qarabağda? Heç nə! Onları özünüz üçün götürün. bu məhsul verməyən torpaqları Ermənistan üçün götürün"* [13, s.323]. Elə dekabrın 1-də Orconikidze məsələ ilə əlaqədar A.Nazaretyanla danışaraq ona yuxanda göstərilən ərazilərin *"Azərbaycan SSR tərəfindən Ermənistan SSR-ə güzəşt edilməsini, artıq Sovet Azərbaycanı ilə Sovet Ermənistanı arasında sərhədlərin mövcud olmadığını bildirərək söyləyir ki, Azərbaycan özünün sərvətlərini, neftini hər iki respublikanın sərvəti elan etmişdir"*. Elə

bu səbəbdəndir ki, tarixçi-alim Ataxan Paşayev "Köçürülmə" adlı tədqiqat əsərində sözügedən hadisələrlə bağlı yazır: *"1920-ci ilin dekabrında Ermənistanda Sovet hakimiyyətinin qurulmasından Azərbaycanın bütün var-dövləti Ermənistanın malı elan edildi, Azərbaycanın qara qanının bundan sonra Ermənistanın damarlarına axacağı bildirildi"* [14, s.5]. Bütün bunlar 1 dekabr bəyannaməsinin qəsdən təhrif olunması demək idi. Məsələ o yerə çatmışdı ki, İ.Stalin də 1920-ci il dekabrın əvvəllərində Ermənistana sovetləşmə münasibətilə göndərdiyi təbrik məktubunda yazırdı: *"Dekabrın 1-də Sovet Azərbaycanı mübahisəli vilayətlərindən könüllü olaraq əl çəkmiş və Zəngəzur, Naxçıvan, Dağlıq Qarabağın Sovet Ermənistanına verilməsini elan etmişdir"* [5, s.64].

1921-ci ilin iyulun 4-də RK(b)P MK-nın Qafqaz bürosu plenumunda "Qarabağ məsələsi" yenidən müzakirə edildi. Bu plenumda N.Nərimanov, S.Orconikidze, F.Maxaradze, S.Kirov, A.Myasnikov, V.Nazaretyan, M.Orxolaşvili, Stalinin katibi Breytman və b. iştirak edirdi. Qarabağın Azərbaycanın tərkibində saxlanılmasının ("verilməsi" deyil, məhz saxlanılması – sənəddə belə yazılmışdı) lehinə N.Nərimanov, F.Maxaradze və A.Nazaretyan səs verir. Bu təklifin əleyhinə isə S.Orconikidze, A.Myasnikov, S.Kirov, Y.Fiqatner səs verirlər [7, s.129]. Bu məsələ ilə bağlı bütün Qarabağda azərbaycanlı və erməni əhalisi arasında rəy sorğusunun keçirilməsinin lehinə yalnız N.Nərimanov, F.Maxaradze səs vermişdilər. Halbuki sorğunun yalnız Dağlıq Qarabağ erməniləri arasında keçirilməsi təklifinə çoxluq – S.Orconikidze, A.Myasnikov, S.Kirov, A.Nazaretyan səs vermişdilər. Beləliklə, Qafqaz bürosunun iclasında Dağlıq Qarabağın Ermənistan SSR-in tərkibinə daxil edilməsi və rəy sorğusunun isə yalnız Dağlıq Qarabağın erməni əhalisi arasında keçirilməsi haqqında qərar qəbul edildi, Moskvanın "xeyir-duası ilə" Qarabağ məsələsi ədalətsiz şəkildə Ermənistanın xeyrinə həll edildi. Belə bir qeyri-obyektiv və qərəzli qərarla haqlı olaraq razılaşmayan N.Nərimanov bəyanatla çıxış edərək bildirdi: *"Qarabağ məsələsinin Azərbaycan üçün olduqca mühüm əhəmiyyət kəsb etməsi səbəbindən onunla bağlı daha obyektiv qərarın verilməsi üçün sözügedən məsələnin RK(b)P MK-də keçirilməsini zəruri hesab edirəm"*. Uzaqgörən dövlət xadimi N.Nərimanovun ədalətsizliyə qarşı ciddi müqavimət göstərməsi, qəti və prinsipial mövqe sərgiləməsi nəticəsində Qarabağ məsələsinə 1 gün sonra yenidən baxılır. RK(b)P MK-nın Qafqaz bürosunun 5 iyulda 1921-ci ildə keçirilən və İ.Stalinin, habelə xalq xarici işlər komissarı M.Hüseynovun da iştirak etdiyi plenumunda belə bir qərar qəbul edildi: *"Azərbaycanlılarla ermənilər arasında milli barışığın zəruriliyi, Qarabağın yuxarı və aşağı hissələri arasında iqtisadi əlaqələri, onun daim Azərbaycan ilə bağlı olması nəzərə alınmaqla, Dağlıq Qarabağ Azərbaycan SSR-in tərkibində saxlanılsın, inzibati mərkəzi Şuşa şəhəri olmaqla, ona geniş vilayət muxtariyyatı verilsin"* [10, s.39]. 4 nəfər bu qərarın lehinə səs verir, 3 nəfər bitərəf qalır. Həmin iclasda Dağlıq Qarabağa muxtariyyat verilməsi haqqında qəbul edilmiş qərarda deyilirdi: *AK(b)P Mərkəzi Komitəsinə tapşırılsın ki, Muxtar Vilayətin sərhədlərini müəyyənləşdirsin və RK(b)P Mərkəzi Komitəsinin Qafqaz bürosunun təsdiqinə versin* [9, s.12]. Əvvəlki qərarla müqayisədə bu qərar nisbətən obyektiv xarakter kəsb edirdi. Lakin, Dağlıq Qarabağa muxtariyyət verilməsi qərarı da Azərbaycan ictimaiyyətində haqlı olaraq narazılıq doğurdu. Bu səbəbdən də 1921-ci ilin avqustun 8-də AK(b)P MK-nın Siyasi və Təşkilat bürolarında L.Mirzoyan və Ə.Qarayevin "Qarabağda vəziyyət haqqında" məruzələri dinlənildi və Şuşa qəza partiya komitəsinin yeni tərkibi təsdiq edildi, Ə.Qarayevi Qarabağ üzrə fövqəladə müvəkkil təyin edildi. 1921-ci il sentyabrın 26-da AK(b)P MK Siyasi və Təşkilat bürolarının iclasında Qarabağ məsələsi müzakirə olunarkən belə bir qərar qəbul olundu: *"Qafqaz bürosundan xahiş edilir ki, Dağlıq Qarabağa muxtariyyat verilməsi haqqında qərara yenidən baxılsın və həmin vaxta qədər hələlik muxtariyyat elan edilməsin"* [3, s.73-74].

1921-ci ilin 10 dekabrında AK(b)P MK-nın Xəbərlərində dərc olunmuş "Qarabağ məsələsi" başlıqlı yazıda və bu məsələ ilə bağlı keçirilən yığıncaqlarda müəyyən edilmişdi ki, "Qarabağ məsələsi" deyilən məsələ yoxdur və bu, Azərbaycan sovet partiya rəhbərlərinin zəifliyindən yaranan lazımsız fikirdir [5, s.68]. Lakin L.Mirzoyan, Danilyan və d. başda olmaqla kommunist cildinə girmiş erməni daşnakları öz məkrli niyyətlərindən heç bir şəkildə əl çəkmək istəmirdilər. Ona görə də, Zaqafqaziya Federasiyasının (ZSFSR) təşkili ilə əlaqədar olaraq həlli bir müddətlik ikinci plana keçirilmiş Dağlıq Qarabağa muxtariyyət verilməsi məsələsi 1922-ci ilin oktyabrında SSRİ-nin təşkilinə hazırlıq getdiyi bir dönəmdə ermənilərin aktiv fəaliyyəti və Moskvanın köməyi ilə yenidən gündəmə

gətirildi. Oktyabrın 30-da AK(b)P MK Rəyasət Heyəti Qarabağa muxtariyyət verilməsi üzrə komissiya yaratdı. Bu komissiya S.Ağamalıoğlu (sədr), Karakazov və Sviridovdan ibarət idi [8, s.68-69].

***DQMV-nin təşkil olunması.*** 1922-ci il dekabrın 5-də RK(b)P Zaqafqaziya diyar komitəsində (ZDK) Dağlıq Qarabağ məsələsi müzakirə edildi və qərara alındı ki, Dağlıq Qarabağ məsələsi ilə bağlı Zaqafqaziya diyar komitəsinin sədri, 7 üzvü, habelə Şuşa, Cəbrayıl və Cavanşir qəzalarından 3 nəfər daxil olmaqla Dağlıq Qarabağ işləri üzrə Mərkəzi Komissiya yaradılsın. Bu qərara uyğun olaraq, 1922-ci ilin dekabrın 15-də AK(b)P MK Rəyasət Heyətinin S.Kirov, Ə.Qarayev, M.Bağırov, M.Qasımov, M.Xanbudaqov və R.Axundov iştirakı ilə keçirilən iclasında Qarabağa dair məsələyə yenidən baxılır. Bu dəfə məsələ RK(b)P ZDK-nin qərarı əsasında Azərbaycan SSR MİK və Azərbaycan SSR XKS-nin kommunist fraksiyaları və A.Karakozov tərəfindən qaldırılmışdı. İclasda 11 maddədən ibarət qərar qəbul edildi. Qərarda deyilirdi:

a) RK(b)P ZDK-nin qərarı icra üçün qəbul edilsin;

b) Azərbaycan SSR XKS yanında tərkibi Kirov, Mirzabekyan və Karakozovdan ibarət olan Dağlıq Qarabağ işləri üzrə komisiya təsdiq edilsin;

c) 7 nəfərdən ibarət Dağlıq Qarabağ işləri üzrə Komitə təsdiq edilsin. M.Karakozov komitənin sədri təyin olunsun [5, s.68-69].

Komitəyə tapşırılırdı ki, Dağlıq Qarabağ məsələsinin həlli sürətləndirilsin. Dekabrın 16-da Azərbaycan SSR MİK və XKS tərəfindən Mirbəşir Qasımov və Dadaş Bünyadzadənin imzası ilə Dağlıq Qarabağ haqqında qərar imzalandı. Qərarda göstərilirdi ki, Dağlıq Qarabağda bütün sferalar (sosial-iqtisadi, təsərrüfat, mədəni quruculuq) üzrə əhalinin ehtiyaclarının aşkarlanması məqsədilə Azərbaycan SSR MİK və XKS Şuşa şəhərində Qarabağ üzrə komitə yaradılmasını qərara alır. A.Karakozovun sədrlik etdiyi bu komitə 7 nəfərdən ibarət idi. Komitəyə zəruri məsələlərin həlli üçün Azərbaycanın müxtəlif bölgələri ilə sıx əlaqələr qurmaq hüququ verilirdi. Dekabrın 17-də AK(b)P MK-nın Rəyasət Heyəti və Azərbaycan SSR XKS "Dağlıq Qarabağ haqqında Azərbaycan MİK və XKS-nin layihəsi"ni təsdiq etdilər [10, s.41]. 1923-cü il yanvarın 2-də Dağlıq Qarabağ işləri üzrə yaradılmış Komitənin 3 nəfərdən ibarət tərkibi Azərbaycan SSR XKS tərəfindən təsdiq edilir. Beləliklə, L.Mirzoyan başda olmaqla ermənilər Dağlıq Qarabağla bağlı işləri son dərəcə məharətlə düzəldib onu sakitcə həyata keçirmək üçün işə başlayırlar. Məsələn, guya Dağlıq Qarabağda kadr çatışmazlığı səbəbindən 1923-cü il yanvarın 22-də S.Kirov və A.Karakozovun imzası ilə Ermənistan SSR KP MK-nın birinci katibi Aşot İoannisyana teleqram göndərilmiş və bir neçə erməni rəhbər işçini (Tavakelyan, Akopyan, Aydınyan, Vardanyan və s.) Qarabağda işləmək üçün göndərilməsinin təşkil edilməsi xahiş olunmuşdu. Əslində isə bütün bunlar erməni daşnaklarının əvvəlcədən təşkil edilmiş planlarının sadəcə olaraq bir hissəsi idi. Bundan az əvvəl isə Dağlıq Qarabağ məsələsinin tezliklə başa çatdırılması məqsədilə ermənilər daha bir tutarlı addım atmışdılar. Belə ki, L.Mirzoyan başda olmaqla ermənilərin gərgin fəaliyyəti və Azərbaycan SSR KP MK-nın birinci katibi S.Kirovun "xeyirduası" ilə N.Nərimanovun 1922-ci ilin dekabrında "təntənəli şəkildə yüksək vəzifəyə yola salınması" (əslində isə zərərsizləşdirilməsi) baş vermişdi [5, s.70]. Bununla da, Mirzoyanın Dağlıq Qarabağ Muxtar Vilayətini rəsmən elan etmək təşəbbüsünün reallaşdırılması işi daha rəvan gedirdi. Məsələ burasındadır ki, Azərbaycan SSR daxilində DQMV kimi qondarma bir qurumun yaradılması ölkə rəhbərliyini, ilk növbədə N.Nərimanovu qane etmirdi. Onlar anlayırdılar ki, belə bir qurum Azərbaycana gələcəkdə böyük fəlakətlər gətirəcəkdir. N.Nərimanov sonralar bu məsələ ilə bağlı İ.Stalinə ünvanladığı "Ucqarlarda inqilabımızın tarixinə dair" adlı məktubunda yazırdı: *"Dağlıq Qarabağ L.Mirzoyanın güclü təsiri altında Muxtar Vilayət elan edilmişdir. Mənim vaxtımda bu mümkün olmamışdır, ona görə yox ki, mən bu muxtariyyatın əleyhinə idim. Ona görə ki, erməni kəndlilərinin özləri bunu istəmirdilər"* [12, s.46].

1923-cü il iyunun 30-da RK(b)P ZDK-nin plenumunda Dağlıq Qarabağ işləri üzrə komissiyanın rəyi əsasında Qarabağ məsələsi yenidən edildi olundu və Dağlıq Qarabağ Muxtar Vilayətini yaradılması barədə qərar verildi. İyulun 1-də S.Kirov, L.Mirzoyan, Ə.Qarayev, Q.Musabəyov və R.Axundovun iştirakı ilə AK(b)P MK Rəyasət Heyətinin iclasında "Qarabağ haqqında" məsələyə baxılaraq bu barədə qərar qəbul edilirdi. Qərarda Azərbaycan SSR MİK-nə təklif olunur ki, Rəyasət Heyəti adından Xankəndi mərkəz olmaqla Dağlıq Qarabağda İcraiyyə Komitəsinin başçılığı ilə "Qa-

rabağ Muxtar Vilayəti" yaradılsın, həmin dekretdə göstərilsin ki, sərhəd və d. məsələlər xüsusi komissiya tərəfindən müəyyən ediləcək [2, s.97].

Nəhayət, 1923-cü il iyulun 7-də Azərbaycan SSR MİK qəti şəkildə "Dağlıq Qarabağ Muxtar Vilayətinin təşkili haqqında" dekret qəbul etdi. Həmin dekretdə deyilirdi: 1) Dağlıq Qarabağın ermənilər yaşayan hissəsində Azərbaycan SSR tərkibində Muxtar Vilayət yaradılsın, Xankəndi onun mərkəzi olsun; 2) Muxtar vilayətin idarə orqanları Vilayət İcraiyyə Komitəsi və yerli sovetlərdir [15, s.250]. Dekretə əsasən, Vilayət İcraiyyə Komitəsinin təşkil edilməsinə qədər Müvəqqəti İnqilab Komitəsi yaradıldı. Müvəqqəti İnqilab Komitəsinə tapşırılırdı ki, 2 aydan gec olmayaraq daimi icraiyyə orqanı seçmək üçün Sovetlər qurultayı çağrılsın. Dekretin 4-cü maddəsinə görə, Vilayətin əsasnaməsini hazırlamaq, habelə onun inzibati ərazi vahidlərini, sərhədlərini müəyyənləşdirmək üçün hakimiyyət orqanları nümayəndələrindən ibarət qarışıq komissiya yaratmaq tövsiyə edilirdi. Beləliklə, 1920-ci ildə Zəngəzuru ələ keçirməyə nail olan ermənilər bu torpaqların əsl sahiblərini yurd-yuvasından, el-obasından sıxışdırıb çıxararaq Moskvanın himayəsi sayəsində bu torpaqları Ermənistana birləşdirə bildikləri kimi, Dağlıq Qarabağı da bu yolla Ermənistana birləşdirmək planları baş tutmadıqda, hiyləgər bir şəkildə ona muxtariyyət verilməsinə nail ola bildilər. Azərbaycan XKS yanında Dağlıq Qarabağ işləri üzrə Komissiya "DQMV haqqında Əsasnamə"nin son variantını işləyib hazırladı. Əsasnamə bəzi dəyişikliklər edilməklə 1923-cü il iyulun 23-də RK(b)P MK-nın Rəyasət Heyəti tərəfindən təsdiq edildi. DQMV-də I Sovetlər qurultayının çağırılmasına qədər muxtar vilayətin idarəçiliyi Müvəqqəti İnqilab Komitəsinə həvalə olundu. Dekabrın 11-də "DQMV haqqında Əsasnamə"nin yenidən işlənməsi üçün AK(b)P MK-nın Rəyasət Heyəti tərəfindən Komissiya yaradıldı. 1924-cü ilin 3 iyulunda xüsusi komissiya tərəfindən hazırlanmış "DQMV haqqında Əsasnamə" RK(b)P MK-nın Rəyasət Heyəti və Azərbaycan MİK-nin Rəyasət Heyəti tərəfindən bəyənildi və həmin ilin noyabrın 26-da Azərbaycan, rus, və erməni dillərində mətbuatda dərc edildi. Əsasnamədə vurğulanırdı: *"DQMV Azərbaycan SSR-in tərkib hissəsidir. DQMV-də bütün kərgüzarlıq, məhkəmə və məktəblərdə tədris ana dilində aparılır".* Əsasnamədə DQMV-yə daxil olan ərazilər, yerli hakimiyyət orqanlarının təşkili formaları, hüquq və vəzifələri göstərilirdi.

Vətənimizin tarixən ayrılmaz tərkib hissəsi olan Qarabağın dağlıq hissəsinə muxtariyyətin verilməsi və onun ətrafında yaranan məsələlərə münasibəti Azərbaycan SSR KP MK-nın birinci katibi S.Kirov AK(b)P-nın VI qurultayındakı çıxışında belə yekunlaşdırırdı: *"Bizim bu sahədə ən böyük və nəzərəçarpacaq nailiyyətimiz budur ki, "Qarabağ məsələsi" adlanan məsələni tam olmasa da, xeyli dərəcədə nəhayət ki, həll edə bildik və şübhəsiz, tamamilə düzgün iş gördük. Bu məsələni yenidən həll etməyə qayıtmayacağımıza heç bir şübhə yoxdur"* [10, s.45]. Sovet Azərbaycanının ilk "birinci katibi" kimi tanınan Kirovun bu nitqini nəzərdən keçirərkən xalqımıza qarşı əsl xəyanət və fitnəkarlıq aşkara çıxır. Ümumiyyətlə, sözügedən dövrdə Kirov, Mirzoyan və s. kimi simasız sovet partiya-dövlət rəhbərləri, erməni millətçilər öz məkrli və hiyləgər siyasətlərini işə salaraq DQMV kimi bir qondarma qurumun yaradılmasma nail olmaqla Azərbaycan dövlətinin və xalqının mənafeyinə, gələcəyinə ağır zərbə vurdular və bu saxta qurumdan sonrakı dövrlərdə öz məqsədləri naminə bir silah kimi istifadə etdilər.

***Nəticə.*** Beləliklə, DQMV-nin təşkil olunması ilə XX əsrin ilk onilliklərindəki Qarabağ problemi yekunlaşdı. Dağlıq Qarabağın Azərbaycan SSR tərkibində qalması Azərbaycanın öz torpaqlarının qorunması uğrunda müvəffəqiyyəti kimi xarakterizə edilsə də, muxtar statusun verilməsi gələcəkdə ermənilərin Azərbaycana qarşı məkrli ərazi iddiası siyasətinin istinad nöqtəsinə çevrildi. DQMV-nin meydana gəlməsi erməni millətçiləri və milli təşkilatlarının, Ermənistan hökumətinin çoxdankı planı və vahid xətt əsasında həyata keçdiyi "parçala və hökm sür" siyasətinin nəticəsi və davamı idi. XX əsrin əvvəllərində başlanan bu siyasət DQMV yarandıqdan sonra da dayanmamış, əksinə yüksələn xətt üzrə davam edərək, əsrin sonlarına yaxın torpaqlarımızın 20%-nin işğal edilməsi, xalqımızın 1 milyondan çox nümayəndəsinin öz doğma yurdundan didərgin düşərək qaçqın və məcburi köçkünə çevrilməsi ilə nəticələnmişdi.

## ƏDƏBİYYAT

1. Azərbaycan tarixi 7 cildlik. VI cild. Bakı, "Elm", 2008, 568 s.
2. Əliyev İ. Dağlıq Qarabağ: tarix, faktlar, hadisələr. Bakı, "Elm", 1989, 120 s.
3. Hacıyev N. Dağlıq Qarabağın tarixindən sənədlər. Bakı, "Gənclik", 2005, 192 s.

4. İmanov R. Azərbaycanın ərazi bütövlüyünə qəsd – qondarma Dağlıq Qarabağ Muxtar Vilayəti. Bakı, "Adiloğlu", 2005, 260 s.
5. İmanov R. Qondarma Dağlıq Qarabağ Muxtar Vilayətinin yaranması tarixindən. Bakı, AzTU mətbəəsi, 2006, 230 s.
6. Köçərli T. Yaddan çıxmaz Qarabağ. Nəqşi-Cahan Naxçıvan. Bakı, "Elm", 1998, 462 s.
7. Qasımlı M. Dağlıq Qarabağ Muxtar Vilayətinin yaradılması: tarixi gerçəklik nədir? Diplomatiya aləmi, №43, 2016, s.114-144.
8. Qasımlı M. Ermənistanın sovetləşdirilməsindən Azərbaycan ərazilərinin işğalınadək erməni iddiaları: tarix – olduğu kimi (1920-1994-cü illər). Bakı, "Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondu", 2016, 520 s.
9. Quliyev C. Dağlıq Qarabağın yaranması tarixi // Azərbaycan SSR EA Xəbərləri, №3, 1973, s.12.
10. Məmmədov N. Azərbaycan SSR-in Dağlıq Qarabağ Muxtar Vilayətində ictimai-siyasi həyat, iqtisadi və mədəni inkişaf (1923-1991). Bakı, "Təhsil", 2008, 568 s.
11. Musa İ. Azərbaycan beynəlxalq münasibətlər sistemində (mart 1917 - aprel 1920-ci illər). Bakı, "Bakı Universiteti", 2011, 312 s.
12. Nərimanov N. Ucqarlarda inqilabımızın tarixinə dair. Bakı, "Azərnəşr", 1992, 80 s.
13. Paşayev A. Açılmamış səhifələrin izi ilə. Bakı, "Azərnəşr", 2001, 536 s.
14. Paşayev A. Köçürülmə. Bakı, "Azərnəşr", 1995, 31 s.
15. Seyidova S. Ermənilərin işğalçı fəaliyyətlərinin nəticəsi olaraq Dağlıq Qarabağ Muxtar Vilayətinin yaradılması // Avrasya İncelemeleri Dergisi, № 11, 2022, s.241-255.
16. К истории образования Нагорно-Карабахской автономной области Азербайджанской ССР. 1918 - 1925: Документы и материалы. Баку, «Азернешр», 1989, 334 с.

**NURIDA ALIYEVA**
*2nd year master student of Western Caspian University*
*in the specialty "History of the Caucasian peoples"*

## HOW WAS THE NAGORNO-KARABAKH AUTONOMOUS OBLAST ESTABLISHED?

In the article, the aim and result of the creation of the Nagorno-Karabakh Autonomous Oblast (NKAO) on the territory of Azerbaijan is studied in the historical and political context, and this issue is evaluated as a result of the occupation activities of the Armenians. In 1918-1920, the Armenian Dashnaks, who fought over territorial claims with the Azerbaijan Democratic Republic, became more active with the help of their Bolshevik patrons to implement their insidious policies after the establishment of the Soviet government in Azerbaijan. Although the Armenians could not capture Karabakh during this period, the granting of autonomy to the few Armenians living in Karabakh and the creation of the NKAO made the Armenians even more ambitious for the lands of Karabakh in later periods. Armenian nationalist forces, supported by the Moscow, expanded their expansionist activities to capture the Nagorno-Karabakh region of Azerbaijan at the end of the 20th century, which resulted in the occupation of 20% of our lands.

*Keywords:* Azerbaijan SSR, Armenian SSR, Karabakh, NKAO, autonomy.

*Daxil olma tarixi*: 20.04.2024-cü il.
*Çapa imzalanma tarixi*: 10.05.2024-cü il.

UOT 94

**SƏBİNƏ ƏLƏKBƏROVA**
*Bakı Dövlət Universiteti*
*SABAH fakültəsinin tarix müəllimliyi üzrə III kurs tələbəsi*
**sabinalakbarova7@gmail.com**
ORCID ID :0009-0007-3645-7802

# OSMANLIDA QADINLAR SƏLTƏNƏTİ

*Elmi rəhbər:*
tarix üzrə fəlsəfə doktoru Sevinc Ruintən

*Məqalədə Osmanlı dövlətində XVI əsrin ortalarından başlayaraq növbəti əsri də əhatə edən Qadınlar səltənəti haqqında məlumat verilir. Qadınlar hakimiyyətdə necə oldu ki, üstün mövqe tutmağa, dövlətin siyasi həyatına müdaxilə etməyə başladılar, sultanların bu dövrdəki mövqeyi kimi məsələlər məqalə vasitəsilə araşdırılır. Eyni zamanda Qadınlar səltənətinin görkəmli nümayəndələri olan Validə Sultanlara[*], Haseki Sultanlara[**] dair məlumatlar əks olunur.*

*Açar sözlər*: Qadınlar səltənəti, Hürrəm Sultan, Nurbanu Sultan, Safiyə Sultan, Handan Sultan, Halime Altunşah Sultan, Mahpeyker Kösem Sultan, Hatice Turhan Sultan.

***Giriş.*** Tarixi ədəbiyyata “Qadınlar səltənəti” anlayışını 1916-1923-cü illərdə nəşr etdirdiyi 4 cildlik “Qadınlar səltənəti” adlı araşdırma ilə Ahmet Refik Altınay gətirmişdir. Dövrə “Qadınlar səltənəti” deyilməsinin səbəbi, Osmanlı sarayındakı nüfuzlu qadın sultanların dövlət işlərində istər gizli, istərsə də açıq şəkildə iştirak etmələri ilə bağlı olmuşdur. Ahmet Refik Altınay, həmçinin bir sıra digər müəlliflər qadınlar səltənətini Osmanlının tənəzzül səbəblərindən biri hesab edirlər. Qadınlar səltənəti Sultan Süleymanın hakimiyyəti dövründən başlamış, onun ölümündən sonra Osmanlı dövlətində baş verən durğunluq dövrü nəticəsində isə daha da inkişaf etmişdir. Ya da əksinə, qadınların hakimiyyətə qarışmaları bərabərində durğunluq dövrünü də gətirmişdir. Dövr Hatice Turhan Sultanın sarayda etdiyi nizam-intizam işləri nəticəsində sona çatmışdır.

***Qadınlar səltənətinin meydana çıxma səbəbləri.*** Osmanlı tarixi araşdırmaçıları bu dövrün meydana çıxma səbəblərindən biri kimi sultanların artıq ordu ilə birlikdə səfərlərə çıxmamasını qeyd edirlər. Belə ki, Sultan Süleymandan (1520-1566) sonrakı sultanlar artıq savaşlarda özləri iştirak etmir, yerlərinə ya baş vəziri, ya da vəzirlərdən birini göndərirdilər. Savaşa qatılmayan sultanlar vaxtlarını daha çox sarayda keçirirdilər. Onların sarayda bu qədər vaxt keçirməsinin səbəblərindən biri kimi cariyələr, saray həyatının cazibəsi, rahatlıq göstərilir. ABŞ tarixçisi Pierce bu səbəblərin doğru, amma əksik olduğunu vurğulayır. Pierce qeyd edir ki, Süleymandan sonrakı sultanlar dövləti böyütməkdənsə, daha çox qoruma tərəfdarı olmuşdular, onlar “saray sultanı” imici yaratmaq istəyirdilər [1, s.232-233]. Fikrimcə də, sultanların sarayda qalmalarını sırf onların saray həyatının cazibəsinə bağlamaq düz olmazdı. Sultanlar saraydan çıxmadığı üçün sarayda yaşayanlar ona yaxın olmağa, onun tərəfindən dəyər görməyə və sultan vasitəsilə üstün olmağa çalışır, bu da sarayda müəyyən çaxnaşmalara səbəb olurdu.

---

[*] *Validə Sultan – Osmanlı Sultanlarının hakimiyyətdə olduqları zamanda analarına verilən ad. Mənbələrdə “valide-i padişah”, “valide-i saadetpenah”, “mehd-i ulya-yi saltanat” formasında da işlədilmişdir. 36 Osmanlı Sultanı 34 ananın övladı olmuşdur ki, onlardan da yalnız 21 nəfəri Validə Sultan ola bilmişdir. Digər 13-ü övladları Sultan olmadan dünyasını dəyişmişdir. İlk Validə Sultan Orxan Qazinin anası Malhun Xatun, son Validə Sultan II Əbdülhəmidin mənəvi anası Rahime Perestü Sultan olmuşlar.* – Ali Akyıldız. Valide Sultan // İslam Ansiklopedisi. Cilt: 42. İstanbul, TDV, 2012, s.494. - https://cdn2.islamansiklopedisi.org.tr/dosya/42/C42013781.pdf

[**] *Haseki Sultan – ərəb və fars sözlərinin qarışığı olan “haseki” – “yaxın dost (arkadaş), özəl söhbət arkadaşı” mənasını verir. Osmanlı dövlətində hasekiler 3 qrupa ayrılırdılar: hərəmdə olan hasekiler, yəni qadın hasekilər; həmçinin Bostançı ocağında və Yeniçəri ocağında olan hasekilər. Hərəmdə olan qadın hasekilər padşahlarla münasibətləri olan cariyələr idilər. Padşahın ən yaxın cariyəsi, şahzadə dünyaya gətirən cariyələrə “Hünkar Hasekisi” deyilirdi. 1534-cü ildə Sultan Süleymanla nikahla evlənən Hürrəm Sultanın “Haseki” ünvanı “Haseki Sultan” olaraq dəyişdirildi və geniş mərasimlə qeyd edildi.* – Abdulkadir Özcan. Haseki // İslam Ansiklopedisi. Cilt: 16. İstanbul, TDV, 1997, s.368-369. - https://cdn2.islamansiklopedisi.org.tr/dosya/16/C16005652.pdf

Digər bir səbəb kimi isə, qəfəs sisteminin yaranması göstərilir. Bu sistemi tətbiq edən I Əhməd (1603-1617) olmuşdur. O, Osmanlı vərasət sistemində "Əkbər və Ərşad" (Ekber ve Erşed) sistemini yaradır ki, buna əsasən hakimiyyət atadan böyük oğula keçməyə başlayır. Bununla da şahzadələr sarayda "qəfəs" adlandırılan otaqlarda yaşamağa başlayırlar. Qəfəs sisteminin yaranması ilə daha yaşlı və təcrübəli oğul hakimiyyətə gəlirdi ki, burada da artıq hasekilər önəmli rol oynamağa başlayır. Hər bir haseki ilk oğul övladın ondan olmasına, bundan da əlavə onu qorumağa və onun vasitəsilə Validə Sultan olmağa can atırdı [2, s.45-49].

Ən önəmli səbəblərdən bir digəri isə hərəmxananın artan dəyəri idi. III Muradın (1574-1595) hərəmxanadan heç çıxmaması hərəmin nüfuzunu artırmağa başlayır. Çoxlu cariyələrin bura axını qadınların da nüfuzunun yüksəlməsinə səbəb olur. Onlar sultanla yaxınlıqdan bütün vasitələrlə istifadə edir, lazım gəldikdə onlara məsləhətlər də verirdilər. Sultanların hərəmxanaya artan ziyarətləri buradakı qadınların nüfuzunu qaldırdığı kimi, dövlətin önəmli adamlarının da nüfuzunu aşağı salırdı [3, s.151-153].

Səbəblərdən bir digəri isə, rüşvətin baş alıb getməsi idi. Əslində bu hərəmxananın nüfuzunun artması ilə paralellik təşkil edirdi. Sultan tərəfindən daha çox sevilən cariyələr sultandan aldıqları bahalı hədiyyələri öz ətraflarına adam yığmaqda istifadə edirdilər. Bir cariyə Sultan tərəfindən nə qədər çox dəyər görərdisə, ətrafına o qədər çox adam yığardı ki, bu adamlar da təbii olaraq, dövlət işlərində önəmli rol oynayan şəxslərə çevrilirdilər [4, s.22-23].

Fikrimizcə, Osmanlı sultanların artıq türk qızları ilə deyil, xarici mənşəlli cariyələrlə ailə həyatı qurması və ya yaxınlaşması ən önəmli səbəblərdən biri olmuşdur. Osmanlı evlilik sisteminin dəyişməsi dövlətin siyasi həyatına da kifayət qədər təsir etmişdir. Əslində bunun da özünün də səbəbləri var idi. Belə ki, artıq Osmanlı dövləti çox böyük bir güc halına gəlmişdi və digər sülalələrin qızlarını özlərinə layiq görməyən sultanlar onlarla evlənmək istəmirdilər. Bundan da əlavə toylar çox baha başa gəldiyi üçün onlar qadınları nikaha almaq istəmirdilər. Doğrudur, Fatih Sultan Mehmeddən sonra bunu edən bir neçə sultan var idi ki, onlar da istisna idilər [4, s.23-25].

***Qadınlar səltənətinin sultanları*[*].** Bəzi müəlliflər Qadınlar səltənətinin Sultan Səlim Yavuzun (1512-1520) həyat yoldaşı, Sultan Süleymanın (1520-1566) anası Ayşe Hafsa Sultanla başladığı fikrini irəli sürsələr də, hətta onlar da qeyd edirlər ki, onun dövründə qadınlar səltənətinin sadəcə ilk izlərini müşahidə etmək mümkündür. Qadınlar səltənəti bir dövr olaraq Hürrəm Sultanla başlamışdır.

| | | | | |
|---|---|---|---|---|
|  |  |  |  |  |
| *Hürrəm Sultan* | *Safiyə Sultan* | *Handan Sultan* | *Kösem Sultan* | *Hatice Turhan Sultan* |

Qərb tarixçiləri tərəfindən Roksalana, Roza, Rossa, Rosanne, Ruziac və La Rossa, Osmanlı tarixçiləri tərəfindən Haseki və **Hürrəm Sultan** deyə tanılan bu qadın, Osmanlı tarixinin ən məşhur simalarından biridir [5, s.60]. Hürrəmin bu qədər güclü olması, dövrü başladan şəxs olması, ilk növbədə onun ağlından, sonra isə gözəlliyindən və Sultan Süleymanı öz təsir dairəsində saxlamasından asılı olmuşdur. Hürrəm Sultan bu dövrdə Qanuninin məsləhətçisinə, həmişə məşvərət etdiyi şəxsə çevrilmişdi. Kölə bir cariyə ikən azad olunub sultanın həyat yoldaşı olması onun daha da güclənməsinə, hakimiyyət sevgisi ilə dolub-daşmasına səbəb olur. Osmanlı tarixində Hürrəmin birbaşa və ya dolayı yolla səbəb olduğu hadisələr sırasında Sultan Süleymanın sevimli Baş vəziri Parqalı İbrahim paşanın öldürülməsi,

[*] *Yalnız rəsmlərini əldə edə bildiyimiz Sultanların şəkilləri verilib.* - Müəllif.

oğlu Mustafanın edamını nümunə gətirə bilərik. Bundan əlavə Hürrəm Sultan övladlarından da çox yaxşı istifadə etməyi bacarırdı. Ailə ittifaqlarına arxalanan Hürrəm Sultan gələcəkdə özünə yardım edəcəyi baxımından Rüstəm paşanı qızı Mihrimah Sultanla evləndirmişdi [4, s.32-33].

Dövrün növbəti və ilk Validə Sultanı Nurbanu olmuşdur. II Səlimin (1566-1574) baş hasekisi olan və əsl adının Raşel olduğu düşünülən bu qadın bəzi tarixçilərə görə yəhudi, bəzilərinə görə isə italyan əsillidir [5, s.68]. III Muradın da anası olan **Nurbanu Sultan**, həm II Səlimin, həm də III Muradın hakimiyyəti dövründə (1574-1595) dövlət işlərində, o cümlədən də hərəmxanada çox üstün mövqe tutmuşdur. II Səlimin səfərlərə getməyərək sarayda vaxt keçirməsi, oğlu III Muradın isə qadınlara söz keçirə bilməyəcək mövqedə olması və qadınlara olan məhəbbəti Nurbanu Sultanın işini çox asanlaşdırırdı. Validə Nurbanu Sultan səltənəti dövründə bir sıra yeniliklər etməyi bacarmışdı. Ona qədər heç bir padşah anası Validə adlanmırdı. Nurbanu Sultan isə bunu dəyişir ki, bununla da Validə Sultanların saraydakı nüfuzu və mövqeyi qəti olaraq möhkəmlənir. Həmçinin, artıq Validə Sultanların Yeni Sarayda yaşamağa başlaması Nurbanu və özündən sonrakı sultanların dövlət işinə yaxından müdaxiləsinə şərait yaradırdı [1, s.260-263].

Nurbanu Sultanın gəlini və əzəli rəqibi **Safiyə Sultan** qadınlar səltənətinin bir digər nümayəndəsidir. Xarici tarixçilərin Baffo, türk tarixçilərinin Safiyə Sultan adlandırdıqları bu qadın əslən Venesiyalı Baffo ailəsindəndir. Türk piratları tərəfindən oğurlanaraq II Səlimin (1566-1574) Manisa sancağından olan oğlu şahzadə Murada təqdim edilmişdi [5, s.71-72]. Səltənətinin ilk illərində qayınanası Nurbanu Sultanla yolları kəsişsə də, onunla mübarizə aparmağı bacarmış, "Mehdi Ulyâ veya Mehdi Ulyây ı Saltanat" olan Nurbanu Sultanın ölümündən sonra isə saraydakı işləri əlinə almışdı.

Safiyə Sultan III Muradın (1574-1595) cariyələrlə keçirdiyi vaxtdan səmərəli istifadə etmiş, səltənətini möhkəmləndirməyi bacarmışdı. III Muradın ölümündən sonra taxta çıxan oğlu III Mehmedin dövründə (1595-1603) onun validəsi olaraq da oğlunu bir növ özündən asılı hala salmış, övladının onun sözündən çıxmamasını təmin etmişdi. Belə ki, III Mehmedə oğullarından hər hansısa birinə xüsusi status verməsini qadağan etmişdi. Bununla da, Validə Sultan öz nüfuzunu başqa bir qadınla paylaşmayacaq, oğlunun da hakimiyyətini güvən altına alacaqdı [1, s.146]. Hakimiyyət gücü Safiyə Sultanı o qədər zəhərləmişdi ki, bundan imtina etmək istəməyən sultan, nəvəsi Mahmudun edamına səbəb olmuşdu. Lakin hakimiyyətə gələn I Əhməd (1603-1617) onun səltənətinin sonunu gətirmiş və Safiyə Sultanı Köhnə saraya göndərmişdi.

Qadınlar səltənətinin növbəti sultanı **Handan Sultan** olmuşdur. III Mehmedin baş hasekisi olan Handan Sultan 1603-cü ildə onun vəfatından sonra I Əhmədin Validə Sultanı olur [7, s.77]. Handan Sultan səltənətə başlayanda sarayda bir digər əhəmiyyətli güc Safiyə Sultan idi. Əgər səltənətin tək sahibi olmaq istəyirdisə, mütləq onu saraydan göndərməli idi və Handan Sultan oğlu I Əhmədin əli ilə bunu bacararaq, Safiyə Sultanı Köhnə saraya göndərir. Safiyə Sultan və tərəfdarları burada çox güclü şəbəkə yaratmışdılar. Handan Sultan həm özünün, həm də oğlunun hakimiyyətinin güvənliyi üçün bu tərəfdarları da saraydan uzaqlaşdırmış, güvəndiyi və xüsusilə də öz millətindən olan şəxsləri saraya gətirmişdi. Handan Sultan ölümünə qədər dövlət işlərində fəal rol oynamışdı. I Əhmədlə vəzirləri arasındakı kilid rol məhz o olmuşdur, belə ki, padşahla danışmaq istəyən vəzirlər belə mütləq onun icazəsini almalı idilər [6, s.81].

Əslində Kösəm Sultanın əli ilə səltənət sahibəsi olan, xəstə oğlu Mustafadan öz işləri üçün istifadə etməyi bacaran və dövrə öz adını yazdıran bir digər sultan **Həlimə Altunşah Sultan** olmuşdur. Öncə onu bildirmək lazımdır ki, Həlimə Sultanın gerçək adı, mənşəyi haqqında dəqiq məlumat yoxdur. Adının Həlimə Sultan olduğu 1878-ci il tarixli əlyazmada qeyd olunur ki, bunu da başqa qaynaqlarla yoxlamaq mümkün deyil. Həlimə Altunşah Sultan III Mehmedin hasekilərindən biri olmuşdur. I Mustafanın (1617-1618, 1622-1623) 1622-ci ilə qədər yaşadığı bilinən, ancaq haqqında çox az şey məlum olan və adının Həlimə olması təxmin edilən anası, həmçinin şahzadə Mahmudun da anası olduğu bildirilir [7, s.58].

I Əhmədin vəfatından sonra hakimiyyəti öz əlində saxlamaq istəyən **Kösəm Sultan** taxta Mustafanı çıxarır. I Mustafa xəstə olduğu üçün saraydakı bütün idarəçilik Həlimə Altunşahın əlində cəmləşir. I Mustafa ilk dəfə hakimiyyətdən uzaqlaşandan sonra II Osman gəlir (1618-1622). Səltənəti əldən vermək istəməyən Həlimə Sultan II Osmana qarşı çıxan üsyanda fəal rol oynamış, yeniçəri ağalarının

yanında üsyana rəhbərlik etmiş və istədiyinə nail olaraq yenidən I Mustafanı və özünü taxta çıxartmışdır (1622-1623). İkinci səltənəti dövründə də oğlunun xəstələyindən lazımınca istifadə etmiş, vəzifələrə təyin etmələr və uzaqlaşdırmalar həyata keçirmişdir. Həlimə Altunşah Sultan bir neçə yanlış addımlarla dövləti təhlükəyə atmış, bu da oğlu Mustafanın yenidən qəfəsə göndərilməsinə, özünün isə hakimiyyətinin sonuna səbəb olmuşdu.

Fikrimcə dövrün ən güclü qadınlarından, hakimiyyət istəyi ilə dolub-daşan, bu uğurda yaxınlarını fəda edən Mahpeyker Kösəm Sultan qadınlar səltənətinə adını qızıl hərflərlə yazdırmışdır. Özünə Mahpeyker adı verilsə də, daha çox "Kösəm Sultan" adı ilə tanınırdı. Bir keşişin qızı olduğu qəbul edilsə də, rum və ya bosniyalı olduğuna dair şübhələr də vardır [5, s.79-80].

Yuxarıda qeyd edildiyi kimi, I Mustafanın taxta çıxmasında mühüm rol oynamış, II Osman taxta çıxdıqdan sonra bir az gözləməli olsa da, nəhayət IV Muradın hakimiyyətə gəlməsi ilə (1623-1640) sarayda hökmranlığını başlatmış olur. 11 yaşlı IV Muradın naibəsi olduqdan sonra Kösəm Sultan dövlətdə önəmli rol oynamağa başlamış, vəzifələrə təyin etmələr və uzaqlaşdırmalar həyata keçirmişdir. IV Murad hakimiyyətə gəldikdən sonra bütün qardaşlarını öldürsə də, Kösəm Sultan digər oğlu İbrahimin edam olunmasına razılıq vermir. Çünki öz səltənətini təhlükəyə ata bilməzdi. IV Murad öləndən sonra taxta İbrahim çıxır ki (1640-1648), bununla da Kösəmin ikinci səltənət dövrü başlayır [4, s.99].

Kösəm Sultan bu dövrdə çox güclü rüşvət şəbəkəsi yaratmışdı. Bu şəbəkə nəticəsində onun səltənəti təhlükəyə düşür. Bundan sonra Kösəm Sultan qarşısına çıxan 2 yoldan birini seçməli idi: ya səltənəti sona çatmalı, ya da oğlu İbrahimin ölümünə səbəb olacaqdı. Hakimiyyəti çox sevən bu qadın, təbii ki, ikinci yolu seçir və I İbrahimin hakimiyyətinə son verəcək üsyanı başladır [4, s.110-111].

Hakimiyyətə IV Mehmedin gəlişi ilə (1648-1687) Mahpeyker Sultan yenə naibə olur və dövlət işlərində öz üstünülüyünü qoruyub saxlamağı bacarır. Amma Kösəm Sultanın da səltənəti çalxantılı dönəminə yaxınlaşırdı. Bu səbəbdən də nəvəsi IV Mehmedin ölümünə təşəbbüs edir. Lakin bunun üstünün açılması, Turhan Sultan və tərəfdarlarının Mahpeyker Kösəm Sultana qarşı çıxmasına və nəticədə, ölümünə səbəb olur [4, s.122-123].

Qadınlar səltənətinin sonuncu siması isə **Hatice Turhan Sultan** olmuşdur. Sultan İbrahimin hasekisi, IV Mehmedin anasıdır. 1627-ci ildə Rusiyada anadan olmuşdur. 12 yaşında əsir düşür və Kör Süleyman Paşa tərəfindən Kösəm Sultana hədiyyə olunur. Kösəm Sultan da onu tez bir zamanda saraya uyğun şəkildə tərbiyə etmiş, oğlu İbrahimi məmnun etmək üçün ona hədiyyə etmişdir [5,s.93].

Kösəm Sultan öldürüləndən və Hatice Turhan Sultan IV Mehmedin naibəsi olduqdan sonra dövləti dirçəltmək üçün müəyyən işlər görür. Turhan Sultan Osmanlı səltənətini və gücünü özü üçün deyil, dövlət üçün istifadə edir. Bu yolda etdiyi ən böyük addım da Köprülü Mehmet paşanı vəzir təyin etmək olur. Köprülü vəzifəni qəbul etmək üçün 4 böyük şərt irəli sürür. Validə Sultan Köprülü Mehmet Paşanın dövləti yenidən dirçəldəcəyini düşündüyü üçün onun şərtlərini qəbul edir [9, s.210-212]. Hatice Turhan Sultan düşünürdü ki, qadınların nüfuzu və təsiri davam etdikcə Osmanlıda sakitlik olmayacaq. Buna görə də Köprülü Mehmet Paşa sarayın çölünü nizama salanda, özü də hərəmxananı nizama salmışdı. Artıq ondan sonra gələcək olan Validə Sultanlar və hasekilər əsla hakimiyyətə əl uzatmayacaq, dövlət işlərinə qarışmayacaqdılar. İmperiya daxilində yaratdığı nizam o qədər qüvvətli olacaqdı ki, heç bir zaman pozulmayacaq və "Qadınlar səltənəti" bir daha baş verməyəcəkdi [4, s.132].

Bir sıra tarixçilərin fikrincə Osmanlı tarixində qadınlar səltənəti Mahpeyker Kösəm Sultanın ölümü ilə sonuna yaxınlaşır. Hatice Turhan Sultanın özündən əvvəlki sultanlar kimi intriqalara qoşulmaması, dövlətin dirçəldilməsinə çalışması, hərəmxanada nizam-intizam yaratması "Qadınlar səltənəti" adlı kitabı bir daha açılmamaq üzrə bağlayır.

***Qadınlar səltənəti Validə Sultanlarının Osmanlı diplomatiyasında rolu.*** Nurbanu və Safiyə Sultanların dövründə Osmanlı dövlətinin xarici dövlətlərlə əlaqələri genişlənmişdi. Ümumiyyətlə Osmanlı dövlətində qadınlar da diplomatiya prosesinə qoşula bilirdi. Avropa elçilərinin XVI əsrdən sonra İstanbula səfərlərinin artması Osmanlı saray qadınlarının bu işə yaxından cəlb olunmasına şərait yaratmışdı. Bəhs edilən dövrdə qadınlar səltənətinin görkəmli nümayəndələri olan Nurbanu və Safiyə Sultanlar İngiltərə, Fransa və Venesiya ilə qarşılıqlı əlaqələr qurmağı bacarmışdılar. Dövlətlərin bir-birlərinə göndərdikləri məktublar və hədiyyələr onlar arasındakı qarşılıqlı əlaqəni, bu əlaqənin qorunmasına və normal xətlə inkişafına yönəlmişdi.

Bu dövrdə İngiltərə ilə İspaniya arasında vəziyyət gərgin idi. İngiltərə kraliçası I Yelizaveta (Elizabeth) özünə müttəfiq axtarırdı ki, bunun üçün də ən uyğun dövlət Osmanlı idi. İngiltərə kraliçası təkcə padşahla yox, padşahın anası Nurbanu Sultan və hasekisi Safiyə Sultanla da əlaqələr yaratmağa çalışır, onlara bir-birindən dəyərli hədiyyələr göndərirdi [4, s.74].

Safiyə Sultanın İngiltərə ilə əlaqələri daha güclü olmuşdur. Məhz onun səltənəti dövründə -1583-cü ildə- İngiltərə konsulluğu qurulmuş və qısa zaman ərzində böyük uğurlar əldə edilmişdi. Kraliça Yelizaveta da Safiyə Sultanın dövlətdə və oğlu III Mehmedin üzərində söz sahibi olduğunu bilirdi. Bu səbəbdən də, İspaniyaya qarşı mübarizədə Validə Sultanla olan əlaqələrə xüsusi diqqət yetirir, ona çoxlu hədiyyələr və məktublar göndərirdi. Məktublar, əsasən qarşılıqlı olaraq göndərilən hədiyyələr haqqında məlumatlardan ibarət olsa da, əslində bu hədiyyələrlə iki dövlət bir-birlərinə sahib olduqları güc haqqında məlumat verirdi. Artıq iş elə yerə gəlib çatmışdı ki, xarici dövlətlər və onların buradakı nümayəndələri sultanın razılığı olmadan heç bir iş görmürdülər [1, s.310-312].

Fransa dövləti ilə əlaqələrdə isə Nurbanu Sultan fəal rol oynamışdır. Fransa kralı III Henrinin anası və naibəsi kraliça Yekaterina Mediçi (Catherine de Medicis) ilə olan yazışmaların əsas məqsədi iki dövlət arasındakı əlaqələrin normal xətlə inkişafını təmin etmək olmuşdur. Hətta kraliçanın yazdığı məktublardan birində 1536-ci il kapitulyasiyalarının yenilənməsinə dair xahişlər əks olunmuşdu [1, s.314].

Həm Nurbanu, həm də Safiyə Sultanın Venesiya ilə olan əlaqələri dəyişməmiş, daim, gizlidən də olsa onlar bu dövləti dəstəkləmişdilər. Bu dövrə aid Venesiya elçilərin yazdıqları hesabatlarda bu açıq şəkildə nəzər çarpır. Onların hər ikisi yaşadıqları müddətcə Venesiyaya savaş açılmasının qarşısını almışlar. Hər iki Sultanın Venesiyanı bu qədər sevməsi isə onların soy-kökü ilə bağlı olmuşdur [1, s.307-309].

Həm Nurbanu Sultan, həm də Safiyə Sultanın xarici əlaqələrdə bu qədər aktiv olmasının isə bir sıra səbəbləri var idi. Bunlardan ilki, Avropa dövlətləri ilə yüksək səviyyəli və dinamik əlaqələrin başlamasının məhz onların dönəminə təsadüf etməsidir. Digər bir səbəb isə, bəhs olunan dövrdə Avropada da hakimiyyətdə güclü qadınların olması idi. İngilərə kraliçası I Yelizaveta, Fransa kraliçası Yekaterina Mediçi də dövrün Validə Sultanları kimi gücü sevən, hakimiyyət idarəçiliyini öz əllərində tutan qadınlar olmuşdular. Bir başqa səbəb isə, III Murad və III Mehmedin bu qadınların təsir dairəsində olması və onların da bundan istifadə edərək güclü nüfuz qazanmasıdır [1, s.307].

***Qadın Sultanların xeyriyyəçilik fəaliyyətləri.*** Qadınlar səltənəti dövrü Osmanlı tarixində nə qədər dövləti zəifldən, saraydakı özbaşınalığın artdığı bir dönəm olaraq bilinsə də, dövrün Validə və haseki sultanları müəyyən xeyriyyəçilik işlərində də rol oynamışlar. Edilən bu xeyriyyə işləri əsasən məscid, mədrəsə və s. tipli tikililəri əhatə edib, simvolik məna olaraq da sultanların güclərini əks etdirirdi. Tikili nə qədər böyük, nə qədər göstərişli olardısa, onu tikdirən sultanın da həm xalq, həm də saraydakı nüfuzu bir o qədər artardı.

Validə Nurbanunun dönəmindən başlayaraq Validə Sultanlar paytaxtda iki minarəli məscidlər tikdirirdilər. Bu zamana qədər bu məscidlərin paytaxtda tikilməsi ancaq sultana məxsus idi. Ancaq Nurbanu Sultanın bu imtiyazı alması bir növ onun dövlətdə və oğlu üzərindəki nüfuzunu əks etdirir [1, s.262].

Turhan Sultan isə Çanaqqala boğazının hər iki tərəfində qala inşa etdirmişdi. Ondan öncə Kösəm Sultan bunu etmək istəsə də, xalqın bu qalalara əsgər qoyulsa daim hücumlara məruz qalacaqlarını bildirməsinə görə bundan imtina etmişdi. Amma 1660-cı ildə Hatice Turhan Sultan əhaliyə önəm verməyərək öz pulu ilə bu qalaları inşa etdirmişdir [5, s.95].

Hər nə qədər daş qəlbi olması ilə bilinsə də, Mahpeyker Sultan pis vəziyyətdə olan qadınlara kömək edərmiş. Kösəm Sultanın qurduğu imarətlər şəhərin kasıblarını doydurmağa kömək edirdi. Həmçinin kasıb qızlara da kömək edir, onları evləndirib, cehizlərini verirdi. Bundan başqa, həbsxanada olan borcluların borcunu verib, onları azad edirdi [8, s.56].

Buradan da aydın olur ki, dövrün Validə və haseki sultanları hərəmxanadan bütün dövlətə hökm etmək istəsələr də, onların sadəcə pis tərəflərini araşdırmaq və qabartmaq düzgün deyil.

***Nəticə.*** Qanuni Sultan Süleyman dönəmindən ilk izləri görünməyə başlayan qadınlar səltənətinin yaranma səbəbləri əslində bizə dövr haqqında kifayət qədər məlumat verir. Sultanların hərəmxanada

keçirdiyi vaxtlar, qadınların təsir dairəsinə daha çox düşməsinə, hakimiyyət istəyi ilə dolub-daşan qadınların dövlətin siyasi həyatına müdaxiləsinə səbəb olurdu. Nəticədə də Osmanlı dövləti dövr ərzində bir neçə dəfə çöküşlə üzləşmiş, son anda edilən doğru addımlarla dövlət yenidən dirçəlmişdir. Amma bütün mənfi xüsusiyyətləri dövrün qadınlarının üstünə atmaq da düz olmazdı. Osmanlı sultanlarının öz üzərilərinə düşən vəzifə borclarını layiqincə yerinə yetirməməsi də dövlətin gücünə təsir edən amillərdən olmuşdur. Həmçinin,aydın olur ki, qadınlar səltənətinin nümayəndələri təkcə ziyanlı deyil, bir sıra xeyriyyəçilik işləri görərək də faydaya səbəb olmuşlardır. Bu baxımdan, Qadınlar səltənətini Osmanlının zəifləmə səbəbi hesab edən müəlliflərlə müəyyən məqamlarda razılaşsaq da, bunun yeganə, yaxud əsas səbəb olmadığı qənaətindəyik.

## ƏDƏBİYYAT

1. Leslie P.Peirce. Harem-i Hümayun. Osmanlı İmparatorluğu'nda Hükümranlık Ve Kadınlar. İstanbul: Tarih Vakfı Yurt Yayınları, 1996, 448 s. – URL: https://www.scribd.com/document/555926230/Leslie-P-Peirce-Harem-i-Humayun-Tarih-Vakf%C4%B1-Yurt-Yay%C4%B1nlar%C4%B1 [25.04.2024].
2. İsmail Hakkı Uzunçarşılı. Osmanlı Devletinin Saray Teşkilâtı. Ankara: Türk Tarih Kurumu Basımevi, 1984, 637 s. – URL: https://www.scribd.com/document/508845084/%C4%B0smail-Hakk%C4%B1-Uzuncar%C5%9F%C4%B1l%C4%B1-Osmanl%C4%B1-Devletinin-Saray-Te%C5%9Fkilat%C4%B1-TTK-1984 [25.04.2024].
3. Caroline Finkel. Rüyadan İmparatorluğa Osmanlı: Osmanlı İmparatorluğu'nun Öyküsü 1300-1923. İstanbul: Timaş Yayınları, 2007, 612 s. – URL: https://mir.az/tr/kitap/17403-caroline-finkel-ruyadan-imparatorluga-osmanli-1300-1923-pdf.html [25.04.2024].
4. Yıldıray Kara. Osmanlı'da Kadın Saltanatı. İstanbul: Yeditepe Yayınevi, 2010, 127 s. – URL: https://www.academia.edu/74072735/OSMANLIDA_KADIN_SALTANATI [25.04.2024].
5. Uluçay M. Çağatay. Padişahların Kadınları Ve Kızları. İstanbul: Ötüken Neşriyat, 2011, 313 s. – URL: https://www.pdfdrive.com/padi%C5%9Fahlar%C4%B1n-kad%C4%B1nlar%C4%B1-ve-k%C4%B1zlar%C4%B1-e52756436.html [25.04.2024].
6. Günhan Börekçi. İnkirâzın Eşiğinde Bir Hanedan: III. Mehmed, I. Ahmed, I. Mustafa ve 17. Yüzyıl Osmanlı Siyasî Krizi // Dîvân Disiplinlerarası Çalışmalar Dergisi, Yıl: 2009, Cilt: 14, Sayı: 26, s.45-96. – URL: https://dergipark.org.tr/tr/download/article-file/254564 [25.04.2024].
7. Günhan Börekçi. A Queen-Mother at Work: On Handan Sultan and Her Regency During the Early Reign of Ahmed I // Güney-Doğu Avrupa Araştırmaları Dergisi, Yıl: 2020, Sayı: 34, s.45-92. – URL: https://dergipark.org.tr/en/download/article-file/1733853 [25.04.2024].
8. İlber Ortaylı. Defterimden Portreler. İstanbul: Timaş Yayınları, 2011, 256 s.
9. Ahmet Refik Altınay. Kadınlar Saltanatı. Ankara, Tarih Vakfı Yurt Yayınları, 2005, 400 s.

**SABINA ALAKBAROVA**
*3rd year student of the Faculty of SABAH of Baku State University*

## THE SULTANATE OF WOMEN IN THE OTTOMAN STATE

The article provides information about the sultanate of women in the Ottoman state starting from the mid-16th century and covering the following centuries. The article examines how women in power intervened in the political life of the state, how they came to a superior position, the position of the sultans in this period, relations with foreign countries and charitable activities. It also reflects information about the Velide sultans and Haseki sultans, the leading representatives of the women's sultanate.

*Keywords*: The sultanate of women, Hürrem Sultan, Nurbanu Sultan, Safiye Sultan, Handan Sultan, Halime Altunşah Sultan, Mahpeyker Kösem Sultan, Hatice Turhan Sultan.

*Daxil olma tarixi*: 25.04.2024-cü il.
*Çapa imzalanma tarixi*: 10.05.2024-cü il.

UOT 94(479.24); UOT 94

**ŞƏFƏQ ƏZİMOVA**
*Azərbaycan Universitetinin*
*"Azərbaycanın qədim və orta əsrlər tarixi" ixtisası üzrə I kurs magistrantı*
**shafaq.azimova@gmail.com**

# 1578-1590-CI İLLƏR İKİNCİ SƏFƏVİ-OSMANLI MÜHARİBƏSİNDƏ KRIM TÜRKLƏRİNİN İŞTİRAKI

*Elmi rəhbər:*
tarix üzrə fəlsəfə doktoru Rəna Əsədova

*İkinci Səfəvi-Osmanlı müharibəsi (1578-1590) Səfəvi İmperiyası ilə Osmanlı İmperiyası arasında mürəkkəb ittifaqlar və regional güc mübarizələri ilə əlamətdar olan əhəmiyyətli bir münaqişə idi. Bu kontekstdə Krım türklərinin iştirakı müharibənin dinamikasını və nəticələrini formalaşdırmaqda mühüm rol oynadı. Krım tatarları xan I Dövlət Gərayın rəhbərliyi altında Səfəvilərə qarşı Osmanlı İmperiyası ilə ittifaq etdilər. Bu ittifaq Səfəvi ekspansionizminə qarşı mübarizədə və mühüm ticarət yollarına nəzarəti saxlamaqda ümumi maraqlardan irəli gələn strateji siyasət idi. Krım xanlığının hərbi şücaəti və süvari birlikləri Osmanlılar tərəfindən Osmanlı qüvvələrinə hərəkətlilik və taktiki üstünlüklər əlavə etdiyi üçün xüsusilə dəyərli idi.*

*Krım tatarlarının iştirakının əsas aspektlərindən biri onların qeyri-müntəzəm döyüşlərdə, o cümlədən vur-qaç taktikaları və pusqularda təcrübəsi idi. Bu taktikalar Səfəvilərin təchizat xətlərini təqib etməkdə və onların hərbi strategiyalarını pozmaqda mühüm rol oynadı. Bundan əlavə, Krım tatarlarının ərazi haqqında bilikləri onlara çətin mənzərələrdə manevr etməkdə üstünlük verdi ki, bu da həm hücum, həm də müdafiə əməliyyatlarında faydalı oldu. Krım tatarlarının iştirakı, həmçinin donanmasının dəniz yollarının təhlükəsizliyinin təmin edilməsində və düşmən limanlarının blokadaya salınmasında rol oynadığı dəniz döyüşlərində də genişləndi. Bu dəniz aspekti bu dövrdə müharibənin çoxşaxəli xarakterini vurğulayaraq münaqişəyə yeni ölçü əlavə etdi.*

*Bütövlükdə, Krım türklərinin ikinci Səfəvi-Osmanlı müharibəsində iştirakı Osmanlı səylərinə əhəmiyyətli töhfə verən, regional güclərin və onların hərbi imkanlarının erkən müasir dövrdə böyük münaqişələrin nəticələrinin formalaşmasında əhəmiyyətini nümayiş etdirən strateji bir ittifaq idi.*

*Açar sözlər:* 1578-1590-cı illər, İkinci Səfəvi-Osmanlı müharibəsi, Krım türkləri, tarixi baxış, Türklər.

***Giriş.*** 1578-1590-cı illəri əhatə edən ikinci Səfəvi-Osmanlı müharibəsi Osmanlı İmperiyası və Səfəvi İmperiyası tarixində əlamətdar bir dövrə çevrildi. Bu iki qüdrətli imperiya arasında daha geniş miqyaslı qarşıdurmaların fonunda Krım türklərinin hərbə cəlb olunması müharibənin dinamikasını formalaşdırdı və bölgəyə qalıcı təsirlər buraxaraq həlledici rol oynadı.

Türk etnik mənşələrinə görə tez-tez Krım türkləri adlandırılan Krım tatarları Krım yarımadası və ətraf ərazilərdə məskunlaşıblar. Onların Osmanlı İmperiyası ilə Səfəvi İmperiyası arasında strateji yerləşməsi onları regional siyasətdə və hərbi kampaniyalarda əsas oyunçulara çevirdi. Krım türklərinin ikinci Səfəvi-Osmanlı müharibəsində iştirakını başa düşmək bu təlatümlü dövrdə onların qərarlarına və hərəkətlərinə təsir edən geosiyasi, mədəni və tarixi faktorları araşdırmağı tələb edir.

Bu məqalə Krım türklərinin ikinci Səfəvi-Osmanlı müharibəsindəki rolunu araşdırmaq, onların motivlərini, ittifaqlarını, hərbi strategiyalarını və daha geniş münaqişəyə töhfələrini araşdırmaq məqsədi daşıyır. İlkin mənbələri, tarixi izahatları və elmi şərhləri təhlil edərək, Krım türklərinin imperiya rəqabətlərinin mürəkkəb şəbəkəsində necə dolandıqları və müharibənin nəticələrinə təsir göstərdikləri ilə bağlı fikirlər əldə edə bilərik [1, s.14].

Bu kəşfiyyat vasitəsilə biz regional dinamikanın tez-tez gözdən qaçan aspektlərinə və erkən müasir Avrasiya geosiyasətinin daha geniş çərçivəsi daxilində Krım türklərinin agentliyinə işıq salmağa çalışırıq. Onların Osmanlı və Səfəvi İmperiyaları ilə qarşılıqlı əlaqələri təkcə müharibənin ge-

dişatını müəyyən etmədi, həm də bu transformasiya dövründə etnik, dini və strateji maraqların mürəkkəb qarşılıqlı təsirini vurğulayaraq, bölgənin siyasi mənzərəsi üçün qalıcı təsir göstərdi.

***Əsas hissə.*** Krım türklərinin 1578-1590-cı illər ikinci Səfəvi-Osmanlı müharibəsində iştirakı çoxşaxəli olub, strateji hesablamalar, dini mülahizələr və iqtisadi maraqların birləşməsindən təsirlənib. Bu bölmə hərbi kampaniyalar, diplomatik manevrlər və regional güc dinamikasına təsir də daxil olmaqla, onların iştirakının əsas aspektlərini araşdıracaq.

*Hərbi kampaniyalar*: Krım tatarları ənənəvi olaraq Osmanlı İmperiyası ilə sıx əlaqələr saxlayır, tez-tez hərbi kampaniyalarda dəyərli müttəfiqlər kimi xidmət edirdilər. İkinci Səfəvi-Osmanlı Müharibəsi zamanı onlar Osmanlının Səfəvi ərazilərinə qarşı hücumlarında fəal iştirak edərək, bacarıqlı süvari birləşmələri və maddi-texniki dəstək göstərdilər. Onların qeyri-müntəzəm döyüşlərdə, xüsusən də çöl ərazilərində təcrübəsi düşmənin təchizat xətlərinə basqın etmək və vur-qaç taktikalarını həyata keçirməkdə mühüm rol oynadı.

Krım türklərinin iştirak etdiyi diqqətəlayiq döyüşlərdən biri 1578-ci ildə Osmanlının Tiflisi mühasirəsi idi. Onlar Osmanlı ordusuna qüvvələr qataraq, Səfəvilərin nəzarətində olan şəhərin blokadaya alınmasına və nəticədə ələ keçirilməsinə yardım edərək, mühasirə müharibəsində öz hərbi qabiliyyətlərini nümayiş etdirdilər [2, s.19].

Geniş miqyaslı döyüşlərdən başqa, Krım tatarlarının basqınçı dəstələri Səfəvi ərazilərinə tez-tez basqınlar edərək, rabitə xətlərini pozaraq düşmənin arxa cəbhəsində təlatümlər törədirdilər. Bu vur-qaç taktikası maddi ziyan vurmaqla yanaşı, həm də Səfəvi qüvvələrini müdafiə tədbirləri ilə məşğul edir, resursları əsas cəbhələrdən yayındırırdı [3, s.10].

*Diplomatik manevrlər*: Osmanlılar və Krım xanlığı qarşılıqlı dəstək və əməkdaşlığa zəmanət verən bir sıra müqavilələr bağladılar. Bu müqavilələr tez-tez münaqişələr zamanı hərbi yardımla bağlı müddəaları ehtiva edirdi və bu, iki qurum arasında strateji tərəfdaşlığı möhkəmləndirirdi.

Krım xanlığı Osmanlılarla koordinasiyada Səfəvi sarayına müxtəlif vasitələrlə, o cümlədən diplomatik elçilərlə, ultimatumlarla və hərbi gərginliyin daha da artacağı təhdidləri ilə diplomatik təzyiqlər göstərirdi. Bu diplomatik cəbhə Səfəvilərin qətiyyətini zəiflətmək və sülh danışıqlarında əlverişli şərtlər əldə etmək məqsədi daşıyırdı.

*Güc dinamikasına təsir*: Krım yarımadası Osmanlı İmperiyası ilə Səfəvi İmperiyası arasında həlledici bufer zona rolunu oynayıb və bölgədəki qüvvələr balansına təsir edib. Krım türkləri Osmanlılarla birləşərək və döyüş səylərində fəal iştirak edərək, Səfəvi basqınlarına qarşı Osmanlının strateji dərinliyini artıraraq Qafqaz və Qara dəniz bölgələrində Osmanlının hərbi imkanlarını gücləndirdilər [4, s.9].

Müharibənin iqtisadi nəticələri də var idi, Krım tatarları artan ticarətdən və onların iştirakı nəticəsində əldə edilən talanlardan faydalanırdılar. Əsas ticarət yollarına nəzarət və gəlirli bazarlara çıxış onların Osmanlı hərbi kampaniyalarına dəstəyini daha da artırdı [5, s.1].

Yekun olaraq qeyd edək ki, Krım türklərinin İkinci Səfəvi-Osmanlı müharibəsində iştirakı hərbi əməkdaşlıq, diplomatik manevrlər və onların maraqlarını təmin etmək və bölgədə Osmanlı təsirini gücləndirmək məqsədi daşıyan strateji hesablamalar ilə səciyyələnirdi. Onların töhfələri nəinki konkret döyüşlərin nəticələrinə təsir etdi, həm də erkən müasir Avrasiyanın daha geniş geosiyasi mənzərəsinin formalaşmasında mühüm rol oynadı.

***Nəticə.*** Krım türklərinin 1578-1590-cı illər ikinci Səfəvi-Osmanlı müharibəsində iştirakının dərhal hərbi əməliyyatlardan kənara çıxan geniş təsirləri var idi. Onların bu münaqişədəki rolu üzərində düşünərkən, erkən müasir Avrasiya geosiyasətinin daha geniş kontekstində regional dinamikanın, imperiya rəqabətinin və Krım türklərinin agentliyinin mürəkkəbliyini vurğulayan bir neçə əsas məqam ortaya çıxır.

Birincisi, Krım tatarları ilə Osmanlı İmperiyası arasındakı ittifaq Krım yarımadasının Osmanlı tədarük zəncirinin mühüm halqası və Səfəvi ərazilərinə hərbi müdaxilələr üçün başlanğıc meydançası kimi strateji əhəmiyyətini vurğuladı. Bu ittifaq təkcə ortaq etnik mənsubiyyətə əsaslanmırdı, həm də qarşılıqlı iqtisadi maraqlar, dini yaxınlıqlar və geosiyasi imperativlər ilə möhkəmlənirdi. Krım xanlığının süvari qüvvələrini səfərbər etmək və effektiv qeyri-qanuni müharibə aparmaq bacarığı, xüsusilə Qafqazın və Qara dəniz sahilinin çətin relyefində Osmanlı hərbi strategiyalarını tamamlayırdı.

Üstəlik, Krım türklərinin müharibədə iştirakı erkən müasir dövrdə ittifaqların axıcılığını və dövlət quruculuğunun praqmatik xarakterini nümayiş etdirdi. Krım tatarları ənənəvi olaraq Osmanlılarla həmrəy olsalar da, digər güclərlə diplomatik əlaqələr qurdular, rəqabətdən sui-istifadə etdilər və faydalı mövqeləri təmin etmək üçün hərbi qüdrətlərindən istifadə etdilər. Onların Tiflisin mühasirəsində, sərhəd basqınlarında və təxribat taktikasında iştirakı Səfəvilərin müdafiəsini zəiflətməklə yanaşı, Səfəvi ekspansionizminin qarşısını almaq və ərazi qazanclarını möhkəmləndirmək üçün daha geniş Osmanlı strategiyasına töhfə verdi.

Bundan əlavə, Krım tatarlarının iştirakının iqtisadi ölçülərini də nəzərdən qaçırmaq olmaz. Müharibə ticarət imkanlarının artmasına, talanlara və ərazi güzəştlərinə şərait yaratdı, bu da Krım elitasını zənginləşdirdi və Xanlığın iqtisadi əsaslarını gücləndirdi. Əsas ticarət yollarına, xüsusən də Qara dənizi Xəzər dənizinə və onun hüdudlarından kənara birləşdirən yollara nəzarət Krımın muxtariyyətini gücləndirdi və onun regional güc brokeri kimi mövqeyini gücləndirdi.

Güc dinamikası baxımından Krım türklərinin fəal iştirakı Qafqaz və Qara dəniz regionunun geosiyasi mənzərəsini yenidən formalaşdırdı. O, Osmanlı təsirini gücləndirdi, Krım hegemonluğunun əhatə dairəsini genişləndirdi və Səfəvi təcavüzlərinə qarşı Osmanlı maraqlarını qoruyan strateji bufer zona yaratdı. Güc dinamikasının bu dəyişməsi uzunmüddətli əks-səda doğurdu, sonrakı diplomatik münasibətlərə, ərazi konfiqurasiyalarına və Şərqi Avropa və Qərbi Asiyada qüvvələr balansına təsir etdi.

Nəticə olaraq, Krım türklərinin ikinci Səfəvi-Osmanlı müharibəsində iştirakı strateji, iqtisadi və siyasi mülahizələrdən irəli gələn çoxşaxəli bir cəhd idi. İstər döyüş meydanında, istər diplomatik danışıqlarda, istərsə də iqtisadi təşəbbüslərdə verdikləri töhfələr, tarixi trayektoriyaların formalaşmasında regional faktorların agentliyini və bu əsas məqamı müəyyən edən maraqların mürəkkəb qarşılıqlı təsirini vurğulayaraq, erkən müasir Avrasiya geosiyasətinin konturlarında silinməz iz buraxdı.

## ƏDƏBİYYAT

1. Á goston, Gá bor & Masters, Bruce Alan. (2009). Encyclopedia of the Ottoman Empire. Infobase Publishing. ISBN 1438110251, 689 p.
2. Maeda, Hirotake. (2006). The forced migrations and reorganisation of the regional order in the Caucasus by Safavid Iran: Preconditions and developments described by Fazli Khuzani / "Reconstruction and Interaction of Slavic Eurasia and Its Neighboring Worlds" conference. The Slavic Research Center, Hokkaido University, Sapporo, 8-10 December 2004, p.237-271.
3. Matthee, Rudi. (2014). The Ottoman-Safavid War of 986-998/1578-90: Motives and Causes. In Karpat, Kemal & Balgamış, Deniz (Eds.), International Journal of Turkish Studies, Vol. 20, Nos 1& 2, p.1-20.
4. Mitchell, Colin P. (2009). The Practice of Politics in Safavid Iran: Power, Religion and Rhetoric. I.B.Tauris. ISBN 0857715887, 304 p.
5. Sicker, Martin. (2001). The Islamic World in Decline: From the Treaty of Karlowitz to the Disintegration of the Ottoman Empire. Greenwood Publishing Group. ISBN 027596891X, 264 p.

**SHAFAG AZIMOVA**
*First year Master's student of Azerbaijan University*
*on "Ancient and Medieval History of Azerbaijan"*

## PARTICIPATION OF THE CRIMEAN TURKS IN THE SECOND SAFAVID-OTTOMAN WAR OF 1578-1590

The Second Safavid-Ottoman War (1578-1590) was a significant conflict marked by complex alliances and regional power struggles between the Safavid Empire and the Ottoman Empire. In this context, the participation of the Crimean Turks played an important role in shaping the dynamics and outcomes of the war. Crimean Tatars under the leadership of Khan Devlet Giray I allied with the Otto-

man Empire against the Safavids. This alliance was strategic, stemming from common interests in countering Safavid expansionism and maintaining control over important trade routes. The military prowess and cavalry units of the Crimean Khanate were especially valued by the Ottomans as they added mobility and tactical advantages to Ottoman forces.

A key aspect of Crimean Tatar involvement was their experience in irregular warfare, including hit-and-run tactics and ambushes. These tactics were instrumental in harassing Safavid supply lines and disrupting their military strategies. In addition, the Crimean Tatars' knowledge of the terrain gave them an advantage in maneuvering in difficult terrain, which was useful in both offensive and defensive operations. Crimean Tatar participation also expanded in naval battles, where its fleet played a role in securing sea lanes and blockade enemy ports. This naval aspect added a new dimension to the conflict, emphasizing the multifaceted nature of warfare during this period.

Overall, the participation of the Crimean Turks in the Second Safavid-Ottoman War was a strategic alliance that contributed significantly to Ottoman efforts, demonstrating the importance of regional powers and their military capabilities in shaping the outcome of major conflicts in the early modern period.

*Keywords:* 1578-1590 years, Second Safavid-Ottoman war, Crimean Turks, Historical overview, Turks.

*Daxil olma tarixi*: 30.04.2024-cü il.
*Çapa imzalanma tarixi*: 10.05.2024-cü il.

Türk dünyası gənc tədqiqatçılar dərnəyinin Araşdırmaları
Studies of the Turkic World Young Researchers Association

№2(10) 2024, 86-94

UOT 94(479.24); UOT 94

**ŞƏHLA ƏHMƏDOVA**
*Bakı Dövlət Universiteti SABAH Qrupları*
*Tarix müəllimliyi ixtisası üzrə III kurs tələbəsi*
**shehlahmedova04@gmail.com**
ORCID ID : 0009-0005-6367-4808

# TÜRK İCTİMAİ-SİYASİ FİKRİNİN ÖNDƏRLƏRİ: ƏLİ BƏY HÜSEYNZADƏ, ƏHMƏD BƏY AĞAOĞLU, İSMAYIL BƏY QASPIRALI, ZİYA GÖKALP

*Elmi rəhbər:*
tarix üzrə fəlsəfə doktoru Sevinc Ruintən

*Hər bir millətin tarixində müəyyən şəxsiyyətlər olur ki, onlar millətin özünüdərkində, özünü tapmasında əhəmiyyətli rola malik olurlar. Türk xalqları tarixində bu şəxsiyyətlərin sayı heç də az deyildir. Onlar xalqın ən keçməkeşli anlarında ortaya çıxmış, öz dərin fikirləri, ictimai fəaliyyətləri ilə elə Əli bəy Hüseynzadənin öz təbiri ilə desək, "qırmızı qaranlıqlar içərisində yaşıl işıq" rolu oynamışdılar. Qələmə aldığımız bu məqalədə türk xalqlarının milli oyanışına xidmət etmiş, onları bir ideologiya ətrafında həmrəng görmək istəyən Əli bəy Hüseynzadə, Əhməd bəy Ağaoğlu, İsmayıl bəy Qaspıralı, Ziya Gökalp haqqında və onların türk millətinə xidmətləri barədə məlumat verməyə çalışacağıq.*

*Açar sözlər:* Türkçülük, Əli bəy Hüseynzadə, Əhməd bəy Ağaoğlu, İsmayıl bəy Qaspıralı , Ziya Gökalp.

***Giriş.*** XIX əsr türk xalqları tarixində milli oyanışın baş verdiyi, milli özünüdərk prosesinin getdiyi, milliyyət düşüncələrinin baş qaldırdığı əhəmiyyətli dövrdür. Müxtəlif zamanlarda fərqli mənalar daşıyan millət anlayışı günümüzdə eyni ərazidə yaşayan, ortaq dildə danışan, vahid iqtisadi birliyi, psixoloji özünüdərki olan insan toplumları anlamına gəlir. Qeyd etmiş olduğumuz ortaq dil, vahid iqtisadiyyat, ərazi, psixoloji özünüdərk millətin yaranması, inkişafı və mövcudiyyəti üçün əsas hesab edilən şərtlərdir. XIX əsrdə türk xalqlarında ortaya çıxmış şərait milli fikrin oyanmasına səbəb oldu. Avropaya coğrafi yaxın olan türk xalqlarında ortaya çıxan milliyyət fikri qərb türklərində formalaşıb türkçülük səviyyəsinə qalxdı. Türkçülüyün görkəmli nümayəndələri Əli bəy Hüseynzadə, Əhməd bəy Ağaoğlu, İsmayıl bəy Qaspıralı, Ziya Gökalpın səyləri nəticəsində türkçülük ideologiya olaraq formalaşdırılıb, təşəkkül mərhələsinə qalxmışdır. Türkçülüyün mahiyyətini dərk etmək üçün görkəmli türkçülük şəxsiyyətləri və onların ortaya çıxdığı şərait haqqında məlumatlı olmalıyıq.

| | | | |
|---|---|---|---|
|  |  |  |  |
| *Əli bəy Hüseynzadə* | *Əhməd bəy Ağaoğlu* | *İsmayıl bəy Qaspıralı* | *Ziya Gökalp* |

***Əli bəy Hüseynzadə.*** "…şair, rəssam, musiqişünas, filosof, qəzetəçi, professor, doktor, mütərcim… bütün bir dövrün həqiqətən gizli həyat qaynaqlarından biri" (S.Ağaoğlu), Əli bəy Hüseynzadə 24 fevral 1864-cü ildə Salyan şəhərində dünyaya gəlib. Atası Tiflis müsəlman məktəbinin müəllimlərindən olan Molla Hüseyn Hüseynzadə, anası Qafqaz Şeyxülislamı Axund Əhməd Hüseynzadənin qızı Xədicə xanımdır. Valideynlərini erkən yaşda itirən Əli bəy babası Axund Əhməd Səlyaninin himayəsində böyümüşdür. Dövrünün görkəmli ziyalılarından olan Əli bəy ibtidai təhsilini Tiflis müsəlman

məktəbində, orta təhsilini Tiflis birinci Klassik gimnaziyasında tamamlayıb. Gimnaziyada təhsil aldığı müddətdə (1875-1885) o, rus, latın, yunan, fransız, alman dillərini öyrənir. İlk ali təhsilini Peterburq Universitetinin fizika-riyaziyyat (1885-1889) fakültəsində alıb. Peterburq Universitetində Mendeleyev, Yeqor Vaqner və Nikolay Mentuşkin kimi böyük kimyaçılardan dərs alan Əli bəy universitetin şərqşünaslıq fakültəsində Jukovskinin mühazirələrini dinləmiş, Rəssamlıq Akademiyasının məşğələlərində iştirak etmişdi. Peterburq Darülfünunu Ə.Hüseynzadənin həyatında təkcə elm ocağı deyil eyni zamanda siyasi məktəb rolunu oynayır. Bu mühitdə onda milli duyğuların millətçilik səviyyəsinə qalxması müşahidə olunur. Ziya Gökaplın dediyi kimi *"Ə.Hüseynzadə Rusiyada millətçilik cərəyanlarının təsiri ilə türkçü olur. Panslavizmdən pantürkizmi çıxarır"* [4, s.17].

Peterburqdan İstanbula gələn Əli bəy burada 1889-cu ildə "İttihadi-Osmani" adlı gizli cəmiyyətin əsasını qoyanlardan biri olur. Əbdülhəmid hakimiyyəti Əli bəyin ideologiyasının yayılmasına mane olur. Türkçülük həmin illərdə Osmanlıda gizli təbliğ olunurdu. Osmanlıçılıqdan-türkçülüyə, vətənpərvərlikdən-millətçiliyə keçid dövründə, 1894-cü ildə təşkilatın adı "İttihad və Tərəqqi" olaraq dəyişdirilir. Bu dövrdə o, ikinci ali təhsilini İstanbul Darülfününün Əsgəri-Tibbiyə fakültəsində alır. Qafqazlı Əli Hüseyn Əfəndinin İstanbul Əsgəri-Tibbiyədəki fəailiyyəti haqqında Yusuf Akçura yazır: *"... rayihədar bir Avropa həvayi-mədənisinin əsməsi kimi oldu... Tələbəsinin çoxu Anadolu və Rumelinin uzaq və qaranlıq vilayətlərindən toplanmış bu məktəbdə, Əli bəy bir fəcri-şimali (quzey şəfəqi) kimi parladı... Yunan və latın ədəbiyyatına aşına olmaqdan əlavə alman, rus və ingilis ədiblərini xeyli mütaliə etmiş və şərq ədəbiyyatına müstəşriklər (şərqşünaslar) nöqteyi-nəzərindən vaqif olmuşdu, üstəlik rəssam idi və kaman çalırdı... Əli bəy, İstanbul Məktəbi-Tibbiyəsinə batı əfkarını, batı ədəbiyyatını, batı irfan və mədəniyyətini, hasili batını arkadaşlarından tanıtmaqla professorlarından çox xidmət etdi. Arkadaşlarından Doktor Abdullah Cövdət bəy, Ali bəyin Məktəbi-Tibbiyədəki təsirini belə hekayə edir: "Əli bəy sakit, mütəfəkkir halı ilə, əsrarəngiz vəzn üzlətpərvərisi ilə üzərimizə bir peyğəmbər təsiri icra edərdi. Əvət, o bir rəsuli-haqq idi""* [8, s.209].

1895-1897-ci illərdə Heydərpaşa əsgəri xəstəxanasında dəri mütəxəssisi, Türkiyə-Yunanıstan müharibəsi zamanı (1897-1900) hərbi həkim, 1990-cü ildə İstanbul Darülfünununda dosent seçilir. Professor Kamal Cənab Berksoy ilə birlikdə 1902-ci ildə "Ensiklopedik tibb lüğəti" adlı kitabını nəşr etdirir. Siyasi görüşlərini "İttihad və Tərəqqi" təşkilatında davam etdirən Əli bəy Əbdülhəmid istibdadının qəzəbinə uğrayır. Əli bəy 1903-cü ildə Bakıya qayıdır. Əli bəyin əsas türkçülük fəaliyyəti Bakıda olarkən başlayır, o, milli-azadlıq hərəkatına türkçülük xarakteri verməyə başlayır. 1904-cü ildə "Türk" qəzetində "Turani" imzası ilə türkçülüyün mühüm sənədinə çevrilən "Məktubi-məxsusi" məqaləsini dərc etdirir. Bu məqalə Əli bəy Hüseynzadənin türkçülük mövqeyinin elanı idi.

1905-1906-cı illərdə "Həyat" qəzetinin (Əhməd bəy Ağaoğlu və Əli Mərdan bəy Topçubaşov ilə birgə) nəşrinə başlayır. "Həyat"ın ümumrusiya türklərinin milli oyanışındakı rolu danılmazdır. "Həyat"ın nəşrinə Qafqaz Senzura Komitəsinin xəbəri olmadan Peterburq Baş Mətbuat İdarəsi icazə verdiyindən qəzet ilk nəşrdən qərəzli münasibətlə üzləşir. "Həyat" türkçülük və islamçılığın təbliğatçısı kimi səciyyələndirilərək 1906-cı ildə bağlanır. Təkcə Ə.Hüseynzadənin "Türklər kimdir kimlərdən ibarətdir" əsərinin 1905-cil ildə "Həyat" qəzetində çap olunması qəzetin türklər üçün nə dərəcədə əhəmiyyətli olduğunu göstərir [4, s.237]. Bu qəzet vasitəsilə Əli bəy türkçülük ideologiyasının "türkləşmək, islamlaşmaq, avropalaşmaq" kimi nəzəri ideologiyasını ortaya qoyur [4, s.21].

"Həyat" bağlandıqdan sonra 1906-1907-ci illərdə "Füyuzat" dərgisini nəşr etdirir və baş redaktoru vəzifəsində çalışır. Dərgi türkçülüyün siyasi sənədi və mədəni abidəsi kimi tanınmışdır [4, s.22]. Dərgi təkcə Azərbaycanda deyil Yaxın Şərqdə türk ziyalılarının mətbu orqanına çevrilir. Ə.Hüseynzadə təqib və təzyiqlərlə üzləşir, jurnalın nəşri dayandırılır. Bakıda bir müddət "Kaspi" qəzetinin baş redaktoru, "Səadət" məktəbində müdir və ədəbiyyat müəllimi kimi çalışır. 1908-1910-cü illərdə şah əsəri olaraq adlandırılan "Siyasəti-fürusət" roman-pamfleti hissə-hissə çap olunmuşdur.

1910-cu ildə yenidən İstanbula köçən Əli bəy Tibb fakültəsində əvvəlcə dəri xəstəlikləri üzrə dosent, sonra professor olaraq 1933-cü ilə qədər Darülfünundakı vəzifəsini davam etdirdi. Müəllimlik və həkimliklə yanaşı siyasi fəailiyyətini də davam etdirirdi. 1915-1916-cı illərin əvvəllərində "İttihad və Tərəqqi" təşkilatının tapşırığı ilə Rusiya müsəlmanlarının haqlarını müdafiə məqsədi ilə "Turan heyəti"nin tərkibində Qərbi Avropaya gedir. 1918-ci il Azərbaycan Cümhuriyyətinin elanından sonra

milli dövlət məsələsini müzakirə etmək üçün Ə.Ağaoğlu ilə birgə Qafqaza gəlir [4, s.24]. *"... Azərbaycanın münəvvərlərilə birlikdə, bu ölkənin bir Cümhuriyyət halında təasüs və təşəkkül etməsi işlərində çalışdıq"* [5, s.26]. "İttihad və Tərəqqi" mənsublarının təqib olunduğu dövrdə (1919-1921) Əli bəy bir neçə dəfə həbs olunur. Ankarada hökumət qurulduqdan sonra Milli Maarif Nazirliyinin "Təlif və Tərcümə komisiyası"nın tərcüməçi vəzifəsinə təyin olunur.

Əli Turanın Bakıya sonuncu gəlişi 1926-cı ilin fevral ayına təsadüf edilir. Bakıda I Türkoloji qurultaya dəvət olunur, "Qərbin iki dastanında türk" əsərini "Kommunist" qəzeti redaksiyasında kitab şəklində çap etdirir. Əsərdə *"Hüzur və rahatı başqa günlərə, daha məsud zamanlara burax! Şimdi əziz vətənin sevgili vətəndaşları əcnəbi boyunduruğu altında inləyib duruyor. Uyqu zamanı deyildir"* [4, s.378] deyən Əli bəy Azərbaycan Cümhuriyyətinin ruslar tərəfindən işğalına etiraz edir, xalqı mübarizəyə səsləyirdi.

Əli bəy Türkiyəyə qayıdan kimi onu ittihadçılarla birgə M.K.Atatürkə sui-qəsd təşkil etməkdə ittiham edib həbs edirlər. Məhkəmədə günahsız olduğu elan olunaraq sərbəst buraxılmışdır. Ömrünün son illərinə qədər tərcüməçilik fəaliyyəti ilə məşğul olmuşdur. 1936-cı ildə III Türk Dili Qurultayında iştirak edir. Türkiyədə soyad haqqında qanun qəbul edildikdən sonra Əli bəy Turan soyadını götürür.

"Azərbaycan bayrağını mənalandıran üç ümdə amilin ideoloqu" (M.B.Məmmədzadə) Əli Turan 1940-cı il martın 17-də İstanbulda ürək xəstəliyindən dünyasını dəyişir. Həmin gün qəzetlər Ə.Hüseynzadənin vəfatı münasibəti ilə yazırdı: *"Türk millətinin oyanmasına və kültürünün irəliləyib yayılmasına bütün ömrünü vermiş olan möhtərəm Hüseynzadənin ölümü ilə uğradığımız qeybi dərin bir təəssüf ilə duymaqdayıq..."* [4, s.26].

Yaradıcılığı dövründə Ə.Hüseynzadənin Azərbaycan, Türkiyə və Qahirədə "Səlyani", "Həyati", "Füyuzati", "Turani", "Hürrəndiş", "Əbdülnəqqaş" və s. kimi imzaları ilə məqalələri, hekayələri, şeirləri və tibbə dair elmi-səciyyəli yazıları dərc olunmuşdur. Əli bəy Hüseynzadə 60 illik yaşamında türk milləti üçün günümüzdə də aktuallığını qoruyan birlik ideologiyasının əsaslarını işləyib hazırlamış, türk millətinin ictimai, siyasi, milli özünüdərki və oyanışı üçün üçün ciddi cəhdlə fəailiyyət göstərmişdir.

***Əhməd bəy Ağaoğlu.*** *"...mərd və cəsur mübarizə adamı, professor və maarifçi, usta qəzətəçi-yazar, dürüst siyasətçi... milliyyətçi və inqilabçı ziyalı... insanlığın bütün üstün cəhətlərini və məziyyətlərini öz üzərində toplamış böyük insan və heykəlləşmiş şəxsiyyət"* (F. Gülsevən) Əhməd bəy Ağaoğlu 1869-cu ildə Qarabağda, Şuşada anadan olmuşdu. Babası Mirzə İbrahim dövrünün məşhur ilahiyyat alimlərindən, atası Mirzə Həsən və əmisi Mirzə Məhəmməd isə Şərq təhsilli idi. Bu ailə ocağı öz dövrü üçün Şuşanın mədəniyyət mərkəzlərindən idi. Mollalar, Axundlar, şəhərin öndə gələnləri bu evə yığılıb "mühüm" mövzular haqqında mübahisə edərdilər. Əhməd bəy Ağaoğlu öz xatirələrində bu barədə yazır: *"... yenə dayanmadan boş mövzular ətrafında münaqişə aparardılar. İmam qeybi bilirmi? İmamın elmi əzəlidirmi?..."* [3, s.29]. Əhməd bəy Ağaoğlu təhsilini rus gimnaziyasında almağa başlayır. o xatirələrində gimnaziyadakı təhsili ilə bağlı məktəbə başlayanda orada yalnız üç türk uşağının təhsil aldığını [3, s.36], özünün beşinci olduğunu, erməni uşaqlarının türklərə verdiyi zülmə görə digər uşaqlar təhsillərini davam etdirə bilmədiklərini, yalnız özünün sona qədər qalaraq məktəbi bitirə bildiyini qeyd edir. Şuşada məktəbin VI sinfini bitirən Əhməd bəy sonuncu VII və sonuncu sinifləri Tiflisdə 1 saylı gimnaziyada oxuyur. 1887-ci ildə gimnaziyada təhsilini başa vuran Əhməd bəy Ağayev Peterburqda gəlir. Peterburqdakı təhsili və tələbə həyatı ilə bağlı Əhməd bəyin xatirələrində məlumat ala bilmirik, oğlu Səməd Ağaoğlu bu əksik qismi atasının ölümündən sonra axtardıqlarını, ancaq tapa bilmədiklərini qeyd edir. Əhməd bəyin Peterburqda qalmama səbəbi ilə bağlı məlumat verən Səməd bəy atasının dəfələrlə bu hadisəni nəql edərək bütün imtahanları müvəffəqiyyətlə verdiyini cəbr imtahanından verilən məsələni proqram xaricində həll etdiyi və müəllimin onu yəhudi sandığı üçün qəbul olunmadığını bildirir [3, s.67-68].

Təhsilini Texnologiya İnstitutunda davam etdirə bilməyən Əhməd bəy Parisə yola düşür. 1888-ci ildə Sorbonna universiteti yanındakı Paris Hüquq Məktəbinin tələbəsi olur. 1890-cı ildən başlayaraq Parisin "La Nouvelle", "La Revue bleue politique et litteraire", "Journal des debats" kimi nəşrlərində Əhməd bəy Ağayevin İran və Qafqaz haqqında , bu regionda yaşayan xalqlar onların tarixi, mədəniyyəti barəsində silsilə məqalələr çap etdirir. XIX əsin 90-cı illərinin əvvəllərində "Qafqaz", "Kaspi" qəzetləri ilə əməkdaşlıq edir. Əhməd bəy Ağayev qəzetdə xalqın vəziyyəti, türk-islam dünyasının

problemlərini, işıqlandırırdı. Həyatının Paris dövründə Əhməd bəy islam dünyasının filosof və mütəfəkkiri Şeyx Camaləddin Əfqani ilə tanış olur. Əfqaninin İslam birliyi ideyası ilə yaxından maraqlanan Əhməd bəyin sonrakı fəaliyyətində bu ideya mühüm rol oynayır.

1894-cü ildə atasının ölüm xəbərini alır və vətənə qayıdır. Şuşada olduğu dövrdə Əhməd bəy Ağayev əhalinin maariflənməsi üçün ciddi addımlar atır, lakin bununla kifayətlənmək istəmir Bakıya gələrək ana dilində qəzet çıxarmaq istəyir, ancaq niyyəti baş tutmur. 1897-ci ildə H.Z.Tağıyevdən "Kaspi" ilə əməkdaşlıq üçün təklif alır. Əhməd bəy Ağayev qəzetdə xalqın vəziyyəti, türk-islam dünyasının problemlərini, işıqlandırırdı. 1905-ci ildə inqilabi əhval-ruhiyyənin olduğu bir vəziyyətdə Ə.Ağaoğlu, Ə.Topçubaşov və Ə.Hüseynzadə H.Z.Tağıyevin maddi dəstəyi ilə gündəlik "Həyat" qəzetinin nəşrinə başlayırlar. Qəzet təkcə Azərbaycan ərazisində deyil, Volqaboyu, Orta Asiya, İran və Türkiyədə yayılaraq türk ictimai fikrinin, milli oyanışının yaranmasına təkan verirdi. Əhməd bəy Ağaoğlunun naşirliyi, redaktorluğu və fəal müəllifliyi ilə çıxan "Həyat", "İrşad", "Tərəqqi" qəzetləri Azərbaycan türklərində sağlam milli hislərin tərbiyə olunması və onların öz gələcək taleləri uğrunda mübarizəyə hazırlanmasına xidmət edirdi.

1905-ci ilə qədər məqalə yazmaqla dövri mətbuatda çıxış edən Əhməd bəy ermənilərdən gələn təhlükəni anlayır və onların zorakılığına qarşı xalqı bir siyasi qurum ətrafında toplamağın vacibliyini anlayır və "Difahi" partiyasının yaradıcılarından olur. Bu partiya rus imperializminə və erməni təcavüzünə qarşı Azərbaycan türklərini qoruyan ilk siyasi təşkilat olur. M.S.Ordubadi "Qanlı sənələr" kitabında Əhməd bəy haqqında yazır: *"Cənab Əhməd bəy Ağayevin milləti uğrunda bu qədər ciddi-cəhdlə çalışdığını görüncə onun nə dərəcədə millətsevər olduğu hamıya məlum olar. Burasını da söyləyirəm ki, Əhməd bəy cənablarının bu qədər çalışmağına millətimizdən bir çox razılıq edildisə də, yenə haqqınca olmayıb yüzdən bir haqqı riayət edilmədi. Bu isə hələ də millətimiz arasında bir parə gecəquşlarının vücudilədir"* [7, s.88]. Lakin bütün bunlara baxmayaraq Əhməd bəy Ağaoğlunun ən böyük silahı onun qələmi idi. Əhməd bəyin önəm verdiyi digər məsələlərdən biri də qadın və onun cəmiyyətdəki yeri ilə bağlıdır. "İslama görə və İslamda qadın" adlı günümüzdə də aktuallığını itirməyən əsəri çap olunmuşdu.

XX əsin əvvəllərində Əhməd bəy Ağaoğlu artıq həmvətəni Əli bəy Hüseynzadə ilə birgə Türkçülüyün əsas ideoloqlarından biri kimi tanınırdı. Əhməd bəy türklərin birləşdirilməsində Osmanlının aparıcı mövqeyini xüsusi ilə vurğulayır, bu ona görə idi ki, həmin dövrdə yeganə müstəqil türk dövləti Osmanlı idi. Türk xalqlarının din, dil, etnik zəmində birləşdirilməsi və vahid siyasi ideologiyaya dayanması Əhməd bəy Ağaoğlunun ideologiyasının əsasını təşkil edirdi.

Milli məsələlərdəki prinsipiallığı ilə özünə düşmən qazanan Əhməd bəy təqiblərə məruz qalır. 1908-ci ilin sonlarına doğru İstanbula gəlir. O, İstanbulda ilk vaxtlar maarif müfəttişi, Süleymaniyə kitabxanasının müdiri kimi fəaliyyət göstərir. İstanbul Darülfününunda rus dili və ədəbiyyatı, türk-monqol tarixi fənlərini tədris edir. Əhməd bəy qəzetçilik fəaliyyətini genişləndirərək "İslam məcmuəsi", "Türk yurdu". "Sirati-müstəqim" kimi qəzet və dərgilərdə məqalələrini çap etdirir. 1912-cil ildən "Tərcümani-həqiqət" qəzetini nəşr etməyə başlayır. Türkçülük ideyalarını yayan "Türk ocağı"nın dörd qurucusundan biri olur [2, s.18].

Əhməd bəy 1918-ci ildə Nuru Paşanın siyasi müşaviri kimi Azərbaycana qayıdır. Gəncədə olarkən "Türk sözü" adlı qəzet təsis edir. 1918-ci ilin dekabrında parlament onu Paris sülh konfransına göndərilən nümayəndə heyətinin tərkibinə daxil edir. Nümayəndə heyəti viza problemi olduğu üçün İstanbulda qalmalı olur. Bu zaman Əhməd bəy "erməni soyqırımı" və "gənc türklərlə" əməkdaşlıqda ittiham olunaraq müttəfiqlər tərəfindən həbs olunur, Malta adasına sürgün edilir. 1921-ci ilin mayında sürgün həyatı sona çatır, N.Nərimanov Bakıya gəlməyini istəsə də, ona təmsil etdiyi fikrə qatılmadığını, türklər üçün qurtuluşun Osmanlı türkülüyündə olduğunu bildirir, onu əsarətdən qurtarmış Ankaraya borclu olduğunu bildirir [2, s.21-22]. Ankaraya döndükdən sonra mətbuat baş müdiri, "Hakimiyyəti-milliyə" qəzetinin baş redaktoru olur. Böyük Millət Məclisinə Qarsdan deputat seçilir. Türkiyədəki hakimiyyətin diktatura olduğunu bildirən Əhməd bəy 1926-cı ildə Atatürkə bununla bağlı məktub ünvanlayır [2, s.22-23].

Ə.Ağaoğlunun XX əsrin 20-30-cu illəri elmi-bədii yaradıcılığının zəngin dövrüdür. "Üç mədəniyyət", "Türk tarix hüququ", "Dövlət və fərd", "Sərbəst insanlar ölkəsində", "İngiltərə və Hindistan"

kimi elmi-bədii əsərləri yaranır. Bunlardan başqa onun "Mən kiməm", "İran və inqilabı", "Könülsüz olmaz", "İxtilalmı? İnqilabmı?", "Sərbəst firqə xatirələri" kimi əsərləri ölümündən sonra nəşr olunur.

Türkiyəni demokratik dövlət kimi görmək istəyən Atatürk müxalifət uğrunda mübarizə aparan partiyaların qurulması qərarını verir. Əhməd bəy Ağaoğlu yeni partiyanın qurulmasında iştirak edir. 1930-cu ildə keçirilən ilk çoxpartiyalı seçkilərdə Atatürkün partiyası deyil, sərbəst firqə qalib gəlir. Atatürk siyasi həyatının ciddi sarsıntısını yaşayır. Sərbəst firqənin Atatürkün eksperimenti olduğunu anlayan Ağaoğlu partiyadan istefa verməsi ilə bağlı heç bir bəyanat vermədən siyasi həyatdan çəkilir. Ankaradan İstanbula köçərək Darülfünunda Konstitusiya əsaslarından dərs deməyə başlayır. 1932-ci ildən "Axın" qəzetini təsis edir bu onun redaktoru olduğu sonuncu mətbu orqan olur. Qəzetdəki tənqidi yazılar Atatürkün narazılığına səbəb olur və yayımı dayandırılır. İstanbul Darülfünunun universitetə çevrilməsi ilə o professor vəzifəsini də itirmişdi.

Türk ictimai-siyasi fikrini formalaşdıran dühalardan olan Əhməd bəy Ağaoğlu 1939-cu il 19 may tarixində İstanbulda gözlərinin dünyaya əbədi yumur.

***İsmayıl bəy Qaspıralı.*** Rusiya müsəlmanlarının ideoloji lideri, publisist, naşir, maarifçi, fikirdə, dildə, əməldə birlik ideyasının öndəri, bütün türklərin "Tərcüman"ı İsmayıl bəy Qaspıralı 20 mart 1851-ci ildə Krımın Avçı kəndində keçmiş çar ordu zabiti Mustafa bəyin və nüfuzlu mirzə nəslindən olan Fatimə xanımın ailəsində dünyaya gəlib. Bir müddət müsəlman məktəbinə gedən İsmayıl bəy atası Mustafa Qaspıralının səyi ilə Simferopol ginmaziyasına düzəlməyə nail olur. Daha sonra Voronejdəki hərbi məktəbə gedir, tezliklə Moskvadakı Hərbi Gimnaziyaya düzəlir. Moskvadakı gimnaziyada 1864-1867-ci illərdə təhsil aldıqdan sonra aldığı təhsilin istəklərinə uyğun olmadığını anlayır və gimnaziyanı tərk edərək Krıma qayıdır.

Yalta və Baxçasarayda 1870-ci ildən ibtidai sinif müəllimi kimi fəaliyyət göstərməyə başlayır. İ.Qaspıralıda XIX əsr kimi qaynar bir mühitdə xalqçılıq, maarifçilik fikri formalaşmağa başlayır. O, M.N.Katkov, İ.S.Turgenev, N.Tolstoy, N.Çernişev kimi şəxsiyyətlərin fikir və ideyalarının əhatəsində yetişirdi. Pedaqoji fəaliyyətlə ideyalarını reallaşdıra bilməyən İ.Qaspıralı əvvəlcə Avropaya sonra Şərqə yollanır. Parisə yollanan İsmayıl bəy iki il (1872-1874) orada rus yazıçısı İvan Turgenevin yanında çalışır. Lakin Osmanlı zabiti olma arzusu onu İstanbula gəlməyə məcbur edir. Rusiyanın İstanbuldakı səfiri İqnatayev onun bu arzusuna mane olur , İsmayıl yenidən Krıma dönür (1875). İsmayıl bəy 1875-1884-cü illərdə Baxçasaray bələdiyyəsinin sədri seçilir. Lakin bu vəzifə ona kifayət etmir, çar hökumətinə qəzet çıxarmaq üçün müraciət edir və rədd cavabı alır. İsmayıl bəy Simferopolda rus dilində çıxan "Tavrida" qəzeti ilə sıx əməkdaşlığa başlayır. Simferopolda "Tonğuç" , Ünsizadə qardaşlarının mətbəəsində "Şəfəq və Lətaif", "Ulduz", "Ay" və "Günəş" adlı kitabçalar nəşr etdirir. "Tavrida" qəzetinin bir neçə nömrəsində dərc olunan məqalələrini toplayaraq "Rusiya müsəlmanları" adı ilə 1882-ci ildə kitab şəklində türk dilində nəşr etdirir. Rus hökumətinə xitabən yazılan bu əsərdə müəllif türk toplumunu birliyə səsləyir eyni zamanda rusların da müsəlmanların maariflənməsinə mane olmamaları fikrini Rusiyanın həm də müsəlman dövləti hesab edilməsi ideyasını irəli sürürdü [1, s.10].

İsmayıl bəy qəzet buraxmadan ideyalarını reallaşdıra bilməyəcəyini bilirdi. Məhz buna görə də gələcəkdə çıxaracağı qəzet üçün xeyli sayda abunəçi topladıqdan sonra qəzet çıxarmaq üçün çar hökumətinə müraciət edir. Nəhayət , həm də rusca buraxmaq şərti ilə "Tərcüman" qəzetinin nəşrinə icazə verildi. Əlqərəz, 1883-cü il 10 aprel tarixində türk xalqlarının daha bir qəzeti işıq üzü gördü. "Tərcüman" Rusiya imperiyasında sayca dördüncü qəzet idi ki, türk dilində nəşr edilirdi [8, s.97]. Nəşrə başlayanda iki dildə (türk, rus) buraxılan "Tərcüman" 1905-ci ildən 1918-ci il (nəşri dayandırılanadək) yalnız türk dilində nəşr olunmuşdu. Qəzet 1912-ci ildə "Dildə, fikirdə, işdə birlik" şüarı ilə buraxılır. Bu da türk millərini ortaq dil, ideologiya ətrafında birləşdirmək demək idi. M.Ə.Rəsulzadə İ.Qaspıralı, onun nəşr etdiyi "Tərcüman" barədə bəhs edir: *"...Krımlı qardaşlarımıza demək istəyirik ki, qardaşlar, sarsılmadan yüyürünüz, əski tarixində şanlı hadisələr və yeni tarixində də «Tərcüman» kimi qəzetlərə malik bulunan bir vətənin övladı heç bir zaman haqq etdiyi istiqlal və hürriyyət nemətindən məhrum edilə bilməz! Fəqət "Tərcüman" sizin olduğu qədər, bilirsiniz ki, bizimdir də. Bütün türklərindir. Bilxassə əsir türk ellərinindir. Vətənləri düşmən əlində çeynənən bizlər, nə yazıq ki, böyük ədibə layiq olduğu hörməti təmin edəmirik. Fəqət nə mane olur: biz səflərimizi sıxlaşdıralım. Mücadilələrimizi*

*tənzim edəlim. Mücadiləmizi qüvvətləndirəlim budur, "Tərcüman"a və böyük İsmayıl bəyə layiq ən dəyərli qayğı, ən münasib xatirə!"* [1, s.41-42].

İ.Qaspıralının əsas qayələrindən biri də türk qadınına hürriyət və müsavat təmin etməyin vacibliyidir. Qadının həyatdakı rolunu aydın dərk edən İsmayıl bəy gələcək nəsillərin tərbiyə olunmasında qadının məsuliyyətinin nə dərəcədə əhəmiyyətli olduğunu vurğulayaraq qadının kişilərlə bərabərliyinin vacibliyini təkidlə bildirirdi. Onun fikrinə görə qadınlar həyatı anlamasalar, uşaqlarına həyat şərtlərinə uyğun böyüdə bilməyəcəklər. Millətin yarısı qadınlardır, onlar həyat və fəaliyyətdən uzaq qalarlarsa, millətin həyat və fəaliyyəti də yarım qalar. İsmayıl bəy qadın bərabərliyi ilə bağlı "Qadınlar Ölkəsi " adlı əsər də yazmışdır [8, s.103].

"Tərcüman" ilk vaxtlarda millətə öz dilində elm vermək, Avropa elmlərini və maarifini Rusiya müsəlmanlarına qazandırmağa çalışırdı. İsmayıl bəy Qaspıralı bütün türklərin dildə , fikirdə və işdə birliyinin təmini üçün irşad və aydınlanmaqdan başqa yol görmürdü. Məhz buna görə də avropa üsullu ibtidai və orta məktəblərin yaradılmasına ciddi cəhdlə çalışırdı. Çoxşaxəli fəaliyyət göstərən İ.Qaspıralı 1884-cü ildə yeni üsulla fəaliyyət göstərən məktəb açır. Yeni üsulla fəaliyyət göstərən məkrəbdə tədris üsulu özünü doğruldur. Təhsildəki islahat tezliklə sistem kimi formalaşdı və "üsuli-cədid" adını aldı. Rusiya müsəlmanları arasında savadsızlığın baş alıb getdiyi bir dövrdə 2 illik məktəblərdə 9 aylıq tədris, 6 günlük tədris həftəsi, bir dərs günündə 5 dərs , hər bir dərsin 45 dəqiqə keçilməsi sadə və aydın olduğu qədər gətirdiyi yeniliklər də mədəni inqilaba bərabər idi. Tarixə "cədizm" adı ilə düşmüş bu islahatın nəticəsində 1913-cü ilin 12 sentyabrına qədər təkcə Rusiyada 700-ə yaxın belə məktəblər fəaliyyət göstərirdi [1, s.13].

Uğurlu keçən məktəb islahatı və "Tərcüman"ın nəşri ilə Rusiya müsəlmanlarını cəhalət əzabından qurtaran İ.Qaspıralı din və dil qardaşlarını birləşdirmək yolu tutur. Bu məqsədlə Rusiya müsəlmanlarının, daha sonra isə dünya müsəlmanlarının qurultayını keçirmək ideyasını irəli sürür. Nəhayət, 1905-ci ildə Nijni-Novqorodda Rusiya müsəlmanlarının qurultayı keçirildi. Qurultayda sədrlik edən İ.Qaspıralı millətin maddi-mənəvi tərəqqisi üçün toplantıların davamlı olması üçün səy göstərmişdir. Rusiya müsəlmanlarının ikinci və üçüncü qurultayından sonra da İ.Qaspıralı 1907-ci ildə Misirdə Dünya müsəlmanlarının da toplantısını keçirə bilmişdir. Y.Akçura tərəfindən "Bütün Türkçülük" ərkanının mərkəzi siması [8, s.106] adlandırılan İ.Qaspıralı istər "Tərcüman"la , istər açdığı yeni üsullu məktəblərlə türk millətinin maariflənməsi, dünyəvi elmlərə yiyələnməsi, öz kimliyini dərk etməsi üçün əlindən gələni əsirgəməmişdir.

*"...istənilən avropalının həsəd apara biləcəyi erudisiyaya sahib dünya müsəlmanları arasında nadir insan"* [1, s.14,15] İsmayıl bəy Qaspıralı 24 sentyabr 1914-cü ildə Baxçasarayda vəfat etmişdir. İsmayıl bəy Qaspıralın vəfatından sonra "Tərcüman"da daxil olmaqla bir sıra qəzetlər başsağlığı dərc edir, türk millətinin böyük mücahidinə həsr olunmuş yazılar verirdi. "İqbal" bir nömrəsində Hacı İbrahim Qasımov (15 sentyabr 1914, № 738) İ.Qaspıralıya müraciətlə *"Bizim bir çox həkim, təbiblərimiz var, onlar ayrı-ayrı adamların bədənini müalicə edirlər. Sən də həkim idin və lakin ümumi millətin ruhunu müalicə edirdin"* deyə yazırdı [1, s.17,18].

İsmayıl bəy Qaspıralının ideyaları tərəfdarları tərəfindən hər nə qədər rəğbətlə qarşılansa da, dövründə ciddi etirazlara səbəb olmuşdur. Xüsusən də onun ortaq dil və məktəb islahatına qarşı çıxır, köhnə təhsili qoruyub saxlamağa çalışırdılar. Sovet hakimiyyətinin ilk illərində isə İ.Qaspıralının irsi yüksək qiymətləndirilirdi, hətta Bakıda türkoloqların I qurultayı İ.Qaspıralının şərəfinə keçirilmişdir. Sovet hakimiyyətinin sonrakı illərində xüsusən də, 1937-ci il repressiya dönəmində irsi təhqir olunmuş, pantürkist, panislamist adı ilə unutdurulmağa çalışılmış və məzarı dağıdılmışdı. Kominist rejimi iflas etdikdən sonra isə İ.Qaspıralı şəxsiyyəti yenidən aktuallaşmışdır.

***Ziya Gökalp.*** *"... fikirlərimin atası isə Ziya Gökalpdır.* (M.K.Atatürk) *"Türk millətçiliyinin atası"*, yazıçı, sosioloq, siyasətçi və şair Ziya Gökalp 23 mart 1876-cı ildə Diyarbəkirdə vilayət sənəd məmuru Tevfik Əfəndi və Pirinççizadə ailəsindən olan Zeliha xanımın ailəsində dünyaya gəlmişdi. İlk təhsilini Mərcimək Örtməsi ibtidai məktəbində (1883-1886), orta təhsilini Məktəb-i Rüştiyə Əsgəriyədə (1886-1890) və Məktəb-i İdadi-i Mülkidə (1891-1894) tamamlamışdır. Fəlsəfə və sosial elmlərə maraqlı olan Ziya Gökalp Diyarbəkir qəzetlərində yazılar yayımlamağa başlayır. Hilmi Ziya Ülkən Ziya Gökalpın Diyarbəkir qəzetlərində yazdığı ilk yazılarda Namiq Kamal kimi düşündüyünü qeyd

edir. *"Çeşidli ünsürlərdən mürəkkəb və müslmanlıqdan qüvvətini alan Osmanlı milləti, eyni ilə bir amerikan milləti kimi gərçək ola bilər"* deyirdi [6, s.304]. Atasının ölümündən sonra əmisi tərəfindən yetişdirilir, ərəbcə və farsca öyrənir. Müəllimlərindən olan Yorgi Əfəndidən fransızca dərsi alır və onun təsiri fəlsəfə ilə maraqlanmağa başlayır. İstanbulda Baytar məktəbində təhsil almağa başlayır, ancaq siyasi görüşləri səbəbindən həbs edilir. Diyarbəkirə qaçaraq qohumlarının himayəsinə sığınır və polis təqibindən qurtulur. İstanbula dönərək Baytar məktəbini bitirməyə çalışır, ancaq məktəbin son sinifində siyasi çıxışlarından ötürü qovulur.

Diyarbəkirə dönərək vilayət idarəsində çalışmağa başlayır və Dikarbəkir qəzetində yazılar dərc etdirir. "Mehmet Ziya", "Ziyaəddin" və "Ziya" adları ilə şeirlər yayınlayır. Diyarbəkirdəki dönəmdə "Peyman" adlı qəzet çıxarır, "İttihad və tərəqqi" ilə maraqlanmağa başlayır. Ziya Gökalp 1895-ci ildə intihara təşəbbüs edir. İntihar girişimi ilə bağlı bir neçə versiya mövcuddur. Bunlar arasında maddi imkansızlıq və düşüncələrinin yaşadığı cəmiyyətdən fərqli olması əsas göstərilir. Hilmi Ziya Ülkən Ziya Gökalpın intiharı ilə bağlı *"Görünüşdə bu fəlsəfi bir böhrandı. Yorgi Əfəndi fəlsəfə öyrədir, yunan filisoflarını tanıdırdı. Bir yandan da ailə baxımından dinçi və mühavizəkar idi. Bu iki yön arasında qalan Ziya, şiddətli bir inanc krizi keçirdi, qurşun qafasında qaldı"* [6, s.304]. İlk dövrlərdə yazdığı məqalələrdə Osmanlı milliyətçisi mövqeyindən çıxış edir, lakin bu sırada kültürünü genişlətməyə çalışır [6, s.305]. Bu sırada "Peyman" qəzetinin sahibi,müdürü və əsas yazarı idi. Yazılarında Ziyadan başqa "Vədat", "Tevfik Sedat", "Mehmet Mehdi", "Gökalp" kimi adlar istifadə edirdi [6, s.305].

Ziya Gökalp Selanikə "İttihad və Tərəqqi" konqresinə Diyabəkirdən bölgə üzvü olaraq gəlir. "Gənc qələmlər" dərgisində məqalə və şeirlərini yayımlatmağa başlayır. Türk dilini ərəb və fars qramatikasının təsirindən qurtarmaq, xalq dilində yaşayan türkcədə qarşılığı olmayan kəlimələri türkçə qəbul etmək və İstanbul şivəsini əsas almaq "Gənc qələmlər" dərgisinin ideologiyasının əsasını təşkil edirdi. Dünyadakı türklərin birləşməsi, güclü bir türk dövlətinin qurulması fikirlərinin əks olunduğu "Altun Dastanı" adlı əsərini 1911-ci ildə "Gənc qələmlər" dərgisində yayımlayır. Ziya Gökalp 1912-ci ildə dərnəyin mərkəzi İstanbula köçüncə, İstanbula gəlir. Diyarbəkirdən Məclis-i Məbusana seçilir. Tezliklə məclis bağlanılır, Ziya Gökalp ədəbiyyat fakültəsində dərs verməyə başlayır. Bu vaxt Ziya Gökalpa Maarif Nazirliyi postu təklif olunur, lakin o, Maarif Nazirliyi postunu qəbul etmir, 1915-ci ildən İstanbul Universiteti Fəlsəfə bölümündə sosiologiya dərsi verməyə başlayır. İstanbul Üniversitetinin ilk sosiologiya professoru olan Ziya Gökalp türk universitetlərinə sosiologiya elmini tanıdır.

Düşüncələri Türkçülük ətrafında toplanan Ziya Gökalp "Türk ocağı"nın qurucuları arasında yer almış, "Türk ocağı", "Yeni məcmuada" yazılar yazmağa başlayır. Ziya Gökalp 1914-cü ildə "Kızıl Elma", 1918-ci ildə "Türkləşmək, İslamlaşmaq, Müasirləşmək" əsəri və "Yeni həyat" adlı şeir kitabını yayımlayır. "Türkləşmək, islamlaşmaq, müasirləşmək" əsərində Ziya Gökalp dövründə üç cərəyanın (türkləşmək, islamlaşmaq, müasirləşmək) geniş yayıldığını və ayrı fəaliyyət göstərdiyini qeyd edir. Bu cərəyanların hər üçünü də bir yerdə istifadə etməyin mümkünlüyünü və vacibliyini vurğulayaraq: "çağdaş bir İslam Türklüyü yaratmalıyıq" [10, s.15] deyir. Z.Gökalp milliyyət fikrinin oyanmağının vacibliyini vurğulayır və qeyd edir ki, milliyət duyqusu oyanar-oyanmaz sahiblərində yardımlaşma, fədakarlıq, mücadilə, hisslərini artıraraq əxlaqi, lisani, ədəbi, iqtisadi və siyasi yüksəlmələrə səbəb olur [10, s.8]. Z.Gökalp islamlaşmaq zərurətini izah edərdən türklərin özlərini İslam mədəniyyətindən saydıqlarını qeyd edərək türk qövmü kimi, türk lisanının da İslam mədəniyyətinə girdikdən sonra islami bir şəkil aldığını yazır, türklüklə İslamın biri "milliyət", digəri "millətlərarasılılıq" olduğu üçün aralarında münaqişə olmadığını vurğulayır və türkçülüklə islamlaşmağın bir-birinə bağlı olduğunu anlatmağa çalışır [10, s.13-14]. Ziya Gökalpa görə müasirlik "Bu gün bizim üçün çağdaşlaşmaq demək, avropalılar kimi gəmilər, avtomobillər, təyyarələr düzəldib istifadə edə bilmək deməkdir; çağdaşlaşmaq şəkilcə və yaşayışca avropalılara bənzəmək deyildir. Nə zaman bilgi və sənət alıntısı üçün avropalılara gərək duymadığımızı görsək, o zaman çağdaşlaşmış olduğumuzu anlayarıq" [10, s.14] deməkdir.

Ziya Gökalp Birinci Dünya Savaşında Osmanlı dövlətinin yenilməsindən sonra ingilislər tərəfindən həbs olundu, "erməni soyqırımı" iddiaları ilə yarqılandıqdan sonra digər ittihadçılarla birgə Malta adasına sürgünə göndərilir. Sürgündə olduğu dönəmdə ailəsinə məktublar ünvanlayır, yazdığı məktublar daha sonralar "Lemnos və Malta məktubları" adı ilə nəşr olunur. Ziya Gökalp iki illik sürgün dönəmindən sonra İstanbula dönür üniversitetdə yenidən dərs vermək istəsə də, istəyi qəbul edilmir. Əhməd

bəy Ağaoğlunun dəstəyi ilə "Kiçik məcmuəni" çıxarır. 1923-cü ildə Maarif Vəkaləti Təlif və Tərcümə Heyəti Başqanlğına təyin olunur. Eyni il "Türkçülüyün əsasları" adlı əsərini yayımlayır. Əsərdə Z.Gökalp "türkçülük nədir?" sualına *"Türkçülük, türk millətini yüksəltmək deməkdir"* [9, s.19] cavabını verir. *"... türk milliyətçiliyi fikrinin fikriyyət sahəsində tənziminə, sistem halına gətirilməsinə də "Türk ocağı"ndakı konfrans və müsahibələri ilə, "Türk Yurdu"ndakı məqalələri ilə xüsusən Ziya Gök Alp bəy məşğul olurdu"* [8, s.264]. Türkiyə Böyük Millət Məclisinə Diyarbəkir məbusu olaraq seçilən Ziya Gökalp Ankaraya yerləşir. Ömrünün sonuna qədər çalışmalarına davam etmiş, dünya klassiklərinin türk dilinə çevrilib yayımlanması üçün böyük işlər görmüşdür. "Türk milliyyətçiliyinin atası" adlandırılan Ziya Gökalp 25 oktyabr 1924-cü ildə İstanbulda dünyasını dəyişir.

***Nəticə.*** Türk milləti tarixi Əli bəy Hüseynzadə, Əhməd bəy Ağaoğlu, İsmayıl bəy Qaspıralı, Ziya Gökalp kimi xalqdan millətə gedən yolda bir an belə dayanmadan çabalayan şəxsiyyətlərlə zəngindir. Hansı ki , bu şəxsiyyətlər xalqın özünüdərki, milli oyanışı, maarifi üçün çalışmış millətə gedən yolun memarlarına çevrilmişlər. İstər əsərlərində qələmə aldıqları məsələlər, istər də müxtəlif elm sahələrində göstərdikləri xidmətlər bu şəxsiyyətlərin tariximizdə nə dərəcədə əhəmiyyətli rola malik olduqlarını göstərir. XIX əsr kimi qaynar mühitdə belə şəxsiyyətlərin formalaşması türk milləti tarixinə istiqamət vermiş, Azərbaycan Xalq Cümhuriyyəti Türkiyə Cümhuriyyəti kimi türk tarixində izi olan dövlətlərin ideoloji əsasını hazırlamışdır. Türk qövmünün tərəqqisi üçün bütün çətinliklərə baxmayaraq fəaliyyət göstərən, öz türk xalqları üçün ortaq bir qayə yaradan bu şəxsiyyətlər türk millətini birlik yoluna gətirməyə çalışmışlar nəticədə bu gün türk milləti onları birləşdirən "Türkçülük", "Turançılıq" ideologiyası ətrafında toplanmışlar. Tarixi yaradan, ona yön verən şəxsiyyətlərdir. Türk milləti tarixində də belə şəxsiyyətlər saysız-hesabsızdır.

ƏDƏBİYYAT

1. Abid Tahirli. Bütün türklərin tərcümanı. (təkrar və təkmilləşdirilmiş nəşr). Bakı: Ozan nəşriyyatı, 2012, 312 s. – http://anl.az/el/Kitab/271113.pdf [30.04.2024].
2. Əhməd bəy Ağaoğlu. Seçilmiş əsərləri. Bakı: Şərq-Qərb, 2007, 392 s. - http://anl.az/el/emb/AGAOGLU/eserleri.htm [30.04.2024].
3. Əhməd bəy Ağaoğlu. Şuşa, Peterburq və Paris xatirələri (Atatürkə iki məktub). Bakı: Çapar Yayınları, 2019, 124 s. - http://anl.az/el/emb/SHUSA/shusha/Azf-318523.pdf [30.04.2024].
4. Əli bəy Hüseynzadə. Seçilmiş əsərləri. İki cilddə. I cild. Bakı: Çaşıoğlu, 2008, 580 s.- http://web2.anl.az:81/read/page.php?bibid=528949&pno=1 [30.04.2024].
5. Əli bəy Hüseynzadə. Seçilmiş əsərləri. Bakı: Şərq-Qərb, 2007, 480 s.
6. Hilmi Ziya Ülken. Türkiyede çağdaş düşünce tarihi. İstanbul: Ülken Yayınları, 1992, 511 s. - https://www.academia.edu/44207227/Hilmi_Ziya_%C3%9Clken_T%C3%BCrkiyede_%C3%87a%C4%9Fda%C5%9F_D%C3%BC%C5%9F%C3%BCnce_Tarihi [30.04.2024].
7. Məmməd Səid Ordubadi. Qanlı illər. Bakı: Qafqaz, 2007, 119 s. - https://ebooks.az/en/book/6iAfVqud [30.04.2024].
8. Yusuf Akçura. Türkçülüğun tarihi. İstanbul: Ötüken Neşriyat AŞ, 2021, 271 s.
9. Ziya Gökalp. Türkçülüğün esasları. Ankara: Nilüfer Yayıncılık, 2018, 192 s.
10. Ziya Gökalp. Türkleşmek, İslamlaşmak, Muasırlaşmak. Ankara: Nilüfer Yayıncılık, 2018, 87 s.

**SHAHLA AHMEDOVA**
*Baku State University SABAH Groups*
*III year student of the speciality of History teacher*

## LEADERS OF TURKIC SOCIAL-POLITICAL OPINION: ALI BEY HUSEYNZADE, AHMED BEY AGAOGLU, ISMAYIL BEY GASPIRALI, ZIYA GOKALP

The 19th century is an important period in the history of the Turkic nation when the national awakening took place, the process of national consciousness was experienced and the idea of nationality emerged. The concept of nation, which has taken on different meanings at different times, today

means human communities living in the same region, speaking a common language, having a single economic unity and having a mental self-consciousness. The common language, unified economy, territory, mental self-awareness are the basic conditions for the creation, development and existence of a nation. In the 19th century, the conditions that emerged in the Turkic nation led to the awakening of national thought. The idea of nationality, which emerged in the Turkic peoples geographically close to Europe, took shape in the Western Turks and raised to the level of Turkism. As a result of the efforts of the leading representatives of Turkism, Ali bey Huseynzade, Ahmed bey Agaoglu, Ismayıl bey Gaspiralı and Ziya Gokalp, Turkism was formed as an ideology and reached the stage of development. In order to understand the essence of Turkism, it is necessary to know the leading figures of Turkism and the conditions under which they emerged.

*Keywords:* Turkism, Ali bey Huseynzade, Ahmed bey Agaoglu, Ismayıl bey Gaspiralı, Ziya Gokalp.

*Daxil olma tarixi*: 30.04.2024-cü il.
*Çapa imzalanma tarixi*: 10.05.2024-cü il.

**Türk dünyası gənc tədqiqatçılar dərnəyinin Araşdırmaları**
**Studies of the Turkic World Young Researchers Association**

**№2(10) 2024, 95-98**

UOT 94

**ÜMİD MİKAYILOV**
*Bakı Dövlət Universiteti SABAH Qrupları*
*Tarix müəllimliyi ixtisası üzrə III kurs tələbəsi*
**umidmikail@gmail.com**
ORCID ID : 0009-0001-3062-6755

# BÖYÜK FRANSA İNQİLABININ OSMANLIYA TƏSİRLƏRİ

*Elmi rəhbər:*
tarix üzrə fəlsəfə doktoru Sevinc Ruintən

*Bu araşdırmada tarixin ən mürəkkəb dönəmlərindən biri olan XVIII əsrin sonunda baş vermiş Fransa burjua inqlabı və onun Osmanlıya təsirlərindən danışılır. XVIII əsrin sonu və sürətlə dəyişən Avropanın qonşusu Osmanlı bu yeniliklərə hazırdırmı, yaxud bu yeniliklərlə ayaqlaşa biləcəkmi? Məqalədə bu suallara aydınlıq gətirilməsinə cəhd edilmişdir.*

*Açar sözlər:* Böyük Fransa burjua inqilabı, Nizami Cədid islahatları, Tənzimat islahatları, 1876-cı il Konstitusiyası, Osmanlıçılıq, Türkçülük, İslamçılıq.

***Giriş.*** XVIII əsr Fransa burjua inqilabı sadəcə Fransanın deyil, ümumilikdə dünya tarixinin inkişafına çox mühüm təsir göstərmiş hadisələrdən biri hesab edilir. Belə ki, inqilabın təsiri yalnız Fransada, və ya Avropada deyil, həmçinin Avropanın sərhədlərindən çox kənarda – Mərkəzi Asiyada, Şimali və Cənubi Amerikada belə dəyişikliklərə səbəb oldu. Coğrafi baxımından Fransaya daha yaxın olan ölkələr, təbii olaraq, bu inqilabın təsirini digərlərindən daha çox hiss etmişdilər. Bu inqilab yeni cəmiyyət, yeni siyasət, yeni ideyalar formalaşdırdı, ənənəvi olan bir çox qayda və qanunlar dəyişikliyə uğradı. Və bu qədər yenilik isə bərabərində bir də irticanı, əksinqilabı gətirmiş oldu.

Tədqiqatçıların qənaətinə görə, Fransa inqilabının ən böyük təsirlərindən biri, bəlkə də birincisi millətçilik ideyalarının meydana çıxması və yayılması olmuşdur. Və bu baxımdan, hazırki məqalədə Fransa inqibının tərisi ilə Osmanlı cəmiyyətində baş verən dəyişikliklərdən, mövcud olmuş ideya-siyasi cərəyanlardan bəhs ediləcəkdir.

***Osmanlı cəmiyyətində islahat cəhdləri***. Fransız inqlabının baş verdiyi dönəm Osmanlıda Sultan III Səlimin hakimiyyəti (1789-1807) dövrünə təsadüf edir. III Səlim Osmanlı sultanları içərisində ən açıq fikirli və real düşüncəli sultanlardan biri olmuşdur. Belə ki, o, Osmanlının real vəziyyətini anlamış və onu əvvəlki qüdrətinə qaytarmaq üçün çox işlər görmüşdür. III Səlimin Nizami Cədid (Yeni qayda, yeni dönəm) islahatları məhz bununla bağlı olmuşdur. İslahatın əsas məğzində ordu dayansa da, bu islahata vergilərin müəyyənləşdirilməsi, dövlət idarəetməsinin təkmilləşməsi kimi tədbirlər də daxil idi (4, s.119). Nizami Cədid islahatları ilə bağlı Türkiyə tarixşünaslığında mövcud olan fikirləri nəzərdən keçirərsək, Kahraman Sakulun bu islahatların sadəcə ordu islahatı olmadığını, həmçinin qərbləşmə istiqamətinin olduğu kimi, ortodoks İslam qaynaqlarnın da olduğunu; Fahri Ç. Derinin islahatın 72 fərqli sahəni əhatə etdiyini qeyd etdiklərini görmək mümkündür. Bütün bu deyilənləri ümumiləşdirsək, Nizami Cədid islahatları Osmanlının Avropa paytaxtlarında o zamana qədər mövcud olmamış daimi səfirliklərinin açılması, ölkənin inzibati bölgüsü, idarəçilikdə Məşvərət Məclislərinin tez-tez çağırılması, ticarət və siyasi həyatı tənzimləyən yeni qanunların qəbulu və bir çox digər məsələləri əhatə etdiyi qeyd edilməlidir. Ümumilikdə, görülən işlərin nəticəsini bir neçə nümunədə nəzərdən keçərə bilərik. Məsələn, islahatın qatı tərəfdarlarından olan Mahmud Raif Əfəndi islahat vasitəsilə açılan Azadlu Barıtxanası haqqında yazır ki, *barıtxana o qədər çox barıt istehsal edirdi ki Osmanlı da çağdaş Avropa ölkələri kimi digər ölkələrə barıt sata bilirdi* (10, s.30).

Araşdırmaçı Berrak Burçak III Səlimin elm və təhsil siyasətinin olduğunu yazır. Bu siyasətin əsas icraatları Avropa üsullu hərbi məktəblər açmaq, xaricdən mütəxəssislər gətirmək və şərq dillərinin yerinə qərb dillərinin tədrisi idi. Berrak Burçak Seyyid Mustafanı nümunə göstərərək, Osmanlının bu dönəmdə yeni intellektual aydınlarının da formalaşdığını deyir.

Osmanlının Avropanın aparıcı paytaxlarında daimi səfirliklərinin açılması məsələsinə gəlincə, qeyd edilməlidir ki, XVIII əsrin sonuna qədər Osmanlı xarici siyasəti olduqca məhdud işləyirdi. Bunun bir sıra səbəbləri vardı. Birinci səbəbi bu idi ki, Osmanlı dövlət aparatında xarici siyasətlə bağlı xüsusi fəaliyyət göstərən hər hansı bir dövlət məmuru, yaxud vəzir yox idi. Xarici siyasətlə bağlı bütün məsələləri Rəis-ül Küttab görürdü. Osmanlının hər hansı bir dövlətdə daimi səfirliyinin olmamasına baxmayaraq, əksər Avropa dövlətlərinin Osmanlıda səfir və konsullluqları olmuşdur ki, onlar da yalnız səfirlik işi ilə məhdudlaşmamış, dövlət içindəki ictimai vəziyyətlə bağlı məlumatları da ötürmüşlər. Məsələn, XVI-XVII əsrlərdə Avstriyanın Osmanlı daxilində açdığı elçiliklərin sayı 120 idi. Ümumilikdə götürsək, hər zaman Avropalı dövlətlərin elçilərinin sayı Osmanlının Avropadakı elçilərinin sayından qat-qat çox olmuşdur. Bu, o dövrdəki Osmanlı xarici siyasəti və diplomatiyasının ümumi mənzərəsi idi. Osmanlı dövlətinin başqa dövlətlərdə səfirlik, yaxud konsulluq açmamasının səbəbi ilk növbədə, İslam dövləti olması ilə bağlı idi. Osmanlı dövlətinin dini cəhətdən kafir saydığı ölkələrlə məsafə saxlamaq istəyi, onlarla daimi sülhün mümkün olmadığı inancı onun xarici siyasətində bir çox maneələrə gətirib-çıxara bilirdi. Sultan III Səlim isə bu məsələlərdə ağıllı qərar verərək önəmli saydığı ölkələrdə daimi elçiliklər açdı. 1792-ci ildə London, Paris, Viyana, Berlin kimi şəhərlərdə Osmanlı elçilikləri fəaliyyətə başladı. Bununla da Osmanlı diplomatiyası mahiyyətcə yeni keyfiyyət qazandı. Buna qədər Osmanlı dövləti xarici siyasətlə bağlı xəbərləri tacirlərdən alırdı. İndi isə daimi elçi həmin ölkədəki ictimai siyasi vəziyyəti öz dövlətinə bildirirdi. Daimi elçiliklərin açılması bəhs olunan dövrdə Osmanlı xarici siyasətinin vəziyyətini qismən də olsa yaxşılaşdırdı. Bəhs etdiyimiz dövrdə Rəis-ül Küttab Atif Əfəndinin "Muvzene-ı Politika-i Avrupa" layihəsi saray tərəfindən bəyənilmiş və xarici siyasətdə əsas prioritet olmuşdur.

Lakin ümumilikdə III Səlimin cəhdlərinə baxmayaraq, islahatlar uğursuzluqla nəticələndi, yaxud gözlənilən nəticələr əldə edilmədi. Araşdırmaçılar uğursuzluğun əsasən aşağıdakı səbəblərini vurğulayırlar:

1. Sultan Səlimin qətiyyətsizliyi və islahat prossesini ləng aparması;
2. İfrat mühafizəkar kəsimin islahatlara qarşı çıxması (Mühafizəkarlar yeni qaydalara qarşı idilər. Məsələn sultanın əmri ilə hərbi məktəblərdə ərəb dili deyil, fransız dili tədris olunmalıydı və s.) (4, s.120);
3. Yeniçərilərin islahatdan narazı qalması və sultana qarşı qruplaşması, onu taxtdan endirməsi.

Lakin Səlimin başladığı bu islahatlar qısa bir fasilədən sonra Sultan II Mahmudun dövründə (1808-1839) "Sened-i İttifak", yeniçəri ocağının ləğvi; I Əbdülməcidin dövründə (1839-1861) 1839 və 1856-cı il tənzimat islahatları; II Əbdülhəmidin dövründə (1876-1909) Konstitusiyanın qəbulu və s. ilə bu və ya digər dərəcədə davam etdirilmiş; 1908-ci ildə Gənc türklər inqilabı ilə; nəhayət etibarı ilə isə I Dünya müharibəsindən sonra Cümhuriyyətin elanı ilə nəticələnmişdir.

***Millətçilik ideyalarının Osmanlıya təsiri***. 1789-cu il Fransa inqlabının bir də millətçilik ideyalarının meydana çıxmasına səbəb olduğunu qeyd etmişdik. Təbii ki, bu məsələ çoxmillətli imperiya olan Osmanlıdan da yan keçmədi. Bir tərəfdən Osmanlının Balkanlarda olan mülklərini ələ keçirməkdə maraqlı olan Rusiya, Avstriya-Macarıstanın, digər tərəfdən də bütünlükdə Osmanlını zəiflətməkdə maraqlı olan qüvvələrin təhriki ilə millətçilik hərəkatları, üsyan və qiyamlar baş qaldırırkən, üçüncü tərəfdən də Osmanlının əvvəlki qüdrətini geri qaytarmaq niyyətində olan qüvvələr arasında "Osmanlını qurtarmaq" niyyəti ilə müxtəlif ideya-siyasi cərəyanlar formalaşmağa başlamışdı. Bu baxımdan millətçilik ideyalarının yayılmasının nəticəsində:

1. 1804-cü ildən başlayaraq Osmanlıda serb, yunan, bolqar və digər üsyan və qiyamların baş verdiyini görürük. Hətta 1821-ci ildə başlamış olan, böyük dövlətlər tərəfindən dəstəklənən, Osmanlı baxımından üsyan, yunanlar baxımından milli-azadlıq hərəkatı nəticəsində 1831-ci ildə yunanlar Osmanlıdan ayrılıb müstəqil dövlətlərini qurmağı bacaran ilk millət oldular. Sonrakı illərdə bunun davamı gəldi.
2. Osmanlının əvvəlki qüdrətini qaytarmaq istəyən qüvvələrin "Osmanlını qurtarmaq" cəhdləri nəticəsində bir sıra ideya-siyasi cərəyanlar formalaşdı ki, Osmanlının XIX-XX əsr tarixi dövrü bütünlükdə bu cərəyanların tərəfdarları arasında mübarizə çərçivəsində davam etdi.

Xaricdə yaşayan, yaxud təhsil alan Osmanlı aydınları öz ölkələrinin qərbdən zəif olmasını görürdülər. Onlar ölkənin zəifləməsinin səbəblərini əsasən mütləqiyyət quruluşunda və Osmanlının yeniliklərə qapalı olması, texnoloji baxımdan geri qalmasında görürdülər.

Aşağıda bəhs edəcəyimiz cərəyanların əsas məqsədi eynidir: Osmanlını əvvəlki qüdrətinə qaytarmaq, hazırki qərb ölkələri səviyyəsinə çatdırmaq, Osmanlını vahid, bölünməz formada saxlamaq. Bu cərayənların məqsədləri eyni olsa da, fəaliyyət formaları fərqlidir. Müəyyən dönəm Osmanlı aydınları İttihadi-İslam yolunu tutsalar da, sonra bu Türkçülük ideologiyasına çevriləcəkdi. Cərəyanlar haqda danışmazdan öncə onu da qeyd etmək lazımdır ki, məqsədləri Osmanlını əvvəlki gücünə qaytarmaq olan bu cərəyanlar faktiki olaraq onun çöküşünə səbəb oldular. Lakin eyni zamanda, bu cərəyanlar gənc Türkiyə Cumhuriyətinin qurulması üçün əsas ideologiya olacaqdılar.

*Yeni Osmanlılar / Gənc Osmanlılar / Osmanlıçılıq*. Fransa inqlabı nəticəsində formalaşmış cərəyanlardan biri Osmanlıçılıq olmuşdu. Bu cərəyanın əsas məqsədi Osmanlı sərhədləri daxilində yaşayan etnik, dini, coğrafi cəhətdən fərqli toplumların Osmanlı milləti adı altında birləşdirilməsi idi. Əslində bu ideologiya Osmanlı tarixində əsas rol oynamış fikirdir və Paks Ottomananın güncəl versiyasıdır. İdeologiyanın ilk qurucuları Süphi Paşazadə, Əhməd Bəyzadə, Yusuf Paşazadə, İskəndər Bəyzadə kimi şəxslər olmuşdur. Namiq Kamal, İbrahim Şinasi, Ziya Paşa kimi adlar sonra qoşulsalar da, ideologiyanın öncül şəxlərinə çevrilirlər (3, s.8). "Tasviri-Efkar", "Muhbir", "Hüriyyet" və "Tercümanı-Ahval" kimi qəzetlər bu ideologiyadan çıxış edərək xalqı maarifləndirirdi (1, s.7). Osmanlıçılığı müdafiə edən Osmanlı aydınlarının böyük çoxluğu Qərb mədəniyyəti ilə tanış olmuş, Avropada olmuş insanlardır. Bununla belə, Osmanlıçılıq ideologiyası XX əsrin əvvələrində öz əhəmiyyətini itirir. Belə ki,

1. İdeologiya millətçilik fikirlərinin qarşısını ala bilmədi;
2. Balkan yarımadasında serb, bolqar, rumların türklər əleyhinə soyğunçuluq və quldurluq etməsi;
3. Hicazda Şərif Hüseynin, digər bölgələrdə isə Suud və vəhabilərin azadlıq mübarizəsi.

*Türkçülük* ideologiya olaraq Tənzimatdan (1839) sonra meydana gəlsə də, siyasi şəkil alması ikinci Məşrutiyyətdən (1908) sonra olmuşdur. Müəyyən zaman kəsimində Osmanlı aydınları türkçülüyə münasibəttdə məsafəli idilər. Onlar həmin dönəm İslamçılıq və Osmanlıçılıq ideologiyasını yeganə çıxış yolu bilirdilər. Lakin gün geçdikcə çoxalan milliyətçi cərəyanlar, sadəcə qeyri-müslimlərlə kifayətlənmir, həm də eyni dindən olan kürdlər və ərəblərə də sirayət edirdi. Məhz bu zaman Türkçülük yeganə çıxış yolu olaraq görüldü. Türkçülüyün ən öndə gələn şəxlərindən Yusuf Akçura, Ziya Göyalp, Əli bəy Hüseynzadə, Əli Suvainin adlarını çəkmək olar. Ziya Göyalp isə Türkçülüyün əsasları kitabında Əhməd Vefiq Paşanı və Süleyman Paşanı türkçülüyün ilk ataları kimi qeyd edir (9, s.13). Qeyd edək ki, Osmanlıda siyasi türkçülük ideyalarının formalaşması və inkişafına Rusiya türklərinin çox böyük təsiri olmuşdur.

Ümumilikdə, mövcud olan ideya-siyasi cərəyanların hamısı bir-biri ilə əlaqəli olmuşdur. Türkçülüyün öndə gedən aydınları Qərbçilik (Batıcılık), Osmalıçılıq, İslamçılıq kimi cərəyanlardan faydalanmışdır. Ziya Göyalp yazırdı ki, *"Türklər sosial inkşafın 3 mərhələsində bir-birinə bənzəməyən 3 müxtəlif mədəniyyət dairəsinə girmək məcburiyyətində qaldılar"*. İlk 2 mədəniyyətin Uzaq Şərq və İslam mədəniyyəti olduğunu söyləyən Ziya Göyalp, müasiri olduğu dövrdə də türklərin Qərb mədəniyyətinə daxil olmalarını vacib saymışdır (9, 56-57).

Türkçülüyün öndər şəxslərindən biri olan Yusuf Akçura "Üç Tərzi Siyasət" əsərində həmin dövrdə populyar olan 3 cərəyanın (osmanlıçılıq, islamçılıq, türkçülük) müqayisəli təhlilini vermişdir. Yusuf Akçura türkçü olsa da, digər 2 cərəyanı qiymətləndirə bilmişdir. Lakin Yusuf Akçura digər cərəyanların həmin dövr sosioloji reallığını əks etdirmədiyi səbəbindən Türkçülüyün əsas ideoloji xəttə çevrilməsindən bəhs edir (8, s.7).

Nəticə etibarı ilə, Fransa inqlabı vasitəsilə Osmanlı cəmiyyəti fərqli ideologiyalara şahidlik etdi. Yuxarıda deyildiyi kimi, müxtəlif cərəyanlar (yeni osmanlıçlıq, islamçılıq, qərbçilik, türkçülük, liberalzm) meydana gəlsə də, onların vahid məqsədi vardı: tənəzzüldə olan dövlətin süqutunun qarşısını almaq və onu qüdrətli görkəminə geri qaytarmaq.

***Nəticə***. 1789-cu ildən başlanan Fransa inqlabının təsirləri həmin tarixdən 1922-ci ilədək, yəni Osmanlı dövlətinin çöküşünə qədər Osmanlı daxili və xarici həyatında, həmçinin 1923-cü ildə Cümhuriyyətin elanında önəmli rol oynadı. Bu inqlab sadəcə Osmanlıda deyil, bütün bəşər tarixinə dəyişiklər etdi. Osmanlıda XVIII əsrin əvvəllərindən etibarən yenilənmə istiqamətində müəyyən addımlar

atılsa da, bu tədbirlər heç bir nəticə vermirdi. İnqlabın gətirdiyi millətçilik, cümhuriyyətçilik anlayışlarının təsirini Osmanlı düşüncə həyatında da görürük. Bu anlayışlar əsasən Türkçülük və Qərbçilik cərəyanlarında təşəkkül tapırdı. III Səlimin və II Mahmudun dönəmində Avropaya təhsil üçün göndərilən tələbələr Avropa və qərb mədəniyyətini mənimsəmiş və gələcəkdə yuxarıda bəhs etdiyimiz cərəyanların əsas iştirakçılarına və öncülərinə çevrilmişdilər. Məhz onların fəaliyyəti nəticəsində Osmanlıda 1876-cı ildə ilk Konstitusiya qəbul edildi, bir qədər sonra, yəni XX əsrin əvvəllərində İttihaq və Tərəqqi hakimiyyəti quruldu, daha sonra I Dünya müharibəsinin məğlub dövləti Osmanlının davamında Milli Qurtuluş Savaşının qalibi Ankara hökuməti tərəfindən Cümhuriyyət quruldu. Artıq qeyd etdiyimiz kimi, Türkçülük və Qərbçilik Osmanlını qurtarma baxımından uğursuz olasalar da, Cümhuriyyətin qurulmasının əsas ideyaları oldular.

## ƏDƏBİYYAT

1. Fahri Atasoy. Osmanlının dağılmasını engelleme çabası olarak Üç Siyasi Fikir Hareketi // Ankara Üniversitesi Osmanlı tarihi Araştırma ve Uygulama Merkezi Dergisi, 45 /Bahar 2019, 1-21. URL: https://dspace.ankara.edu.tr/server/api/core/bitstreams/c40a4021-1600-41bf-a163-c254ced13145/content [30.04.2024].
2. Français Georgeon. Bir De Adelet: Jön Türkler ve Fransız Devrimi (Çeviri: Özgür Adadağ) // Muhafazakar Düşünce. Sayı 11, Kış 2007, s.175-184. URL: https://dergipark.org.tr/tr/download/article-file/1187743 [30.04.2024].
3. İlyas Söğütlü. Jön Türkler ve Türkiyenin Batılılaşması // Eskişehir Osmangazi Üniversitesi Sosyal Bilimler Dergisi, Yıl: 2010, Cilt: 11, Sayı: 1, s.1-28. URL: https://dergipark.org.tr/tr/download/article-file/113261 [30.04.2024].
4. Kahraman Şakul. Nizamı-Cedid düşüncesinde batılılaşma ve İslami modernleşme // Divan İlmi Araştırmalar, Yıl: 2005, Sayı: 19, s.117-150. URL: https://dergipark.org.tr/tr/download/article-file/254484 [30.04.2024].
5. Mehmet Ali Karaman. Fransız İhtilalinin Osmanlı İmparatorluğuna Etkileri // SDÜ Fen-Edebiyat Fakültesi Sosyal Bilimler Dergisi, Ağustos 2018, Sayı: 44, s.62-79. URL: https://dergipark.org.tr/tr/download/article-file/531171 [30.04.2024].
6. Okan Berkcan. Fransız İhtilalinin Osmanlı Siyasal ve Düşünsel Hayatı Üzerine Etkileri // Bartın Üniversitesi Edebiyat Fakültesi Dergisi, Yıl: 2023, Cilt: 8, Sayı: 1, s.151-159. URL: https://dergipark.org.tr/tr/download/article-file/3118315 [30.04.2024].
7. Mehman Ağayev.Sevinc Əliyeva. Osmanlı tarixi (dərs vəsaiti). Bakı: “AVROPA” nəşriyyatı, 2021, 565 s.
8. Yusuf Akçura. Üç Tarz-ı Siyaset. Ankara, Türk Tarih Kurumu Basımevi, 1976, 55 s.
9. Ziya Göyalp. Türkçülüyün əsasları. Bakı, MAYAK nəşriyyatı, 2024, 175 s.
10. Kemal Beydilli, İlhan Şahin. Mahmud Raif Efendi ve Nizamı-Cedide dair Eseri. Ankara, TTK, 2001, 245 s.

**UMID MIKAYILOV**
*SABAH Groups of Baku State University*
*Third year student majoring in history teaching*

## THE INFLUENCE OF THE GREAT FRENCH REVOLUTION ON THE OTTOMAN EMPIRE

This study focuses on one of the most complex periods in history, the French bourgeois revolution at the end of the 18th century,and its effects on the Ottoman Empire.In the late 18th century, is the Ottoman Empire, the neighbor of a rapidly changing Europe, ready for these innovations, or will it be able to adapt to them?The article has attempted to clarify these questions.

*Keyword:* Great French bourgeois revolution, Nizami Jadid reforms, Tanzimat reforms, 1876 Constitution, Ottomanism, Turkism, Islamism.

*Daxil olma tarixi*: 30.04.2024-cü il.
*Çapa imzalanma tarixi*: 10.05.2024-cü il.

№2(10) 2024, 99-102

UOT 94(479.24); UOT 94

**ZENFİRA MANAFOVA**
*AzərbaycanUniversitetinin*
*Azərbaycanın qədim və orta əsrlər tarixi üzrə I kurs magistrantı*
**zemamanafova48@gmail.com**

# SƏLCUQLAR DÖVRÜNDƏ AZƏRBAYCAN ƏRAZİSİNDƏN TOPLANAN VERGİLƏR

*Elmi rəhbər:*
tarix elmləri doktoru Yaqub Mahmudov

*Azərbaycanda Səlcuqlar dövrü əhəmiyyətli mədəni, siyasi və memarlıq inkişaf dövrü olmuşdur. Orta Asiyadan olan türk müsəlman sülaləsi olan Səlcuq türkləri eramızın XI-XIII əsrlərinə qədər Azərbaycan üzərində öz təsir və nəzarətlərini həyata keçirmişlər. Bu dövrdə onlar inzibati islahatlar apardılar, İslam mədəniyyətini və təhsilini inkişaf etdirdilər və bölgədə davamlı memarlıq irsi qoydular. Azərbaycanda Səlcuqlar dövründə vergitutma idarəetmənin və gəlirlərin yaradılmasının əsas aspekti idi. Əhalidən müxtəlif növ vergilər, o cümlədən torpaq vergisi (xərəc), qeyri-müsəlmanlardan vergi (cizyə), ticarət və ticarət vergiləri, gömrük rüsumları, kənd təsərrüfatı məhsullarından əldə edilən gəlir vergisi (uşr) və bəzən hərbi vergilər toplanırdı. Bu vergilər hökumətin maliyyələşdirilməsinə, ictimai asayişin qorunmasına və hərbi səylərin dəstəklənməsinə xidmət edir. Yığım prosesi regionun iqtisadi strukturuna töhfə verən vergi məmurları və kollektorların iyerarxik sistemini əhatə edirdi.*

*Açar sözlər:* Səlcuqlar, Azərbaycan, vergilər, vergitutma, dövlət siyasəti.

***Giriş***. XI-XIII əsrləri əhatə edən Səlcuqlar dövründə Azərbaycan ərazisində vergilərin yığılması dövrün iqtisadi və inzibati sistemində həlledici rol oynamışdır. Vergilərin necə toplandığını anlamaq bu bölgədə Səlcuqlu İmperatorluğunun idarəçiliyi, gəlir mənbələri və iqtisadi quruluşu haqqında fikirlər verir. Orta Asiyada hakimiyyətə gələn türk sülaləsi olan Səlcuqlar öz təsirlərini müxtəlif bölgələrə, o cümlədən Azərbaycana da genişləndirdilər. Onlar öz hökmranlıqlarını qurduqca, idarələrini, hərbi sistemlərini maliyyələşdirmək üçün vergi sistemlərini tətbiq etdilər [1, s.3]. Bu vergilərin yığılması təyin olunmuş məmurlar tərəfindən idarə olunurdu, çox vaxt əyalət qubernatorları və ya Səlcuqlu mərkəzi hökuməti tərəfindən təyin olunan inzibatçılar nəzarət edirdilər. Gəlirlərin səmərəli yığılmasını təmin etmək üçün vergi hesablamalarının, ödənişlərin və azadolmaların qeydiyyatı aparılmışdır.

Azərbaycanda Səlcuqlar dövrünün vergi sistemini başa düşmək o dövrün iqtisadi dinamikasına, dövlət və onun təbəələri arasında münasibətlərə, orta əsrlər İslam imperiyasında idarəetmənin mürəkkəbliyinə işıq salır.

***Əsas hissə***. Azərbaycanda Səlcuqlular dövrü Səlcuqlu türklərinin Azərbaycan bölgəsi üzərində əhəmiyyətli təsir və nəzarətə malik olduğu dövrə aiddir. Bu dövr təxminən eramızın XI-XIII əsrlərini əhatə edir. Səlcuqlar Orta Asiyadan yaranan və Yaxın Şərq, Anadolu və Orta Asiyanın bəzi hissələrinin orta əsrlər tarixinin formalaşmasında mühüm rol oynayan türk müsəlman sülaləsi idi.

Səlcuqlar dövründə Azərbaycanda mühüm siyasi, mədəni və memarlıq inkişafları olmuşdur. Səlcuqlar yerli hökmdarları məğlub edərək bölgədə öz hakimiyyətini möhkəmləndirdikdən sonra Azərbaycan üzərində öz hökmranlıqlarını qurdular. Onlar inzibati islahatlar apardılar, İslam mədəniyyətini və təhsilini inkişaf etdirdilər, məscidlər, mədrəsələr və saraylar şəklində davamlı memarlıq irsi qoydular.

Azərbaycanda Səlcuqlu dövrünün ən görkəmli simalarından biri də Səlcuqluların nüfuzunu və gücünü Azərbaycan da daxil olmaqla geniş bir ərazidə genişləndirən Böyük Səlcuqlu Sultan Mahmud idi. Onun hakimiyyəti dövründə bölgədə çiçəklənmə və mədəni çiçəklənmə dövrü oldu.

Azərbaycanda Səlcuqlar dövrü son nəticədə yerini XIII əsrdə Monqol İmperatorluğunun yüksəlişinə verdi və regionun siyasi mənzərəsində əhəmiyyətli dəyişikliklərə səbəb oldu. Bununla belə, Səl-

cuq irsi Azərbaycanı və qonşu əraziləri idarə edən sonrakı türk və İslam sülalələrinə təsirini davam etdirdi [2, s.11].

Nəticə olaraq, Azərbaycanda Səlcuqlar dövrü əhəmiyyətli mədəni, siyasi və memarlıq inkişaf dövrü olmuşdur. Orta Asiyadan olan türk müsəlman sülaləsi olan Səlcuq türkləri eramızın XI əsrindən XIII əsrə qədər Azərbaycan üzərində öz təsir və nəzarətlərini həyata keçirmişlər. Bu dövrdə onlar inzibati islahatlar apardılar, İslam mədəniyyətini və təhsilini inkişaf etdirdilər və bölgədə davamlı memarlıq irsi qoydular.

Böyük Səlcuqlu Sultan Mahmud kimi görkəmli şəxsiyyətlər Azərbaycanda Səlcuqluların qüdrətinin və nüfuzunun genişlənməsində mühüm rol oynamış, çiçəklənmə və mədəni çiçəklənmə dövrünə gətirib çıxarmışdır. Azərbaycanda Səlcuqlar dövrü XIII əsrdə Monqol İmperatorluğunun yüksəlişi ilə sona çatdı, lakin onun irsi bölgədəki sonrakı sülalələrə təsirini davam etdirdi.

Bütövlükdə, Azərbaycanda Səlcuqlar dövrü regionun tarixində mühüm bir səhifə açmış, onun mədəni kimliyini formalaşdırmış və müasir Azərbaycanın memarlığında və adət-ənənələrində hələ də özünü göstərən zəngin irs qoymuşdur.

*Səlcuqlar dövründə vergilər.* XI-XIII əsrləri əhatə edən Səlcuqlar dövründə Azərbaycan kimi ərazilərin idarə olunmasında və iqtisadiyyatında vergilər həlledici rol oynayırdı. İnzibati və hərbi bacarığı ilə tanınan Səlcuq İmperiyası öz idarəçiliyini davam etdirmək, hərbi sistemi maliyyələşdirmək inkişafını dəstəkləmək üçün müxtəlif vergi sistemləri tətbiq edirdi. Azərbaycanın timsalında vergilər həm kənd təsərrüfatı, həm də qeyri-kənd təsərrüfatı sahələrini əhatə edən strukturlaşdırılmış sistem vasitəsilə toplanırdı.

Səlcuqlar dövründə Azərbaycanda toplanan ilk vergilərdən biri də torpaq sahibi olan qeyri-müsəlmanlardan alınan torpaq vergisi olan xarac idi. Bu vergi əhəmiyyətli idi, çünki o, təkcə gəlir gətirmir, həm də qeyri-müsəlman əhali üzərində nəzarəti həyata keçirmək üçün bir vasitə rolunu oynayırdı. Xərəc adətən torpağın məhsuldarlığına əsaslanaraq münbit torpaqlar üçün daha yüksək, məhsuldarlığı az olan ərazilər üçün isə aşağı qiymətlərlə qiymətləndirilirdi. Bu, kənd təsərrüfatı məhsuldarlığını təşviq etməklə yanaşı, dövlət üçün sabit gəliri təmin edirdi.

Digər mühüm vergi kənd təsərrüfatı məhsullarının onda bir hissəsi olan uşr idi, adətən məhsulun onda birini təşkil edirdi. Uşr ilk növbədə müsəlman torpaq sahiblərindən tutulurdu və dini qurumları və ruhaniləri dəstəkləmək üçün nəzərdə tutulmuşdu. Bərəkətli torpaqları və kənd təsərrüfatı sərvətləri olan Azərbaycanda uşr dövlətin gəlirlərinə, məscidlərin, mədrəsələrin və digər dini ocaqların saxlanmasına mühüm töhfə verirdi.

Səlcuqlular əkinçilik vergilərindən başqa ticarət və ticarətdən də vergi alırdılar. Bazarlarda və ticarət fəaliyyətlərində olan xərəclər, təyin olunmuş bazarlarda satılan mallardan alınan məvasim kimi tanınırdı. Bu vergi Azərbaycanı İslam dünyasının digər hissələri ilə və onun hüdudlarından kənarda birləşdirən aktiv ticarəti tənzimləməyə və qazanc əldə etməyə kömək etdi.

Vergilərin yığılması prosesinin özü Səlcuq hökmdarları tərəfindən təyin edilmiş məmurlar tərəfindən təşkil edilir və nəzarət edilirdi. Mütəsaddis kimi tanınan vergi müfəttişləri torpaqları qiymətləndirir və alınacaq müvafiq vergiləri müəyyənləşdirirdilər. Vergiyığanlar və ya mukasiblər fiziki şəxslərdən vergi toplamaq və vergi qanunlarına riayət olunmasını təmin etmək vəzifəsi idi. Bu iyerarxik struktur Azərbaycanda vergilərin səmərəli yığılmasını və gəlirlərin idarə edilməsini təmin edirdi [3, s.16].

Nəticə olaraq qeyd edək ki, Səlcuqlular dövründə Azərbaycan ərazisindən yığılan vergilər müxtəlif olub, kənd təsərrüfatı, ticarət və peşə sahələrini əhatə edirdi. Bu vergilər Səlcuqlu idarəsini saxlamaqda, dini qurumları maliyyələşdirməkdə və iqtisadi fəaliyyətləri dəstəkləməkdə mühüm rol oynayırdı. Strukturlaşdırılmış vergi sistemi Azərbaycanda bu tarixi dövrdə idarəetmənin və təsərrüfat idarəçiliyinin mükəmməlliyini əks etdirir.

*Vergilərin təsnifatı.* Səlcuqlar dövründə Azərbaycanda vergi yığımı çoxşaxəli idi, cəmiyyətin müxtəlif təbəqələrindən alınan müxtəlif növ vergiləri əhatə edirdi. Bu vergilərə aşağıdakılar daxildir:

Torpaq vergisi (xərəc): Bu, kəndlilər və fermerlər də daxil olmaqla, torpaq sahiblərinin torpaqlarının münbitliyinə və ölçüsünə görə vergi ödədiyi mühüm gəlir mənbəyi idi.

Dini vergi (cizyə): Səlcuqlu ərazilərində yaşayan xristianlar və yəhudilər kimi qeyri-müsəlmanlar tez-tez İslam hakimiyyəti altında dinlərini etiqad etmələrinə imkan verən bir qoruma haqqı kimi din vergisinə məruz qalırdılar.

Ticarət vergiləri (üşr və iqta): Bunlar imperiya daxilində və xaricində ticarət edilən mallara tətbiq edilirdi. Uşr kənd təsərrüfatı məhsullarının onda bir vergisi, iqta isə ticarət əməliyyatlarından alınan vergi idi.

Gömrük rüsumları (uşr): Səlcuqlu ərazilərinə daxil olan və ya çıxan mallardan gömrük keçid məntəqələrində vergilər toplanaraq imperiyanın ticarətdən əldə etdiyi gəlirlərə töhfə verirdi.

Hərbi öhdəliklər: Səlcuq ordusunu canlı qüvvə ilə təmin etməklə, birbaşa vergilərlə yanaşı, bəzən əmək qabiliyyətli kişilərdən də hərbi xidmət keçmək tələb olunurdu.

Digər yığımlar: Yerli şəraitə və inzibati siyasətə əsasən müxtəlif digər rüsumlar və yığımlar tətbiq oluna bilər [4, s.18].

Bu vergilərin yığılması təyin olunmuş məmurlar tərəfindən idarə olunurdu, çox vaxt əyalət qubernatorları və ya Səlcuqlu mərkəzi hökuməti tərəfindən təyin olunan inzibatçılar nəzarət edirdilər. Gəlirlərin səmərəli yığılmasını təmin etmək üçün vergi hesablamalarının, ödənişlərin və azadolmaların uçotu aparılmışdır.

***Nəticə***. Səlcuqluların hakimiyyəti dövründə Azərbaycan İslam incəsənətinin, ədəbiyyatının və elminin çiçəklənməsinin şahidi oldu. Səlcuqlular öyrənmənin himayədarları idilər, alimlərin və mütəfəkkirlərin inkişaf etdiyi bir mühit yaradırdılar. Bu canlılıq təkcə yerli mədəniyyəti zənginləşdirmədi, həm də daha geniş İslam sivilizasiyasına töhfə verdi.

Səlcuqlular Azərbaycanda memarlıq baxımından əbədi miras qoyublar. Onların mürəkkəb həndəsi naxışları, əzəmətli günbəzləri və uca minarələri ilə səciyyələnən fərqli üslubu mənzərəni diqqətəlayiq strukturlarla bəzəyirdi. Məscidlər, mədrəsələr, karvansaraylar və saraylar tikilərək səlcuqların memarlıq texnikası ustalığını və İslam estetikasına dərin ehtiramını nümayiş etdirirdi.

Siyasi baxımdan Azərbaycanda Səlcuqlar dövrü həm möhkəmlənmə, həm də genişlənmə ilə yadda qaldı. Onlar bölgəyə sabitlik gətirən güclü inzibati sistem yaratdılar. Xüsusilə Böyük Səlcuqlu Sultan Mahmud Səlcuqluların nüfuzunun geniş ərazilərdə, o cümlədən Azərbaycanda genişlənməsində mühüm rol oynamışdır. Onun hakimiyyəti dövründə ticarət, diplomatiya və mədəni mübadilə çiçəkləndi, Azərbaycan cəmiyyətinin strukturunu daha da zənginləşdirdi.

Bununla belə, bütün dövrlər kimi, Səlcuqlu dövrü də sonda öz yerini yeni çağırışlara buraxdı. XIII əsrdə Monqol İmperatorluğunun yüksəlişi regionun tarixində transformasiya dövrü müjdələdi və bu, güc dinamikasında və mədəniyyət dinamikasında dəyişikliklərə səbəb oldu. Bununla belə, Səlcuqlu irsi davam etdi, sonrakı sülalələrə təsir etdi və bu gün Azərbaycanı müəyyən edən mədəniyyətə töhfə verdi.

Nəticə olaraq, Azərbaycanda Səlcuqlar dövrü mədəni, intellektual və memarlıq nailiyyətlərinin qızıl dövrünü təmsil edir. Bu, əsrlər boyu əks-səda verməyə davam edən bir miras qoyan yeniliklər, maarifləndirmə və çiçəklənmə dövrü idi. Səlcuqluların Azərbaycan irsinə verdiyi töhfələr bu əlamətdar sülalənin regionun tarixinə və şəxsiyyətinə davamlı təsirinin sübutudur.

Azərbaycanda Səlcuqlular dövründə həyata keçirilən vergi sistemi dövrün mürəkkəb inzibati və iqtisadi mexanizmlərinin sübutudur. Xərəc və uşr kimi kənd təsərrüfatı vergiləri, məvasim kimi ticarət vergiləri və şərac kimi tanınan peşəkar vergilərin birləşməsi vasitəsilə Səlcuq İmperiyası təkcə öz idarəçiliyini saxlamaqla kifayətlənməyib, həm də iqtisadi artımı və dini qurumları dəstəkləməyi bacarıb.

Prosesə nəzarət edən mutasaddis və mukasib kimi məmurlarla vergi yığımına strukturlaşdırılmış yanaşma gəlirlərin səmərəli yaradılmasına və idarə olunmasına verilən əhəmiyyəti vurğulayır. Bu sistem təkcə dövlətin maliyyə sabitliyini təmin etmədi, həm də infrastrukturun inkişafına, ticarət və ticarətin təşviqinə, mədəniyyət və dini qurumların himayədarlığına töhfə verdi.

Bundan əlavə, Səlcuqluların vergi siyasəti o dövrdə Azərbaycanın müxtəlif cəmiyyət və iqtisadiyyatını əks etdirirdi. Bərəkətli kənd təsərrüfatı torpaqlarından tutmuş gur bazarlara və bacarıqlı mütəxəssislərə qədər cəmiyyətin hər bir təbəqəsi dövlətlə vətəndaşlar arasında simbiotik münasibət yaradaraq vergilər vasitəsilə öz payını verdi.

Bütövlükdə, Səlcuqlular dövründə Azərbaycan ərazisindən yığılan vergilər təkcə maliyyə gəlirləri vasitəsi deyil, həm də ictimai birlik, iqtisadi rifah və idarəçilik sabitliyi mexanizmi idi. Vergitutmanın bu tarixi irsi orta əsrlər Azərbaycanda idarəetmə və iqtisadi idarəetmənin mürəkkəblikləri və yenilikləri haqqında dəyərli fikir kimi xidmət edir.

ƏDƏBIYYAT

1. Azərbaycan tarixi. Uzaq keçmişdən 1870-ci ilə qədər. Süleyman Əliyarlının redaktorluğu ilə. Bakı, Azərnəşr, 1996, 872 s.
2. Məmmədov E.Ə. Səlcuqlar. Dərs vəsaiti. Bakı, Mütərcim, 2015, 204 s.
3. Muxtarova Ə.İ. Türk xalqlarının dövlətçilik tarixi (qədim dövr və orta əsrlər). Bakı, Adiloğlu, 2002, 136 s.
4. Nəcəfov Ə.N. Səlcuqlu dövlətləri və Atabəyləri tarixi (Oğuzların ortaya çıxmasından - XIV əsrə qədər). Bakı, Qanun, 2010, 55 s.

**ZENFIRA MANAFOVA**
*1st year graduate student of the ancient and medieval history of Azerbaijan University*

## TAXES COLLECTED FROM THE TERRITORY OF AZERBAIJAN DURING THE SELJUK ERA

The Seljuk period in Azerbaijan was an important period of cultural, political and architectural development. The Seljuk Turks, a Turkic Muslim dynasty from Central Asia, exercised their influence and control over Azerbaijan until the 11th-13th centuries of our era. During this period, they carried out administrative reforms, developed Islamic culture and education, and left a lasting architectural legacy in the region.

During the Seljuk period in Azerbaijan, taxation was a key aspect of administration and revenue generation. Various types of taxes were collected from the population, including a land tax (Kharaj), a tax on non-Muslims (Jizya), trade and commerce taxes, customs duties, an income tax on agricultural produce (ushr), and sometimes military taxes. These taxes serve to finance the government, maintain public order and support the military effort, and social dynamics. The collection process involved a hierarchical system of tax officials and collectors that contributed to the economic structure of the region.

*Keywords:* Seljuks, Azerbaijan, taxes, taxation, state policy.

*Daxil olma tarixi*: 30.04.2024-cü il.
*Çapa imzalanma tarixi*: 10.05.2024-cü il.

Türk dünyası gənc tədqiqatçılar dərnəyinin Araşdırmaları
Studies of the Turkic World Young Researchers Association
№2(10) 2024, 103-109

UOT 94(479.24); UOT 94

**ZƏKA ƏLİYEV**
*Bakı Dövlət Universitetinin SABAH qrupları*
*Tarix müəllimliyi ixtisası üzrə III kurs tələbəsi*
**zakaaliyev2003@gmail.com**
ORCID ID : 0009-0005-7886-4954

# AZƏRBAYCAN-ÇİN SİYASİ ƏLAQƏLƏRİNDƏ İQTİSADİ AMİLİN ROLU (XX ƏSRİN SONU-XXI ƏSR)

*Elmi rəhbər:*
tarix üzrə fəlsəfə doktoru İqbal Ağayev

*Azərbaycan Respublikası və Çin Xalq Respublikası arasında həm güclü siyasi, həm də iqtisadi əlaqələr mövcuddur. Müasir dövrdə sürətlə yüksələrək həcminə görə dünyada ikinci yerdə olan Çin iqtisadiyyatının şaxələri ölkəmizdən də yan keçməmişdir. Xüsusilə də, tarixi İpək Yolunun bərpası yönündəki addımlar ölkələr arasındakı iqtisadi əlaqələri daha da gücləndirmişdir. Çinin iqtisadi əlaqələr qurduğu ölkələrə daha həssas yanaşdığını nəzərə alsaq, bu iqtisadi əlaqələrin iki ölkə arasındakı siyasi əlaqələrə də təsirini müşahidə edə bilərik. Cənubi Qafqazda həm iqtisadi sahədə, həm də hərbi-siyasi sahədə lider olan Azərbaycanla siyasi əlaqələr qurarkən Çin bütün bunları nəzər alır. Azərbaycan da öz növbəsində Çinin yeni dünya düzəninin aparıcı güclərindən biri olması ilə hesablaşır. Hər iki ölkə öz ərazi bütövlüyünə həssaslıqla yanaşır və qarşılıqlı olaraq ərazi bütövlüklərini və suverenliyini tanıyırlar. Məqalədə iki ölkə arasında mövcud olan siyasi əlaqələrə iqtisadi reallıqların təsirini açmağa cəhd edilmişdir.*

*Açar sözlər*: Böyük İpək Yolu, Si Cinpin, Bakı-Tbilisi-Qars dəmir yolu, Zəngəzur dəhlizi.

***Giriş.*** SSRİ-nin dağılmasından sonra Azərbaycan Respublikası öz müstəqilliyini bərpa etdi və Azərbaycanın müstəqilliyini tanıyan ilk ölkələrdən biri də Uzaq Şərqdə yerləşən Çin Xalq Respublikası olmuşdur. Azərbaycanın müstəqilliyinin 1991-ci ilin dekabrın 27-də Çin Xalq Respublikası tərəfindən tanınması və 1992-ci il 2 aprel tarixində ikitərəfli diplomatik münasibətlərin qurulması ilə Azərbaycan-Çin münasibətləri yeni mərhələyə qədəm qoymuşdur. 1992-ci ildə Çin Xalq Respublikasının Azərbaycan Respublikasındakı Səfirliyi, 3 sentyabr 1993-cü ildə isə Azərbaycan Respublikasının Çin Xalq Respublikasındakı Səfirliyi açılmışdır (1). Lakin 1992-ci ildə diplomatik əlaqələr qurulduğu zaman Azərbaycana rəhbərlik edən şəxslərin bəzi millətçi çıxışları rəsmi Pekinlə münasibətlərin inkişafına əngəl törətdi. Demək olar ki, Çin kimi böyük dövlətlə az qala düşmən olmaq vəziyyəti yaranmışdı (2, s.164). Rəhbərlikdə səsləndirilən fikirlər Çinin diktator rejimi olması və orada yaşayan uyğur türklərinə zülm edilməsi ilə bağlı idi (21, s.228). Bu yenicə müstəqilliyini bərpa etmiş dövlətin maraqlanmalı olduğu məsələ deyildi. Hətta Azərbaycan bu məsələnin üzərində dayansa belə Çinə təsir edəcək qədər gücü yox idi. Müharibə vəziyyətində olan, əraziləri işğala məruz qalan, iqtisadiyyatı uçuruma doğru gedən bir dövlətin bu qədər problemi saxlayıb digər ölkələrin daxili işinə qarışması düzgün addım hesab edilə bilməzdi. Ölkənin qarşısında duran vacib məsələ sabitlik yaratmaq, iqtisadiyyatı dirçəltmək idi və Azərbaycan bu yolda Çinin iqtisadi potensialından yararlana bilərdi. Ölkə rəhbərliyindəki boşluqlar, özünü doğrultmayan xarici siyasət ölkəni məhvə doğru aparırdı. Lakin Ulu öndər Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra isə Azərbaycan Respublikasının dünya siyasətində fəallaşması sayəsində Çin ilə münasibətlərdə də yeni, yüksəliş mərhələsi başlamışdır. Azərbaycan Respublikası Prezidenti Heydər Əliyevin 1994-cü ilin mart ayında Çin Xalq Respublikasına səfərinin iki ölkə arasında bütün sahələrdə tərəfdaşlığın genişlənməsində misilsiz rolu olmuşdur (3, s.88).

***Azərbaycan və Çin arasında iqtisadi əlaqələrin qurulması.*** Heydər Əliyev Çinin iqtisadi sahədə apardığı islahatları yüksək qiymətləndirirdi və 1994-cü ildəki səfərində bununla daha yaxından tanış olmaq imkanı əldə etmişdi. H.Əliyev Azərbaycanın Çin təcrübəsindən yararlanacağını vurğulamışdır və onun Çində islahatların aparılma təcrübəsi ilə maraqlanması təsadüfi deyildi. Məqsəd postsovet

məkanı ölkərində uyğun sosial-siyasi və iqtisadi-mədəni inkişaf modelini tapmaqdan ibarət idi (2, s.165). ÇXR-da kommunizmin və kapitalizmin vəhdətinin formalaşdığı, bu iki bir birindən fərqlənən iqtisadi formasiyanın bir arada mövcudluğunun reallaşdırılma təcrübəsi vardı. Yenicə müstəqillik qazanan Azərbaycan kapitalizmi mənimsəmək üçün bu təcrübədən istifadə edərək öz iqtisadi inkişaf modelini qura bilərdi. Bu bir daha Heydər Əliyevin uzaqgörən siyasətinin nəticəsi idi ki, tezliklə öz bəhrəsini verməyə başladı.

***Bəs bu dövrdə iqtisadi maraqlar siyasi əlaqələrə necə təsir göstərirdi?*** Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Çin Xalq Respublikasının Sədri Tszyan Tszeminin dəvəti ilə 1994-cü il tarixində mart ayının 7-11-dək Çin Xalq Respublikasında səfərdə olmuşdur (4, s.130). Danışıqlar zamanı belə bir razılıq əldə edildi ki, əvvəllər Azərbaycana verilmiş məqsədli kreditlərdən əlavə, ÇXR bundan sonra respublikamıza hərtərəfli kömək məqsədi ilə yeni kreditlər ayıracaqdır. Bu kreditlər respublikamızda əsasən yüngül sənaye məhsulları istehsalına, eləcə də müştərək müəssisələr yaradılmasına yönəldiləcəkdir (4, s.12-13). Bu səfərin gerçəkləşməsində sözsüz ki, iqtisadi maraqlar ön plana çıxır. Çin sovetlərin dağılmasından sonra Azərbaycan iqtisadiyyatındakı yaranan boşluqları doldurmaq üçün fəal siyasətə qoşulanlardan biri idi. Bu situasiyada qərblə aparılan rəqabət də gözardı edilməməlidir. Azərbaycan Respublikası hökuməti ilə Çin Xalq Respublikası hökuməti arasında investisiyaların təşviqi və qarşılıqlı qorunması haqqında 13 maddəlik saziş imzalanmışdır (4, s.131). Qarşılıqlı münasibətlərin maddi təməllərinin və hüquq-müqavilə əsaslarının möhkəmləndirilməsi istiqamətində mühüm addımlar atıldı. 1994-cü il mayın 14-də Azərbaycan Respublikası hökuməti və Çin Xalq Respublikası hökuməti arasında ÇXR-dən Azərbaycan Respublikasına mallar göndərilməsi üçün dövlət krediti ayrılması haqqında saziş imzalandı (3, s.92-93). Göründüyü kimi siyasi əlaqələrin qurulub inkişaf etdirilməsi üçün iqtisadi əlaqələrə çox geniş yer verilmişdir və iki ölkə arasındakı münasibətlərin xüsusilə iqtisadi maraqlara əsaslandığının şahidi oluruq. Lakin maraqlı məqam ondan ibarətdir ki, Çin "Əsrin müqaviləsi" də yer almamışdır. Fikrimizcə bunun əsas səbəbi coğrafi yerləşmə ilə əlaqədardır. Belə ki, Çin böyüyən iqtisadiyyatının xammal və enerji tələbatını ona daha yaxın olan İran və ən əsası da Mərkəzi Asiya respublikaları ilə təmin edirdi. Bəlkə də, Çin iqtisadiyyatı o zaman indiki kimi nəhəng enerji ehtiyyatlarına ehtiyac duymurdu. Başqa bir səbəb Azərbaycanın Çinlə rəqabətdə olan qərb ölkələri ilə yaxınlaşması idi. Həmçinin o dövrdə dünyanın böyük gücləri olan ABŞ və Avropa ölkələri mövcud rəqabətdə Çinin bu layihəyə qoşulmasına razılıq verməsi də asan məsələ deyildi.

Çinin xarici siyasət strategiyasında bir neçə istiqamət prioritet təşkil edir, bunlardan biri də siyasi səhnədə qlobal və regional qarşıdurmalardan uzaq durmaqla iqtisadi mövqelərinin gücləndirilməsidir (3, s.53). Məhz bu siyasəti nəticəsində Çin Cənubi Qafqazdakı münaqişələrə müdaxilə etmir və tərəfləri münaqişələrin sülh yolu ilə həllinə çağırırdı. Bununla paralel Çin Cənubi Qafqaz ölkələrini Yeni İpək yolu layihəsinə cəlb etməkdə maraqlı idi. Azərbaycan-Çin əməkdaşlığında növbəti addım 1997-ci il avqustun 30-da Ümumçin Xalq Nümayəndələri Məclisi sədrinin müavini Van Binsyanın rəhbərlik etdiyi nümayəndə heyətinin Azərbaycana səfəri olmuşdur. Danışıqlarda əsasən iki ölkə arasında ticarət-iqtisadi əlaqələrin genişləndirilməsi məsələləri müzakirə edilmişdir. Hər iki tərəf iqtisadi əlaqələrin genişləndirilməsində maraqlı idi. Bu niyyət 1998-ci il iyunun 18-də Bakıda Azərbaycan Respublikası hökuməti ilə Çin Xalq Respublikası hökuməti arasında Çinin Azərbaycana güzəştli kredit verməsi haqqında çərçivə sazişinin imzalanması ilə nəticələndi. 1998-ci il sentyabrın 8-də Bakıda Heydər Əliyevin təşəbbüsü ilə Böyük İpək Yolunun bərpası üzrə TRASEKA proqramı çərçivəsində Avropa və Asiya dövlət başçılarının zirvə görüşünə həsr olunmuş beynəlxalq konfransda iki ölkə arasında münasibətlərin daha da inkişafını təmin edən hadisələrdən biri idi. Bundan sonra Azərbaycanla Çin arasında əməkdaşlıq daha da genişlənmişdir (3, s.93-94). Azərbaycan TRASEKA marşrutu- Xəzər bərə keçidləri (Bakı- Türkmənbaşı, Bakı- Aktau) vasitəsilə Mərkəzi Asiya dövlətləri olan Türkmənistan və Qazaxıstanın dəmir yolu şəbəkələrinə qoşulur. Mərkəzi Asiyanın İranla həm quru, həm də dəniz əlaqələri olduğu halda, yeni nəqliyyat dəhlizinin inkişafı Asiya-Sakit Okean regionundan daim artan yük axınına imkan verən səmərəli nəqliyyat potensialının formalaşmasına töhfə vermişdir (5).

Azərbaycanla əlaqələrin güclənməsinə baxmayaraq, Çin 1999-cu ildə düşmən ölkə Ermənistana 8 ədəd WM-80 reaktiv atəş sistemi satmışdı (6). Sözsüz ki, bu Azərbaycan cəmiyyətində birmənalı qarşılanmamışdı.

***Bəs Azərbaycan niyə bu məsələyə səssiz qalmışdı? Niyə münaqişələrə qarışmayan Çin münaqişə tərəfi olan bir ölkəyə silah satmağa razı olmuşdu?*** Azərbaycan bu məsələdə Çinə qarşı gələ bilməzdi və əsasən iqtisadi, eyni zamanda siyasi maraqlara görə buna səssiz qaldı. Çinin yeni İpək Yolu layihəsi Azərbaycandan keçməklə ölkəmizə böyük qazanc vəd edirdi və Çinlə münasibətlərin pisləşməsi ziyanımıza işləyəcək haldan başqa bir şey deyildi. Halbuki, 2020-ci ildə baş verən iyul döyüşlərindən sonra Ermənistanın Serbiya istehsalı olan silahlardan istifadə etməsi məlum olanda, Serbiyaya bu haldan narazı olduğumuz bildirilmişdi (7). Burda iqtisadi maraqlardan daha çox milli maraqların ön plana çıxdığını görürük, lakin Çinə qarşı bu cür etiraz bildirilməmişdi. Çinin Ermənistana reaktiv atəş sistemlərini satması məsələsinə gəldikdə isə, Çin özü bu hərbi texnikanın istehsalını dayandırmışdı, çox güman bu texnikalar gözlənilən nəticəni verməmiş və onları bir növ artıq yük kimi üzərindən atmışdı, üstəlik qazanc əldə edərək. Bundan başqa Çinin Ermənistana silah satışı bununla yekunlaşmamış, 2013-cü ildə AR1A raket komplekslərinin satışı da həyata keçirilmişdir (13). Onu da qeyd etmək yerinə düşər ki, Çin həm Ermənistana, həm də Azərbaycana təmənnasız yardımlar etmişdir. Beləliklə daha bir situasiyada iqtisadi məsələlərin iki ölkə arasındakı siyasi əlaqələrə təsir etdiyini görmüş olduq.

2002-ci ildə Azərbaycan Respublikası və Çin Xalq Respublikası arasında diplomatik münasibətlərin qurulmasının on ili tamam olmuşdur. Heydər Əliyev və ÇXR sədri Tzyan Tseminin qarşılıqlı olaraq göndərdikləri təbrik məktubunda iki ölkə arasındakı əlaqələrin inkişaf etdiyi qeyd olunmuş və bu əlaqələrin inkişafında iqtisadi əlaqələrin mühüm rol oynaması xüsusilə vurğulanmışdır. Çin Azərbaycan ilə enerji sahəsində də əməkdaşlığa daim maraq göstərmişdir. Bu baxımdan 2002-ci ilin iyun ayında Azərbaycan Respublikası Dövlət Neft Şirkəti ilə Çin Neft-Kimya Korporasiyasının törəmə müəssisəsi olan və ölkənin 500 ən iri şirkəti arasında altıncı yeri tutan Şengli şirkəti arasında qarşılıqlı anlaşma memorandumunun imzalanması əhəmiyyətli hadisə olmuşdur. Bu, ikitərəfli münasibətlərin maddi təməllərini daha da möhkəmləndirirdi. Qeyd etmək lazımdır ki, 27 milyon illik neft hasilatı olan bu şirkət çoxşaxəli fəaliyyətə malik olub kəşfiyyat, işlənmə, saxlanma, nəql, emal və karbohidrogen satışı ilə məşğul olmaqla fərqlənmişdir. Çin Azərbaycanın ərazi bütövlüyünü dəstəkləmək istiqamətində də konkret addım atmışdır. 2002-ci il 2 dekabr tarixində “ BMT və ATƏT arasında əməkdaşlıq haqqında ” qətnaməyə Azərbaycan tərəfindən hər il irəli sürülən düzəliş üzrə BMT Baş Məclisində keçirilmiş səsvermədə Təhlükəsizlik Şurasının daimi üzvləri arasında ÇXR ərazi bütövlüyünə dair düzəlişin lehinə səs verən yeganə dövlət olmuşdur (3, s.95-96). 1996-cı ildən başlayaraq BMT Baş Assambleyası “BMT və ATƏT arasında əməkdaşlıq haqqında” qətnaməsində Azərbaycan Respublikasının ərazi bütövlüyünü yenidən təsdiqləyir (8). BMT Təlükəsizlik Şurasının beş daimi üzvü vardır. Bu ölkələr Amerika Birləşmiş Ştatları, Rusiya, Böyük Britaniya, Çin və Fransadır. Qərb ölkələrinin bir çoxunda erməni lobbisi güclü olduğundan bu ölkələrin bu qətnamənin lehinə olmaması təəccüb doğurmurdu. Bunlar sözdə insan haqqlarının dəstəkçisi, beynəlxalq hüquq normalarının həyata keçirilməsinin tərəfdarı olduğunu göstərən, əmələ gəldikdə isə heçnə etməyib seyrçi mövqedə duran ölkələrdir. Rusiya 1999-cu ildə V.Putinin ilk öncə hökümət başçısı, sonradan prezident kimi hakimiyyətə gəlməsindən sonra Azərbaycanla olan münasibətlər yüksələn xəttlə inkişaf etməyə başlamışdır. V.Putin rus millətçiliyinə önəm verərək ölkədə erməni lobbisinin xarici siyasətə təsirini azaltmağı bacarmışdır. Lakin Rusiyanın bu qətnamənin lehinə səs verməməsinin səbəbi daha çox bu amilin təsiri deyil, Azərbaycan və Ermənistan arasında davam edən münaqişənin Rusiyanın maraqlarına cavab verməsi və region ölkələrinə təzyiq vasitəsi olması idi. Çin bu qətnaməni dəstəkləməklə həm Azərbaycanla əlaqələrinin inkişaf etdirilməsinə nə qədər önəm verdiyini nümayiş etdirmiş, həm də gələcəkdə Çinin lehinə olan qərarların Azərbaycan tərəfindən dəstəklənməsini təmin etmişdir.

***İlham Əliyevin prezidentliyi dövründə iki dövlət arasında əlaqələrin inkişafı.*** Ulu öndər Heydər Əliyevin vəfatından sonra, onun xarici siyasət kursunu İlham Əliyev davam etdirməyə başladı. 2005-ci il 17-19 mart tarixlərində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Çinə dövlət səfəri iki ölkə arasında çoxcəhətli əməkdaşlıq baxımından mühüm bir addım olmuşdur. Martın 17-də ÇXR parlamentində-Ümumçin xalq Nümayəndələri Məclisində İlham Əliyevin rəsmi qarşılanma mərasimi təşkil edilmişdir. Daha sonra keçirilən danışıqlarda tərəfləri maraqlandıran ikitərəfli, regional və beynəlxalq məsələlər müzakirə edilmişdir. Rəsmi danışıqlar prosesində Çin tərəfi Azərbaycana 15 milyon

yuan məbləğində birdəfəlik təmənnasız yardım edəcəyini bildirmişdir. Danışıqlardan sonra iki ölkə arasında sənədlər imzalanmış, qarşılıqlı münasibətləri yeni səviyyəyə çıxarmaq üçün addımlar atılmışdır. Səfər çərçivəsində Azərbaycan-Çin biznes forumu da keçirilmiş, sahibkarlığın inkişafına hesablanmış tədbirlər keçirilmişdir. Səfəri ÇXR Sədri Hu Tszintao iki ölkə arasında münasibətlərin tarixində mühüm hadisə kimi qiymətləndirmiş, Azərbaycanın Cənubi Qafqazda liderlik mövqeyinin möhkəmlənməsindən razı qaldığını bəyan etmişdir (3, s.97). Çinin təmənnasız olaraq Azərbaycana yardım etməsi Çinin nüfuzunun, yumşaq güc siyasətinin kiçik bir təzahürü idi. Doğrudur, bu yardım elə də böyük olmasa belə, simvolik olaraq Çinin Azərbaycanın iqtisadi inkişafını dəstəkləməsini nümayiş etdirirdi. Ümumən məlumdur ki, Çinin xarici siyasəti daha çox ölkənin iqtisadi maraqlarını qlobal miqyasda təmin etməyə yönəlib. Çin özünə aid konflikt situasiyaları (Tayvan boğazı, Cənubi Çin dənizi) istisna olmaqla, dünyadakı münaqişələrə adətən müdaxilə etmir, onların həllində rol almır və öz nüfuzunu iqtisadi alətlərlə, "yumşaq güc" üsulları ilə yaymağa çalışır. 2013-cü ildə Çin lideri Si Cinpin tərəfindən irəli sürülən məşhur "Bir kəmər - bir yol" təşəbbüsü də bu çərçivədə qiymətləndirilməlidir. Tarixi İpək Yolu üzərində yerləşən Azərbaycan Çinin bu meqa-layihəsini dəstəkləyən ölkələrdən biridir. Prezident İlham Əliyevin 2015-ci ildə Çinə rəsmi səfəri zamanı "İpək Yolu İqtisadi Kəməri"nin yaradılmasının birgə təşviqinə dair Anlaşma Memorandumu imzalanmışdı (9).

Çin bu layihəsində Azərbaycanın da yer almasını istəməsinin bir sıra səbəbləri var idi. Çin Azərbaycanın keçən illər ərzində böyük iqtisadi sıçrayışlarını yaxından izləyərək Azərbaycanın potensialını düzgün qiymətləndirirdi. Həmçinin Azərbaycanın qətiyyəti ölkəyə olan inamı daha da artırırdı. Bundan başqa Azərbaycanda nəqliyyat infrastrukturunun inkişafına böyük dövlət qayğısı vardı. Xüsusilə də, Bakı-Tblisi-Qars dəmiryolu layihəsinin uğurlu və sürətli icrası xarici dövlətləri regionda Azərbaycanın güclü bir qüvvə olması faktı ilə tanış etmişdi. Azərbaycanın bu dövrdəki siyasətinin əsas istiqamətlərindən biri Ermənistanı böyük iqtisadi layihələrdən uzaqda saxlamaq idi. Xarici təzyiqlərə baxmayaraq, Azərbaycan Ermənistanı layihələrdən uzaqda saxlamağı bacarmışdı. Azərbaycan tərəfindən həyata keçirilən Bakı-Tbilisi-Qars və Bakı Beynəlxalq Dəniz Ticarət Limanı kimi nəhəng nəqliyyat-infrastruktur layihələri Transxəzər Şərq-Qərb Nəqliyyat Dəhlizini formalaşdırır, bu isə Çindən Avropaya yük daşımaları üçün yeni marşrutdur. 2015-ci ilin avqustunda Çindən ilk konteyner qatarı Xəzər dənizindən keçməklə Azərbaycana gəlmişdir. 2018-ci ildə Bakı-Tbilisi-Qars dəmir yolu vasitəsilə 19 qatarla yük daşınıb. 2024-cü il martın 11-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Azərbaycanda səfərdə olan Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev Çinin Siyan terminalından Bakının Abşeron stansiyasına konteyner qatarının gəlişi mərasimini videobağlantı ilə izləmişdilər. Xatırladaq ki, əvvəllər Çindən Orta Dəhliz vasitəsilə yüklərin Qara dəniz limanlarına çatdırılması təxminən 53 gün çəkirdisə, hazırda bu müddət 18 gün təşkil edirdi (19). 2015-ci ildə ticarət dövriyyəsi 561 milyon ABŞ dolları təşkil etdiyi halda, 2016-cı ildə bu rəqəm 975 milyona, 2017-ci ildə 1 milyard 298 milyona, 2018-ci ildə 1 milyard 310 milyona, 2019-cu ildə isə 2 milyard 184 milyona yüksəlmişdir və bu dinamikada Çinin xeyrinə müsbət saldo olmuşdur (9). Ticarətdəki bu müsbət irəliləyiş Covid-19 pandemiyası ilə əlaqədar geriləsə də, son illərdə yenidən yüksəlməyə doğru gedir. Belə ki, 2022-ci ildə ticarət 2.2 milyard dollara çatmışdır. 2023-cü ildə isə iki ölkə arasındakı ticarət dövriyyəsi 3 milyard dolları ötmüşdür (11). Onu da qeyd etmək lazımdır ki, Xəzərin beynəlxalq statusu barədə 12 avqust 2018-ci ildə 5 ölkə tərəfindən birgə konvensiyanın qəbulu Transxəzər Şərq-Qərb Nəqliyyat Dəhlizinin həyata keçirilməsini asanlaşdırmışdır. Azərbaycan bu anlaşma ilə böyük iqtisadi qazanclar əldə etməyi planlaşdırmışdı (14, s.36). Avropa ilə Çin arasında ən qısa dəmir yolu əlaqəsini təmin edən Bakı-Tbilisi-Qars xətti, Bakı Beynəlxalq Dəniz Ticarət Limanı kimi önəmli infrastruktur layihələri "Bir kəmər – bir yol" təşəbbüsü və ümumilikdə regional əməkdaşlıq üçün böyük əhəmiyyət daşıyır. İstifadəyə verilmiş Bakı-Tbilisi-Qars dəmir yolu xətti sayəsində Çindən Avropaya yüklərin daşınma müddəti xeyli azalmışdır (10). Azərbaycan Respublikası prezidenti İlham Əliyev 24 aprel 2019-cu il tarixində Çində keçirilən "Bir kəmər - bir yol" ikinci Beynəlxalq Əməkdaşlıq Forumunda iştirak etmişdir. Forumda çıxışı zamanı Xəzər dənizində 15 milyon ton yükdaşıma qabiliyyətinə malik yeni beynəlxalq dəniz limanının açıldığını qeyd edən İlham Əliyev, bu göstəricinin zərurət yaranarsa 25 milyon tona qədər artırıla bildiyini nəzərə çatdırmışdır (20). Azərbaycan Çinin təşəbbüsü ilə yaradılmış Şanxay Əməkdaşlıq Təşkilatına maraq göstərən ölkələr sırasında yer almışdır. 10 iyul 2015-ci

il tarixində ŞƏT üzv dövlətlərinin başçıları Şurasının iclasında Azərbaycan Respublikasına ŞƏT-də dialoq üzrə tərəfdaş statusunun verilməsi barədə qərar qəbul edilmişdir (12, s.22). Növbəti illərdə prezident İlham Əliyevin ŞƏT-nın baş katibi ilə bir sıra görüşləri olmuş və əlaqələrin gücləndirilməsi yönündə fikir mübadiləsi aparılmışdır. Azərbaycan bu təşkilatın tamhüquqlu üzvü olmasa da, ŞƏT ilə bir sıra sahələrdə əməkdaşlıq edərək, xüsusən də təşkilatın aparıcı üzvü olan Çinlə iqtisadi əlaqələri gücləndirmək yolunda böyük addım atmışdır.

Qafqaz regionu münaqişəli ərazilərin çoxluğu ilə fərqlənən regionlardan biridir. Hətta bir zamanlar, 90-cı illərdə bu region Yaxın Şərq regionunu belə münaqişələrin sayına görə qabaqlamışdır. Adətən münaqişələrin olduğu bölgələr iqtisadi inkişaf cəhətdən geridə qalmışdır. Təbii ki, bir ərazidə münaqişə ocaqları olarkən bura qoyulan iqtisadi sərmayələr böyük risk altına girir. Bütün bu riskləri nəzərə alan şirkətlər adətən siyasi sabitlik olan ölkələrə maraq göstərirlər. Azərbaycan ilk növbədə siyasi sabitlik yaradaraq sərmayəçiləri ölkəyə cəlb etməyi özünün prioritet məsələlərindən sayırdı. 2020-ci ilin iyul ayında baş verən Tovuz döyüşləri zamanı Ermənistan Bakı-Tblisi-Ceyhan neft kəmərinə və Bakı-Tblisi-Qars dəmiryolu xəttinə təhlükə törətməklə ictimaiyyətə bir növ bu layihələrin təhlükəsiz olmadığını çatdırmağı hədəfləyirdi. Lakin bu plan baş tutmadı və həmin ilin sentyabrında başlayan 44 günlük Vətən müharibəsində Azərbaycan sübuta yetirdi ki, Azərbaycan nəinki mühüm layihələrin infrastrukturunu qorumağı bacarmış, hətta işğal altındakı əraziləri azad edərək yeni yol marşrutu açılmasının təməlini qoymuşdur. 2020-ci il 10 noyabr üçtərəfli(Azərbaycan, Rusiya və Ermənistan) bəyanatının 9-cu bəndində qeyd olunur:

*"Bölgədəki bütün iqtisadi və nəqliyyat əlaqələri bərpa edilir. Ermənistan Respublikası vətəndaşların, nəqliyyat vasitələrinin və yüklərin hər iki istiqamətdə maneəsiz hərəkətinin təşkili məqsədilə Azərbaycan Respublikasının qərb rayonları və Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat əlaqəsinin təhlükəsizliyinə zəmanət verir. Nəqliyyat əlaqəsi üzrə nəzarəti Rusiyanın Federal Təhlükəsizlik Xidmətinin sərhəd xidmətinin orqanları həyata keçirir. Tərəflərin razılığı əsasında Naxçıvan Muxtar Respublikası ilə Azərbaycanın qərb rayonlarını birləşdirən yeni nəqliyyat kommunikasiyalarının inşası təmin ediləcək"* (15).

Bu maddə iqtisadi marşrutların potensialının artırılması istiqamətində böyük əhəmiyyət kəsb edirdi. Bu maddənin bəyanata daxil edilməsi ilə sonradan adı tez-tez çəkilən Zəngəzur dəhlizinin açılması məsələsinin başlanğıcı qoyuldu.Hansı ki, adı çəkilən bu dəhlizdən nəinki Azərbaycan, həmçinin Çin də yararlana bilərdi.

***Zəngəzur dəhlizi məsələsi Azərbaycan-Çin əlaqələrinə necə təsir göstərdi?*** 10 noyabr bəyanatına 9-cu maddənin daxil edilməsi Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin böyük bir uğuru idi. Sovet dönəmində Azərbaycandan süni şəkildə ayrı salınan Naxçıvan ərazisi Ermənistan tərəfindən blokadaya alınmışdı və bu maddənin həyata keçirilməsi ilə bu vəziyyət aradan qalxacaqdı. Zəngəzur dəhlizi Azərbaycan və Çinə böyük üstünlüklər vəd edirdi. Belə ki, bu dəhlizinin açılması ilə həm Çindən Avropaya gedən malların çatdırılma sürəti artacaqdı, həm də Şərq-Qərb marşrutunun Gürcüstandan keçən hissəsindəki sıxlıq aradan qaldırılacaq və ona alternativ bir yol olacaqdı. Zəngəzur dəhlizinin açılması ilə Gürcüstandan keçməklə Türkiyəyə çatdırılan mallar dəfələrlə daha qısa məsafə qət edir və bu da qısa müddətdə daha çox malın daşınmasına yol açır.Azərbaycanın müharibədə qalibiyyəti və təklif etdiyi yeni marşrutlar Çinin Azərbaycana olan inamını artırmış və gələcək layihələrin həyata keçirilməsi üçün arxayınlıqla Azərbaycanla əməkdaşlıq yolunu davam etdirməyə təşviq etmişdir. Lakin Çin Zəngəzur dəhlizinin açılmasını yubadan Ermənistana lazımi təzyiqlər göstərmir. Doğrudur, Ermənistanın Rusiyadan fərqli olaraq Çindən elə də böyük iqtisadi asılılığı yoxdur, amma bu məsələdə Çin öz ağırlığını qoya bilərdi. Görünür hələ ki, Çin gözləmə mövqeyində durur, ya da cənub qonşumuzun qətiyyətlə əleyhinə çıxdığı bu layihəni dəstəkləməklə onunla münasibətlərində problem yaratmaq istəmir. Bütün bunlar Azərbaycan tərəfindən rəsmi olaraq qabardılmasa da, ölkə mediasında bu məsələlər işıqlandırılmışdır.

***Nəticə.*** Göründüyü kimi, Çin və Azərbaycan arasındakı siyasi münasibətlərdə iqtisadi amilin rolu böyükdür. Rəsmi münasibətlərin qurulmasından günümüzədək böyük inkişaf yolu keçən bu əlaqələr hazırda yüksək səviyyədədir. Çin şirkətləri işğaldan azad olunan ərazilərimizdə yenidənqurma işləri ilə yaxından maraqlanır və bir sıra layihələr həyata keçirir. Bunu rəsmi Pekinin ölkəmizdəki səfiri Qo

Min də təsdiq edib (16). Çinin Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri xanım Qo Min həmçinin işğaldan azad olunmuş Şuşa şəhərinə də səfər etmişdir (17). Bu hadisə adi bir şey kimi görünsə də, məsələ əslində göründüyü kimi kiçik deyil. Bir çox Qərb ölkə şirkətlərinin bu ərazilərdə yenidənbərpa işləri ilə bağlı təkliflərə rədd cavabı verməsi bir yana, hətta səfirlərinin də işğaldan azad olunmuş ərazilərə getməkdən imtina etməsini nəzərə alsaq Çinin Azərbaycanın ərazi bütövlüyünü dəstəklədiyinin bariz nümunəsi kimi bunu qəbul edə bilərik. Son vaxtlar Azərbaycan və Ermənistan arasında sülh danışıqları intensivləşmişdir. Üstəlik Azərbaycan və Ermənistan arasında delimitasiya prosesi başlamışdır. Bu gələcəkdə bölgəyə sülh vəd etdiyindən siyasi və iqtisadi sabitliyin inkişafına gətirib çıxaracaqdır. Çin Xarici İşlər Nazirliyinin rəsmisi Van Venbin Azərbaycan ilə Ermənistan arasında dövlət sərhədinin delimitasiyası üzrə Dövlət Komissiyasının 8-ci iclasının yekunu olaraq iki ölkənin dövlət sərhədinin delimitasiyasına başlamasına dair razılığı şərh edərkən Çinin Azərbaycan ilə Ermənistanın münasibətlərin normallaşması prosesində əldə etdiyi tərəqqini alqışladığını qeyd etmişdir (18). Çinin bu normallaşma prosesini dəstəkləməsinin arxasında təbii ki, iqtisadi məsələlər durur. Regionda sülhün bərqərar olması ilə Çin mallarının daha təhlükəsiz şəkildə Avropaya çatdırılması təmin oluna bilər. Çünki Azərbaycan və Ermənistan arasındakı növbəti müharibə digər ölkələr üçün, xüsusilə də regionda iqtisadi maraqları olan Çin üçün təsirsiz ötüşməyəcək.

## ƏDƏBİYYAT

1. Çin Xalq Respublikası / Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin saytı. URL: https://mfa.gov.az/az/category/asiya-ve-okeaniya/cin [29.04.2024].
2. Məmmədov N. Xarici siyasət: reallıqlar və gələcəyə baxış. Bakı, Qanun Nəşriyyatı, 2013, 264 s.
3. Talıbov R. Asiya ölkələri beynəlxalq münasibətlər sistemində. Bakı, Elm və Təhsil, 2021, 344 s.
4. Çin-Azərbaycan: Dostluq sərhədlər aşır. Bakı, Nurol, 2000, 151 s.
5. Official website of TRACECA. URL: https://traceca-org.org/en/home/baku-initiative-and-summit-1998/ [29.04.2024].
6. Çin Ermənistana niyə silah satıb? – Təhlil / Yeni sabah, 09 Oktyabr 2020. URL: https://yenisabah.az/cin-ermenistana-niye-silah-satib [29.04.2024].
7. Serbiya: "Biz Azərbaycana da, Ermənistana da silah satırıq", Serbiya silah ticarətinin çarpaz atəşi altına düşüb –Aleksandr Miladinovic, BBC News Serbcə xidməti, 11 Avqust 2020. URL: https://www.bbc.com/azeri/azerbaijan-53735907 [29.04.2024].
8. Azərbaycan Respublikasının BMT yanında daimi nümayəndəliyinin saytı / Ümumi məlumat, BMT və Azərbaycan. URL: https://un.mfa.gov.az/az/content/33/umumi-melumat [29.04.2024].
9. Cəfərli Ş. "Azərbaycan Çin əlaqələri" / Baku Research Center, 22 sentyabr 2020. URL: https://bakuresearchinstitute.org/azerbaijan-china-relations/ [29.04.2024].
10.Camalov E. "Bir kəmər, Bir yol region üçün əhəmiyyət daşıyan layihədir" / AZƏRTAC, 6 aprel 2019. URL: https://azertag.az/xeber/bir_kemer_bir_yol_region_uchun_boyuk_ehemiyyet_dasiyan_layihedir-1266512 [29.04.2024].
11. Nazir: "Çin Azərbaycanın mühüm ticarət tərəfdaşıdır". / Report İnformasiya Agentliyi, 26 mart 2024. URL: https://report.az/biznes-xeberleri/nazir-cin-azerbaycanin-muhum-ticaret-terefdasidir/ [29.04.2024].
12. Osmanlı S. "Şanxay Əməkdaşlıq Təşkilatı və Azərbaycanın iştirakı" // Qanun 06 (296), 2019, s.17-25.
13. Ermənistan Çin istehsalı olan AR1A raket komplekslərini alıb / APA, 19 avqust 2013. URL: https://apa.az/az/mdbolkeleri/xeber_ermenistan_cin_istehsali_olan_ar1a_raket_-310383 [29.04.2024].
14. Burak Çalışkan. Hazar Denizi, Enerji Havzasında Mücadele, Dünya Kriz Bölgeleri 16, İNSAMER, 2020, 60 s. URL: https://www.insamer.com/tr/uploads/pdf/kitap-hazar-denizi-enerji havzasinda-mucadele.pdf [29.04.2024].

15. İlham Əliyev xalqa müraciət edib / Azərbaycan Respublikası Prezidentinin saytı, 10 noyabr 2020. URL: https://president.az/az/articles/view/45924 [29.04.2024].
16. Qarabağda yenidənqurma işlərində hansı ölkələr iştirak edir?-SİYAHI / Bizim Media, 20 avqust 2021. URL: https://bizim.media/az/read/33518/ [29.04.2024].
17. Çin səfiri: "Çin şirkətləri Qarabağda aparılan bərpa-quruculuq işlərində fəal iştirak edirlər" / AZƏRTAC, 9 iyul 2021. URL: https://azertag.az/xeber/chinin_sefiri_chin_sirketleri_qarabagda_aparilan_berpa_quruculuq_islerinde_feal_istirak_edirler-1827465 [29.04.2024].
18. Çin Azərbaycan-Ermənistan münasibətlərinin normallaşması prosesindəki tərəqqini alqışlayır / AZƏRTAC, 25 aprel 2024. URL: https://azertag.az/xeber/chin_azerbaycan_ermenistan_munasibetlerinin_normallasmasi_prosesindeki_tereqqini_alqislayir-2976093 [29.04.2024].
19. Azərbaycan və Qazaxıstan prezidentləri Çindən Bakıya konteyner qatarının gəlişini videobağlantı ilə izləyiblər / APA, 11 mart 2024. URL: https://apa.az/resmi-xeber/azerbaycan-ve-qazaxistan-prezidentleri-cinden-bakiya-konteyner-qatarinin-gelisini-videobaglanti-ile-izleyibler-yenilenib-828332 [29.04.2024].
20. Мурат Байкал. Взаимное доверие – взаимная поддержка. Bakı, Qanun nəşriyyatı, 2019, 200s.
21. Yoska E. Ebulfez Elçibey`in Azerbaycan Özelinde Türk Dünyası Meselelerine Bakışı // Jounal of Universal History Studies, 3(Prof. Dr. Mustafa Keskin Special İssue), 216-237. Oktyabr 2020. URL: https://dergipark.org.tr/tr/pub/juhis/issue/57118/803032 [29.04.2024].

**ZAKA ALIYEV**
*SABAH groups of Baku State University*
*3rd year student majoring in history teaching*

## THE ROLE OF ECONOMIC FACTOR IN AZERBAIJAN- CHINA POLITICAL RELATIONS (END OF XX CENTURY - XXI CENTURY)

The Republic of Azerbaijan and the People's Republic of China have both strong political and economic relations. Despite China's rapid rise to become the world's second-largest economy in modern times, its economic influences have not bypassed our country. Especially, steps towards the revival of the historical Silk Road have further strengthened the economic ties between the countries. While acknowledging China's sensitive approach to the countries it establishes economic relations with, we can also observe the impact of these economic relations on the political relations between the two countries. When establishing political relations with Azerbaijan, a leader in both the economic and military-political fields in the South Caucasus, China takes all of this into account. Azerbaijan, in turn, contends with China's emergence as one of the leading powers in the new world order. Both countries approach territorial integrity with sensitivity and mutually recognize each other's territorial integrity and sovereignty. The article attempts to elucidate the influence of economic realities on the existing political relations between the two countries.

*Keywords*: Great Silk Road, Xi Jinping, Baku-Tbilisi-Kars railway, Zangezur corridor.

*Daxil olma tarixi*: 29.04.2024-cü il.
*Çapa imzalanma tarixi*: 10.05.2024-cü il.

**УДК 330; УДК 338**

**ЭЛЬВИН РУИНТАН**
*студент 2-го курса по специальности “Финансы”*
*Азербайджанского Государственного Экономического Университета*
**Kplus0022@outlook.com**
ORCID ID : 0009-0000-0456-0839

# ВЛИЯНИЕ СОВОКУПНОГО СПРОСА И СОВОКУПНОГО ПРЕДЛОЖЕНИЯ НА ЭКОНОМИКУ

*Научный руководитель:*
доктор философии по экономическим наукам Эльмира Годжаева

*Цикличное развитие экономики в настоящее время является основным показателем того что, экономическая активность соответствующая определенной точки экономической функции цикличности будет изменчивой. Следовательно, существуют очень много факторов определяющие уровень экономической активности, которые будут определять возможности экономики развиваться в долгосрочном периоде. Современная макроэкономическая теория имеет возможности прогнозировать дальнейшее развитие событий экономики в целом с помощью макроэкономических моделей, эти макроэкономические модели включают в себя множество совокупных величин, которые состоят из агрегированных переменных с целью обобщенного анализа экономической конъюнктуры. Самыми определяющими из этих величин являются совокупный спрос и совокупное предложение. Соответственно в этой статье мы будем рассматривать как изменения в экономике в целом повлияет на совокупный спрос и совокупное предложение, и как изменение этих величин в свою очередь повлияют на развитие экономики в краткосрочных и долгосрочных периодах.*

*Ключевые слова:* Совокупный спрос, Совокупное предложение, экономическая активность, реальный ВВП, процентная ставка, чистый экспорт.

***Введение.*** Как мы знаем уровень развитости того или иного государства будет зависеть от количества товаров и услуг, которые она в состоянии произвести, говоря простыми словами от производительности [4, с.37]. Это в свою очередь положительно повлияет на экономическую активность, тем что чем больше товаров и услуг будет производится тем в большем объеме рабочей силы будет нуждаться экономика чтобы обеспечить уровень экономической активности, вовлечения большего количества экономических субъектов в производственные процессы будет означать снижение проблемы безработицы, а так же увеличению показателя реального ВВП что приведет к повышению благосостояния каждого члена общества. Говоря о реальном ВВП, мы должны понимать, что этот показатель является совокупной величиной, которая нам показывает:

1) Измеряет стоимость всех конечных товаров и услуг, произведенных в течении рассматриваемого периода;

2) Так же измеряет совокупный доход, скорректированный на инфляцию.

Соответственно говоря о показателе реального ВВП, мы должны понимать, что этот показатель будет наиболее точно детерминировать зависимость двух определяющих величин, величины совокупного спроса и совокупного предложения.

В макроэкономической теории мы определяли спрос и предложение на определенных благодаря ценам, которые устанавливались на тот или иной товар, также говорили, что цена корректирует величину спроса и величину предложения что в свою очередь двигает кривые спроса и предложения к равновесному уровню. Следует учитывать, что макроэкономическая теория занимается изучением экономики в целом, и соответственно будет кооперировать совокупными величинами влияющие не на определенный ранок, а на все рынки, которые вовлечены в общую

экономическую систему. Рассмотрим более подробно кривую совокупного спроса и совокупного предложения на которых влияют различные показатели, которые необходимо учитывать при макроэкономическом анализе.

***Кривая совокупного спроса.*** Кривая совокупного спроса- показывает нам объем товаров и услуг, которые макроэкономический агенты (в частности, домашние хозяйства и фирмы) желали бы приобрести на каждом уровне цен. Так же величина совокупного спроса отображает сумму всех расходов на все конечные товары и услуги, произведенные в экономике [1, с.70]. Соответственно исходя из данного определения мы понимаем, что на величину совокупного спроса на макроэкономическом уровне будет влиять общий уровень цен в экономике. Кривая совокупного спроса имеет нисходящий характер по причине того, что величина совокупного спроса находится в обратно пропорциональной зависимости от общего уровня цен в экономике. Это объясняется тем, что снижения общего уровня цен приводит к увеличению ценности денег в следствии чего понижается ставка процента на деньги что в свою очередь снижает величину сбережений и направляет те свободные денежные средства населения на текущее потребления, что соответственно увеличивает спрос на товары и услуги по мере увеличения потребительских расходов. Соответственно увеличения общего уровня цен будет противоположно влиять на величину совокупного спроса, именно этим и объясняется что величина совокупного спроса и общего уровня цен находятся в обратной зависимости между собой.




*Источник:[5].*

На графике вы можете заметить зависимость между совокупным спросом и общим уровнем цен в экономике. Как указывалось ранее, снижение уровня цен приводит к увеличению потребительских расходов что соответственно увеличивает спрос, а это означает что величина спроса в результате увеличения будет двигаться на право, а если величина спроса уменьшится это будет двигать кривую на лево.

В макроэкономике модель совокупного спроса рассматривается исходя из основного макроэкономического тождества:

$$AD=C+I+G+Nx$$

Где:

AD- величина совокупного спроса: C-величина потребления: I- общий объем инвестиций: G- государственные закупки: Nx- чистый экспорт (разница между экспортом и импортом).

Как вы могли заметить величина совокупного спроса состоит именно из этих слагаемых, и соответственно изменение одного из них может и изменить величину совокупного спроса. Таким образом мы определили, что на величину совокупного спроса влияют основные компоненты основного макроэкономического тождества и увеличения одного, приведет к увеличению величины совокупного спроса в соответствии со снижением уровня цен, а в ином случае уменьшения одного из элементов соответственно приведет к обратному результату.

Теперь разберем каждый из этих элементов по отдельности, и рассмотрим, как же они могут повлиять на величину совокупного спроса.

1) *Изменение в величине потребления*:

Как мы отметили ранее величина потребления является одним из слагаемых основного макроэкономического тождества и ее изменение конечно же приведет к изменению величины совокупного спроса. Предположим, что в экономике произошло снижения общего уровня цен, соответственно ценность денег увеличилось и за каждую единицу денег, которые потребители имеют в кармане могу приобрести больше товаров и услуг чем раньше. В свою очередь это приведет к увеличению величины спроса на товары и услуги в следствии чего понизится ставка процента что поспособствует удешевлению кредита и уменьшению величины сбережений домашних хозяйств.

2) *Изменение величины инвестиций*:

Инвестиции наряду со сбережениями являются основным фактором экономического роста в долгосрочном периоде. Соответственно увеличение объемов сбережений приведет к ускоренному экономическому росту в следствии чего в производственном процессе будут внедряться новые инновационные технологии, которые будут ускорять, а также увеличивать объем производимой продукции. Теперь предположим, что в экономике произошло снижения уровня цен что привело к снижению ставки процента. В этом случае проценты по кредитам тоже будут уменьшаться, и это поспособствует к удешевлению кредита что сделает инвестиции более благоприятными и увеличит их объем.

*3) Государственные закупки:*

Объем государственных закупок по сравнению с остальными элементами макроэкономического тождества является белее стабильными, по причине того, что величина государственных закупок определяется внешне торговой и внешнеэкономической политикой государства. Таким образов, в случае спада экономики государство будет сокращать объем государственных закупок, а в случае подъема экономики будет увеличивать величину государственных закупок.

4) *Чистый экспорт:*

Чистый экспорт определяет передвижения товаров и услуг из страны в страну и по-другому называется торговый баланс или торговым сальдо. Конечно же при рассмотрении данного элемента макроэкономического тождества мы будет опираться на реальный обменный курс валюты страны. Увеличения предложения валюты той или иной страны на мировом рынке может привести к снижению обменного валютного курса страны. Это означает что за каждую единицу валюты данной страны будет попадаться меньшее количества единиц другой иностранной валюты. Соответственно иностранцы в результате импорта заметят, что надо платить больше единиц той стране, где низкий обменный курс валюты что в свою очередь будет увеличивать чистый экспорт той страны. Таким образом снижения обменного курса страны и экономический подъем за рубежом будут стимулировать чистый экспорт.

К неценовым факторам, которые влияют на величину совокупного спроса, относится те, что воздействует на потребительские расходы домашних хозяйств, инвестиционные расходы фирм, государственные расходы, чистый экспорт: благосостояние потребителей, их ожидания, налоги, процентные ставки, субсидии и льготные кредиты инвесторам, колебания валютных курсов, условия на внешних рынках и т.д. [1, с.72].

***Совокупное предложение***. Кривая совокупного предложения показывает нам – объем товаров и услуг, производимый фирмами на каждом уровне цен. Совокупное предложение, это общее количество конечных товаров и услуг, произведенных в экономике в денежном выраже-

нии [1, с.73]. Эта кривая имеет восходящий характер что соответственно будет сказываться в зависимости величины совокупного предложения и общим уровнем цен. Следует отметить, что кривая совокупного предложения рассматривается в зависимости от краткосрочности и долгосрочности периодов функционирования экономики. В долгосрочном периоде кривая совокупного предложения имеет вертикальный вид, так как величина совокупного предложения в долгосрочном периоде будет зависеть от предложения труда, капитала, и природных ресурсов.

На графике вы можете увидеть кривую совокупного предложения в долгосрочном периоде, в соответствии с изменением величины производства и общего уровня цен. В долгосрочном периоде количество предлагаемой продукции зависит от наличествующих в экономике объемов капитала и труда, а также технологии, позволяющей превращать вводимые ресурсы в готовую продукцию. Объем предложения не зависит от общего уровня цен, и долгосрочная кривая совокупного предложения вертикальна в точке естественного уровня производства.




*Источник: [4].*

В отличие от этого общий объем производства товаров и услуг в экономике ограничен количеством имеющегося в ней труда, капитала, природных ресурсов, а также доступными технологиями. Таким образом, когда все цены в экономике растут одновременно, не возникает изменений общего количества предлагаемых товаров и услуг, обусловленных относительными ценами, и поэтому стимулы не изменяются.

В соответствии с изменениями основных компонентов величины совокупного предложения это может отражаться и на ее кривой. Рассмотрим основные причины, вызывающие сдвиг кривой совокупного предложения.

1) *Изменение на рынке труда.*

Предположим, что в стране имеет место постоянный приток иммигрантов. Поскольку число рабочих рук в этом случае возрастает, то будет увеличиться и предложение товаров и услуг, а в результате происходит смещение кривой совокупного предложения в долгосрочном периоде вправо. Напротив, если работники будут эмигрировать из страны, то кривая совокупного предложения в долгосрочном периоде будет смещаться влево.

Положение кривой совокупного предложения в долгосрочном периоде зависит и от естественного уровня безработицы. То есть колебания последнего предопределяют флуктуации естественного объема производства и смещение совокупного предложения в долгосрочном периоде. Например, если правительство примет решение о существенном повышение минимальной заработной платы, естественный уровень безработицы повысится, а экономика произведет меньшее количество товаров и услуг. В результате кривая совокупного предложения в долгосрочном периоде сдвинется влево. Напротив, если реформа системы страхования по безработице будет стимулировать потерявших работу индивидов к активным поискам нового рабочего места, естест-

венный уровень безработицы будет снижаться, а кривая совокупного предложения в долгосрочном периоде – сдвигаться вправо.

2) *Изменение объема капитала.*

Резкое увеличение объемов капитала в экономике может положительно повлиять на уровень производительности, а также может привести к увеличению экономической активности как следствие увеличения производства труда.

3) *Изменение связанные с изменением количества природных ресурсов.*

Конечно же природные ресурсы такие как основные сырьевые и несырьевые материалы играют важнейшую роль в производственном процессе. Уменьшение объемов природных ресурсов может привести к сокращению производства что в свою очередь сдвинет кривую предложения на лево [5].

***Заключение.*** Шотландский экономист и основатель теории невидимой руки, а также некоторых моделей макроэкономики А. Смит отмечал равновесие важным компонентом экономического анализа, также как и в макроэкономике все изменения которые делаются в сторону увеличения или уменьшения объемов величины каких либо показателей все равно будет сводится к равновесию [2]. Таким образом, мы с вами проанализировали две основные совокупные величины макроэкономического анализа и исследовали факторы, влияющие на их величины. Эти две величины являются необходимы для проведения анализа на макроэкономическом уровне так как макроэкономический анализ опирается на агрегирование и абстрагирования от тех факторов, которые будут мешать в прогнозировании дальнейших экономических процессов. Эти величины влияют на национальный доход, уровень инфляции а также на экспортную позицию страны, поэтому их изучение очень важно для макроэкономического анализа [3]. Еще одна причина, по которой так важно изучать величину совокупного спроса и совокупного предложения это анализ экономических флуктуаций. Под флуктуациями понимается отклонение от какой-либо величины, которая развивается по определенным принципам и нормам. Экономические флуктуации не регулярны и колебания большинства макроэкономических величин синхронизировано в соответствии с цикличным развитием экономики.

ЛИТЕРАТУРА

1. Агапова Т.А., Серегина С.Ф. Макроэкономика: Учебник / Под обшей ред. д.э.н., проф. А.В. Сидоровича; МГУ им. М.В. Ломоносова. 6-е изд., стереотип. М.: Издательство «Дело и Сервис», 2004, 448 с.
2. Воронин А.Ю., Киршин И.А. Макроэкономика – 1. Учебное пособие. М., Изд-во: ИНФРА, 2015, 109 с.
3. Гусейнов Р.М., Семенихина В.А. Макроэкономика. Учебное пособие для бакалавров. М., Изд-во «Омега - Л», 2014, 255 с.
4. Мэнкью Н.Г. Принципы Экономикс. СПб., Питер Ком, 1999, 784 с.
5. Мэнкью Н.Г., Тейлор М. Макроэкономика. 2-ое издание. Учебное пособие для бакалавров. М., Изд-во «Питер», 2016, 560 с.

**ELVİN RUİNTƏN**
*Azərbaycan Dövlət İqtisad Universitetinin*
*"Maliyyə" ixtisası üzrə II kurs tələbəsi*

## MƏCMU TƏLƏB VƏ MƏCMU TƏKLİFİN İQTİSADİYYATA TƏSİRİ

İqtisadiyyatın tsiklik inkişafı hazırda iqtisadi tsiklik funksiyanın müəyyən nöqtəsinə uyğun gələn iqtisadi fəaliyyətin dəyişkən olacağının əsas göstəricisidir. Deməli, iqtisadi fəallığın səviyyəsini müəyyən edən bir çox amillər var ki, onlar da iqtisadiyyatın uzunmüddətli perspektivdə inkişaf qabiliyyətini müəyyən edəcək. Müasir makroiqtisadi nəzəriyyə, makroiqtisadi modellərdən istifadə edərək bütöv-

lükdə iqtisadiyyatda gələcək inkişafı proqnozlaşdırmaq qabiliyyətinə malikdir. Bu kəmiyyətlərdən ən çox müəyyən edən məcmu tələb və məcmu təklifdir. Müvafiq olaraq, hazırki məqalədə bütövlükdə iqtisadiyyatda baş verən dəyişikliklərin məcmu tələb və məcmu təklifə necə təsir etdiyi, bu kəmiyyətlərdəki dəyişikliklərin öz növbəsində qısa və uzunmüddətli perspektivdə iqtisadiyyatın inkişafına necə təsir etdiyi nəzərdən keçirilmişdir.

*Açar sözlər*: Məcmu tələb, Məcmu təklif, iqtisadi fəaliyyət, real ÜDM, faiz dərəcəsi, xalis ixrac.

**ELVIN RUINTAN**
*2nd year student majoring in Finance*
*of Azerbaijan State Economic University*

## THE IMPACT OF AGGREGATE DEMAND AND AGGREGATE SUPPLY ON THE ECONOMY

The cyclical development of the economy is currently the main indicator that economic activity corresponding to a certain point in the economic cyclical function will be changeable. Consequently, there are many factors that determine the level of economic activity, which will determine the ability of the economy to develop in the long term. Modern macroeconomic theory has the ability to predict further developments in the economy as a whole using macroeconomic models; these macroeconomic models include many aggregate values that consist of aggregated variables for the purpose of a general analysis of economic conditions. The most determining of these quantities are aggregate demand and aggregate supply. Accordingly, in this article we will consider how changes in the economy as a whole will affect aggregate demand and aggregate supply, and how changes in these quantities will, in turn, affect the development of the economy in the short and long term.

*Keywords*: Aggregate demand, Aggregate supply, economic activity, real GDP, interest rate, net exports.

*Daxil olma tarixi*: 30.04.2024-cü il.
*Çapa imzalanma tarixi*: 10.05.2024-cü il.

***Çapa hazırlayan:*** **Lamiyə Ruintən**

Çapa imzalanmışdır: 10.05.2024.
Kağız formatı: 60x84 1/16 Həcmi: 14,5 ç.v.
Sayı: 120 ədəd

"Elm və təhsil nəşriyyatı"nın mətbəəsində hazır pozitivlərdən çap olunmuşdur